AŞIQ DASTANLARI II cild

# AŞIQ DASTANLARI

## II cild

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

# AŞIQ DASTANLARI

## *II cild*

BAKI - 2024

Elmi məsləhətçi: ***Məhərrəm Qasımlı***
Azərbaycan Aşıqlar Birliyinin sədri,
Dövlət Mükafatı laureatı.

Hazırlayanlar: ***Məhərrəm Qasımlı***
Əməkdar elm xadimi, professor.

***Mahmud Allahmanlı***
filologiya elmləri doktoru, professor.

***Musa Nəbioğlu***
Əməkdar mədəniyyət işçisi.

***Altay Məmmədli***
filologiya üzrə fəlsəfə doktoru, dosent.

Redaktor: ***Aynur Xəlilova***
filologiya üzrə fəlsəfə doktoru, dosent.

**"AŞIQ DASTANLARI", II cild. "Zərdabi nəşr" MMC.**
**Bakı, 2024, 416 səh.**

***Azərbaycan Aşıqlar Birliyinin son illərdə həyata keçirdiyi uğurlu layihələrdən olan "Aşıq dastanları" antologiyasının 2-ci cildinə "Yetim Aydın", "Əsli və Kərəm", "İbrahimlə Aslan şah", "Qul Mahmud və Nigar xanım", "Məsum və Diləfruz", "Alı xan və Pəri", "Məhəmməd və Güləndam", "Nəcəf və Pərizad", "Şahzadə Əbülfəz", "Səyyad və Səadət", "Abdulla və Cahan", eləcə də "Aşıq Hüseyn və Reyhan xanım" dastanları daxildir. Bu dastanlar AAB-nin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının aparıcılığı ilə hər həftə "Mədəniyyət" kanalında AzTV və Azərbaycan Aşıqlar Birliyinin birgə layihəsi kimi efirə gedən "Saz-söz axşamı" verilişində geniş ictimaiyyətə təqdim olunub, sonra isə aşıqların dilindən yazıya alınaraq bu nəşrə daxil edilib. Birinci cilddə olduğu kimi, bu cildin hazırlanmasında da əsas məqsəd aşıq dastanlarının çağdaş aşıqların repertuarında geniş yer tutmasına çalışmaq, dastanlarımıza yeni həyat, yeni nəfəs gətirməkdir. Bu cilddə on iki dastan yer alıb.***

***Antologiya saz-söz ictimaiyyətinə, aşıqşünas, musiqişünas və folklor araşdırıcılarına dəyərli bir töhfədir.***

ISBN 978-9952-583-41–0

© ***Azərbaycan Aşıqlar Birliyi, 2024***

## YENİ NƏFƏSLİ AŞIQ DASTANLARI

***"Aşıq dastanları" çoxcildlik nəşrinin ikinci kitabı qarşınızdadır. Bir neçə ay bundan qabaq ərsəyə gələn birinci cildin təqdimatında da bildirmişdik ki, bu nəşrin əsas təkanverici səbəbi Azərbaycan Aşıqlar Birliyi və Azərbaycan Televiziyasının birgə layihəsi olan dastan axşamlarında otuzdan yuxarı aşıq dastanının hazırlanıb efirə verilməsi olmuşdur.***

***"Mədəniyyət" kanalında on beş ilə yaxın ekran həyatı görən "Musiqi xəzinəsi", "Saz-söz axşamı", indiki halda isə "Saz-söz məclisi" verilişlərində zaman-zaman dastanlara, dastan-rəvayətlərə, aşıq hekayətlərinə yer verilsə də, 2021-ci ildən başlayaraq dastanlara müraciətin miqyası daha geniş şəbəkəyə çıxarılımışdır. Son üç-dörd il ərzində xeyli sayda klassik dastan hazırda yaşayan ustad aşıqların və yeni nəsil saz-söz ifaçılarının repertuarından yazıya alınaraq teatral şəkildə canlandırılmış və tamaşaçıların diqqətinə çatdırılmışdır.***

***Azərbaycan televiziyası və Aşıqlar Birliyinin birgə səyi nəticəsində həmin dastanlar video arxivdən yazıya köçürülərək sistemləşdirilmiş və gördüyünüz çoxcildilik "Aşıq dastanları" antologiyası halına gətirilmişdir. Yeri gəlmişkən, ayrıca vurğulamaq istərdik ki, təqdim olunan bu antologiyadakı dastanların əvvəlki dastan nəşrlərindən bir çox ciddi fərqi mövcuddur. Aydınlıq üçün həmin fərqlərin diqqətə çatdırılması zəruridir:***

***– buradakı dastanlar canlı ifadan yazıya alınmışdır;***

***– onların audio və video variantları mövcuddur;***

***– sovet dövründə gedən ixtisar və müdaxilələrə yol verilməmişdir;***

***– sufi-dərviş simvolikası, eləcə də dini-ürfani obraz və deyimlərə toxunulmamışdır;***

***– söyləyicilər barədə dolğun pasport bilgiləri verilmişdir;***

***– xalq koloriti və aşıq leksikonunun əsas səciyyəsi qorunmuşdur;***

***– dastanların strukturu olduğu kimi saxlanılmışdır.***

***Bu keyfiyyətlər aşıq dastanlarının çağdaş səciyyəsini təqdim etmək və tanıtmaq üçün vacib cəhətlərdir. Sözügedən mətnlər aşıq dastan-***

***larının həm tarixi, həm də çağdaş mənzərəsini ortaya çıxarmaq və gələcəyə daşımaq imkanları baxımından olduqca vacib və gərəkli bir qaynaqdır.***

***Birinci cilddə olduğu kimi, ikinci cilddə də çox maraqlı və yaddaqalan epik mətnlər yer alır. "Yetim Aydın" Dərbənd çevrəsinə məxsus tarixi bir dastandır. Bu dastan aşıq və dastan anlayışının dərin fəlsəfi məzmunu ilə bağlıdır. Burada Azərbaycan tarixi coğrafiyasının unudulmaz bir mənzərəsi əks olunmuşdur. Dəmirqapı Dərbənddən Təbrizə, oradan isə İrəvana uzanan aşıq hərəkətinin trayektoriyası həm də böyük və nəhəng bir vətən coğrafiyasından xəbər verir. Bu anlamda həmin dastan dünəni bu günə və sabaha çağıran – bağlayan epik yaddaş kimi də olduqca əhəmiyyətlidir.***

***"Əsli və Kərəm" dastanı da cildin əsas örnəkləri arasında yer alır. Bu dastan ozan-aşıq mədəniyyətinin unudulmaz və unikal tarixi yaddaş müstəvisidir. Burada alban xaçpərəst və oğuz-islam münasibətlərinin tarixi-tragik məqamları ilə yanaşı, sevgi-məhəbbət duyğularının, sədaqət hissinin heç bir sədd-sərhəd tanımaması ön planda saxlanılır. Alban xaçpərəsti olan Qara Məliyin iki aşiq-məşuqa – Əsli və Kərəmə, onların bənzərsiz lirik-romantik məhəbbətinə dinə təəsübkeşliklə mane olması, müqavimət göstərməsi qınaq obyektinə çevrilir.***

***Qeyd etmək lazımdır ki, indiyə qədər Qara Məlik və onun qızı Əslinin erməni sayılması yanlış bir mövqedir. Bu epik mətnin qazax folklorundakı məşhur bir dastan mətni ilə – "Kozı Körpəş və Bayan Sulu" epik sistemi ilə bağlılığı və yaxından səslənməsi onun daha arxaik bir türk folklor örnəyi olmasından xəbər verir. Əslinin "Bayan Sulu", Kərəmin isə "Körpəş" obrazına bənzərliyi hər iki qəhrəman tipinin eyni etnik mənşəyə malik olmasını göstərir. Fərq ancaq və ancaq dini ayrılıqla bağlıdır. Dastanın tragik sonluğu da bu dini qarşıdurmadan doğmuşdur.***

***Deməliyik ki, "Əsli və Kərəm" dastanı poetik və mifoloji zənginlik baxımından "Dədə Qorqud" boyları ilə də çox yaxın bir doğmalığa sahibdir.***

***İkinci cilddə yer alan digər örnəklərdə – "İbrahim və Aslan şah",***

***“Şahzadə Əbülfəz”, “Qul Mahmud və Nigar xanım”, “Məsum və Diləfruz”, “Alı xan və Pəri”, “Məhəmməd və Güləndam”, “Nəcəf və Pərizad”, “Səyyad və Səadət”, “Abdulla və Cahan”, eləcə də “Aşıq Hüseyn və Reyhan xanım” dastanlarındakı diqqətçəkici tarixi-mədəni qatlar olduqca çoxdur. Bu dəyərləri qorumaq və qiymətləndirmək hər birimizin borcudur.***

***Məhərrəm Qasımlı***
***Azərbaycan Aşıqlar Birliyinin sədri,***
***Əməkdar elm xadimi, professor.***

## YETİM AYDIN

Ustadlar dastana başlamazdan əvvəl ustadnamə deyərlər, biz də deyək bir olsun, ustad sözü pir olsun:

***Könül, qulluq eylə kamil ustada,***
***Ustad görməyənin işi xam qaldı.***
***Neçə danəndələr getdi dünyadan,***
***Yerində bir neçə ağlıkəm qaldı.***

***Nanəcib heç kimə ənam eyləməz,***
***Təkəbbür kimsəyə salam eyləməz,***
***İnsan bu dünyanı tamam eyləməz,***
***Çoxları cəhd etdi, natamam qaldı.***

***Köhlən at üstündə durdum deyənlər,***
***Asdım, kəsdim, yıxdım, vurdum deyənlər,***
***Dünyaya əmlakım, yurdum deyənlər,***
***Onlar da köçdülər, quru dam qaldı.***

***Bivəfaya dedim, dur məndən üzül,***
***Müxənnətə baxma, gözlərim, süzül,***
***Nuh da ömr eylədi min doqquz yüz il,***
***Elə bil bir gündüz, bir axşam qaldı.***

***Qul Allahquluyam, ay nəsib eylə,***
***Şəcərdən bac verib, ay nəsib eylə,***
***İsgəndər mülküdür, aynası belə,***
***Nə Cəmşid padişah, nə də Cam qaldı.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, yağıların gözü tökülsün:

***Bir elə kişinin tut ətəyindən,***
***Aləmə imdadı ol eylər-eylər.***
***Zərrəcə üstündə olsa nəzəri,***
***Yerdən daş götürsən, ləl eylər-eylər.***

***Böhtan demə, böhtan tutar adamı,***
***Qul eylər, bazarda satar adamı.***
***Cəhənnəm odundan betər adamı,***
***Yandırıb-yandırıb, kül eylər-eylər.***

***Aqil insan deməz hər gördüyünü,***
***Daldalar düşməndən vay dərdiyini,***
***Görməzsən namərdin pay verdiyini,***
***Versə də minnətin bol eylər-eylər.***

***Xəstə Qasım deyər sözün bu başdan,***
***Pay umma bir kəsdən, qohum-qardaşdan.***
***Özün zəhmət çəksən, su çıxar daşdan,***
***Əridib dağları yol eylər-eylər.***

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, düşmənlərin ömrü puç olsun:

***Adəm oğlu, yol-ərkanı tanı, bil,***
***Yol-ərkan bilənin yeri dar olmaz.***
***Sirrini söyləmə qamu-aləmə,***
***Bivəfa dilbərdən sənə yar olmaz.***

***İgid odu, tənə oxun atmaya,***
***Halal mayasına haram qatmaya.***
***Bir oğul ki, ata sözün tutmaya,***
***O oğulda qeyrət, namus, ar olmaz.***

***Öz sürümdən qurban verim, deyəsən,***
***Öz yunundan şal toxuyub, geyəsən,***
***Bəslədiyin bağın barın yeyəsən,***
***Yad bağından sənə heyva, nar olmaz.***

***Dəllək Murad, çəkmə bir bunca qəmi,***
***Burda duran olmaz, gedərlər hamı.***
***Fələk biçinçidi, bu dünya zəmi,***
***Biçilən zəmidə mürğüzar olmaz.***

Bəli, mənim əzizlərim, sizə haradan xəbər verim, kimdən deyim, Dərbənd mahalında Yetim Aydından. Yetim Aydın çox kiçik yaşlarında ata-anasını itirmişdi. Nənəsi onun yolunda çox əzab-əziyyət çəkdi. Gəlib 14-15 yaşına yetişdi Aydın. Nənəsi çox fikirləşdi, düşünüb-daşındı, elin-obanın ağsaqqallarını, qarasaqqal-larını bir araya yığıb, xahiş elədi ki, bu yetimə bir iş tapşırsınlar ki, evə bir tikə çörək gətirə bilsin. Elin-obanın ağsaqqallarının məsləhəti ilə Aydını kəndin mal-heyvanını otarmağa göndərdilər ki, işləsin, ayın sonunda da muzdunu alsın. Belə də oldu. Aydın bir neçə ay işlədi. Bir gün naxırdan gəlirdi. Kəndə yaxınlaşanda, gördü elə bir səs gəlir, elə bir həzin səs gəlir ki, heç olmayan kimi. Qulaq yetirdi və düşündü ki, ilahi pərvərdigar, bu nə ecazkar səsdi. Bu səs Aydını alıb-aparır bu dünyadan.

Beləcə heyvan yaddan çıxır, hərəsi gedir öz sahibinin qapısına. Aydın isə üz qoyur səs gələn tərəfə. Gəlhagəl, gəlib görür ki, kəndin qırağında iki aşıq oxuyur. Camaat yığılıb, aşıqlara dövran yığırlar. Aşıqlar bülbül kimi cəh-cəh vururlar. Aydına bu sənət olduqca xoş gəlir. Gözləyir, məclis tamamlananda aşığın birinin sazını götürür, xahiş eləyir ki, bizə qonaq gedək.

Aşıqlar bu bölgənin aşıqları deyildi. Qərib-qürbət aşıqlardan idilər. Bunlara da elə qalmağa bir yer lazım idi. Aydınla gəldilər, gördülər ki, bir kasıb ailədir. Nənəsi ilə özüdür. Aydın dedi:

– Nənə, evimizə qonaq gəlib.

Nənəsi dedi:

– Qonağa da qurban olum, qonağı yetirən Allaha da.

Evdə azdan-çoxdan nələri var idi, rüzidən, nemətdən, gətirib qonaqlara süfrə açdı. Qonaqlar yedilər-içdilər, bir qədər də Aydın üçün, Aydının nənəsi üçün çalıb-oxuduqdan sonra yatdılar.

Səhər tezdən nənəsi səsləndi ki:

– Ay Aydın, dur, işə getməlisən.

Aydın dedi:

– Yox, nənə, mənə iş lazım deyil. Mən bu sənəti öyrənməliyəm.

– Ay bala, etmə-eləmə. Ayın axırına iki gün qalıb. Sən axı, işlədiyin ayın haqqını almalısan ayın axırında.

– Yox, nənə. Mənə iş də lazım deyil, pul da lazım deyil. Bu sənəti öyrənsəm mənə bəsdir.

Aşıqlar yuxudan oyandılar. Aydın aşıqlardan əl çəkmir ki, mən sizə şəyird olmaq istəyirəm.

Aşıqlardan biri dedi:

– A bala, aşıqlıq sənə asan gəlməsin. Bu, elə-belə iş deyil. Bunun minbir əzab-əziyyəti var.

Aydın dedi:

– Nə qədər əzab-əziyyəti olsa da, öyrənəcəm. Sizi də ana doğub, məni də. Necə, siz öyrənə bildiyinizi, mən öyrənə bilməyəcəm?

Aşıqlar gördülər, yox, alınası deyil, dedilər:

– Yaxşı, onda şərtimiz var. Gəl, sən bizim yanımızda ol, əşyalarımızı, sazımızı daşıyarsan. Baxarsan, sənəti  də öyrənə bilsən, nə yaxşı.

Belə də oldu. Yola hazırlaşırdılar, nənəsi fikirləşdi ki, axı, bu uşaq gedib yolda, çöldə acından öləcək. Axşamdan əl parçası boyda çörək qalmışdı. Çörəyin yanına qoymağa heç nə yoxuydu. Gedib bağdan baldırğan özəyi qırdı bir dənə. Qoydu onu da Aydının heyvəsinə, yola saldı bunları.

Aydın görkəmsiz, başı keçəl, çirkin bir uşaq idi. Bir qədər getdilər, aşıqlar fikirləşdi ki, “bundan aşıqmı olar? Bunu kim məclisə çağırar? Kim məclisə aparar? Gəl, bunu bir yolla başımızdan rədd eləyək”. Bir qədər getmişdilər, dedilər:

– Aydın, o dağı görürsən?

– Bəli, görürəm.

– İndi bizim şərtimiz var. Sən bu sənəti öyrənmək üçün, gedib o

dağdan bizə qar gətirməlisən, Şahdağından. Əgər sən gedib qarı gətirə bilsən, biz görəciyik ki, sən həqiqətən bu sənətin yolunda hər zəhmətə qatlanmağa hazırsan.

– Gedib gətirərəm.

Onu da deyim ki, aşıqların birinin adı Urfan idi, o birinin də adı Qurfan, iki qardaş idilər. Aydın bunlarla sağollaşıb üz qoydu Şahdağına. Get ki, gedəsən, az getdi, çox getdi, yoruldu. Yayın istisidir, oturdu bir ağacın kölgəsində. Dedi: "Bir az nəfəsimi dərim, sonra gedərəm". İstədi, çörəklə baldırğanı yesin, amma nənəsi tapşırmışdı ki: "Bala, acsan, baldırğan bala dönübsə ye, dönməsə, yemə qətiyyən". Açdı, baxıb gördü, hələ bala dönməyib. Baldırğan elə baldırğandır.

Nənəsi o niyyətlə demişdi ki, acsa, tez yeyəcək, bir də əli çörəyə çatana qədər acıb əziyyət çəkəcək. Qoy, nə qədər bacarsa, dözsün, gec yesin. Əli çörəyə çatana qədər dözə bilsin. Fikirləşdi ki, durum yola rəvan olum. Elə yerindən durmuşdu, gördü bu tərəfdən bir ağ atlı dərviş gəldi. Salam-əleykisalamdan sonra dərviş soruşdu:

– Bala, sən burda tək-tənha nə gəzirsən, hara gedirsən?

– Baba, mən Şahdağına gedirəm.

– Oğul, Şahdağı hara, bura hara. Sən payi-piyada bir aya gedib çıxarsan o dağa. Mən də Şahdağına gedirəm, istəyirsən, min atımın tərkinə, mənlə gedək.

– Yaxşı olar, baba.

– Onda əlini ver mənə, gözünü yum.

Aydın əlini verdi dərvişin əlinə, atın tərkinə mindi, gözünü yumdu.

Bir qədərdən sonra dərviş dedi:

– Bala, gözünü aç.

Gözünü açanda gördü, Şahdağındadır. Hər tərəf qardı. Dərviş dedi:

– Bala, bax, bu da Şahdağı. Düş, aç dəsmalını, nə qədər qar yığırsan, yığ.

Aydın düşdü atdan, qardan yediyi qədər yedi. İstidən gəlmişdi, sinəsi yanırdı. Yığdı dəsmalının arasına. Bağladı üz qoydu, gəldiyi istiqamətə. Bir də gördü atlı yenə peyda oldu.

– Bala, hara gedirsən?

– Baba, elə gəldiyim yerə gedirəm.

– Min atın tərkinə.

Mindi atın tərkinə.

– Əlini ver mənə, gözünü yum.

Aydın gözünü yumdu, bir qədər sonra dərviş dedi:

– Bala, gözünü aç.

Gözünü açanda gördü, həmin ulğun ağacının yanındadır.

– Bala, səni haradan götürmüşdüm, ora da gətirdim. Allah işlərini avand eləsin, sənə yaxşı yol.

Aydın atdan düşdü, amma acından artıq təngə-zara gəlmişdi. Gördü bundan artıq dözəsi deyil. Açdı çörəyi, gördü hələ baldırğan bala, filana dönməyib, elə baldırğandır ki, baldırğan. Öz-özünə dedi:

– Bu, bala dönənə kimi, mən acından öləcəm. Gəl, elə bunu bala döndü-dönmədi, ye.

Götürdü baldırğanın özəyini soydu, duz səpdi üstünə, nənəsi duz qoymuşdu, çörəklə yedi. Ac adama bütün nemətlər bal dadar. Yedi və başa düşdü ki, baldırğanın bala dönməyi bu imiş.

Biz tərəflərdə bir məsəl də var: "Baldırğan bala dönüb". O, elə həmin yerdən qalıb. Yedi, qarnı doyan kimi buna bir yuxu gəldi ki, gəl görəsən. Əlindəki qarı ulğun ağacının budağından asdı. Uzandı yuxu bunu apardı. Elə bir yuxuya getdi ki, elə bil min ilin ölüsüdür. Bir də gördü yuxuda, aləmi-röyada həmin ağ atlı dərviş budur, gəldi, əlində bir cam. Dedi:

– Oğul, al bu camı.

– Yox, baba, bu, bizə haramdır.

– Bala, bu badə sən deyən badələrdən deyil. Bu, sənin taleyinə buta verilir. Al, nuş elə.

Aydın götürüb badəni nuş elədi. Dedi:

– Sinəm alışıb yanır.

– Bax gör, nə görürsən.

– Bir bağ-bağça görürəm, uzaq diyardır.

– Bəli, bura İrəvan şəhəridir, İrəvan mahalıdır. Eyni badədən İrəvanda İbrahim bəyin qızı Pərzad xanıma da vermişəm. Səni ona, onu da sənə buta verirəm. Həm də sənə, öyrənmək istədiyin aşıq sənətini verirəm, eyni zamanda sən bundan sonra Qurani-Hafizsən.

Dərviş bir göz qırpımında yox oldu. Yayın istisi idi, dəsmalda qar

yavaş-yavaş əriyirdi. Bir damcı qarın suyundan düşdü Aydının alnına, gözünü açdı. Gözünü açıb gördü, nə dərviş var, nə heç nə. Amma buna elə bir gümrahlıq gəlib, elə bir hallar gəlib ki, saz istəyir, söz istəyir, oxumaq istəyir. Durub, öz-özünə dedi, düşüm aşağı, bir əl-üzümü yuyum, su içim. Dərədə bulaq var idi. Yaxınlaşıb əyildi bulaqdan su içməyə, nə gördü: əvvəlki Aydından əsər-əlamət qalmayıb. Üzünə nur gəlib. Saçı gəlib başına. Əvvəlki keçəllikdən əsər-əlamət yox idi. Sudan içdi, öz əksindən ayrıla bilmirdi. Hələ belə gözəl insan görməyib həyatda. Amma fikirləşdi, yox, aşıqların arxasıyca çatmalıyam. Durub dəsmalı götürdü ağacdan, yola rəvan oldu. Get ki, gedəsən, aşıqlar yoxdu ki, yoxdu. Bir də gördü həmin ağ-atlı dərviş yenə gəldi.

– Bala, sən hara gedirsən?

– Mənim yoldaşlarım var, aşıq Urfan ilə aşıq Qurfan, mən onlara çatmalıyam.

– Bala, bəs sən bayaq dedin ki, məni götürdüyün yerə qoy.

– Yox, burdan da o tərəfə getməliyəm. Mən bilmədim ki, onlar məni burda qoyub gedəcəklər.

– Əlini ver mənə, min atın tərkinə.

Az sonra dərviş dedi:

– Gözünü aç.

Aydın baxdı gördü, Urfan ilə Qurfan gedirlər. Səsləndi, məni gözləyin. Gördülər Aydının səsidir, döndülər baxdılar ki, ilahi pərvərdigar, nə Aydın? Səs Aydının səsidir, amma elə bir yarlı-yaraşıqlı, boylu-buxunlu, belə bir cavan-gənc gəlir ki, heç Aydına oxşamır. Amma əlində qar var. Qardan bildilər ki, burda nəsə bir sirr var, bu, Aydının özüdür.

Aydın gətirdiyi qarı onlara verdi. Qardan hərəsi bir qədər yedilər, sonra Aydın dedi:

– İndi biriniz sazınızı mənə verin, sizin üçün bir neçə xanə söz oxuyum.

Dedilər:

– A bala, sən bu günə qədər bizdən saz öyrənmək istəyirdin, aşıqlıq öyrənmək istəyirdin, indi sən bizdən sazmı istəyirsən? Sən nə bilirsən saz nə olan şeydir?

– Siz sazı mənə verin, sonrasıyla işiniz yoxdur.
Götürdü görək burda bir "Dərvişi" havası üstündə nə dedi:

***Yatmış idim, bir duş gördüm, ağalar,***
***Duşumda Həzrəti-Əlini gördüm.***
***Zülfüqar əlində, Düldül belində,***
***Qabağında Qəmbər qulunu gördüm.***

***Düldülü var onun peyman içində,***
***Hüsnü nur içində, nişan içində.***
***Pürkamal, pürcamal imam içində,***
***Ağamın şəriət yolunu gördüm.***

***Gəzib, Yetim Aydın dolanır miskin,***
***Uca dağlar başı çən, dolu, çiskin,***
***Cümlə məxluqatdan kəlamı kəskin,***
***Şahlar şahı ağam Əlini gördüm.***

Bəli, söz tamama yetdi. Aydın saznan dediyi kimi, söznən də dedi.
Aşıqlar bunun çal-çağır bacarığına, söz düzüb-qoşmaq hünərinə heyran qalıb, mat-mat baxırdılar. İşdən başlı-bütünlü halı olmaqdan ötəri bir də dedilər:
– Oğul, daha nə gördün?
– Tələsmə, usta, hamısını qulluğunuza ərz eləyəcəyəm.
Götürüb, görək indi nə dedi:

***Ay ağalar, Tur dağına varanda,***
***Şahlar şahı Həzrət Əlini gördüm.***
***Zülfüqar hökmüylə qılınc vuranda,***
***Düldülün curatın, nalını gördüm.***

***Ay ağalar, təəccüb qaldım bi işə,***
***Fələyin yazdığı gəlibdi başa.***
***Günorta vaxtında girib savaşa,***
***Allahın aslanı Əlini gördüm.***

***Aydın deyir, getmə, qəriblik yerə,***
***Cəmi mətləbini Mövladan dilə.***
***Naşı bülbül, mayıl olma hər gülə,***
***Yarın dal gərdanda telini gördüm.***

Yetim Aydının sözlərinin şəhdi-şəkərinə hayıl-mayıl olan aşıqlar onu özləriylə aparmaq qərarına gəldilər. Bir az gedəndən sonra dedilər:

– Oğul, mənzilə yetməyimizə çox qalıb. Sən, gəl, yola nərdivan qoy, tez çataq.

Aydın bildi ki, onlar "nərdivan" deyəndə söz ixtilat eləməyi nəzərdə tutublar. Ona görə də təzədən aşıq Urfandan sazı alıb bağrına basdı:

***Yatmış idim ulğun kolu dibində,***
***Qafil, nə yatmısan, oyan, – dedilər.***
***Düldülün əyəsi, Qəmbər ağası,***
***Dur, gəlibdi Şahı-mərdan, – dedilər.***

***Oyandım qəflətdən, açdım gözümü,***
***Ərənlər payinə sürtdüm üzümü.***
***Dindirəndə Haqq söylədim sözümü,***
***Doxsan min kəlməni bəyan dedilər.***

***Yetim Aydın çıxdı qar sevdasına,***
***Ərənlər səri, Haqq Mövlasına.***
***Əli suvaq verdi könlün pasına,***
***Urfandan, Qurfandan öyrən dedilər.***

Beləcə, söz deyə-deyə, ixtilat eləyə-eləyə gəlib yetdilər mənzil başına. Bir az dincəlib yol yorğunluqlarını çıxarandan sonra yollandılar şəhərin ortasındakı uçara. Gəlib gördülər ki, ortalıqda boylu-buxunlu bir aşıq dayanıb dörd dövrəsinə meydan oxuyur. Yanında da otuz-qırx saz var. Soruşub öyrəndilər ki, bu aşığın adı Dədə Gözlüdü. İndiyə kimi meydana nə qədər aşıq gəlibsə, hamısını bağlayıb, sazlarını da əlindən alıb. Yanına düzdüyü də həmən aşıqların sazlarıdı. Aşıq Urfanla Qurfan

Aydına dedilər:

– Oğul, sən get atlarımıza göz ol, biz indi onun dərsini verək.

Yetim Aydın bir söz deməyib, getdi atların yanına. Çox gözlədi, az gözlədi, gördü, ustaları gəlib çıxmır. Axırda durub gəldi meydana. Baxdı ki, Dədə Gözlü aşıq Urfanı da, Qurfanı da bağlayıb, sazlarını da əllərindən alıb. İrəli yeriyib dedi:

– Dədə Gözlü, mən də aşığam. Gəl, indi mənimlə deyiş.

Dədə Gözlü güldü:

– A bala, heç sənin sazın da yoxdu, hardan oldun aşıq?

– Yoxumdu, indi alaram.

– Yaman yelli-yelli danışırsan. Eləysə, cavab ver görək.

Dədə Gözlü belə deyib də, sazını götürdü, "Gəraylı" havası üstündə görək nə dedi:

***Göydən enib doqquz nəsdə,***
***Söylə görüm, səri nədi?***
***Dörd dilli, beş nisbət,***
***Söylə görüm, pəri nədi?***

Yetim Aydına Tanrı vergisi verilmişdi, o səbəbdən də heç çətinə düşmədən cavabını verdi:

***Sən deyirsən doqquz nəsdə,***
***Onun səri fəraildi.***
***Dördü kəlam, beşi nisbət,***
***Gətirəni Cəbraildi.***

Dədə Gözlü baxdı ki, bu baxəbər adama oxşayır. Sorğu-sualı bir az da dərinləşdirdi:

***Bir məscid var, ol ərşdədi,***
***Söylə görüm, nə gürşdədi?***
***Binəsin bil, adın söylə,***
***Nə nigar, nə naxışdadı.***

Yetim Aydın cavabında:

***Ol məscid ki, sən deyirsən,***
***Yeddi bürcdən yuxarıdı.***
***Binəsi nur, adı Əqsa,***
***Qələm nigar naxışdadı.***

Dədə Gözlü:

***Bir anadan bir qız olsa,***
***Atasına nigah qılsa,***
***Gözlü deyər, bəyan olsa,***
***Əri kimdi, pəri kimdi?***

Yetim Aydın cavabında:

***Aydın deyər, yandı canım,***
***Eşq oduna bələndi qanım.***
***Adəm ata ol Həvvanın,***
***Həm əridi, həm pəridi.***

Dədə Gözlü:

– Ustadına bərəkallah, oğul, – dedi, sənin kamalına söz yoxdu. Bu aşıqları da sənə bağışladım, götür get.

Yetim Aydın gördü, bu Dədə Gözlü başda-bilikdə o biri aşıqlara bənzəmir. Öz-özünə fikirləşdi ki, gəlsənə, bir sorğu-sual da mən başlayım. Axırı nə olar, olar. Bu fikirlə də üz tutdu Dədə Gözlüyə:

– Ustad, sən sual elədin, mən də cavabını verdim. Aşıqlığın qaydası belədi ki, indi növbə mənimdi. İzin versən, iki-üç kəlmə də mən soruşaram.

Dədə Gözlü özündən arxayın idi, dedi:

– Buyur, neçə kəlmə xətrindi, soruş.

Götürüb görək burda Yetim Aydın "Dubeyti" havası üstündə nəyi soruşdu, necə soruşdu:

***Yer altında qızıl öküz,***
***Söylə, neçə yaşındadı?***
***Qulaq qırpır, yer titrədir,***
***Nə güc onun başındadır?***

Dədə Gözlü döyükə-döyükə qaldı. Cavab almayanda, Aydın dübarə soruşdu:

***Kimi ağa, kimi nökər,***
***Nökər olan hicran çəkər.***
***Bir milçəkdən qorxu çəkər,***
***Milçək hansı tuşundadı?***

Yenə bir səs-soraq çıxmadı. Aydın sözün arxasını belə tamamladı:

***Yetim Aydın deyir bunu,***
***Dağlardan qalındı gönü.***
***Tutub cütə qoşun onu,***
***Ləzzət çütün xışındadı.***

Dədə Gözlü Yetim Aydının suallarından heç birinə cavab verə bilməyib dedi:

– Aydın, sənin bu sözlərinin cavabını ancaq və ancaq, olsa-olsa, bizim ustadımız Təbriz mahalında yaşayan Dədə Qürbət verə bilər.

Yol aldılar Təbriz mahalına. Gəlhagəl, gəlib Dədə Qürbətin evini tapıb, qapısını döydülər.

– Ustad, bu gənc aşıq bizə bir bağlama dedi, biz ona cavab verə bilmədik. Gəldik ki, bəlkə, onun cavabını siz verə biləsiniz.

Dədə Qürbət dedi:

– Birinci, hələ mən onu sınağa çəkməliyəm.

Götürdü görək Dədə Qürbət bir "Qəhrəmanı" havası üstündə nə dedi:

***Ol nə şeydir, alçaqlardan axayi?***
***Ol nə şeydir, yerdən göyə baxayi?***
***Ol nə şeydir, nərdivandan ənəyi?***
***Ol nə şeydir, nərdivandan çıxır hey.***

Aydın cavabında:

***Ol sudur ki, alçaqlardan axayi,***
***Ol məhsuldur, yerdən göyə baxayi.***
***Ol qacadır, nərdivandan ənəyi,***
***Ol cahildir, nərdivandan çıxır hey.***

Dədə Qürbət, – əhsən, – deyib, dübarə soruşdu:

***Ol nə şeydir, göydən yerə sallanır?***
***Ol nə şeydir, hər nə versən, allanır?***
***Ol nə şeydir, dalısından dallanır?***
***Ol nə şeydir, əldən-ələ gəzər hey.***

Aydın götürüb belə cavab verdi:

***Ol yağışdır, göydən yerə sallanır,***
***Ol uşaqdır, hər nə versən, allanır,***
***Abbasıdır, dalısından dallanır,***
***Ol sevdadır, əldən-ələ gəzər hey.***

Dədə Qürbət sualın bir düzümünü də düzdü:

***Ol nə dağdır, onu lalə bürüməz?***
***Ol nə dağdır, yaz-qış qarı ərimməz?***
***Ol kim idi, ölməz, itməz, qarımaz?***
***Ol kim idi, qədəriyə gəzər hey.***

Aldı Yetim cavabında:

***Tur dağıdır, onu lalə bürüməz,***
***Şahdağıdır, yaz-qış qarı əriməz,***
***Bir Allahdır, ölməz, itməz, qarımaz,***
***Mikayıldır, qədəriyə gəzər hey.***

Dədə Qürbət əlacsız qalıb, sözü tamamlamaq qərarına gəldi:

***Qürbət deyir, kim gəzədür havada,***
***Ol nə şeydir, dildə, dişdə, duvada?***
***Ol nə şeydir, yalqız yatar yuvada?***
***Ol nə şeydir, ona tövbə qılallar?***

Yetim Aydın cavabında dedi:

***Aydın deyər, – mən gəzirəm havada,***
***Bismillahdı dildə, dişdə, duvada.***
***Can quşudur, yalqız yatar yuvada,***
***Əzrayıldı, ona tövbə qılallar.***

Aydının hazırcavablığı Dədə Qürbətin xoşuna gəldi.

– Hə, oğul, səni şəyirdliyə götürürəm.

Şəyirdlik bəhanəydi, Aydın Dədə Qürbəti sınağa çəkməyə gəlmişdi. Odur ki, bir balaca qımışıb dedi:

– Usta, cavab verməyim kimi, sual vermək bacarığım da var. İzin versən, beş-altı sual da mən verərəm.

Dədə Qürbət çar-naçar razı oldu. Götürüb burda Yetim Aydın kamalı-ədəbnən görək ondan nəyi soruşdu:

***Məndən salam olsun Dədə Qürbətə,***
***Bəydən Bəydullaha nə demək gərək?***
***Oxuyanda kərəmullah surəsin,***
***Haqqın birliyinə nə demək gərək?***

Dədə Qürbət çox sorğulara düşüb çıxmışdı, yeddibaşlı sualların, qıfılbəndlərin cavabını tapmışdı, amma hələ beləsinə tuş gəlməmişdi, ha fikirləşdisə, cavabı bir yana çıxara bilmədi. Aydın onun döyüküb qaldığını görüb, sualın arxasını gətirdi:

***Bu dünyada oynamasan, gülməsən,***
***Orucunu, namazını qılmasan,***
***Ya Allahın, peyğəmbərin bilməsən,***
***Deynən, məşhər günü nə demək gərək?***

Yenə bir cavab çıxmadı. Yetim Aydın belədə, dübarə söylədi:

***Aydın yetim dəryalara dalanda,***
***Saralıban, heyva kimi solanda,***
***İnkir-minkir gəlib sual alanda,***
***Dili bəndə düşüb, nə demək gərək?***

Gördü yenə Dədə Qürbətdən səs çıxmır, fikirləşdi ki, bu hava, bəlkə, Dədə Qürbətə yaddır.

Bəli, söz tamama yetdi. Dədə Qürbət cavab verə bilmədi. Dedi:

– Oğul, sənin suallarına cavab verə bilsə, ancaq və ancaq bizim ən böyük qardaşımız, hamımızın üstadı İrəvan mahalında yaşayan Dədə Heykəl verər.

Bəli, Yetim Aydın yol başladı İrəvan şəhərinə. Çox getdi, az getdi, dərə-təpə düz getdi, gəlib çatdı İrəvan şəhərinə. Axtarıb Dədə Heykəli tapdı. Ədəb-ərkanla dedi ki, "Dədə, mən şəyird olmağa gəlmişəm. Mənə ustadlıq elə". Dədə Heykəl dedi:

– Oğul, ustadlıq eləmək mənim gözüm üstə. Amma bir şərt var, mən səni sınağa çəkməliyəm.

Yetim Aydın dedi:

– Onda, buyur, sözünü de.

Dədə Heykəl "Şahsarayı" havası üstündə görək nə deyir:

***O nədir ki, iki başı,***
***Parası var, parası yox?***
***Neçə illərdir uzunu,***
***Mənzili var, arası yox?***

Yetim Aydın:
***O, dünyadır, iki başı,***
***Parası var, parası yox.***
***Beş yüz ilədir uzunu,***
***Mənzili çox, arası yox.***

Dədə Heykəl:
***O nədir, göydə tutuşur,***
***Biri-biriylə ötüşür,***
***O nədir, rizqə yetişir,***
***Uçmağa muğ anası yox?***

Yetim Aydın:
***Aynan gün göydə tutuşur,***
***Biri-birindən ötüşür,***
***Viz quşu cana yetişir,***
***Uçmağa muğ anası yox.***

Bəli, sonuncu bənddə görək Dədə Heykəl götürüb bir "Kərəm dübeytisi" havası üstündə nə dedi:

***Heykəl Dədə, urfun acı,***
***O nə şeydir, surə içi,***
***Hər dərdin var bir əlacı,***
***O nə dərddir, çarəsi yox?***

Aldı Yetim Aydın:
***Aydın deyər, urfun acı,***
***Ana südü surə içi.***

***Hər dərdin var bir əlacı,***
***Ol ölümdü, çarəsi yox.***

Dədə Heykəl dedi:

– Oğul, çox gözəl, bərəkallah. Çox savadlı, gözəl bir cavab verdin. Mən səni şəyird götürərəm.

– Dədə Heykəl, bəs şəyird götürmək üçün əvvəl sınaqdan keçirdin, sual verdin, cavab verdim. İndi də istəyirəm, mən bir sual verəm, sən cavab verəsən.

Onu da deyim ki, şəyirdliyə gələn vaxtlarda Aydın özüylə bir şələ odun gətirmişdi çiynində. Dədə Heykəlin ömür-gün yoldaşı dedi:

– Heykəl, sənin bu şəyirdinin nə yaman çatışmazlığı var, odun şələsiylə gəlibdir.

Dədə Heykəl dedi:

– Yox, onun odun şələsiylə gəlməyində bir məna var. Yəni deyir ki, mənim yüküm var.

Bunu burda sınağa çəkir, cavabından da çox məmnun qalır.

Aydın deyir:

– Usta, mən indi bir sual vermək istəyirəm. Sən cavab verəsən.

Şəyirdləri baxırdı deyə, Heykəlin əlacı kəsildi, dedi:

– Buyur, sualını ver.

Götürüb görək orda, "İrəvan cuxuru" havası üstündə nə dedi:

***Məndən salam olsun Aşıq Heykələ,***
***Nə üstdə durubdu, Dədə, kavmahi?***
***Nə yeyər, nə içər, nəyə bağlıdır?***
***Nə üstdə durubdu, Dədə, kavmahi?***

***Salmanlar nisbətin nə günü bağlar?***
***Nə gündə saç töküb, nə gündə ağlar?***
***Kimlər qabağında başın kim bağlar?***
***Nə sütuna bağlıdır, Dədə, kavmahi?***

***Dindirirsən, Yetim Aydını dindir,***
***Ayətül Quranın ayəsi nədir?***

***Atası yox idi, anası kimdir?***
***Nə gündə oldu, Dədə, kavmahi?***

Dədə Heykəl çox açılmayan bağlamalar açmışdı, tapılmayan cavablar tapmışdı. Amma Aydın soruşan ölçü-biçidə bir söz-söhbət eşitməmişdi. Çox götür-qoydan sonra dedi:

– Oğul, bu sorğu-sual hələ bir yanda oxunmayıb. Oxunsa, mən eşidərdim. Əgər cavabı varsa, onda cavabını da de, bilək.

Aydın dedi:

– Düzdü, usta, bunun cavabı məndən qeyri bir aşığa əyan deyil. İndi ki, bilmək istəyirsən, cavabım da qulluğunuza "İrəvan çuxuru" havası üstündə yetirim:

***Məndən salam olsun Aşıq Heykələ,***
***Bəhr üstə durubdur, Dədə, kavmahi.***
***Nur yeyər, nur içər, pirə bağlıdır,***
***Bəhr üstə oturubdu, Dədə, kavmahi.***

***Salmanlar nisbətin belinə bağlar,***
***Cümə gün saç tökər, şəbi gün ağlar.***
***İsrafil Haqq günü başını bağlar,***
***Ərşin sütunundadı, Dədə, kavmahi.***

***Yetim Aydını dindirərsən, dindir,***
***Ayətül Quranın ayəsi nurdur.***
***Atası yox idi, anası nurdur,***
***Çərşənbədə oldu, Dədə, kavmahi.***

"Kavmahı" dəryada nəhəng bir balıqdır. Aydın soruşurdu ki, o nəhəng balıq nəyin üstündə durubdur?

Bəli söz tamama yetdi. Dədə Heykəl Aydının sözünə cavab verə bilmədi. Aydın sərbəst buraxıldı aşıqlığda.

Aydın İrəvanın yollarınan gedirdi. Gəldi, gördü, bir bağın kənarında incəbelli qızdır, bağ da yuxuda gördüyü həmin bağdır. Pərzad xanım

bağda dövrə vurur. Aydın yanından keçib getdi. Düşündü ki, görüm, Pərzad xanım tanıyacaqmı?

Pərzad xanım onu görən kimi tanıdı, dedi ki, həmin aşıqdır, aləmiröyada gördüyüm. Götürdü görək bir "Orta sarıtel" havası üstündə nə dedi:

***Getmə, getmə, pirsiz aşıq,***
***Dayanginən, şirə döndüm.***
***Ver salamı, al kalamı,***
***İnkirə-minkirə döndüm.***

Aydın elə bunu gözləyirdi, bayaq sazı sinəsinə çəkib, aldı görək, necə cavab verdi:

***Pirsiz dedin, qanım coşdu,***
***Qəzəbli Heydərə döndüm.***
***Məhəmməd Mustafa bilib,***
***Allahu əkbərə döndüm.***

Pərzad hərbə-zorbasından qalmadı:

***Divar üstündə pəncərəm,***
***Sinənin üstdə xəncərəm,***
***Tərpənmə, səni sancaram,***
***Ağulu şahmara döndüm.***

Aydın onu yumşaltmaq qəsdilə dedi:

***Divar üstdən sürünəm,***
***Zülfün ucuna bürünəm,***
***Dərya nisbətdə dərinəm,***
***Hökmü Qələndərə döndüm.***

Pərzad bir balaca yumşalan kimi oldu. Götürüb sözünü belə

tamamladı:

***Pərzad xanımam, qanaram,***
***Keçən gününü sanaram.***
***Gecə sübhəcən yanaram,***
***Alışıb məşhərə döndüm.***

Yetim Aydın:

***Aydın deyər, ay bivəfa,***
***Camalın oxşatdım Aya.***
***Sən bir alagözlü maya,***
***Mən əsrimiş nərə döndüm.***

Söz tamama yetəndən sonra Aydın Pərzadın qala qurub neçə-neçə aşıqları bağladığını, hamısını da özünə qul elədiyini öyrəndi. Əhvalatdan hali olub, Pərzada dedi:

– Sən ki, belə sözdə-sazda bərabəri olmayan hünər yiyəsisən, onda gəl, səni bir-iki sualnan sınağa çəkim.

Pərzad sazını əlinə alıb:

– Buyur, – dedi, sənin kimiləri çox görmüşəm.

Yetim Aydın sazın zilini zil, bəmini bəm eləyib sorğusuna başladı:

***Ay qız, səndən xəbər alım,***
***Göy çadırda duran kimdir?***
***Göydəki mizan-tərəzi,***
***Onu dürüst quran kimdir?***

Pərzad bir cavab tapa bilməyib dinmədi. Belədə, sualın arxası gəldi:

***Biri İsa, biri Musa,***
***Musanın əlində əsa.***
***Kafirin köşkü kəlisa,***
***Bina daşın qoyan kimdir?***

Yenə də Pərzaddan səs-səmir çıxmadı. Belədə, Yetim Aydın sorğunu tamama yetirmək qəsdinə düşdü:

***Yetim Aydın, nə mayılsan,***
***Yatdığın duşdan ayılsan.***
***Pərzad, sən aşıq deyilsən,***
***Sözü səndən soran kimdi?***

Pərzad xanım cavab verə bilmədi. Təbii ki, Aydın Pərzad xanımı sazla, sözlə bağlayır. İş o yerə gəlir ki, artıq Aydına yar olmalıdır. Anası gəldi:

– Ola bilməz. Sən bəy qızısan.

Atası bu xəbəri eşidəndə dedi:

– Nə? Bəy qızı bir yetimə ərəmi gedəcək? Ola bilməz, olası iş deyil.

Aydın çox çalışdı, cəhd elədi. Gördülər yox, Aydın əl çəkmir. Aydını qırx incəbelli qız, bir də Pərzadın anası daş-qalaq etdilər. Yazıq Aydın, Allah heç kəsi kimsəsiz eləməsin. Yazıq Yetim, götürdü görək burda "Hicran kərəmisi" havası üstündə nə dedi:

***Ay ağalar, çərxi-fələk əlindən,***
***Çeşmi didələrim tamam qan ağlar.***
***Düşüb qaldım biyabanda nalalı,***
***Cismim ağlar, cəsəd ağlar, can ağlar.***

***Əyninə geymisən qızıl heydəri,***
***Olaydım mən nazlı yarın xırdarı.***
***Yasa batsa bir qoşunun sərdarı,***
***Qoşun ağlar, sərdar ağlar, ban ağlar.***

Sözün bu yerində həmən qamışlığın yanındakı yoldan Qasım bəy başının dəstəsiylə keçirdi. Gördülər bir aşıq ağlaya-ağlaya oxuyur. Aydın onları görüb sözünü belə tamamladı:

***Mənim işim bu yerlərdə sayılmaz,***
***Seyraqublar bu arada tapılmaz.***

***Yetim Aydın dərddən, qəmdən ayılmaz,***
***Axşam ağlar, səhər ağlar, dan ağlar.***

Qasım bəy İrəvanın adlı-sanlı bəylərindən idi, gördü bu bağın kənarında bir aşıq oxuyub, ahü-fəqan eliyir. Dayanıb soruşdu:

– Aşıq, sənin dərdin nədir? Niyə ağlayırsan, nə fəqan eləyirsən?

Aydın başına gələn bütün əhvalatları danışdı. Qasım bəy dedi:

– Aydın, artıq axşam qarışır. Deyərlər ki, axşamın xeyrindənsə, səhərin şəri yaxşıdır. Gəl, sən mənimlə gedək, qərib-qürbət aşığısan, mənim qonağım ol, biz sənə kömək eləyərik.

Elə də oldu. Aydın Qasım bəyin evinə getdi. Axşam yatdılar, üzünüzə xeyirli səhərlər açılsın, səhər açıldı. Qasım bəyin bacısı, Nərgiz xanım yaxınlaşıb, dedi:

– Aydın, səhərlər bu vaxtı Pərzad xanım bulaqdan su götürməyə gedir, adətən. Sən durma, tərpən bulaq başına, bəlkə, Pərzad xanımı gördün.

Aydın tez tərpəndi bulaq başına, gəldi gördü ki, Pərzad xanım gəlib bulaq başındadır. Amma anası da fikirləşmişdi ki, o yetim hardasa buralarda olar, qızı qaçırdar. Ona görə də anası da qızla gəlmişdi. Görək Aydın burda götürüb  bir "Qədim Naxçıvanı" havası üstündə nə dedi:

***Ay ağalar, bu bulağın üstündə,***
***Ay işığı nə pünhana düşübdü.***
***Anasına deyim, yoxsa qızına,***
***Mənim gözüm bu ceyrana düşübdü.***

***Ay qız, hurisənmi, ya da ki, mələk,***
***Yeri, gəl üstümə, mən oldum həlak.***
***Sənə qurban olum, ay çərxi-fələk,***
***Siyah zülfü dal gərdana düşübdü.***

***Ay qız, pərisənmi, ya da quba qaz,***
***Yeri, gəl üstümə, dərdim eylə az.***
***Yer üstündə belə insan yaranmaz,***
***Yaranıb da, nə imana düşübdü?***

Qızın anası dedi:

– Qızım, tez suyu doldur, gedək evə.

Anası Pərzad xanımı apardı. Aydın bu gün də kəlmə verib, kəlmə ala bilmədi Pərzad xanımdan. Qayıtdı kor-peşman evə. Bir gün də qaldı Qasım bəyin evində. Səhər tezdən durub dedi:

– Gedim bağa, bəlkə, Pərzad xanım bağa-bağçaya çıxar.

Gəlib Pərzad xanımı bağda gördü. Amma bağban da bağdaydı. Yenə də fürsət deyildi. Allah yetimin işini kəsəndə, hər tərəfdən kəsir. Götürür görək burda, "Oğuzoğlu" havası üstündə nə deyir:

***Sərçeşmədən su doldurub gedirsən,***
***Uca boylu, xırmandallı gözəlim.***
***Müjkan atıb bağrım başın didirsən,***
***Uca boylu, xırmandallı gözəlim.***

***Geymisən əynini nazikbənazik,***
***Qoluna yaraşır qızıl bilərzik.***
***Verərlər özgəyə, olarsan yazıq,***
***Uca boylu, xırmandallı gözəlim.***

***Yetim Aydının sözünü əyər,***
***Uzundur saçların, torpağa dəyər,***
***Beş min beş yüzdən də artığa dəyər,***
***Uca boylu, xırmandallı gözəlim.***

Qız birtəhər daldada bir kağız yazıb, xəlvətcə Yetim Aydına ötürdü. Sonra da anasına qoşulub getdi evlərinə. Aydın naməni açdı. Gördü sevgilisi onu tanıyıb. Amma anasının qorxusundan dinə bilməyib. Özü də sabah şəhər bağına qızlarla seyrangaha gələcəyini bildirib. Bəli, biçarə Aydın həmən qızın nişana verdiyi bağa gəlib, xeyli qabaqdan gözləməyə başladı. Bağban onun xəlvət-xəlvət gəlməyindən elə bildi ki, bağ oğrusudur. Belədə, Yetim Aydın götürüb, görək "Qəhrəmanı" havası üstündə bağbana nələr eşitdirdi:

***Səhər-səhər çıxdım bağlar seyrinə,***
***Bu bağın bağbanı ayaq üstədi.***
***Könlüm firqət edir yarı görüncə,***
***Çeşmimin giryanı ayaq üstədi.***

***Mollalar yazırlar ağı-qaranı,***
***Siyah zülflər dal gərdana daranı,***
***Məhəmməd şanıyla mələk Quranı,***
***Cəbrayıl da alıb ayaq üstədi.***

***Yetim Aydın deyər, dinim ərəbdir,***
***Haqqın piyaləsi dürlü şərabdır.***
***Haqq üzü yatcəyin dünya xarabdır,***
***Haqq özü yatmayıb, ayaq üstədi.***

Sözlər başa yetər-yetməz, bir dəstə qız bağlar arasından keçib gedir. Aydın nə qədər baxırsa, sevgilisini onların arasında görmür. Sazı götürüb "Ovşarı" havası üstündə oxuyur ki, bəlkə, səsini eşidib, istəklisi üzə çıxa:

***Belə gəl, belə get bağ arasıyla,***
***Hürküşüb bülbüllər, gül inciməsin.***
***Daransın zülfləri badi-səbayla,***
***Şana inciməsin, tel inciməsin.***

***Sürməni çəkəsən göz ilə qaşa,***
***Tutasan dünyanı, gedəsən başa.***
***İki sevgi bir-birilə sarmaşa,***
***Gərdan tərpənməsin, bel inciməsin.***

***Yetim Aydın deyər, dərdimi demə,***
***Yetişib ürəyim qayğıya, qəmə.***
***Verəydin o şirin ləbini əmə,***
***Dodaq tərpənməsin, dil inciməsin.***

Bəli, söz tamama yetdi. Aydının səsinə yenə də Pərzad xanımın anası gəldi bağa. Aydını yenə də məcbur bağdan çıxardılar.

Artıq bağdan çıxmışdı, gördü Pərzad xanım gəlib pəncərədən boylanır. Gördü, elə bir işıq düşür ki, bütün aləm şövqə gəlir. Dedi, ilahi, pərvərdigar qələmini ancaq bu qızın üstünə çəkib.

Aydın götürüb görək burda, bağın kənarından üzü eyvana bir "Gözəlləmə" havası üstündə nə deyir:

***Dad eylərəm, dad eylərəm,***
***Səndən ötrü, alagözlüm.***
***Aşna, dostum yad eylərəm,***
***Səndən ötrü, alagözlüm.***

***Sirr sözüm sənə bildirəm,***
***Gözümün yaşın sildirəm,***
***Axır öz-özüm öldürəm,***
***Səndən ötrü, alagözlüm.***

***Viran qalsa belə dağlar,***
***Güllü-bənövşəli bağlar,***
***Yetim Aydın deyib ağlar,***
***Səndən ötrü, alagözlüm.***

Bəli, söz tamama yetdi. Aydın gördü ki, Pərzad xanımın anası buna imkan verən deyil. Qayıdıb gəldi Qasım bəyin evinə. Qasım bəy gördü ki, bu iş belə alınmaz. İrəvanın adlı-sanlı bəylərini, ağsaqqallarını yığıb getdi İbrahim bəyin qapısına elçi. Dedi:

– Qardaş, sən niyə inadkarlıq eləyirsən? Onsuz da sənin qızın Aydına buta verilib, Aydın da sənin qızına, nə eləsən, xeyri yoxdur. Qız bunun qismətidir.

İbrahim bəy dedi:

– Əgər elədirsə, mənim qızım da aşıq, Aydın da aşıq. Mən qızımı Aydına verirəmsə, Aydını imtahan eləməliyəm. Odur ki, İrəvanın hörmətli ustadı, Aşıq Cami gəlməlidir. Aşıq Cami Aydını imtahan eləyəcək. İmtahandan keçə bilsə, qızımı verə bilərəm.

Xəbər göndərdilər, Aşıq Cami gəldi. Aşıq Cami gəlib Aydını "Turacı" havası üstündə imtahana çəkdi:

***O nədir ki, qapısı yox,***
***Endirirlər bacasından?***
***O nədir, dediyi tutmaz,***
***Alçaq olar ucasından?***

Yetim Aydın:

***O qəbirdir, qapısı yox,***
***Endirirlər bacasından.***
***Şeytan sözün tutmaz,***
***Alçaq olar ucasından.***

Aşıq Cami:

***Nə yerdə divan qurular?***
***Kimlərdir, ora yığılar?***
***O nədir, ölüb dirilər?***
***Yük də bağlar ucasından.***

Yetim Aydın:

***Məhşər günü divan qurular,***
***Bəndələr ora yığılar,***
***İpəkqurdu ölüb-dirilər,***
***Yük də tutar ucasından.***

Aşıq Cami:

***Cami deyər, harası yox?***
***O nədir ki, yarası yox?***
***O nədir ki, qarası yox?***
***O da söylər ucasından.***

Yetim Aydın:

***Aydın deyər, harası yox,***
***O iqrardır, yarası yox,***
***Dil-qələmdir, qarası yox,***
***O da söylər ucasından.***

Bəli, indi söz verilir Aydına. Götürür görək "Bayramı" havası üstündə Aydın necə deyir, Cami cavab verə biləcəkmi ya yox:

***Adəm ata bu dünyaya gələndə,***
***Gələn günlərinə nə demək gərək?***
***Günahkar bəndədən xəbər alanda,***
***Alan günlərinə nə demək gərək?***

Aşıq Camidən bir səs çıxmadı. Yetim Aydın dübarə soruşdu:

***Kim gətirib peyğəmbərin xələtin?***
***Kim götürdü onun qələm büvətin?***
***Kim gətirib ona Quran ayətin?***
***Adəm oğlu, ona nə demək gərək?***

Yenə bir cavab çıxmadı. Yetim Aydın sualını belə tamamladı:

***Aydın deyər, atma boynuma minnət,***
***Gəl, ikimiz qılaq fərzinə sünnət.***
***Allah yaradıbdır səkkizdə cənnət,***
***Cənnətə girəndə nə demək gərək?***

Aşıq Cami dinməz-söyləməz sazını gətirib Aydının qabağına qoydu. Aydın güldü:

– Mən saz alan aşıq deyiləm, Haqq aşığıyam. Ağam verən butanın dalısınca gəlmişəm.

Bəli, mənim əzizlərim, söz tamama yetdi. Artıq İbrahim bəyin hər yerdən əlacı kəsildi. Qızı verəsi oldu Aydına. Aydın Pərzad xanımı da götürüb, gəldi Dərbənd mahalına. Allah bütün sevənləri bir-birinə qovuşdursun. Dərbənd mahalında elə bir toy quruldu ki, kəndin ağsaqqalları, qarasaqqalları Aydına elə bir toy elədilər ki, nənəsinin də, el-obanın da gözü, ürəyi sevindi. Toyun sonuncu gecəsində bir ustad sənətkar gəlib duvaqqapma söyləyib, məclisi bağladı:

***Zər üstündən zər geyinib,***
***başında darağı gözəl.***
***Ala gözdə siyah sürmə,***

*qaşlarının tağı gözəl.*
*Ağız püstə, dodaq qaymaq,*
*yanağının ağı gözəl.*
*Zənəxdana xal düzülüb,*
*büllurdu buxağı gözəl.*
*Xara köynək, yaxası gül,*
*üstə boyunbağı gözəl.*

*Şeyda bülbül cəh-cəh edir,*
*bağçaların barı təzə.*
*Səd afərin, kamil bağban,*
*bəsləyibdi narı təzə.*
*Sinən Səmərqənd kağızı,*
*sandım, yağıb qarı təzə.*
*Təbiət bəxş eləyibdi,*
*buna gözəl yarı təzə.*
*Naqafil çıxdı qarşıma,*
*alır canım yağı gözəl.*

*Bu gün axşam bazarıdı,*
*çıxıb nə seyran eləyir.*
*Neçəsini qəhrə salıb,*
*gör necə dövran eləyir.*
*Xəstələrin loğmanıdı*
*dərdinə dərman eləyir.*
*Görənlər də mail olub,*
*canını qurban eləyir.*
*Hərdən gəlib məclisimdə*
*dolandırır saqi gözəl.*

*Cuna altda qısa teli,*
*onun üstdən al yaraşır.*
*Bir əlində tər bənövşə,*
*buxağına gül yaraşır.*
*Nazik belinə kəmər,*

*altdan tirmə şal yaraşır.*
*Bir beləcə şux gözələ,*
*tərif dalbadal yaraşır.*
*Qoynun içi gülşən bağı,*
*gül açıb, yarpağı gözəl.*

*Vəsf eyləyir Aşıq Əsəd[1],*
*Dolanır hər yanı belə.*
*Əndəlib tək leyli-nahar,*
*gəzir gülüstanı belə.*
*Kəpəzdə ovun gözləyir,*
*Alvızın tərlanı belə.*
*Yaşasın belə gözəli,*
*qoy sürsün dövranı belə.*
*Naz-qəmzəsi təbiidir,*
*mehmanı, otağı gözəl.*

*Dastan aşıq Toğrul Ataxallı və*
*İlqar Eyvazoğlunun dilindən*
*2024-cü ildə yazıya alınıb.*

*1. Müxəmməs Aşıq Əsəd Rzayevə (1874-1950) məxsusdur.*

## ƏSLİ VƏ KƏRƏM

Ustadlar dastanı başlamazdan əvvəl üç ustadnamə deyərlər, biz də deyək bir olsun, el-obamız nur olsun:

***Dəli könül, məndən sənə əmanət,***
***Demə, bu dünyada qalım, yaxşıdı.***
***Bir gün olar, qohum-qardaş yad olu,***
***Demə, ulusum var, elim yaxşıdı.***

***Məclisə varanda özünü öymə,***
***Şeytana bac verib, kimsəyə söymə,***
***Qüvvətli olsan da, yoxsulu döymə,***
***Demə ki zorluyam, qolum yaxşıdı.***

***Qoçaqdan olubsan, qoçaq olgunan,***
***Qadadan, baladan qaçaq olgunan,***
***Sən aşıq ol, comərd ol, alçaq[1] olgunan,***
***Demə, varım çoxdu, pulum yaxşıdı.***

***Xəstə Qasım kimə qılsın dadını?***
***Canı çıxsın, özü çəksin odunu.***
***Yaxşı igid yaman etməz adını,***
***Çünki yaman addan ölüm yaxşıdı.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, yad-yağının gözü tökülsün:

***Bəd övladı əzəl başdan tanıram,***
***Çör-çöp yığar,yad ocağın yandırar***
***Səhər durar ar-namusu gözləməz,***
***Suyu tökər öz ocağın söndürər.***

---

***1. Alçaq – burada təvazökar anlamındadır***

***Ulğun cuşa gəlməz, köpük yağ olmaz,***
***Söyüd bar gətirməz, baxça, bağ olmaz.***
***Tözluq təpə olmaz, küllük dağ olmaz.***
***Yel əsəndə alçaqlara endirər.***

***Abbas bu sözləri deyər sərindən,***
***Arxı vurun suyu gəlsin dərindən.***
***Söz bir olsa dağ oynadar yerindən,***
***El bir olsa zərbi kərən sındırar.***

Ustadlar ustadnaməni iki yox, üç deyərlər. Biz də deyək üç olsun, düşmənlərin ömrü puç olsun:

***Səyyad olub dursan ov bərəsində,***
***Yaxşı yerdə yaxşı dinlə, yaxşı yat.***
***Ovun gəlib bərəsinə çatanda,***
***Dürüst oxu qoy kamana, yaxşı at.***

***Bekar arvad cavan ərin qocaldar,***
***Əsil olsa çox dərdini azaldar,***
***Üç şey deyim, insan başı ucaldar,***
***Yaxşı səxa,yaxşı süfrə, yaxşı ad.***

***Axmaq qohum xalqı sənə güldürər,***
***Pis qardaşın dərdi adam öldürər.***
***Hüseyn  deyər, yıxılsan da qaldırar,***
***İgid düşmən, ilqarlı dost, yaxşı yad.***

Sizə haradan söyləyim, Gəncə şəhərindən. Gəncə şəhərində kimdən – Ziyad xandan.

Ziyad xan ədalətli və rəhmdil bir xanıydı. Malı-mülkü də çoxuydu, hörmət-izzəti də. Gözəl bir divan qurmuşdu, vəziri-vəkili mahalın hər işini ədalətlə həll eləyərdi. Tacir-tüccarı hər yanda halallığı ilə ad çıxartmışdı. İşini elə qurmuşdu ki, onun mahal-məmləkətində, necə

deyərlər, quzu qurdnan otlayırdı. Harda ağıllı, başlı-bilikli adamlar vardısa, cəmləmişdi ətrafına. Neçə il qabaq Gəncədən bir az aralıdakı Qansak kilsəsində bir xaçpərəst Məliklə söhbət eləyib, onun ağıl-fərasətindən xoşu gəlmişdi. Qara Məlik deyərdilər bu xaçpərəstin adına. Çevrədəki xaçpərəst tayfalarla xoş münasibət yaratmaq üçün Ziyad xan gətirib onu da öz vəzirlərinin cərgəsinə qoşmuşdu. Canbir-qəlbbir olub xanlığın işlərini nizamlayırdılar. Günləri xoş keçməkdəydi. Di gəl, Ziyad xanın övladı yoxuydu. Həmişə övladdan söz düşəndə dərdi təzələnirdi. Övladsızlıqdan qəlbi açılmırdı, üzü gülmürdü. Vəziri Qara Məlik də o gündəydi. Bir gün Ziyad xan Qara Məliklə bağda oturmuşdu. İrəlidən, geridən söhbət eləyirdilər, dərdləşirdilər.

Ziyad xan bir məsləhət elədi:

– Qara Məlik, nə sənin övladın var, nə də mənim. Öləndən sonra bizim çırağımızı kim yandıracaq? Gəl, fağır-füğəranın qarnını doyuraq, nəzir-niyaz verək, bəlkə, Allah hərəmizə bir övlad verdi. Özü də indidən arada şərt qoyaq.

Qara Məlik dedi:

– Nə kimi şərt desən, razıyam, təki övladımız olsun.

Ziyad xan dedi:

– Əyər mənim qızım, sənin oğlun oldu, mən qızımı sənin oğluna verim; yox, sənin qızın, mənim oğlum oldu, sən qızını mənim oğluma ver.

Qara Məlik razı oldu. Kağız yazıb, qol qoyduqdan sonra hərə öz otağına getdi.

Səhərisi gün Ziyad xan Gəncə əhlini, fağır-səğirən hər nə ki var, bir yerə cəm elədi, qarınlarını doydurdu, əyinlərini geyindirdi, əlsiz-ayaqsızlara pul verib, yola saldı.

Doqquz ay keçəndən sonra Ziyad xanın bir oğlu, Qara Məliyin də bir qızı dünyaya gəldi. Ziyad xan əyan-əşrəfi toplayıb, şadyanalıq keçirtdi. Oğlanın adını Mahmud, qızın adını Məryəm qoydular. Uşaqları tapşırdılar dayələrə. Aşıq dili yüyrək olar, uşaqlar böyüyüb səkkiz yaşa çatdılar. Ziyad xan oğlunu molla yanına qoydu. Qara Məlik də qızını özü oxutmağa başladı.

Ay dolandı, il keçdi, Mahmudla Məryəm on beş yaşına çatdılar;

amma bu on beş ilin ərzində nə qız oğlanı görmüşdü, nə də oğlan qızı. Mahmud gününü lələsi Sofi ilə keçirirdi. Bir gün Mahmud lələsi Sofiyə dedi:

– Sofi, get atamdan izin al, mən ova çıxmaq istəyirəm.

Sofi gedib, Mahmudun sözünü Ziyad xana yetirdi. Ziyad xan izin verdi. Mahmud at mindi, tərlanını da qolunun üstünə alıb, şəhərdən çıxdı. Xeyli yol getdikdən sonra Mahmudun tərlanı qolunun üstündən qalxdı, bir gözəl, yaraşıqlı quşu qabağına qatıb, özünü vurdu ağacların arasına.

Mahmud dedi:

– Sofi, sən atımı saxla, mən tərlanın dalınca gedim, görüm hara qondu.

Sofi atların yanında qaldı. Mahmud düşdü quşun dalınca. Mahmud tərlanını axtarmaqda olsun, sizə deyim, Qara Məliyin qızı Məryəmdən.

Məryəm bağa seyrə çıxmışdı. Sərv ağacının yanına çatar-çatmaz gördü ki, bir tərlan gözəl bir quşu qabağına qatıb qovur. Quş özünü yetirib, soxuldu Məryəmin qucağına. Məryəm tez quşu tutdu. Tərlan özünü yetirdi, istədi quşu Məryəmin əlindən alsın, Məryəm tərlanı da tutdu.

O biri tərəfdən Mahmud ağacların arasıynan gəlib, bu bağa çıxdı. Bir qədər irəli gedib gördü ki, sərv ağacının altında dünya gözəli bir qız yüz naz-qəmzə ilə dayanıb. Qaşlar kaman, gözlər qara, burun hind fındığı, sinə Səmərqənd kağızı. Mahmud gördü tərlanı da bu qızın əlindədi. Məryəm geri dönüb onu gördü. Kaman qaşlarını çatıb, qəzəbli-qəzbli soruşdu:

– Oğlan, kimsən? İzinsiz bu bağa niyə girmisən?

Mahmud aldı sinə sazını, görək tərlanını "Kərəm gözəlləməsi" havası üstündə qızdan necə istəyir:

***Ay gözəl qız, səd afərin əslinə,***
***Ala gözlüm, tərlanımı gətir ver!***
***Mənəm o tərlanın sahib-yiyəsi,***
***Ala gözlüm, tərlanımı gətir ver!***

Mahmud belə deyəndə qız bildi ki, tərlan bununkudu. Qara saçla-

rından üç tel ayırıb, saz əvəzində sinəsinə basdı, görək ona nə cavab verdi:

***Mən bilirəm bu tərlanın işini,***
***Kərəm eylə, tərlanını gəl apar!***
***Tərlan gərək yesin ovun döşünü,***
***Kərəm eylə, tərlanını gəl apar!***

Aldı Mahmud:

***Əyninə geyibsən gözəl darayı,***
***Şana alıb tellərini darayı,***
***Səyyad olan tərlanını arayı,***
***Ala gözlüm, tərlanımı gətir ver!***

Aldı Məryəm:

***Ovun olub bədənindən yaralı,***
***Bülbül olan, gül görməsə, saralı.***
***Nə üçün durubsan məndən aralı?***
***Kərəm eylə, tərlanını gəl apar!***

Aldı Mahmud:

***Mahmud deyər, nələr gəldi başıma,***
***Gedim söyləyimmi tayı-tuşuma?***
***Ovum sənsən, gözəl, çıxdın qarşıma,***
***Ala gözlüm, tərlanımı gətir ver!***

Aldı Məryəm:

***Əsli dedin, gözəllərin gözüyəm,***
***Aşıqların söhbətiyəm, sözüyəm,***
***Adım Məryəm, Qara Məlik qızıyam,***
***Kərəm eylə, tərlanını gəl apar!***

Söz tamama yetdi, qız dedi:
– Oğlan, kərəm eylə, tez çıx buradan get, babam gəlib bizi görməsin.
Mahmud dedi:

– Mən də Ziyad xanın oğluyam. Bu gündən mənim adım Kərəm olsun, sənin adın Əsli. İndi quşumu ver, varım gedim.

Aldı Əsli cavabında görək nə dedi:

***Tərlan quşun uçdu qondu budağa,***
***Kərəm oğlan, kərəm eylə, quşun al!***
***Gözlərinə verrəm qurban, sadağa,***
***Kərəm oğlan, kərəm eylə, quşun al!***

***Mənimlə durubsan qabaq-qabağa,***
***Olum qamətinə qurban, sadağa.***
***Ziyad xan oğluna olmaz qadağa,***
***Kərəm oğlan, kərəm eylə, quşun al!***

***Bülbüllər oxuyur baharın fəsli,***
***Gözlərin olubdu canımın qəsdi,***
***Adım Məryəm idi, sən qoydun Əsli,***
***Kərəm oğlan, kərəm eylə, quşun al!***

Söz tamama yetdi. Kərəm qıza, qız da Kərəmə aşiq oldu, əhd-peyman elədilər.

Kərəm barmağındakı üzüyü qıza, qız da ipək dəsmalını Kərəmə verdi. Kərəm Əslinin gözlərindən öpmək istəyəndə Əsli geri çəkildi. Saçlarından iki tel ayırıb, sinəsaz elədi, aldı, "Məmmədbağırı" havası üstündə görək nə dedi:

***Nə gəzirsən məlul-məlul bu yerdə?***
***Aman Kərəm, məni rüsvay eyləmə!***
***Sənə məni qismət eyləyib Xuda,***
***Aman Kərəm, məni rüsvay eyləmə!***

Kərəm özünü saxlaya bilməyib, əl atdı qızın incə belinə. Əsli dedi:

***Doymamışam şəkər kimi dilindən,***
***Qorxum yoxdu mənim heç də ölümdən,***

***Sarılıbsan incə miyan belimdən,***
***Aman Kərəm, məni rüsvay eyləmə!***

***Ağam Kərəm, paşam Kərəm, xan Kərəm!***
***Alış Kərəm, tutuş Kərəm, yan Kərəm!***
***Əslin olsun sənə qurban, can Kərəm,***
***Aman Kərəm, məni rüsvay eyləmə!***

Söz tamam oldu. Kərəm onunla halal-hümmət elədi, Sofinin yanına qayıtdı, atını minib şəhərə gəldi. Öz mənzilində Əsli deyib gizli-gizli ağlamaqda olsun, sizə deyim Ziyad xandan.

Ziyad xana xəbər çatdı ki, oğlun xəstələnib, neçə gündü ki, mənzilindən bayıra çıxmır. Haman saat Ziyad xan qalxıb, oğlunun yanına gəldi, xəbər aldı:

– Oğlum, dərdin nədi?

Kərəm dedi:

– Ata, izin ver, dərdimi saz ilə deyim, dilnən desəm, dilim alışıb yanar.

Ziyad xan izin verdi.

Aldı Kərəm, görək atasına "Zarıncı Kərəmi" havası üstündə nə dedi:

***Bir gözəl baxçada bir gözəl gördüm,***
***Ağlımı başımdan aldı, nə çarə?***
***Darayıb zülfünü, töküb üzünə,***
***Sərimi sövdaya saldı, nə çarə?***

***Mən də bildim bu bir tərsa qızıdı,***
***Səhərdən parlamış dan ulduzudu,***
***Yaşılbaş sonadı, göllər qazıdı,***
***Ağlımı başımdan aldı, nə çarə?***

***Dərdli Kərəm deyər, fürqətim qatı,***
***Kəskindi qılıncı, yüyrəkdi atı,***
***O, İsəvi, mən Məhəmməd hümməti,***
***Atəşi sərimdə qaldı, nə çarə?***

Söz tamam oldu, Ziyad xan dedi:

– Oğul, sənin dediklərindən mən bir şey başa düşmədim. Əyər aşiqsən, de görüm kimi istəyirsən, sənin üçün alım.

Kərəm üç yaşındakı uşaq kimi başladı ağlamağa. Ziyad xan oğlunun yanından çıxıb, birbaş divana gəldi, taxtına çıxıb əmr verdi ki, hər kim mənim oğlumun dərdini bilsə, mən onu dünya malından qəni eylərəm.

Şəhərdə təbib qalmadı gəlməmiş ola, di gəl, heç kim Kərəmin dərdindən bir şey anlaya bilmədi.

Bir gün Kərəm oturmuşdu bağda, özü də çox kefsizdi. Bir qarı eşitdi ki, Ziyad xanın oğlu xəstədi, heç kim də onun dərdini tapa bilmir, özözünə dedi:

– Hər nə olursa-olsun, gərək mən Kərəmin dərdini tapım, bəlkə, Ziyad xan mənə bir qırmızı donluq verə.

Qarı əsasını əlinə alıb, özünü yetirdi Ziyad xanın bağına, gördü, Kərəm çox qəmgin oturub, gözləri yol çəkir, dedi:

– Oğul, şəhərin gəlinləri, qızları, oğlanları Gülşən bağına seyrə çıxıblar, sən nə üçün burada tək-tənha oturubsan?

Kərəm dedi:

– Qarı nənə, sənnən bir söz soruşacağam. Ancaq bu söz ikimizin arasında qalmalıdı.

Qarı dedi:

– Oğul, qarı ki var, bir ovuc darıdı. Hara səpələrsən, elə oradaca qalar. Sən sözünü de!

Kərəm dedi:

– Nənə, o qızların içində Qara Məliyin qızı da olacaqmı?

Qarı dedi:

– Olacaq.

Kərəm dərinnən bir ah çəkdi. Qarı işi başa düşdü, bildi ki, Kərəm Məryəmə aşiqdi. Balağını qatlayıb, özünü Ziyad xana yetirdi, dedi:

– Ziyad xan, oğlunun dərdini bilmişəm.

Ziyad xan soruşdu:

– Oğlumun dərdi nədi?

Qarı dedi:

– Oğlun Qara Məliyin qızı Məryəmə aşıq olub.

Ziyad xan işi biləndən sonra qarıya pul verib yola saldı, haman saat adam göndərib, Qara Məliyi hüzuruna çağırtdırdı. Qara Məlik Ziyad xanın hüzuruna gəlib, ədəb-ərkanla salam verdi. Ziyad xan ona oturmağa yer göstərib, dedi:

– Qara Məlik, mənim oğlum sənin qızına aşiqdi, bu gün-sabah gərək toylarını eləyək. Bildiyin kimi, qabaqcadan da əhd-peymanımız var.

– Mənim gözüm üstə! Ancaq mənə üç ay möhlət ver, tədarük görüm, – deyə, Qara Məlik möhlət istədi.

Ziyad xan Qara Məliyə bir üzük verdi ki, qıza versin. Qara Məlik üzüyü alannan sonra birbaş evinə gəldi, arvadına dedi:

– Arvad, Ziyad xan qızı əlimizdən alacaq. Ancaq bizim dinimiz bu izdivaca yol vermir. Gəl, qaçaq!

Arvad razı oldu, haman gün evdə olan hər nələri vardısa, satdılar, səhər açılmamış köç-külfətnən şəhərdən çıxıb qaçdılar.

Onlar qaçmaqda olsun, sənə kimnən deyim, Sofidən.

Sofi işdən xəbərdar olan kimi, Kərəmin yanına gəlib dedi:

– Atan Qara Məliyin qızını sənə aldı, nişan da taxdılar.

Kərəm bunu eşidən kimi sazını sinəsinə alıb, "Kərəmköşdü" havası üstündə dedi:

***Vədəsi çatınca, süsən, sünbülün,***
***Səfasın çəkməyə dal gəlsin, getsin!***
***Sürəyin dünyanın zövq-səfasın,***
***Boyna dolanmağa qol gəlsin, getsin!***

***Süsən nədi, sünbül nədi, gül nədi,***
***Ağ üzündə qoşa-qoşa xal nədi,***
***Şəkər nədi, şərbət nədi, bal nədi,***
***Ver, ağzım içində dil gəlsin, getsin!***

***Dost bağında süsən, sünbül mənimdi,***
***Budağında ötən bülbül mənimdi,***
***Bağçada xar görməyən gül mənimdi,***
***Öpməyə, dodağa xal gəlsin, getsin!***

***Şah gəlib fəth etdi bu kərəm kanı,***
***Kərəmin aşığı, məşuqu hanı?***
***Qorxuram, qaçırda Əsli cananı,***
***Qoyma, üstə qeyri əl gəlsin, getsin!***

Söz tamam oldu. Kərəm yarışad, yarınaşad mənzilinə keçib, düz üç ay gözlədi.

Bir gün butası yadına düşdü, sazını əlinə alıb, atasının yanına gəldi.

Ziyad xan xəbər aldı:

– Oğul, belə gəlməyinin səbəbi nədir?

Kərəm sazını alıb, görək atasına "Dilqəmi" havası üstündə nə dedi:

***Aşdı getdi qarlı dağın ardına,***
***Xan Əslim yadıma düşdü, ağlaram.***
***Heç təbiblər çarə etməz dərdimə,***
***Xan Əslim yadıma düşdü, ağlaram.***

***Dağların burcusu mənə yurd oldu,***
***Meşəsində aslan oldu, qurd oldu,***
***Bu üç ay mənə bir böyük dərd oldu,***
***Xan Əslim yadıma düşdü, ağlaram.***

***Hey ağalar, budu sözün əzəli,***
***Payız olar, bağlar tökər xəzəli,***
***Dərd anlamaz bu yerlərin gözəli,***
***Xan Əslim yadıma düşdü, ağlaram.***

***Dərdli Kərəm deyər, bu dərdim bitməz,***
***Yarımın sövdası sərimdən getməz,***
***Yüz min öyüd versəz, biri kar etməz,***
***Xan Əslim yadıma düşdü, ağlaram.***

Söz tamam oldu, Ziyad xan dedi:

– Oğlum, bu gün səbir elə, sabah Qara Məliyin qoyduğu iğrar tamamdı, yığışıb, birlikdə gedərik sənin sevdiyini gətirməyə.

Ertəsi gün Ziyad xan böyük cah-cəlalnan yığışıb, qız evinə gəlməyə bina qoydular. Bir qədər yol gedəndən sonra Kərəm dedi:

– Siz yavaş gəlin, mən atımı çapıb, sizdən qabaq gedəcəyəm.

Ziyad xan razı oldu. Kərəm atını çapıb, bir qədər getmişdi ki, yolda iki nəfər piyadaya rast gəldi. Kərəm onlardan xəbər aldı:

– Haradan gəlib, haralara gedirsiniz?

Dedilər:

– Qara Məliyin yanına getmişdik ki, kitaba baxdıraq, gedib gördük köç-külfətiynən köçüb gedib.

Kərəm belə eşidəndə az qala ağlı başından çıxdı. Bir qədər atını sürdü, gördü ki, qarşıdakı dağların başını duman bürüyüb. Atını saxlayıb, görək dağlara "Müxəyi" havası üstündə nə dedi:

***Xan Əslim Gəncədən fərar eləyib,***
***Yol verməyin, başı dumanlı dağlar!***
***Belə getmiş atası ilə anası,***
***Yol verməyin, başı dumanlı dağlar!***

***Qalxışdılar xanlar, ağalar toya,***
***Gəncənin adamı batıbdı loya.***
***Uçubdu əlimdəm bir ağca maya,***
***Yol verməyin, başı dumanlı dağlar!***

***Dərdli Kərəm bu eşq ilə bişmişdi,***
***Sevda üçün can-başından keçmişdi;***
***Qara Məlik Xoy üstünə köçmüşdü,***
***Yol verməyin, başı dumanlı dağlar!***

Kərəm atını çapıb, özünü Qara Məliyin bağına saldı. Atdan düşüb, hər tərəfi gəzdi. Əslidən bir iz tapmadı. Kərəmin dərdi tuğyan elədi. Aldı, görək "Köhnə gözəlləmə" havası üstündə nə dedi:

***Gəldim dost bağına, eylədim nəzər,***
***Gördüm yarın bağçasında gül yeri.***
***Ağ buxağa dənə-dənə düzülmüş,***
***Ağlımı başımdan aldı xal yeri.***

***Ərz-halım yazdım mən Əsli dosta,***
***Onun üçün oldu könül şikəstə.***
***Yastığı qan ağlar, yorğanı yasta,***
***Döşək cavab verər məndə yol, yeri!***

***Kərəmini atmış, yadları tutmuş,***
***Dərdini toplayıb, dərdimə qatmış,***
***Ala gözdən çağlayıban yol etmiş,***
***Vəfalı dost otağında sel yeri.***

Kərəm sözünü tamama çatdırıb, özünü yetirdi həmişə Əslinin kölgəsində oturduğu sərv ağacına. Ürəyinnən qara qan axa-axa sərv ağacını qucaqlayıb, görək Əslini onnan "Aran gözəlləməsi" havası üstündə necə xəbər aldı:

***Dur, sərv, dur, sənnən xəbər sorayım,***
***Sərv ağacı, sənin maralın hanı?***
***Gözümnən axıtma qanlı yaşları,***
***Sərv ağacı, sənin maralın hanı?***

***Alçaqlı-ucalı qarşıda dağlar,***
***Könlüm intizardı, gözüm qan ağlar,***
***Xəstənin halınnan nə bilər sağlar,***
***Sərv ağacı, sənin maralın hanı?***

***Doğru söyləməsən, qəddin əyilsin,***
***Qarğaram, mövladan belin bükülsün,***
***Bir ah çəkim, yarpaqların tökülsün,***
***Sərv ağacı, sənin maralın hanı?***

***Kərəm deyər, gözyaşları içərəm,***
***Viran bağdan bülbül olub uçaram,***
***Yarımın yolunda başdan keçərəm,***
***Sərv ağacı, sənin maralın hanı?***

Ziyad xan da başının adamlarıyla Qara Məliyin bağına daxil olub gördülər ki, lələ köçüb, yurdu boş.

Ziyad xan adam göndərdi ki, vəziri Qara Məlikdən, Əslidən bir xəbər bilsin, özü də Sofini alıb yanına, Kərəmi axtarmağa başladı. Gəlib haman sərv ağacının dibində Kərəmi ağlar bir halda tapdılar. Sofi Kərəmi yerdən qaldırdı. Ziyad xan xəbər aldı:

– Oğlum, bu nə haldı, düşübsən?

Kərəm dedi:

– Ata, izin ver, dərdimi sazla deyim. Dillə desəm, dilim alışıb yanar.

Ziyad xan izin verdi, Kərəm alıb sinə sazını, görək atasına "Qaytarma" havası üstündə nə deyəcək:

***Fələk məni bağa bağban eylədi,***
***Dost bağına heç girmədim, ağlaram.***
***Aləm dərdi bəslədiyim gülləri,***
***Bir gül dərib iyləmədim, ağlaram.***

***Görünmür heç bu yerlərin soltanı,***
***Bu xəstə könlümün təbibi hanı?***
***Əzəldən sevmişdim mən Əsli xanı,***
***Qol boynuna heç dəymədi, ağlaram.***

***Görünməz, görünməz mənim maralım,***
***Kəsildi, qalmadı səbrim, qərarım.***
***Qara Məlik qızı Əslidi yarım,***
***Yar halımı heç bilmədi, ağlaram.***

***Kərəm deyər, zalım fələk neylədi,***
***Xəncər ilə bağrım başın teylədi,***

***Əsli xanım mənə nələr eylədi,***
***İlqarında düz olmadı, ağlaram.***

Söz tamam oldu, Kərəm başladı ağlamağa, gözünnən bahar buludu kimi yaş axırdı.

Ziyad xanın vəziri Qara Məliyin dalınca göndərdiyi adamlar geri qayıtdılar, onun qaçdığını xəbər verdilər. Ziyad xan kor-peşman oğlunu yanına alıb, evinə qayıtdı.

Kərəm öz mənzilində saralıb-solmağa başladı. Ziyad xana xəbər gəldi ki, bəs oğlun pis haldadı. Ziyad xan həmən saat bir neçə mötəbər şəxsləri oğlunun yanına göndərdi ki, əhval-pürsanlıq eləsinlər.

Ziyad xanın adamları getdilər Kərəmin yanına. Kərəmnən hər nə soruşdularsa, cavab vermədi. Ona öyüd-nəsihət verdilər, könlünü aldılar.

Axırda Kərəm sazı sinəsinə basıb "Gəraylı" havası üstündə dedi:

***Ala gözlü, qələm qaşlı,***
***Mənim sonam göldən uçdu.***
***Məni qoydu intizarda,***
***Varıb, qeyri gölə düşdü.***

***Bizim ellər gül bağıdı,***
***Könül eşqin bulağıdı.***
***Yel əsər, zülfün dağıdı,***
***İndi fürsət belə düşdü.***

***Hər zaman çəkərəm yası,***
***Silinməz könlümün pası.***
***Sərimin getməz sevdası,***
***Altun kəmər belə düşdü.***

***Hanı sevdiciyim, hanı?***
***Yolunda qoymuşam canı.***
***Kərəm sevdi Əsli xanı,***
***O da qürbət elə düşdü.***

Söz tamam oldu. Kərəm üzüquylu yıxılıb, ağlamağa başladı. Adamlar geri qayıdıb, əhvalatı Ziyad xana xəbər verdilər.

Ziyad xan bu dəfə özü Sofini də götürüb, Kərəmin yanına gəldi. Gördü ki, oğlu o oğul deyil, payız yarpağı kimi saralıb solub.

Kərəm atasını görəndə sazı sinəsinə basıb "Mirzəcanı" havası üstündə dedi:

***Əslim köç elədi Gəncə elindən,***
***Rəqiblərin xatir evi xoş olsun!***
***Bu ayrılıq bizə gəldi mövladan,***
***Ağlayalım, gözlərimiz yaş olsun!***

***Əcəb ayrı düşdüm nazlı yarımdan,***
***Yolunda keçdiyim canü-sərimdən,***
***Yazı belə gəlib Mövla Kərimdən,***
***Aşiq gərək min bəlaya tuş olsun!***

***Üzümə gülərdi, bilməzdim fəndin,***
***Qeyriyə açacaq köksünün bəndin,***
***Mən əmə bilmədim ləbinin qəndin,***
***Yağı rəqiblərin könlü xoş olsun.***

***Oğrun-oğrun dost bağına girmədim,***
***Əl uzadıb qonça gülün dərmədim,***
***Yarı otağında tənha görmədim,***
***Gündüz xəyal, gecələri duş olsun!***

***Bəylər oynar şətrəncini, nərdini,***
***Kimsə bilməz ürəyimin dərdini,***
***Çox çəkmişəm bu dərdlərin dördünü,***
***Qoy çəkəyim, bunun ilə beş olsun!***

***Siyah zülfü ağ üzünə yayılan,***
***Dal gərdəndə hər hörüyü bir ilan,***

***Yarı mənnən, məni yardan ayıran,***
***Görüm, onu bitməz dərdə tuş olsun!***

***Ərisin, dağların qarı ərisin,***
***Sel oluban, yer üzünü bürüsün,***
***Sürahilər dolsun, saqi yürüsün,***
***İçək badə, içək, bizə nuş olsun!***

***Kərəm gedər oldu bu el-obadan,***
***Yarı-yoldaş, unutmayın duadan,***
***İgid şahin uçurmuşam yuvadan,***
***Mən gedirəm, xatiriniz xoş olsun!***

Söz tamam oldu, Ziyad xan dedi:

– Oğul, sən məni bu qoca vaxtımda dağa-daşa salma. Açıq söylə görüm, nə eləmək istəyirsən?

Elə bu yerdə Kərəmin bir neçə dostları əhval-pürsanlığa gəldilər. Kərəm bunları görən kimi ürəyi kövrəldi, görək "Oğuzoğlu" havası üstündə nə dedi:

***Gedər oldum, yar-yoldaşım sağ olsun,***
***Bol olsun çörəyi, aşı dünyanın!***
***Bundan sonra dərdləriniz durulsun,***
***Sürmələnsin gözü, qaşı dünyanın!***

***Ərənlər qoyduğu yolları seçdim,***
***Dolduruban, eşqin badəsin içdim,***
***Bir belə sevdayçın sərimnən keçdim,***
***Ləli-gövhər olsun daşı dünyanın!***

***Bağla bostan olsun çöllər, səhralar,***
***Bal ilə yağ olsun yeddi dəryalar,***
***Meyvə versin bütün dağlar, ovalar,***
***İstərəm, yaz olsun qışı dünyanın!***

***Dərdli Kərəm deyər: dünya fanidi,***
***Neçələrin edib abdal, yürüdü.***
***Kimsə bilməz nə zamandan bəridi,***
***Heç hesaba gəlməz yaşı dünyanın!***

Söz tamam oldu, Kərəm dedi:
– Ata, mənim dərdim Əsli xanın dərdidi.
Ziyad xan dedi:
– Oğul, sən gəl, o qızın eşqini ürəyindən sil! Mən Gəncədə könlün istədiyi qızı sənə alaram.
Kərəm dedi:
– Ata, mənə Əslidən qeyri gözəl lazım deyil. Mən gərək onu axtaram, tapam.
Ziyad xan dedi:
– Oğul, gəl, sən Qara Məliyin qızından ötrü diyari-qürbətə düşmə!
Kərəm dedi:
– Ata, izin ver, mənə gedim. Qürbət mənə xoşdu. Bəlkə, qismət ola, yarıma yetişəm.
Ziyad xan dedi:
– Oğul, sən ki, bu sevdadan əl çəkmirsən, get, Allah sənə yar olsun!
Kərəm atasının əlindən öpdü, Sofi ilə birlikdə anasının yanına getdi.
Anası bunu belə görəndə xəbər aldı:
– Oğlum, belə gəlməyinin məqsədi nədi?
Kərəm dedi:
– Ana can, izin ver saznan deyim.
Aldı Kərəm, görək anasına nə dedi:

***Qəm, qəzavət bu gün başa verildi,***
***Ağla, ana, ayrılığın günüdü!***
***Bizə qismət qərib ellər yazıldı,***
***Ağla, ana, ayrılığın günüdü!***

***Məni xar elədi elin dilləri,***
***Mən gedirəm, gözləməyin yolları.***

***Varıban gəzərəm qürbət elləri,***
***Ağla, ana, ayrılığın günüdü!***

***Fələk bizi daşa çalıb nə üzlər,***
***Ana, intizarda qalmasın gözlər.***
***Kərəm deyər: Əslim yolumu gözlər,***
***Ağla, ana, ayrılığın günüdü!***

Söz tamam oldu, Kərəm anasınnan halallıq alıb, Sofi ilə bərabər gəldi yoldaşlarının yanına, görək bunlarla "Ağır şərili" havası üstündə necə halallaşacaq:

***Yeni bir sevdadı, gəldi başıma,***
***Gəlin halallaşaq, mən gedər oldum.***
***Gəlib, ya gəlməyib, sizi görmərəm,***
***Gəlin, halallaşaq, mən gedər oldum.***

***Duz-çörək kəsdiyim qohum-qardaşlar,***
***Nədir bu fələyin etdiyi işlər?***
***Gözümdən tökdüyüm qan ilə yaşlar,***
***Gəlin, halallaşaq, mən gedər oldum.***

***Seyrağıba sirrinizi qıymayın,***
***Satqın gəlsə, bu yerlərə qoymayın,***
***Əsli gəlsə, Kərəm getdi, söyləyin,***
***Gəlin halallaşaq, mən gedər oldum.***

Söz tamam oldu, Kərəm öz dostları ilə görüşüb ayrıldı. Sofi ilə birlikdə yola düşdü. Nə gecə bildilər, nə gündüz bildilər, az getdilər, çox getdilər, gəlib, özlərini bir obaya yetirdilər. Onların başına çox adam toplandı. Kərəm sazı alıb, Əsli xanı görək bu adamlardan "Dubeyti" havası üstündə necə xəbər aldı:

*Nazlı yarımı qaçırtdım,*
*Ellər, xan Əslim gördüzmü?!*
*Bülbülü bağdan uçurtdum,*
*Güllər, xan Əslim gördüzmü?!*

*Bu gün bizim ellər köçər,*
*Ayağı bu yoldan keçər,*
*Çox gözəl bu sudan içər,*
*Göllər, xan Əslim gördüzmü?!*

*Əsli huridi bilənə,*
*Qoynu cənnətdi, girənə.*
*Gözləri bənzər ceyrana,*
*Çöllər, xan Əslim gördüzmü?!*

*Obaları oymaq-oymaq,*
*Olmaz imiş yardan doymaq.*
*Ağız süddü, dodaq qaymaq,*
*Dillər, xan Əslim gördüzmü?!*

*Zülfüdü hazar, səd hazar,*
*Nə gözəl dayanıb düzər,*
*Qürbət elə düşmüş, gəzər,*
*Yollar, xan Əslim gördüzmü?!*

*Gəldim, gördüm Əsli köçüb,*
*Atın sürüb burdan keçib,*
*Əyilib suyundan içib,*
*Sular, xan Əslim gördüzmü?!*

*Kərəməm, sübh-danım kimi,*
*Atlas geyər xanım kimi,*
*Mən sevirəm  canım kimi,*
*Ellər, xan Əslim gördüzmü?!*

Sofi gördü ki, Kərəmin oxumağından bunlar bir şey başa düşmədilər, dillə xəbər aldı:

– Qardaş, bu tərəflərdə qürbətlərə gedən bir köç görmədinizmi?

Bunlardan bir neçəsi Qara Məliyin Gürcüstana tərəf getdiyini söylədilər. Kərəmgil elə haman günü Gürcüstana tərəf getməyin binasın qoydular. Bir müddət yol getdilər, bir çölün düzündə göynən gedən bir qatar durna gördülər. Kərəm durnaları görən kimi, sazını sinəsinə basıb, görək durnalardan "Dərvişi" havası üstündə nə xəbər aldı:

***Qatar-qatar göy üzündə süzürsüz,***
***Əylən, durnam, əylən, xəbər sorayım.***
***Bizim yurddan nə xəbərlər bilirsiz?***
***Əylən, durnam, əylən, xəbər sorayım.***

***Bizim yerdə sərin bulaq axarmı?***
***Yaz gələndə bənövşələr qoxarmı?***
***Ala gözlüm seyrəngaha çıxarmı?***
***Əylən, durnam, əylən, xəbər sorayım.***

***Bitməzmi ağacı bizim bağların,***
***Əskik deyil hər cür gülü dağların,***
***Heç olurmu sənin gözəl çağların,***
***Əylən, durnam, əylən, xəbər sorayım.***

***Xan Əslimin seyrəngahı harada?***
***Haqq çatdırsın aşıqları murada.***
***Canım durna, nə gəzirsən burada?***
***Əylən, durnam, əylən, xəbər sorayım.***

***Dərdli Kərəm deyər: hardan gələrsiz,***
***Xan Əslimin yerin-yurdun bilərsiz?***
***Görsəz, ona məndən salam deyərsiz,***
***Əylən, durnam, əylən, xəbər sorayım.***

Kərəm sözün tamam elədi. Baxdı ki, durnalar hey dalbadal gedir, Sofiyə dedi:

– Sofi lələ, görürsənmi, bu durnalar bizim ellərə gedirlər. Qoy bunlarnan elimizə bir xəbər göndərim.

Kərəm bunu deyib, sazını basdı sinəsinə, telləri dilləndirdi, aldı, görək "Göyçə gözəlləməsi" havası üstündə nə dedi:

***Durnam, gedər olsan bizim ellərə,***
***Yaxşı söylə başdan keçən halları.***
***Qohum-qardaş, dost, müsahib olanlar,***
***Bundan sonra gözləməsin yolları.***

***Bir çıxaydım eyvanına, köşkünə,***
***Bir bataydım ənbərinə, müşkünə,***
***Adı bəlli Əsli xanım eşqinə,***
***Öldürərlər, durna, töksən telləri.***

***Kərəm deyər, heç kəs yarın öyməsin,***
***Əl uzadıb açam yaxa düyməsin.***
***Heç iyidin oxu daşa dəyməsin,***
***Yad olmasın mənim kimi elləri.***

Söz tamam oldu, yollarına davam elədilər. Bir müddət gedib, günlərin birində Gürcüstan sərhəddinə çatdılar. Baxdılar ki, burada böyük bir oba var. Obanın ahıl-cahılı qabağa çıxdı, salam-kalamdan sonra kim olduqlarını, hardan gəlib, hara getdiklərini soruşdular. Kərəm sazı sinəsinə basıb, özünü "Mansırı" havası üstündə belə nişan verdi:

***Fələk məni bağa bağban eylədi,***
***Bağban ağlar, bağça ağlar, gül ağlar.***
***Dost bağına axmaz oldu sularım,***
***Süsən ağlar, sünbül ağlar, sel ağlar.***

***Yarı tapam, xına yaxam əlinə,***
***Alıb gedəm Vətəninə, elinə.***

***Nə olar ki, sarılaydım belinə,***
***Kəmər ağlar, qaftan ağlar, bel ağlar.***

***Tərk eylədim Vətənimi, elimi,***
***Əlimdən aldılar qonça gülümü,***
***Onunçun qürbətə saldım yolumu,***
***Oba ağlar, Vətən ağlar, el ağlar.***

***Ördək kimi uçdum göldən-göllərə,***
***Ceyran kimi qaçdım çöldən-çöllərə,***
***Kərəm deyər, düşdüm bədnam dillərə,***
***Gələn ağlar, gedən ağlar, yol ağlar.***

Söz tamam oldu. Hamı Kərəmə afərin dedi. Sofi yığılanlardan Qara Məliyi xəbər aldı, dedilər:

– Axtardığınız adam Tiflisdə olur.

Kərəm oradan qalxıb, birbaş Tiflisə gəlməkdə olsun, eşit Qara Məlikdən.

Qara Məlik Gəncədən çıxıb, obaları, ölkələri dolana-dolana gəlib çatmışdı Tiflisə. Buranın knyazının yanına gəlib dedi:

– Mən qızımı bir müsəlman oğlunun əlindən götürüb qaçmışam. İzin ver, sənin ölkəndə yaşayım.

Qara Məlik köç-külfətiynən burada qalmaqda olsun, indi eşit Kərəmdən.

Kərəm gəlib lap şəhərin kənarına çatdı, gördü ki, bir dəstə cavan oğlan yaşıl çəməngahda çalıb-oxuyur, oynayır. Bunlar Kərəmi görən kimi ətrafını aldılar:

– Aşıq, gəl bizim üçün bir ağız oxu. Nə qədər pul istəsən verərik.

Kərəm dedi:

– Oxumağına oxuyaram, ancaq biz pul aşığı deyilik. Əgər mənə kömək eləmək istəyirsinizsə, soruşduğuma cavab verin.

Kərəm aldı, görək "Kərəmköçdü" havası üstündə nə dedi:

***Ey ağalar, gəlin sizə söyləyim,***
***İtirdim Əslimi, görən olmadı.***

***Pərvanələr kimi alışdım, yandım,***
***Məntək bu çöllərdə qalan olmadı.***

***Kim görmüşdü Fərhad ilə Şirini,***
***Onlar da sevdilər biri-birini,***
***Atdı külüngünü, yardı sərini,***
***Fərhad kimi yarçun ölən olmadı.***

***Xurşid öz Mahının dizinə yatdı,***
***Qənbər Arzusunun tozuna batdı,***
***Dünyada Şahsənəm murada çatdı,***
***Aşıq Qərib kimi gülən olmadı.***

***Ağ Qovaq qız Yürük bəyinin dəngi,***
***Şahismayılın yarı Ərəbzəngi,***
***Leyla da bir zaman Məcnunun dəngi,***
***Onlara da imdad olan olmadı.***

***Kərəm deyər, dağ döşündə oturdum,***
***Dərdim əlli ikən yüzə yetirdim,***
***Loğman, həkim nədir, cərrah gətirdim,***
***Di gəl, dərdlərimi bilən olmadı.***

Hamı yerbəyerdən Kərəmi alqışladı. Sofi bunlardan da Qara Məliyi xəbər aldı, dedilər:

– Aşıq, bizə bir məzəli dastan söylə. Elə dastan olsun ki, əsl olmasın, yalandan düzəlsin. Sonra soruşduğun yeri sənə deyək.

Kərəm alıb, görək "Sultanı" havası üstündə nə dedi:

***Gəzə-gəzə bir milçəyə tuş oldum,***
***Xəncər ilə tutub kəsdim başını.***
***Gücüm çatmadı ki, çəkib aparam,***
***Yeddi dağın üstə sərdim leşini.***

***Milçək vızıldadı, uçdu havaya,***
***Yağın süzdüm üç yüz altmış tavaya,***
***Yüklədim ətini doxsan dəvəyə,***
***Xotkar üçün göndərdim mən leşini.***

***Alıb onu bir meydana atdılar,***
***Ətin, yüz min tümən deyib, satdılar,***
***Sümüklərin yığıb, körpü çatdılar,***
***Hesab etdik, iki min il yaşını.***

***Ölçüb, gördüm, yeddi qarış dizi var,***
***Otuz xırmandan da böyük gözü var,***
***Dərisində yeddi qarış tozu var,***
***Hesablamaq olmur onun dişini.***

***Dərisindən çadır qurub oturduq,***
***Ətin kəsib, on küçəyə yetirdik,***
***İsfahandan bir minəxor gətirdik,***
***Açıban ağzını, saydı dişini.***

***Dırnaqların qırıb, tökdük dəriyə,***
***Budlarını yığdıq əlli kisəyə,***
***Qanadını yelkən çəkdik gəmiyə,***
***Fil burnundan uzun gördüm qaşını.***

***Mən görürəm qaranlıqda gələni,***
***Gəlibəni şirin canı alanı,***
***Dərdli Kərəm söylər belə yalanı,***
***Belə gördüm gözəllərin işini.***

Toplaşanlar Kərəmə afərin söylədilər. Qara Məliyin Tiflisdə olduğunu ona xəbər verdilər. Kərəmgil camaatla xudahafizləşib, yola düşdülər. Az getdilər, çox getdilər, Kür çayının kənarına çıxdılar. Kərəm baxdı ki, iki gözəl Kür çayının kənarında səyahət edir. Sazı sinəsinə mindirib, görək bu iki gözələ "Təbrizi" havası üstündə nə dedi:

***Cilvələnə-cilvələnə,***
***Nə gedirsiz qoşa, dilbər?!***
***Tanrı ayrılıq verməsin***
***Havadakı quşa, dilbər!***

***Xoşladım xəsyat, halını,***
***Ağ üzdə qara xalını,***
***Görəndə gül camalını,***
***Könül gəldi coşa, dilbər!***

***Sevdim sən kimi sonanı,***
***Qafil oxladın sinəmi,***
***Gözlərin qanlı haramı,***
***Qadağa ver qaşa, dilbər!***

***Bir ox atdım zərnişana,***
***O da getdi pərişana,***
***Dedim, bəlkə, bir yumşana,***
***Bağrı dönmüş daşa, dilbər!***

***Heyranıyam Əsli xanın,***
***Kərəm də olsun qurbanın,***
***Sənin bu dəli dövranın,***
***Varmaz hərgiz başa, dilbər!***

Kərəm sözünü tamama yetirib, qızlardan ayrıldı. Tiflis böyük, bunlar nabələd. Az gəzdilər, çox gəzdilər, gəlib bir qəhvəxanaya çatdılar. Qəhvəxanada olanlar onnan xahiş elədilər ki, Gürcüstanı tərif eləsin. Kərəm onların sözünü yerə salmayıb, aldı görək "Hüseyni" havası üstündə Gürcüstanı necə tərif elədi:

***Seyr elədim Gürcüstanın elini,***
***Elləri var – bizim elə bənzəməz.***

***Barlı bağçaları, qarlı dağları,***
***Gülləri var – bizim gülə bənzəməz.***

***Alimləri yazı yazar, mənadı,***
***Gülləri var – min dərdlərə davadı,***
***Gözəlləri, məhbubları əladı,***
***Malları var – bizim mala bənzəməz.***

***Başlarına keçə papaq qoyallar,***
***Çağıranda "modi, modi" deyəllər,***
***Gəlin, qızlar al-yaşılı geyəllər,***
***Dilləri var – bizim dilə bənzəməz.***

***Coşqun-coşqun çaylarını keçmişəm,***
***Sərin-sərin sularını içmişəm,***
***Kərəm deyər: dilbərlərin seçmişəm,***
***Halları var – bizim hala bənzəməz.***

Bəli, ordan-burdan bir qədər söhbət edib, çalıb-oxuyandan sonra, elə ki, gecə aralığa gəldi, məclis dağıldı, çayçı Kərəmdən xəbər aldı:

– Aşıq tayfası gəzəri olar. Deyin görüm, hardan gəlib, haraya getmək istəyirsiniz?

Sofi dedi:

– Biz sənin bildiyin aşıqlardan deyilik. Bu aşıq Ziyad xanın oğludu. Atasının vəziri Qara Məliyin qızına aşiq olub. O da qızını götürüb qaçıb. İndi biz diyar-qürbətə düşüb, onu axtarırıq.

Çayçı dedi:

– Siz axtardığınız Qara Məlik külfətiynən bizim qonşuluğumuzda olur.

Kərəm çayçıdan bu xəbəri eşidəndə çox şad oldu. Ayağa qalxdı ki, o saat gedib Əslini görsün, ancaq gecə olduğuna görə Sofigil onu qoymadılar. Çayçı onlara yer saldı. Sofi yerə girən kimi yuxuya getdi. Amma Kərəm yata bilmədi. Elə bil ki, yorğan-döşəyinə birə doldurmuşdular. Səhərə kimi gözlərinə çimir də gəlmədi. Elə ki, səhər açıldı,

Sofini dümsükləyib dedi:

– Sofi lələ, səhərdi, dur!

Bəli, hər ikisi durub şəhərə çıxdılar. Çayçının salıq verdiyi yol ilə gəlib Qara Məlik qalan evi tapdılar. Sofi qapını döydü. Qara Məlik qapını açdı. Kərəmi görən kimi dil-dodağı qurudu. Sofi dedi:

– Qara Məlik, sən özün bilirsən ki, Kərəm sənin qızına, qızın da Kərəmə aşiqdi. Sən, gəl, bizi çox incitmə, Əslini ver Kərəmə.

Qara Məlik əvvəl istədi çığır-bağır salsın. Gördü ki, hay-küy salsa yaxşı olmayacaq, yumşaqlıqnan dedi:

– Sofi, elədiyim işə mən özüm də peşiman olmuşam. Bir işdi düşüb. Gəlin içəri. Mən qızımı verdim Kərəmə. Ancaq bu gün bizdə qalın, səhər tezdən elə burda toyu elərik, qızı aparарsınız.

Qara Məlik qolunu Kərəmin boynuna salıb, üzündən öpdü. Onlara bir otaq verib rahatladı. Özü evdən çıxıb, şəhərin baş keşişinin yanına məsləhətə gəldi. Baş keşiş onun başına gələnlərə qulaq asıb dedi:

– Sən bu yerlərdə qalma! Elə bu gecə qaç get!

Qara Məlik burada qalsın, sizə xəbər verim Kərəmdən. O biri tərəfdən Kərəm axşamı saldı, düşdü Qara Məliyin həyətinə. Elə həyətə ayağını qoyan kimi, Əsli çıxdı onun qabağına. Kərəmin eşqi coşa gəldi, aldı, görək "Qarabağ qaytağı" havası üstündə nə dedi:

***Sallana-sallana çıxdı qarşıma,***
***Boyu sərv, yanaqları al Əsli!***
***Huridə, mələkdə tayı tapılmaz,***
***Dili şəkər, dodaqları bal Əsli!***

***Vəsməni çəkibdi qələm qaşına,***
***Ağ ipək çalmanı salıb başına,***
***Sinə bənzər ahu, ceyran döşünə,***
***Aç qolların, gəl boynuma sal, Əsli!***

***Kərəm deyər, yüz il sənə qul olum,***
***İzin ver, qapında mən nökər qalım,***
***Qismət olsun, səndən muradım alım,***
***Sən də mənnən muradını al, Əsli!***

İki həsrət, bir-birinə sarmaşdılar. Əsli öz başına gələnləri Kərəmə, Kərəm də başına gələnləri Əsliyə danışdı. Elə ki, söz gəldi Qara Məliyin bu gün Kərəmə verdiyi vədəyə, Əsli başladı ağlamağa. Kərəm onnan soruşdu:

– Bəs, nə üçün ağlayırsan?

Əsli dedi:

– Kərəmcan, atam səni aldadır. O məni sənə verən deyil. Qorxum budu, o, bu gecə məni burdan qaçırda.

Kərəm dedi:

– Yox, Əsli, o daha verdiyi bu sözdən qaçmaz.

Hər iki həsrətkeş görüşüb, bir-birindən ayrıldılar. Kərəm ilə Sofi ürəkləri arxayın gecəni yatmaqda olsunlar, sənə deyim namərd Qara Məlikdən.

Qara Məlik gecəni araya salıb, köç-külfətini yığışdırdı, Ərzurma yola düşdü. Yazıq Əsli nə qədər vurnuxdusa, nə atasının qorxusundan dad-fəryad eyləyə bildi, nə də Kərəmə xəbər çatdıra bildi.

Səhər açıldı. Kərəmlə Sofi gördülər ki, lələ köçüb, yurdu boş, Qara Məlik yenə də qaçıb. Kərəmin ürəyi qubar elədi, aldı sazı "Ruhani" havası üstündə görək nə dedi:

***Dolaşsın əyyamın, dönsün dövranın,***
***Qoymadın yetişim murada, fələk!***
***Qurumaz göz yaşım, açılmaz könlüm,***
***Düşmüsən məninən inada, fələk!***

***Cəbrinə siz baxın çərxi-qəhharın,***
***Zülmünü artırdı mən dil-əfkarın.***
***Cəfasın mən çəkdim gülüzlü yarın,***
***Axır nəsib etdin xoryada, fələk!***

***Əlimdən almısan huri, mələyim,***
***Eşq oduna yandırmısan ürəyim,***
***Axırda səninlə düşər gileyim,***
***Tökülər nahaq qan arada, fələk!***

***Kərəm deyər, yarsız burda neylərəm,***
***Əbəsdi ki, bu sözləri söylərəm,***
***Məhşərdə əlinnən şükur eylərəm,***
***Onsuz deyil, yetər imdada, fələk!***

Söz tamama yetdi. Sofi dedi:

– Kərəm, ağlamaqdan bir şey çıxmaz. Dur, gedək, xurcunlarımızı götürək, Əslinin dalınca yollanaq.

Durub birbaş düşdükləri qəhvəxanaya gəldilər. Camaat onları belə görüb, səbəbini soruşdu. Sofi Əslinin atasının onları necə aldadıb qızı qaçırtdığından danışdı. Kərəmin dərdi təzələndi, aldı "Naxçıvanı" havası üstündə görək nə dedi:

***Bir od düşdü, ürəyimi teylədi,***
***Od tutuban cismim, yandım, ağlaram.***
***Qara Məlik yenə hiylə eylədi,***
***Murdar hiylələrin qandım, ağlaram.***

***Könlüm istər gözəllərin mərdinnən,***
***Qurtarmadım mən bu zülmün dərdinnən,***
***Aman lələ, Əsli köçüb yurdunnan,***
***İndi ona mən inandım, ağlaram.***

***Həkim yox, loğman yox, dərdimi qana,***
***Əriyibdi bağrım, dönübdü qana,***
***Az qalıbdı Kərəm oddana, yana,***
***Od tutub bədənim, yandım, ağlaram.***

Camaat yerbəyerdən Qara Məliyin dalısınca deyindi. Dedilər:

– Sən gəl, qal bizim bu yerlərdə. Sənə bəyəndiyin qızı alaq, toyunu eyləyək. O qızda nə görübsən ki, əl çəkə bilmirsən?

Kərəm sazı döşünə basıb "Vaqifi" havası üstündə dedi:

*Əslim getdi Gürcüstanın elinnən,*
*Mənim burda qalışıma nə dersiz?*
*İkidilli hərcayının əlinnən,*
*Saralıban soluşuma nə dersiz?*

*Bayram gələ, xına yaxam dəstimə,*
*Salam verəm yarənimə, dostuma,*
*Xəstə olsam, Əsli gəlməz üstümə,*
*Qərib-qərib ölüşümə nə dersiz?*

*Məcnun Leyli üçün çəkdi cəfanı,*
*Qərib Şahsənəmlə sürdü səfanı,*
*Arayıb da tapdım mən bivəfanı,*
*İndi də ayrılışıma nə dersiz?*

*Bir zülfünə asılayım, dar deyə,*
*Qonça gülə sarılayım, xar deyə,*
*Mənim burda tuti dillim var deyə,*
*Gedib-gedib, gəlişimə nə dersiz?*

*Səhər ilə ikindinin arası,*
*Aldı məni qaşlarının qarası,*
*Kimsə bilməz nədi dərdim çarası,*
*Məlul-məlul baxışıma nə dersiz?*

*Mən Kərəməm, Kərəmliyim bildirdim,*
*Dostu ağladıb, düşmənimi güldürdüm,*
*Uzun boylu xan Əslimi aldırdım,*
*Arsız-arsız gülüşümə nə dersiz?*

Söz tamam oldu. Kərəm sazla, sözlə dediyi kimi, dillə də dedi ki:

– Sağ olun, qardaşlar! Ancaq mən öz Əslimi tapmalıyam.

Sofi xurcunu götürdü, camaatla halal-hümmət eləyib yola düşdülər. Az getmişdilər, bəzirgan qəflə qatırına rast gəldilər. Kərəm sazını götürüb bəzirganbaşından Əslini "Bəhməni" havası üstündə xəbər aldı:

Aldı Kərəm:

***Başına döndüyüm, ay xoca qardaş,***
***Aman xoca, Əsli xanı gördünmü?***
***Axır gözlərimdən sel tək qanlı yaş,***
***Aman  xoca, Əsli xanı gördünmü?***

Aldı Xoca:

***Başına döndüyüm, gül üzlü cavan,***
***Oğlan, səni bir qız deyib ağlardı.***
***Ala gözlərinə mən oldum heyran,***
***Oğlan, səni bir qız deyib ağlardı.***

Aldı Kərəm:

***Ağ üzündə qoşa-qoşa xalı var,***
***Əmmək üçün ləblərinin balı var,***
***Sağrı başmağının gümüş alı var,***
***Aman  xoca, Əsli xanı gördünmü?***

Aldı Xoca:

***Yeriyəndə kətan köynək dizindən,***
***Danışanda dür tökülür sözündən,***
***Onu görcək mən də getdim özümdən,***
***Oğlan, səni bir qız deyib ağlardı.***

Aldı Kərəm:

***Kərəm basdı Gəncəbasar düzünü,***
***Siyah sürmə məst eylədi gözünü.***
***Qara Məlik aldı, qaçdı qızını,***
***Aman  xoca, Əsli xanı gördünmü?***

Xoca:

***Nədən getməz bizim dağın dumanı,***
***Haqq götürsün aralıqdan yamanı.***
***Pis yerində qoyma sən, gəl xocanı,***
***Oğlan, səni bir qız deyib ağlardı.***

Xoca dillə də Əslinin sözlərini onlara söylədi. Kərəmlə Sofi xocadan ayrıldı. Şəhərdən çıxıb bir az getmişdilər ki, Gürcüstanın əyri-üyrü cığırları, yolları başlandı. Kərəm dedi:

– Sofi, dayan, xan Əslimi bu yollardan xəbər alım.

Sofi dayandı, Kərəm alıb sazını, görək Əsli xanı yollardan "Sulduzu" havası üstündə necə xəbər aldı:

***Əyrim-üyrüm gedən yollar,***
***Yollar, Əslimi gördüzmü?***
***Düşmüşəm yarım izinə,***
***İzlər, Əslimi gördüzmü?***

***Əyninə geyibdi saya,***
***Yanında var bir cüt maya,***
***Sənnən xəbər alım, qaya,***
***Qaya, Əslimi gördüzmü?***

***Əslimin keçdiyi yurdlar,***
***Kərəmin çəkdiyi dərdlər,***
***Qoyunları yeyən qurdlar,***
***Qurdlar, Əslimi gördüzmü?***

Az getdilər, çox getdilər, dərə-təpə düz getdilər, günlərin birində bir uca dağın ətəyinə çıxdılar. Baxdılar ki, bu dağın başı qar, ətəkləri isə çəmənlik, bağ-bağçadı. Təzəcə dağın gədiyindən aşmaq istəyirdilər, duman, çən bunları elə qapladı ki, yolu itirdilər, bilmədilər hara getsinlər. Kərəm gördü çovğun bunları öldürəcək, dedi:

– Amandı, Sofi qardaş, mənim sazımı ver. Burada ölüb, qurd-quşa yem olacağıq. Yarıma çatmayacağam.

Sofi sazı verdi. Aldı Kərəm, görək "Koroğlu dubeyti" havası üstündə nə dedi:

***Sənə deyim, Soltan dağı,***
***Nə dumandı başın sənin?!***

***Çiskin tökər, duman çökər,***
***Heç getməzmi qışın sənin?!***

***Dörd bir yannan bəst olmusan,***
***Dərdəmi tək məst olmusan?!***
***Cümlə dağdan üst olmusan,***
***Nə ucadı başın sənin?!***

***Əskik olmaz qarın, yağar,***
***Buludlar bir-birin boğar,***
***Sabah günəş sənə doğar,***
***Cavahirdi daşın sənin.***

***Alt yanın bağ ilə bostan,***
***O bir yanın gül-gülüstan,***
***Ayırdılar məni dostdan,***
***Ötər qərib quşun sənin.***

***Kərəm deyər: öldüm, itdim,***
***Bu fani dünyadan getdim,***
***Qocalardan sual etdim,***
***Kimsə bilməz yaşın sənin.***

Kərəm sözünü tamama yetirdi. Dağın başındakı duman çəkilib getdi, çovğun yatdı. Yolu tapıb gəlib bir obaya çıxdılar. Qara Məliyin olduğu yeri öyrənib ora gəldilər. Baxdılar ki, Əsli xan burda yoxdur. Kərəm bağçadan çıxarkan gördü ki, bir neçə qız əl-ələ verib gəzir. Onlardan biri Əsliyə bənzəyirdi. Kərəm dedi ki, sevgilim məni atıb burda seyr edir. Aldı sazı görək "Göyçəgülü" havası üstündə nə dedi:

***Ala gözlüm, mən bu yerdən gedərsəm,***
***Bir nişan verirəm, al, kərəm eylə.***
***Çox duz-çörək yedim yar, sənin ilə,***
***İndən belə xoşca qal, kərəm eylə!***

***Mən gedərsəm, qaraları bağlama,***
***Dərdli sinəmi atəşə dağlama,***
***Ayrılıq günüdü, əl çək, ağlama,***
***Gəl otur yanımda gül, kərəm eylə!***

***Bir də gedər isən görəcəkmisən?***
***Yıxılmış könlümü tikəcəkmisən?***
***Həsrətlik borcunu verəcəkmisən?***
***Gənc yaşında bunu bil, kərəm eylə!***

***Dərdli Kərəm deyir, var ömür keçir,***
***İnsan bir-bir əcəl şərbətin içir.***
***Yaradanım, məni havadan uçur,***
***Görəyim Əslini, gəl kərəm eylə.***

Qız Kərəmdən bu sözləri eşidəndə dedi:

– Oğlan, sən məni başqa qıza oxşadırsan, mən sənin axtardığın qız deyiləm.

Kərəm qızlardan Qara Məliyi soruşdu. Qızlar dedi:

– Qara Məlik köç-külfətiylə burdan köçüb getdi.

Kərəmgil yola davam edib, dərələrdən sel kimi, təpələrdən yel kimi gedib, bir çobana rast oldular. Kərəm Sofiyə dedi:

– Lələ, qoy bu çobandan Əslini soruşum.

Lələ dedi:

– Ə, çoban nə qanır, gedək.

Kərəm dedi:

– Yox, lələ, çobanların qananı çox olur, qoy soruşum.

Sofi dedi:

– Soruşursan soruş, amma ondan bir mətləb ala bilməyəcəksən.

Kərəm çobannan soruşdu:

– Çoban qardaş, səndən bir söz soruşsam, cavab verərsənmi?

Çoban dedi:

– Niyə cavab vermirəm, birini yox, ikisini soruş.

Kərəm dedi:

– Burdan bir karvan keçdimi?

Çoban dedi:

– Ə, karvan nədi, zad nədi? Məndən soruş, filankəsin binəsi hardadı?

Sofi dedi:

-Ə, başını ağrıtma, bundan bir şey çıxmaz.

Aldı Kərəm, "Ağır şərili" havası üstündə görək çobandan nə soruşdu:

***Başına döndüyüm, ay çoban qardaş,***
***Çoban, mənim xan Əslimi  gördünmü?***
***Ağlayıram, didəm tökür qanlı yaş,***
***Çoban, mənim xan Əslimi  gördünmü?***

Çoban dedi:

– Ə, niyə ağlayırsan, sözün var de, cavabını verim.

Kərəm dedi:

***Çoban, nə gözəldi qoyunların duruşu,***
***Bir ah çəksəm, qarlı dağlar alışı,***
***Sevgi sevgisiynən haçan görüşü?***
***Çoban, mənim xan Əslimi  gördünmü?***

Çoban dedi:

– Mənim qoyunumun duruşunun sənə nə azarı qalıb? Çox otarmışam, doyub durub, sözün var, sözünü de. Min yol ah çəksən, yenə də dağlar alışmayacaq. De görüm, kimin binəsini soruşursan?

Kərəm:

***Qara Məlikdi – Məryəm atası,***
***Kərəm tutar ona ölüncə yası.***
***Qızılgül dəstəsi, nərgiz butası,***
***Çoban, mənim xan Əslimi  gördünmü?***

Çoban dedi:

– Qara Məliyin köçünümü deyirsən? Boğazını səhərdən bundan ötrü yırtırsan? Yeddi gündü burdan keçib. Haman adam Xoy vilayətinə tərəf

getməyin binasın qoydu.

Kərəm yenə sazla çobana üzünü tutub, "Paşaköçdü" havası üstündə görək nə soruşdu:

***Qabağında otlar keçi,***
***Qarğıdan ayrılmaz saçı,***
***O Qara Məliyin köçü,***
***Çoban, burdan nə vaxt keçdi?***

Çoban:

***Köçləri qarışmaz köçə,***
***Saçı uzun, beli incə.***
***Təzəcə açılmış qönçə,***
***Burdan bir ağdaban keçdi.***

Kərəm:

***Qabağında otlar quzu,***
***Geyinib olub qırmızı.***
***O Qara Məliyin qızı,***
***Çoban, burdan nə vaxt keçdi?***

Çoban:

***Zər bilərzik əlindəydi,***
***Gümüş kəmər belindəydi,***
***Qırx incə qız yanındaydı,***
***Burdan bir canalan keçdi.***

Kərəm:

***Əridi dağların qarı,***
***Töküldü çaylara sarı.***
***O Əsli, Kərəmin yarı,***
***Çoban, burdan nə vaxt keçdi?***

Çoban:

***Çobanam, dedim özümdən,***
***Qanlı yaş tökdüm gözümdən,***

***Görəndə getdim özümdən,***
***Burdan bir natəvan keçdi.***

Kərəmlə Sofi çobanla sağollaşıb yola düşdülər. Kərəm baxdı ki, öz dağları uzaqdan görünür, ürəyi qubar elədi, aldı, görək "Baş sarıtel" havası üstündə nə dedi:

***Gəlib bahar, yaz ayları,***
***Sular axar indən belə.***
***Hər tərəfdən tuti, qumru,***
***Coşur, oxur indən belə.***

***Bülbül ötər həzin-həzin,***
***Cənnətə bənzər ilk yazın,***
***Bənövşə, çiçək yer üzün,***
***Əlvan eylər indən belə.***

***Ağaclar geyər donunu,***
***Haqqa çevirər yönünü,***
***Dərdli Kərəm Vətənini,***
***Anar, sızlar indən belə.***

Söz tamama yetdi. Kərəmgil yola düşdülər. Gecə-gündüz yol getdilər. Bir çay kənarına çatdılar, gördülər, qız-gəlinlər paltar yuyurlar. Bunların içərisində bir gözəl gəlin var, gün kimi işıq verir. Kərəmin eşqi coşa gəldi, aldı, görək gəlinə "Yüngül şərili" havası üstündə nə dedi:

***Gedirkən bir gəlinə tuş oldum,***
***Yolçunu yolunnan eylər bu gəlin.***
***Görcək, niqabını atdı üzündən,***
***Yolçunu yolunnan eylər bu gəlin.***

***Mənim Əslim cənnətdəki huridi,***
***Bir ah çəksəm, dağı-daşı əridi,***

***Gözəllikdə huri, mələk, pəridi,***
***Yolçunu yolunnan eylər bu gəlin.***

***Bir ah çəksəm, dağlar-daşlar əriyər,***
***Nədi bu səndəki o siyah tellər?!***
***Xınalı barmaqlar, o nazik əllər,***
***Yolçunu yolunnan eylər bu gəlin.***

***Kərəm çəkər yar ucundan zilləti,***
***Bivəfa dost heç eyləməz mürvəti,***
***Üzün görən neylər dünya ləzzəti?***
***Yolçunu yolunnan eylər bu gəlin.***

***Bənzər Əslim cənnətdəki huriyə,***
***Ah çəkəndə dağlar, daşlar əriyə,***
***Dərdli Kərəm bu yollarda çürüyə,***
***Yolçunu yolunnan eylər bu gəlin.***

Qara Məliyi qız-gəlinlərdən soruşdular. Qızlar Qara onun üç-dörd gün qabaq köç-külfətlə çaydan keçib getdiyini xəbər verdilər. Kərəmgil onlardan ayrılıb getməyə başladı.

Az getmişdilər, çox getmişdilər, Kərəmin halı dəyişildi, ürəyi döyünməyə başladı, gözləri qaraldı. Ürəyində dedi: "Əslimə çatmayacağam, ölüb, qürbət ellərdə qalacağam". Aldı, halına münasib görək "Səməndəri" havası üstündə nələr söylədi:

***Haldan-hala düşən viran könlümün,***
***Hər məhləsində bir cahan əyləşmiş.***
***Gah şah, gəda olur, gah dana, nadan,***
***Gah hər məhləsində zindan əyləşmiş.***

***Bir məhəlləsində yeddilər, beşlər,***
***Bir məhəlləsində bəzirgan, işlər,***
***Bir məhəlləsində doqquz dərvişlər,***
***Bir məhəlləsində piran əyləşmiş.***

***Bir məhəlləsində canan can eylər,***
***Bir məhəlləsində gül fəğan eylər,***
***Bir məhəlləsində bülbül qan eylər,***
***Bir məhəlləsində gülşən əyləşmiş.***

***Bir məhəlləsində cəmalın görəm,***
***Bir məhəlləsində güllərin dərəm,***
***Bir məhəlləsində biçarə Kərəm,***
***Bir məhəlləsində canan əyləşmiş.***

Söz tamama yetdi. Yola düşüb, gecəni gündüzə qatıb, Ballıcaya gəldilər. Onların yanına çox adam toplandı. Sofi adamlardan Qara Məliyi soruşdu. Bir nəfər dedi:

– Ay canım, sizə nə olub ki, bir qızın dalınca düşübsünüz? Məgər dünyada qız yoxdu? O olmasın, başqası olsun.

Görək götürüb burda Kərəm "Kərəm şikəstəsi" havasında nə dedi:

***Ay ağalar, xan Əslimdən ayrıldım,***
***Məni öldürməli, döyməli deyin!***
***Gecə-gündüz ah edibən yanaram,***
***Məni öldürməli, döyməli deyin!***

***Bircə dəfə xatirini sormadım,***
***Keçdi ömrüm, muradına irmədim,***
***Fürsət əldə ikən dəmlər sürmədim,***
***Məni öldürməli, döyməli deyin!***

***Əlimdən aldırdım gözü alanı,***
***Onun üçün tərk eylədim silanı[1] ,***
***Başıma salmışam bunca bəlanı,***
***Məni öldürməli, döyməli deyin!***

---

***1. Silanı – vətəni, eli, yurdu anlamındadır.***

***Mən Kərəməm, eşq badəsin içirdim,***
***Bu sevdanı öz başımdan keçirdim,***
***Hayıf ki, Əslimi əldən uçurdum,***
***Məni öldürməli, döyməli deyin!***

Kərəm sözünü tamama yetirdi. Baxdılar ki, bu, doğurdan da sədaqətli aşiqdi. Qara Məliyin köçünün getdiyi yolu onlara göstərdilər. Kərəmgil gecəni orada qalıb, səhər tezdən yola düşdülər.

Bir az getmişdilər, sərin bir meh başladı. Meh qabaq tərəfdən əsirdi. Lap onların üzünə vururdu. Kərəm dedi:

– Sofi, dayan, mən xan Əslimi bu badi-səbadan xəbər alacağam.

Sazı köynəyindən çıxarıb, basdı bağrına, "Qəhrəmanı" havası üstündə dedi:

***Əylənmir ki, yardan xəbər sorayım,***
***Əsib-əsib gedən badi-səba hey!..***
***Qırılsın baisin qolu, qanadı,***
***Heç kimsə düşməsin yardan cida hey!..***

***Yudum qolbəndimi, bəyaz eylədim,***
***Sildim könül pasın, ayaz eylədim,***
***Mən qanlı fələyə niyaz eylədim,***
***Fələk mənə verdi çoxlu cəfa hey!..***

***Durmayıban axır çeşmimin yaşı,***
***Axdığı yerlərdə əridir daşı.***
***Belə imiş qanlı fələyin işi,***
***Nə şah bilir, nə xan, nə də gəda, hey!..***

***Mən Kərəməm, xoryatlara tay oldum,***
***Bivəfa yar sevdim, əcəb bay oldum.***
***Ömür üzdüm, gün çürütdüm, zay oldum,***
***Məni boşaltdılar qabdan-qaba hey!..***

Bir az oturdular. Dinclərini alıb, yorğunluqlarını çıxartdıqdan sonra durub getməyin binasını qoydular. Az getdilər, çox getdilər, bir şəhər xarabalığına çıxdılar. Kərəm dayanıb dedi:

– Sofi lələ, bir zaman varmış ki, bu şəhərdə adamlar dövran sürürmüş. Dayan, soruşum, görüm bu şəhər niyə xaraba qalıb? Adamları necə olub?

Aldı Kərəm görək xaraba şəhərə "Sarıtorpaq" havası üstündə nə dedi:

***Səyyah olub, bu aləmi gəzərkən,***
***Rast gəlmişəm bu viranın daşına.***
***Söylə, viran, nə zamannan bərisən?***
***Nə gəlmişdi, nə gələcək başına?***

Kərəmin sözlərindən viran dilə gəlib dedi:

***Həzrət Nuhun zamanınnan bəriyəm,***
***Əmr-Haqla nələr gəldi başıma...***
***Başıma gələni söyləyim sənə,***
***Gör nə zəhər qatılıbdı aşıma.***

Aldı Kərəm:

***Kim eşitsə sənin ah ilə zarın,***
***Tərk eləyər əldə olanın, varın.***
***Neyçün xarab oldu çarsı-bazarın,***
***Ağıl irməz o xudanın işinə.***

Aldı viran:

***Üç yüz altmış çeşmələrim axardı,***
***Gözəllərim seyrangaha çıxardı,***
***Xanımlarım ləlü-gövhər taxardı,***
***Baxmazmısan xan yerində daşıma.***

Aldı Kərəm:

***Dərdli Kərəm, sənə viran söylədi,***
***Söylə, iyidlərin fələk neylədi?***
***Kimlər alıb səni viran eylədi?***
***Fələk niyə daşın saldı başına?***

Aldı viran:

***Çoxlu iyidlərim vardı burada,***
***Kimi saz çalardı, gəzib orada,***
***İndi viran olub, qaldım arada,***
***Viranam, onları çəkdim döşümə.***

Kərəm sözünü tamam eyləyib, getməyin binasını qoydu. Gedib, gedib, axşam çağı Çaloba deyilən bir yerə çıxdılar. Kərəm hər cür ağacnan, gülnən dolu, laləzar bir bağa girdi. Bağın içində bir dəstə qız çalıb-oxuyub, oynayırdı. Kərəm bu qızların içində Əsliyə bənzər bir qız gördü, dedi:

– Sofi, dayan bir qatar söz deyim, bu qız mənim xan Əslimə bənzəyir.

Kərəm, ürəyi dəmirçi kürəsi kimi alışıb yana-yana bu qıza "Orta sarıtel" havası üstündə görək nə dedi:

***Gözəllər çıxıblar seyrə,***
***Birisi Əslimə bənzər.***
***Al geyibən sallanışı,***
***Yerişi Əslimə bənzər.***

Kərəm belə deyəndə qız qulac saçlarını sinəsaz eləyib, görək Kərəmə bu sözünün müqabilində nə dedi:

***Uzaq eldən gələn aşıq,***
***Sənin Əslin mən deyiləm.***
***Çoxun dərdə salan aşıq,***
***Sənin Əslin mən deyiləm.***

Aldı Kərəm:

***Eşqin badəsini içdim,***
***Bulanıq çaylardan keçdim,***
***Bir qız gördüm, dərdə düşdüm,***
***Duruşu Əslimə bənzər.***

Aldı qız:

***Sözünü qanmışam əzəl,***
***Bağıma dəyməyib xəzəl,***
***Burdan keçib getdi gözəl,***
***Sənin Əslin mən deyiləm.***

Aldı Kərəm:

***Mənə müştaq qürbət ellər,***
***Gözyaşımı kimlər silər?***
***Kərəm ağlar, rəqib gülər,***
***Gülüşü Əslimə bənzər.***

Aldı qız:

***Sənin axtardığın Əsli,***
***Qara qaşlı, qara gözlü,***
***Mənim adım Xanımnazdı,***
***Sənin Əslin mən deyiləm.***

Söz tamam oldu, Kərəm Qara Məliyin köç-külfətini ondan da xəbər aldı, qız dedi:

– Sənin axtardığın adam bu gün köç-külfətinnən buradan köçüb, günçıxan tərəfə getdi.

Kərəm bu sözü qızdan eşidən kimi, sazı sinəsinə basıb, "Kərəm dubeyti"si üstündə görək Sofiyə nə dedi:

***Durma, gedək, Sofi lələ,***
***Yenə Əslim köç eyləyib.***
***Qan ağlaram bundan belə,***
***Yenə Əslim köç eyləyib.***

***Əslim elindən köçübdü,***
***Almalı dağdan keçibdi,***
***Daşbulaqdan su içibdi,***
***Yenə Əslim köç eyləyib.***

***Sofi, gəl, elə söyləmə,***
***Bağrımın başın teyləmə,***
***Gedirəm, yoldan eyləmə,***
***Yenə Əslim köç eyləyib.***

***Qarşımızda qarlı dağlar,***
***Könül məhəbbəti çağlar,***
***Əsli köçdü, Kərəm ağlar,***
***Yenə Əslim köç eyləyib.***

Kərəmgil oradan da qalxıb, bir neçə gün yol getdikdən sonra gəlib bir kəndə çıxdılar. Baxdılar ki, burada toy var. Kərəmin rəngi gül yarpağı kimi soldu.

Sofi xəbər aldı:

– Kərəm, sənə nə oldu?

Kərəm dedi:

– Zalım Qara Məlik Əslini ərə verib, bu toy da onun toyudu.

Sofi dedi:

– Gəl dalımcan, Allah kərimdi.

Sofi Kərəmi məclisə apardı. Məclis Kərəmi keçirdi yuxarı başa. Yemək yeyəndən sonra dedilər:

– Aşıq, bir az oxu, ürəyimiz açılsın.

Kərəm sazını əlinə aldı, ayağa qalxıb çalmaq istəyəndə gözü o biri otağa sataşdı, gördü bir gəlin oturub taxt üstə, qızlar da ona zinət verir, yəqin elədi ki, bu Əslidi. Götürüb "Turacı" havası üstündə dedi:

***Çıxar taxta, divan eylər,***
***Əsli, qaşların, gözlərin.***
***Gözümdən qan rəvan eylər,***
***Əsli, qaşların, gözlərin.***

***Şah kimi mətləb bitirər,***
***Hökmün yerinə yetirər,***
***Dilsizi dilə gətirər,***
***Əsli, qaşların, gözlərin.***

***Firqətin məni yandırar,***
***Dağı-daşı dolandırar.***
***Qapı-qapı diləndirər,***
***Əsli, qaşların, gözlərin.***

***Havada şahinə bənzər,***
***Yerdəki laçına bənzər,***
***Göydə göyərçinə bənzər,***
***Əsli, qaşların, gözlərin.***

***Gah ağladar, gah güldürər,***
***Gah gözəlliyin bildirər,***
***Axır Kərəmi öldürər,***
***Əsli, qaşların, gözlərin.***

Söz tamama yetdi. Hamı Kərəmin bu xoş avazına əhsən söylədi. Bir nəfər Kərəmə dedi:

– Ey aşıq, gəl, bizim eldə aşıqlıq elə, ev-eşik sahibi ol. Bizim ellər qərib sevəndi.

Kərəm bunu eşidəndə dedi:

– Ağalar, qulaq asın, bir qatar da sözüm var, deyim.

Dedilər:

– Buyur!

Görək, Kərəm "Dərbəndi" havası üstündə nələr söylədi:

***Tək bircə yarımı mənə versələr,***
***Bu fani dünyada malı neylərəm?***
***Bir imdad olursa, mövladan olsun,***
***Qeyrinin verdiyi malı neylərəm?***

***Uca dağ başında tərlanlar süzər,***
***Çöllərdə yaşılbaş sonalar üzər,***
***Əslinin yanağın bir cüt xal bəzər,***
***Qeyrinin verdiyi xalı neylərəm?***

***Kərəm deyər, mən nə idim, nə oldum.***
***Əslimin eşqindən saralıb, soldum.***
***Cismim tük gətirdi, Məcnuna döndüm,***
***Əslisiz mən cah-cəlalı neylərəm?***

Söz tamam oldu. Kərəmin dediyinnən məclis əhli bir şey başa düşmədi. Sofi işi belə görəndə dedi:

– Qardaşlar, bu Ziyad xanın oğludu. Öz vəzirləri Qara Məliyin qızına aşiq olub. Qız da buna aşiqdi. Atası xaçpərəst olduğu üçün qızını buna vermək istəməyib, götürüb qaçıb. Bizə dedilər ki, Qara Məlik gəlib bu kəndə yerləşib. Ona görə biz də buraya gəlmişik. Kərəm elə bildi ki, toy onun sevgilisinin toyudu.

Toybəyi dedi:

– Aşıq, bu, başqa adamın toyudu. Sənin axtardığın Qara Məlik köç-külfətiynən dünən burdan keçib getdi.

Kərəmlə Sofi gecəni burada qalıb, səhər tezdən durub yola düşdülər. Onlar getməkdə olsunlar, bu tərəfdən göydə bir qatar durna göründü. Kərəm aldı sazını, görək durnalara "Baş sarıtel" havası üstündə nə dedi:

***Durna, gedərsiz haraya,***
***Mənnən yara salam deyin!***
***Görsəz əgər butam ağlar,***
***Dönüb yara salam deyin!***

***Yolunuz gedir Ağdaşa,***
***Qarlı dağlar aşa-aşa,***
***Həm qohuma, həm qardaşa,***
***Həm diyara salam deyin!***

***Durna, telin şana-şana,***
***Həm o yana, həm bu yana,***
***Alın, sizə bir nişana,***
***Verim, yara salam deyin!***

***Dad seyraqıbın əlindən,***
***Aşın dağların belindən,***
***Dərdli Kərəmin dilindən,***
***Durnam, yara salam deyin!***

Kərəm sözünü tamamladı, yola davam elədilər, bir müddət yol gedib, bir obaya çatdılar. Kərəm obanın kənarında bir gözəl qız gördü. Bu qız o qədər gözəl idi ki, gün kimi hər tərəfə işıq salırdı. Qız keçib getdi. Bir dəstə ahıl-cahil Kərəmin ətrafına toplandı. Kərəm sazı sinəsinə basıb "Ovşarı" havası üstündə dedi:

***Sizin eldə mən bir gözəl görmüşəm,***
***Şoxu düşüb Gürcüstanın elinə.***
***Bülbül kimi şirin-şirin danışır,***
***Bal tökülür dəhanından dilinə.***

***Qadir mövlam verib xub camalını,***
***Onu sevən neylər dünya malını.***
***Qurşayıb kəmərlə incə belini,***
***Boyu bənzər uca sərvin dalına.***

***Kərəm deyər, mənim yarım incədi,***
***Dodaqları yarı açmış qonçadı,***
***Sünbül teli topuğundan ucadı,***
***Bir telin verməm dünya malına.***

***İnci, mirvaridi sədəf dişləri,***
***Qüdrətdən çəkilib kaman qaşları,***

***Dal gərdəndə qulac-qulac saçları,***
***Sarmaşır, dolanır incə belinə.***

***Mən Kərəməm, gecə qıllam zarımı,***
***Haqq canım almasın, çəkim çörini,***
***Yuxarıdan xəbər aldım yarımı,***
***Dedilər köçübdü Bayan elinə.***

Kərəm sözü tamam elədi. Sofi adamlardan Qara Məliyi xəbər aldı. Cavanlar onun Qarsa getdiyini xəbər verdilər. Kərəm yola rəvan olub, Qarsa tərəf getməyin binasını qoydu. Yolda yenə gördülər bir qatar da durna gedir. Kərəm Sofiyə dedi:

– Sofi lələ, qoy bu durnalardan da bir söz soruşum.

Aldı Kərəm, görək durnalara "İrəvan çuxuru" havası üstündə nə dedi:

***Göy üzündə bölük-bölük durnalar,***
***Nədi sizin əhvalınız, halınız?***
***Bir ərzi-hal yazım, yara yetirin,***
***Dost yanına düşər isə yolunuz.***

***Göydə şahin-şonqar görüb çaşarsız,***
***Ol uca dağları nə cür aşarsız?***
***Ovçu görən kimi, qanad çalarsız,***
***Qışda Qaramandı sizin eliniz.***

***Dərdli Kərəm deyər, uğradım dərdə,***
***Canım qurban olsun mərd oğlu mərdə.***
***Yazıq durna, nə gəzirsən bu yerdə?***
***Yoxmu sizin vətəniniz, eliniz?***

Az getdilər, çox getdilər, günlərin birində gəlib Qars şəhərinə çatdılar. Burada bir qarıya qonaq oldular. Adamlar hər tərəfdən tökülüb gəldilər. Qonağa xoş gəlmisiniz dedilər, onların əhvalını sordular. Kərəm sazını götürüb, toplaşanların suallarına "İbrahimi" havası üstündə belə

cavab verdi:

***Ay ağalar, necə olur***
***Halı yardan ayrılanın?***
***Axır düşər qürbət elə,***
***Yolu yardan ayrılanın.***

***Qərənfillər tutmaz imiş,***
***Gül tikansız bitməz imiş,***
***İşə-gücə getməz imiş***
***Əli yardan ayrılanın.***

***Şahinlər göyə çəkilir,***
***Durnalar gölə tökülür,***
***On beş yaşında bükülür***
***Beli yardan ayrılanın.***

***Kərəm, qocalar, deyərlər,***
***Bu yerdə ölər, deyərlər,***
***Dinməz, lal olar deyərlər –***
***Dili yardan ayrılanın.***

Adamlar Kərəmə dedilər:

– Aşıq, arzun nədi? Bizdən nə xələt istəyirsən?

Kərəm dedi:

– Mən xələt alan aşıqlardan deyiləm. Sizə bir qatar söz oxuyacağam, könlünüz şad olsun.

Götürüb “Cəlili” havası üstündə dedi:

***Qadir mövlam, budu səndən diləyim,***
***Bu gələn qışımız bahar, yaz ola.***
***Gündə otuz iki dövran eyləyə,***
***Əksinə çevrilib boran, tez ola.***

***Gündə min toyuğum yumurta sala,***
***Yaxşı kitab gərək hesabın ala,***

***Min bir qarğa göyərçin ola,***
***Bir dam dolu ördək ilə qaz ola.***

***Min dəfinəm dəryalarda qışlaya,***
***Qırx qulunlu min qısrağım kişnəyə,***
***Yanında iki yüz çoban işləyə,***
***Hər bir sürüsündə min beş yüz ola.***

***Dəli könlüm eşq oduna qalana,***
***Hey ağalar, sözüm yadda saxlana,***
***Doqquz tövlə atım hazır bağlana,***
***Bir-iki tovla da xam yağız[1] ola.***

***Dərdli Kərəm deyər, nə bilsin naşı,***
***Gözümnən axıtdım bu qədər yaşı,***
***Bir belə mal-mülkə maliksə kişi,***
***İranda-Turanda sözü söz ola.***

Sofi bunlardan da Qara Məliyi soruşdu. Dedilər:

– Qara Məlik buradan keçib, Bayazıda getdi.

Kərəmlə Sofi gecəni orada qaldılar, səhər tezdən yola düşüb getməyə başladılar. Kərəm dağ ətəyi ilə gedirdi. Gördü bu yerdə o qədər turac, kəklik var ki, o tərəfə-bu tərəfə uçuşurlar. Birdən-birə Kərəmin halı pərişan oldu. Sazı sinəsinə basıb, halına münasib görək "Bayramı" havası üstündə nə dedi:

***Aman fələk, kömək eylə bu gündə,***
***Nagah yerdə gəlib aldı dərd məni!***
***Gecə-gündüz oda yandım, alışdım,***
***Çapıban taladı, çaldı dərd məni!***

***1. Yağız – hələ minilməmiş, miniyə öyrədilməmiş at***

***Qürbət elə uca dağlar aşalı,***
***Ah etdikcə qara bağrım deşəli,***
***Mən Əslimdən ayrı düşdüm, düşəli,***
***Dəlik-dəlik etdi, dəldi dərd məni!***

***Fələk mənim ilə inad eylədi,***
***Qəm ilə hicrandı töhfən, söylədi.***
***Kəskin qılıncıyla bağrım teylədi,***
***Bölük-bölük etdi, böldü dərd məni.***

***Gecə-gündüz kəsməz gözümün yaşı,***
***Saldı qanlı fələk başıma daşı.***
***Ərzurum dağında keçirdim qışı,***
***Axır çöldən-çölə saldı dərd məni.***

***Bilməm xəyalımdı, yoxsa duş kimi,***
***Gəldi keçdi boran kimi, qış kimi,***
***Dərdli Kərəm yuvasında quş kimi,***
***Tutdu, yolum-yolum yoldu dərd məni.***

Söz tamam oldu, yollarına davam edib, mənzilbəmənzil axırda gəlib Altuya çıxdılar. Burada da xəbər tutdular ki, Qara Məlik Bayazıda gedib. Bir qədər çörəkdən-zaddan yeyib, Bayazıda tərəf getməyin binasını qoydular. Bir mənzil gedib Bayazıda çatdılar, Kərəm şəhərin kənarında dayandı, dönüb bir gəldiyi yola baxdı, sazı döşünə basıb "Dərbəndi" havası üstündə dedi:

***Sofi qardaş, üç məmləkət keçirdik,***
***Biri İran, biri Turan, bir Gilan.***
***İgidin başına üç dövlət qonar,***
***Biri ağıl, biri gənclik, biri şan.***

***Namərdin etdiyi belə də qalmaz,***
***İki məhbub qəlbi o, saya salmaz,***

***Bu dünya üzündə üç şey zay olmaz,***
***Bir yaxşılıq, biri elm, biri nan.***

***Dərd-qəm əlindən mən də bezaram,***
***Bu dərdləri qələm alıb yazaram,***
***Çox yerləri innən sonra gəzərəm,***
***Biri Tiflis, bir Bayazıd, biri Van.***

***Kaş ki, Kərəm muradına irəydi,***
***Qismət olub, yarın üzün görəydi,***
***Qadir mövlam mənə üç dərd verəydi,***
***Biri alış, biri tutuş, biri yan.***

Kərəm sözünü tamam eyləyib, yola başladı. Gəlib Van şəhərinə çatdılar. Şəhərin kənarında Kərəm dayandı. Adamlardan Qara Məliyin karvanının Ərdahana getdiyini öyrənib, yola düşdülər, uzaq yolu yaxın edib, Ərdahana çatdılar. Yenə Əsli Kərəmin yadına düşdü, aldı, görək "Hüseyni" havası üstündə nə dedi:

***Bizim eldən sürdüm, bura gətirdim,***
***Bu dağlardan aşan bir sonam təkdi.***
***Çiskin oldu, boran oldu, itirdim,***
***Bu dağlardan aşan bir sonam təkdi.***

***Enər, yerdə duman-çiskini bəslər,***
***Aşiq olan öz məşuqunu səslər,***
***Pis gündə dostunu atmaz mərd kəslər,***
***Bu dağlardan aşan bir sonam təkdi.***

***İtirdim Əslimi, durmaz, araram,***
***Kəsildi səbirim, həm yoxdu çaram,***
***Mən Kərəməm, eşq oduna yanaram,***
***Bu dağlardan aşan bir sonam təkdi.***

Kərəm adamlardan Əsligilin karvanını soruşdu. Adamlar onların dünən burdan keçdiyini xəbər verdilər. Bunlar yola düşüb, bir müddət yol getdilər. Bir dağın ətəyində bunların qabağına qırx haramı çıxdı, onları hər tərəfdən araya aldılar. Kərəm əhvalı belə görəndə sazı götürüb "Yanıq Kərəmi" havası üstündə dedi:

***Gecə-gündüz zarı-zarı ağlaram,***
***Məni vətənimə göndər, ya rəbbi!***
***Bu dünyaya gələn getmək üçündü,***
***Buradan qulunu qurtar, ya rəbbi!***

***Ya rəbbim, sən saxla könlümü qəmdən,***
***İtirdim ağlımı, can çıxmaz təndən.***
***Öldürərlər məni, yar gedər əldən,***
***Mənim halım sənə yetər, ya rəbbim!***

***Bu Kərəmi eşq oduna yandırma,***
***Sevdiyim qonçayı məndən aldırma.***
***Hey ağalar, elləri də güldürmə,***
***Qəlbinə mərhəmət yendir, ya rəbbi!***

Haramılar onları öldürməyib, soruşdular:

– Siz kimsiniz, hara gedirsiniz?

Kərəm dedi:

– Mən Ziyad xanın oğluyam. Qara Məliyin qızına aşiq olmuşam. O da qızını götürüb qaçıb. Onun dalınca düşmüşəm.

Haramılar bir-birinin üzünə baxıb dedilər:

– Var, get, aşıq, Allah səni muradına çatdırsın.

Kərəmlə Sofi bir qədər getdilər, bir şəhərə yaxınlaşanda Kərəm dayandı. Sofi dedi:

– Niyə dayanmısan?

Kərəm dedi:

– Birdən, Əsligilin karvanı burda olar?!

Sofi çox dedi, Kərəm az eşitdi, yerindən tərpənmədi. Sofi naəlac

Kərəmi orada qoydu, özü xəbər tutmaq üçün şəhərə getdi. Kərəm qaldı tək, qəm-qüssə onu çuğladı, sazı döşünə basıb "Baş sarıtel" havası üstündə dedi:

***Qəlbi havaynan uçarsan,***
***Endirəydim, könül, səni.***
***Budaq-budaq gül dalına,***
***Qonduraydım, könül, səni.***

***Uca dağlar uca olur,***
***Gündüz keçir, gecə olur,***
***Gör ayrılıq necə olur,***
***Qandıraydım, könül, səni.***

***Uca dağdan aşıraydım,***
***Vətəninnən köçürəydim,***
***Qürbət eldə düşürəydim,***
***Yandıraydım, könül, səni.***

***Ördəyi ovlarlar göldə,***
***Şahini bəslərlər qolda,***
***Bəzirgan keçdiyi yolda,***
***Endərəydim, könül, səni.***

***Dərdli Kərəm qan ağlayar,***
***Ürəyin çarpaz dağlayar,***
***Yaz, baharı yas saxlayar,***
***Güldürəydim, könül səni.***

Söz təzəcə tamam olmuşdu ki, Sofi gəldi, Qara Məlikgilin orada olmadığını xəbər verdi. Kərəmin ürəyi dəmirçi kürəsi kimi yanmağa başladı. Sazı döşünə basdı, üzünü yollara tutub, "Dilqəmi" havası üstündə dedi:

***Qasid, yardan yaman xəbər gətirdin,***
***Mənə nə əcayib hal oldu bu gün.***
***Bir olan dərdimi yüzə yetirdi,***
***Yandı qara bağrım, kül oldu bu gün.***

***Məcnun kimi gəzdim səhranı, dağı,***
***Fələk şərbətimi eylədi ağı,***
***Əydi qamətimi Əsli fərağı,***
***Tutuldu dillərim, lal oldu bu gün.***

***Mən Kərəməm, neyləmişəm, neyləyim,***
***Xəncər alıb, bağrım başın teyləyim.***
***Üz tutub qürbətə səfər eyləyim,***
***Qarlı dağlar mənə yol oldu bu gün.***

Oradan ayrılıb Həlrud dağına gəlib çıxdılar.

Kərəm dedi:

- Dayan bu dağa bir-iki kəlmə söz deyim, sonra yolumuza davam edək.

Aldı Kərəm, görək "Dərvişi" havası üstündə nə dedi:

***Başına döndüyüm yaradan Tanrı,***
***Yaratdın ortada nə gözəl yarı.***
***Dedim bu, Əslidi, geyib gülxarı,***
***Demədim gül ola, aldada məni.***

***Kəsib qabağımı getdikcə ruzgar,***
***Əsər çovğun, tökər göydən qar.***
***Dedim: sevən Əsli ola vəfadar,***
***Demədim əlində oynada məni.***

***Mən Kərəməm, Əsli xana qul oldum,***
***Yandım-yandım atəşinə, kül oldum.***
***Dövlətim dağıldı, gör, yoxsul oldum,***
***Axır möhtac etdi yar yada məni.***

Sofi gördü ki, Kərəmin halı çox pərişandı. İstədi ona təsəlli versin, dedi:

– Əzizim, yenə nə oldu sənə?

Kərəm sazı "Qaytarma" havası üstündə basdı sinəsinə:

***Sofi, nə sorursan mənim halımı?***
***Yardan ayrılanda şad olmaz könül.***
***Leylisin itirmiş Məcnuna döndüm,***
***Hər gecə papağı tac olmaz könül.***

***Bir dəm səyyah olur, qılınc qurşanır,***
***Bir dəm turab olub, yerə döşənir,***
***Bir dəm Haqdan qorxu çəkir, üşənir,***
***Bir dəm padşahnan bac olur könül.***

***Bir dəm göldə bitən qarğı, qamışdı,***
***Bir dəm bağçalarda dürlü yemişdi,***
***Bir dəm qızıl olur, bir dəm gümüşdü,***
***Bir dəm paslanır da, tunc olur könül.***

***Bir dəm piyadadı, bir dəm atlanır,***
***Bir dəm şəkər olur, bir dəm dadlanır,***
***Bir dəm olur, hər cəfaya qatlanır,***
***Bir dəm zəhərdən də acı olur könül.***

Kərəm sözü qurtarıb, ayağa qalxdı, yenə də getməyə başladılar. Gethaget, bir axşam gözəl bir kəndə gəlib çıxdılar. Elə Kərəmin çiynində saz görcək kənd əhli töküldü, onları hörmətnən, izzətnən bir evə apardılar. Bəli, qonaqlar yedilər-içdilər, ordan-burdan söhbət elədilər. Kərəmdən bir neçəsi oxumağını xahiş elədi. Kərəm ayağa qalxdı, sazı döşünə basıb, "Oğuzoğlu" havası üstündə görək nə oxudu:

***Ay həzarat, Əslim getdi əlimdən,***
***Qaldım burda ahu-zarın içində.***

***Bağı tutdu şeyda bülbül naləsi,***
***Bülbül bağrı yandı xarın içində.***

***Seyraqıbın fitnəsinə inandım,***
***Firqət nə olduğun sonradan qandım,***
***Yarın həsrətinnən alışdım, yandım,***
***Piltətək qovruldum narın içində.***

***Kərəməm, necoldu ulusum, elim,***
***Yar, yar söyləməkdən lal oldu dilim,***
***Xan Əslimdən ayrı büküldü belim,***
***Qaldım namus ilə arın içində.***

Məclis əhli Kərəmin belə yanqılı-yanqılı oxumağından pərişan olub, Sofidən soruşdular:

– Bu aşıq haralıdı? Niyə qəmli-qəmli oxuyur?

Sofi bütün əhvalatı əvvəldən axıra məclis əhlinə danışdı. Sofinin bu danışmağından Kərəmin ürəyi bir az da od tutub yanmağa başladı. Sazı sinəsinə basıb "Hicran Kərəmi" havası üstündə dedi:

***Ay ariflər, gəlin sizə söyləyim,***
***İstəkli dost mənnən aralı düşdü.***
***İllər həsrətiyəm, aylar ayrısı,***
***Sinəm bayğu kimi yaralı düşdü.***

***Yeniyetmə, on üç, on dörd yaşında,***
***Eybi yoxdu kirpiyində, qaşında,***
***Axşam-sabah bulaqların başında,***
***Yadıma dağların maralı düşdü.***

***Kərəməm, yollarım toz, qubar oldu,***
***Boran oldu, çovğun oldu, qar oldu,***
***Dost bağında heyva oldu, nar oldu,***
***Bu il bizim bağlar qoralı düşdü.***

Kərəm sözünü qurtarıb yola düşdü. Sofi də onun dalınca. Az getdilər, üz getdilər, gedib bir çayın kənarına çatdılar. Kərəm baxdı ki, sağ tərəf qaya, sol meşə, qabaqda çaydı. Dayanıb, Sofiyə dedi:

– Sofi lələ, əylən, bu yerlərdən Əsli xanı soruşum, bəlkə, bunlar bizə onun yerini dedilər.

Sofi dayandı. Aldı Kərəm, görək qayadan, meşədən, çaydan Əslini "Kərəm gözəlləməsi" havası üstündə nə cür soruşdu:

***Səndən xəbər alım, ay sarı qaya,***
***Mənim Əslim buralardan keçdimi?***
***Mübarək kölgənlə salıbsan saya,***
***Mənim Əslim buralardan keçdimi?***

Sarı qaya dilə gəlib, görək cavabında nə dedi:

***Sənə xəbər verim, aşıqlar xası,***
***Sənin Əslin burdan gəldi də getdi.***
***Yanındaydı atasıyla anası,***
***Ləpirin üzümə saldı da getdi.***

Aldı Kərəm:

***Səndən xəbər alım, ay qara meşə,***
***Qələmi qüdrətdən çəkilmiş qaşa,***
***Bürünmüsən dağa, daşa, bənövşə,***
***Mənim Əslim buralardan keçdimi?***

Meşə də dilə gəlib, Kərəmin cavabında dedi:

***Yarın saldı səni olmazın qəmə,***
***Dayanmazmı yaxşı iyid bu dəmə?***
***Günəş kimi qondu mənim sinəmə,***
***Əsli məndə bir gün aldı da getdi.***

Kərəm üzünü tutdu çaya:

***Abi-həyat kimi daim axarsan,***
***Haqqın camalına hərdən baxarsan,***
***Dolana-dolana evlər yıxarsan,***
***Mənim Əslim buralardan keçdimi?***

Çay da dilə gəlib, Kərəmə belə cavab verdi:

***Kərəm saxlar onun həmişə yasın,***
***Yanına almışdı ata-anasın,***
***Həm içib, həmi də doldurdu tasın,***
***Atların suyuma saldı da getdi.***

Söz tamama yetdi. Kərəm o yana-bu yana baxıb, gördü çayın üstündə bir körpü var. Gəldi körpünün yanına. Sazı döşünə basdı, üzünü tutdu körpüyə, aldı, görək "Şahsevəni" havası üstündə nə dedi:

***Yolum gəldi sənə çıxdı,***
***Körpü, Əslimi gördünmü?***
***Seyraqıblar məni yıxdı,***
***Körpü, Əslimi gördünmü?***

***Qara qayadandı daşın,***
***Bəlli deyil sənin yaşın,***
***Əskik olmaz tər savaşın,***
***Körpü, Əslimi gördünmü?***

***Dərdli Kərəm gəlib durar,***
***Qul kimi boynunu burar,***
***Əsli xanı səndən sorar,***
***Körpü, Əslimi gördünmü?***

Kərəm sözünü müxtəsər eyləyib, getmək istəyirdi ki, birdən qabaqlarına bir ceyran çıxdı. Kərəm ceyranı görən kimi sazını mindirdi sinəsinə, görək ceyrandan Əslini "Hüseyni" havası üstündə nə cür xəbər aldı:

***Səndən xəbər alım, ay gözəl ceyran,***
***Mənim Əslim buralardan keçdimi?***
***Minib eşq səməndin, olmusan rəvan,***
***Çoban körpüsündən bir su içdimi?***

Kərəm belə deyəndə ceyran dilə gəlib, görək nə cavab verdi:

***Sənə xəbər verim, ay cavan oğlan,***
***Əsli anasilə düşdülər yola.***
***Bir səhər vaxtında gördüm ki, burdan,***
***Yanında atası keçdilər sola.***

Aldı Kərəm:

***Bu ayrılıq əydi mənim qəddimi,***
***Ağır eldə bədnam etdi adımı,***
***Kərəm gəlsin, məni tapsın dedimi?***
***Gizli-gizli sirrin sənə açdımı?***

Ceyran:

***Murada yetirsin səni yaradan,***
***Seyraqıblar görüm çıxsın aradan,***
***Sevdiciyin köçlə keçdi buradan,***
***Baxmadı Əsli xan nə sağ, nə sola.***

Aldı Kərəm:

***Nə zamandı bu yerlərdə durubsan,***
***Sınıq könlüm qara daşa vurubsan,***
***Əsli xanı sən ağlarmı görübsən?***
***Yoxsa, gülüb bu dağları aşdımı?***

Ceyran:

***Qadir mövlam heçdən yaratmış bizi,***
***Gecəyə qatdılar günlü gündüzü.***
***Kərəm, Əsli xanın axırkı sözü:***
***Ərzuruma varsa, könlüm xoş ola.***

Kərəm oradan çıxıb getməyin binasını qoydu. Bir qədər getmişdilər, bir də gördülər ki, göy üzündə bir durna tək-tənha süzüb gedir. Kərəm Sofini saxlayıb, görək durnaya "Hicran Kərəmi" havası üstündə nə dedi:

***Göy üzündə süzüb gedən tək durna,***
***Qəmli-qəmli ötmə, könül şad deyil.***
***Sən də mənim təki yardan ayrıldın,***
***Qəmli-qəmli ötmə, könül şad deyil.***

***Məlul-məlul göy üzündə süzərsən,***
***Səyyah olub, ölkələri gəzərsən,***
***Süzüşündə xan Əslimə bənzərsən,***
***Qəmli-qəmli ötmə, könül şad deyil.***

***Dərdli Kərəm atdı namus, arını,***
***Yolunda sərf etdi bütün varını,***
***Hey axtarır, tapmır Əsli yarını,***
***Qəmli-qəmli ötmə, könül şad deyil.***

Söz tamam oldu, Sofi Kərəmi də alıb, birbaş Osmanlı torpağının Qeysəriyyə şəhərinə tərəf getməkdə olsun, sizə deyim Qara Məlikdən. Qara Məlik gündüzü gecəyə qatdı, gecəni gündüzə, gəlib çatdı Qeysəriyə şəhərinə, birbaş özünü paşanın yanına yetirib dedi:

– Mən bir müsəlman aşığın əlindən qızımı götürüb qaçmışam. Onun əlindən mənə dinclik yoxdu. İndi sizə pənah gətirmişəm. İzin ver, məmləkətində yaşayım. Ancaq bir şərtlə ki, haman aşıq gəlib buralara çıxsa, sənin rəiyyətin mənim evimi ona göstərməsin.

Paşa razı olub, ona xəlvət yerdə bir ev verdikdən sonra, əmr elədi

ki, başqa torpaqlardan bura Kərəm adında aşıq gəlsə, tutsunlar, hər kim də Qara Məliyin evini haman Kərəmə göstərsə, dar ağacından asılacaq.

Belə bir əmrdən sonra Əslinin atası paşadan çox razı qaldı. Şəhər əhli də göz-qulaq oldu ki, Osmanlı torpağına Kərəm adında kim gəlsə, tutub paşaya versinlər.

İndi keçək əsl mətləbə. Kərəmgil də bu səmtə yol alıb gedirdilər. Neçə gün, neçə gecə yol gəlib, bir qarlı dağın ətəyinə çatdılar. Bu dağlar Gəncə dağlarına yaman oxşayırdı. Kərəmin ürəyi coşa gəldi, aldı, görək "Zülfüqarı" havası üstündə nə dedi:

***Qarşı duran qarlı dağlar,***
***Dağlar bizim dağlarmola...***
***Ağ birçəkli qoca anam***
***Oğul deyib, ağlarmola...***

***Məkkədən gələn hacılar,***
***Ürəyimdə var acılar,***
***Evmizdəki cüt bacılar***
***Qardaş deyib, ağlarmola...***

***Fələk, nədi mənim xatam,***
***Nə məlulam, nə də şadam,***
***Ağ saqqallı qoca atam***
***Kərəm deyib, ağlarmola...***

Söz tamam oldu. Elə bunlar getmək istəyirdilər ki, birdən hava pozuldu, hər yeri duman-çiskin bürüdü. Şiddətli qar yağdı. Sofi halı belə görüb dedi:

– Aman Kərəm, ölüb burada qalacağıq. Gəl, geri dönək. Qış qurtarar, sonra gələrik.

Kərəm onun cavabında aldı, görək "İrəvan çuxuru" havası üstündə nə dedi:

***Dəli könül qalxdı, fəğan eylədi,***
***Gedəmməzsən, Kərəm, qışdı, geri dön!***

***Qalmadı macalım borandan, qışdan,***
***Gedəmməzsən, Kərəm, qışdı, geri dön!***

***Yağış yağır, yerin üzü yaş olar,***
***Çiskin olar, boran olar, qış olar,***
***Hava belə qalmaz, yenə xoş olar,***
***Gedəmməzsən, Kərəm, qışdı, geri dön!***

***Gedər qış əyyamı, görərik yazı,***
***Gülüstana dönər dağların üzü,***
***Ey fələk, nə olar, ağlatma bizi,***
***Gedəmməzsən, Kərəm, qışdı, geri dön!***

Hava açılmadı, daha da pisləşdi. Yolu itiridilər. Aldı Kərəm “Qaytarma” havası üstündə:

***Boranlı dağlarda yolum itirdim,***
***Çağırıram, aman fələk, aman hey!***
***Bir yanımda yağış yağar, qar səpər,***
***Bir yanımda çiskin, bulud, duman, hey!...***

***Axşam oldu, görəmmədim yolumu,***
***Soyuq aldı ayağımı, əlimi,***
***Gözüm altda aldım yenə ölümü,***
***Daha yoxdu sağlığıma güman, hey!...***

***Dağlar, hümmət edin, burda qalmayım,***
***Qalırsam da, qürbət eldə ölməyim,***
***Qarı düşmənlərə möhtac olmayım,***
***Aman fələk, mənim halım yaman, hey!...***

***Qurdlar, quşlar yığılarlar leşimə,***
***Baxmazlar gözümdən axan yaşıma.***
***Qürbət eldə bəla gələr başıma,***
***Doğru dönməz çərx-fələk, aman, hey!..***

***Dar günümdə kimsə yetməz fəryada,***
***Çovğunun əlinnən gəlmişəm dada,***
***Kərəm deyər, ölüm haqdı dünyada,***
***Axirətdə qarşı gəlsin iman hey!..***

Kərəm sözünü qutaran kimi şaqqıltı, gurultu qopdu. İldırım şığıdı. Kərəm sazı döşünə basıb “Ağır şərili” havası üstündə dedi:

***Aman fələk, budu sənnən diləyim,***
***Qoyma məni yarıyolda qış günü.***
***Kərəm eylə, bircə yapış əlimnən,***
***Yetir muradıma sən bu düşkünü.***

***Çovğun, boran alıb dörd bir yanımı,***
***Soyuq kəsib iliyimi, qanımı,***
***Vədəm tamamdısa, gəl al canımı,***
***Fələk, mənə minnət etmə beş günü.***

***Kərəməm, bir kimsə yetmədi dada,***
***Əsli bivəfadı, heç salmaz yada.***
***Ömrüm keçdi ahu-zarla dünyada,***
***Çox axtardım, bir görmədim xoş günü.***

Söz qutaran kimi, bir də gördülər ki, bir nurani kişi zühur oldu, dedi:
– Qəm eləməyin, darda qalmazsınız. Sizi dardan qurtaran tapılar. Yumun gözünüzü!
Kərəmlə Sofi gözlərini yumdular. Nə qədər keçdi bilmirəm, bir də nurani kişi dedi:
– Açın gözlərinizi!
Gözlərini açıb gördülər ki, bir basəfa yerdədilər. Nurani kişi zad da yoxdu. Amma yer nə yer... Elədi ki, gül gülü çağırır, bülbül bülbülü. Kərəm də göz dolandırıb gördü ki, ovçular iki quzulu bir ceyran vurublar. Ceyran balalarının yanında inildəyir. Qızıl qanı gülləri qıp-

qırmızı qızardıb. Kərəmin ürəyi qana döndü, aldı sazı, görək "Ovşarı" havası üstündə nə dedi:

***Mən, ay Sofi lələ, necə yanmayım?***
***Əsli xanın ceyranıdı bu ceyran.***
***İnsafdımı, əhvalını bilməyim,***
***Əsli xanın ceyranıdı bu ceyran.***

***Güllə dəyib bu ceyranın üzünə,***
***Qan tökülüb topuğuna, dizinə,***
***Gözü bənzər xan Əslinin gözünə,***
***Əsli xanın ceyranıdı bu ceyran.***

***Zalım ovçu bunu əldən salıbdı,***
***Dörd yanını qara qanlar alıbdı,***
***Kimsəsi yox, məlul, müşkül qalıbdı,***
***Əsli xanın ceyranıdı bu ceyran.***

***Yaraları köhnə deyil, təzədi,***
***Siyah sürmə ala gözə məzədi.***
***Bu ceyranı kim al qana bəzədi?***
***Əsli xanın ceyranıdı bu ceyran.***

***Kərəməm, düşmüşəm mən qürbət elə,***
***Seyrana çıxmışdı ceyranı çölə,***
***Ağlaram, sızlaram mən bundan belə,***
***Əsli xanın ceyranıdı bu ceyran.***

Elə bu dəmdə də gördülər ki, ovçular dağdan enib gəlirlər. Kərəm bunları görən kimi sazı götürüb, görək ovçuların gəlməyini ceyrana "Qaytarma" havası üstündə nə cür xəbər verdi:

***Sürə-sürə ovçu dağdan endirən,***
***Qaç, quzulu ceyran, yad ovçu gəldi.***

***Oxu ilə vurub torpağa sərən,***
***Qaç, quzulu ceyran, yad ovçu gəldi.***

***Gözəl çəmənlikdə ceyran sürüsü,***
***Sürüdən ayrılmış onun birisi,***
***Qana boyanıbdı gözəl dərisi,***
***Qaç, quzulu ceyran, yad ovçu gəldi.***

***Zalım ovçu düşmüş, gəlir izinə,***
***Al qanını axıtmış iki dizinə,***
***Milçəklər qonubdu qanlı üzünə,***
***Qaç, quzulu ceyran, yad ovçu gəldi.***

***Beləmi olur ovçuların bərəsi,***
***Qoltuğundan vurub, sızlar yarası,***
***Həkimə göstərib, yoxdu çarası,***
***Qaç, quzulu ceyran, yad ovçu gəldi.***

***Qova-qova endirdilər yazıya,***
***Tuş etdilər iti dişli tazıya,***
***İş müşküldü, gəl baxma sən quzuya,***
***Qaç, quzulu ceyran, yad ovçu gəldi.***

***Sürə-sürə yendirdilər dağlardan,***
***Al süsənli bağçalardan, bağlardan,***
***Kərəm deyər, keçdicəyim yollardan,***
***Qaç, quzulu ceyran, yad ovçu gəldi.***

Yaralı ceyran nə qədər elədisə, balalarını çəkib bir yana gedə bilmədi. Özü də balalarından ayrılmaq istəmirdi. Kərəm əhvalı belə görəndə ovçuların qabağına getdi. Ovçu ondan soruşdu:

– Buralarda bir yaralı ceyran görmədinizmi?

Kərəm başqa bir uçurum dərə göstərib dedi:

– Ceyran qaçıb o dərəyə getdi.

Ovçular dərə tərəfə yönəldilər. Kərəm gəlib ceyranın yaralarını bağladı, aparıb yaxındakı mağaraya qoydu. Sonra sazını dilləndirib, dərdli-dərdli "Dərvişi" havası üstündə oxumağa başladı:

***Bu səfər ayının yirmi beşində,***
***Bu dağda bir ceyran ağlar, inildər!***
***İki körpə quzu vardı döşündə,***
***Bu dağda bir ceyran ağlar, inildər!***

***Oxlar dəyib, onu candan salmışdı,***
***Dörd yanını qızıl qanlar almışdı,***
***Quzuları məlul, məhzum qalmışdı,***
***Bu dağda bir ceyran ağlar, inildər!***

***İnsan əcəb zalım oldu, qazılar,***
***Sinəsində yaraları sızılar,***
***Kərəm kimi öz yurdunu arzular,***
***Bu dağda bir ceyran ağlar, inildər!***

***Çoxlu ox yarası vardı canında,***
***Bir cüt balaları ağlar yanında,***
***Kərəm deyər, anası yox yanında,***
***Bu dağda bir ceyran ağlar, inildər!***

Sofi Kərəmi qaldırıb götürdü. Gəlib bir obaya çıxdılar. Kərəm bərk xəstələnmişdi. Obanın lap kənarına çatanda göydə bir dəstə durna göründü. Kərəm sazı götürüb, durnalarnan öz ellərinə "Göyçəgülü" havası üstündə görək nə sifariş elədi:

***Durna, gedər olsan bizim ellərə,***
***Qürbətdə bir xəstə gördüm deyərsiz.***
***Əgər sizdən sual edən olarsa,***
***Qürbətdə bir xəstə gördüm deyərsiz.***

***Mən uçardım, qanadlarım yoruldu,***
***Qürbət eldə qara bağrım qovruldu,***
***Xəstə düşdüm, indi belim qırıldı,***
***Qürbətdə bir xəstə gördüm deyərsiz.***

***Qürbət eldə məlul, məhzun olmuşam,***
***Eşqinə düşəli Məcnun olmuşam,***
***Bir saçı Leylayə məftun olmuşam,***
***Qürbətdə bir xəstə gördüm deyərsiz.***

***Xəstə düşdüm, kimsə bilməz halımı,***
***Əlimdən aldırdım qonça gülümü,***
***Nə diyarə tutum gedim yolumu?***
***Qürbətdə bir xəstə gördüm deyərsiz.***

***Dərdli Kərəm xəstə düşüb, inildər,***
***Ah etdikcə qulaqları cingildər,***
***Bəlkə, mövlam bizə imdada gələr,***
***Qürbətdə bir xəstə gördüm deyərsiz.***

Söz tamam oldu. Xəstəliyə baxmayıb, qalxıb, yenə də yola düşdülər. Bir qədər gedib, bir qəbiristana çatdılar. Qəbiristanı görən kimi Kərəm birtəhər oldu. Sazı döşünə basıb aldı, görək "Ağır şərili" havası üstündə nə dedi:

***Yenə Vətənimdən oldum didərgin,***
***Xəstə düşdüm, qürbət ellərdə qaldım.***
***Seyrağıblar aralıqda çoxaldı,***
***Artdı yamanlarım, fellərdə qaldım.***

***Yanaram, yanaram, tütünüm tütməz,***
***Ah çəkərəm, ahım kimsəyə yetməz.***
***Əslimin sevdası sərimdən getməz,***
***Əcəb rüsvay olub, dillərdə qaldım.***

***Kərəm indi satın gəzir ölümü,***
***Fələk qırdı qanadımı, qolumu,***
***Duman gəldi, azmı tutdu yolumu,***
***Çiskinli, boranlı çöllərdə qaldım.***

Söz təzəcə tamam olmuşdu ki, Kərəmin gözü yerə sataşdı. Gördü uçulub-dağılmış köhnə bir qəbrin içində bir quru kəllə var. Kərəm əyilib kəlləni götürdü, tozunu silib təmizlədi, o tərəf-bu tərəf baxıb dedi:

– Sofi lələ, bu quru kəlləni görürsənmi? Bir zaman bu da bizim kimi insan imiş. Bir zaman olacaq, biz də belə olacağıq. Qoy bundan bir neçə söz xəbər alım.

Aldı Kərəm, görək kəllədən "Müxəyi" havası üstündə nə soruşdu:

***Bir sual sorayım, xəbər ver mənə,***
***Sən də bu dünyada vardınmı, qafa?!***
***Heyvandınmı, insandınmı, nə idin?!***
***Dürlü meyvələrdən yerdinmi, qafa?!***

***Ayrılmış çənəsi, tökülmüş dişi,***
***Pozulmuş kirpiyi, süzülmüş qaşı,***
***Həmişə belədi fələyin işi,***
***Beş vaxt namazını qıldınmı, qafa?!***

***Baxmazmısan alnındakı yazıya,***
***Torpaq dolmuş qulağına, gözünə,***
***Heç uydunmu kor şeytanın sözünə,***
***Halal deyə, haram yedinmi, qafa?!***

Kərəm sözünü qurtaran kimi kəllə dilə gəldi, dedi:

***Dinlə, deyim gələn-keçən halımı,***
***Bir zaman dünyada mən də var idim.***
***Bir şah idim, bəla gəldi başıma,***
***Bütün əsrlərə yadigar idim.***

Aldı Kərəm:

***Qafa, bu dünyada, bir de, mərdmidin?***
***Dünya malı üçün yoxsa qurdmudun?***
***On-on beş yaşında bir iyidmidin?***
***Yoxsa, ağ saqqalı pirmidin, qafa?!***

Aldı kəllə:

***Mən bir güldüm, bağçalarda bitərdim,***
***Loğman idim, elmlərə yetərdim,***
***Altmış il yaşadım, yüz il yetirdim,***
***Şücaətli, adlı namidar idim.***

Aldı Kərəm:

***Qafa, bu dünyada yaxşı xasmıdın?!***
***Dünya malı üçün qara yasmıdın?!***
***Yedirməz, içirməz bir nakəsmidin?!***
***Süfrəsi meydanda ərmidin, qafa?!***

Aldı kəllə:

***Bilməz idim mən malımın hesabın,***
***Düşünməzdim heç axirət əzabın,***
***Aqibət nuş etdim əcəl şərabın,***
***Ölən vaxtda tamam ixtiyar idim.***

Aldı Kərəm:

***Dərdli Kərəm ah-zarını artırsın,***
***Cümlə müşkül işlərini bitirsin,***
***Nə zamandan bəri burda yatırsan?***
***Bu dünyada ölməm dermidin, qafa?!***

Aldı kəllə:

***Mən quru kəlləyəm, burda oturdum,***
***Sənin müşkül işlərini bitirdim.***
***Yüz on ildi mən bu yerdə yatırdım,***
***Mən də sənin kimi aşikar idim.***

Kəllə sözünün tamam eyləyən kimi dığırlana-dığrlana gedib genə girdi qəbirə, yox oldu. Kərəmgil yollarına davam elədilər. Qəbirsitandan çıxmağa az qalmış Kərəm gördü ki, bir cavan qız bir qəbirin yanında oturub ağlayır. Arabir durub qəbirin dörd tərəfinə dolanır, yenə oturub başlayır ağlamağa.

Kərəm sazını sinəsinə basıb, görək "Qobustanı" havası üstündə qıza nə deyəcək:

Aldı Kərəm:

***Qaşları mehrabı, gözləri yağı,***
***Ahu gözlüm, nə dönürsən məzarı?!***
***Aşığı bənd edər zülfü, dodağı,***
***Ahu gözlüm, nə dönürsən məzarı?!***

Kərəm belə deyəndə qız qalxıb, dal gərdəninə tökülmüş qulac saçından üç tel ayırıb, görək ona necə cavab verdi:

Aldı qız:

***Aşıq, nə sorursan mənim halımı,***
***Yar eşqilə dolanıram məzarı!***
***Nə müddətdi yandım firqət oduna,***
***Yar eşqilə dolanıram məzarı!***

Aldı Kərəm:

***Qaralar geyibsən, yasdadı başın,***
***Qüdrətdən çəkilib, qaradı qaşın,***
***Atanmı ölübdü, yoxsa qardaşın,***
***Ahu gözlüm, nə dönürsən məzarı?!***

Aldı qız:

***Qaralar geymişəm, yasdadı başım,***
***Qüdrətdən çəkilib, qaradı qaşım.***
***Nə atam ölübdü, nə də qardaşım,***
***Yar eşqilə dolanıram məzarı!***

Aldı Kərəm:

***Gün görmədim bu dünyaya gələli,***
***Ağlayıban gözüm yaşın siləli,***
***Neçə ildi sənin yarın öləli?***
***Ahu gözlüm, nə dönürsən məzarı?!***

Aldı qız:

***Payız olcaq bağçalarda gül solar,***
***Ağlayıban gözüm yaşı sel olar,***
***Sevdiciyim ölən yeddi il olar,***
***Yar eşqilə dolanıram məzarı!***

Aldı Kərəm:

***Qalxışıb sonalar, göllər quruyub,***
***Ətrafını çayır-çəmən bürüyüb,***
***Yeddi ilsə, indi yarın çürüyüb,***
***Ahu gözlüm, nə dönürsən məzarı?!***

Aldı qız:

***Əlimdən aldılar gülüzlü yarı,***
***Artdı ürəyimin qəmi, qubarı,***
***Ürəyimdə sönmür eşqimin narı,***
***Yar eşqilə dolanıram məzarı!***

Aldı Kərəm:

***Yeri hey, yeri hey, gözü harami,***
***Ürəyimdə qoydun dərdi, vərəmi,***
***Xan Əslimdən betər etdin Kərəmi,***
***Ahu gözlüm, nə dönürsən məzarı?!***

Aldı qız:

***Nazlı deyər: belə qoyduq ilqarı,***
***Ağlamaqdan ömrüm olubdu yarı,***

***Açın məzarını, bir görüm yarı,***
***Yar eşqilə dolanıram məzarı!***

Söz tamam oldu. Qız başladı ağlamağa. Kərəm başa düşdü ki, qəbirdəki qızın nişanlısıdı, onu zor-güc ilə qanlı fələk əlindən alıb. Kərəm qıza təskinlik verəndən sonra dedi:

– Gözəl qız, bu tərəflərdə köç-külfətli bir karvan görmədin?

Qız cavab vermədi. Kərəm nə qədər dedisə, qızdan cavab ala bilmədi. Baxdı ki, hər nə deyirsə, qız heç birisini eşitmir. Onun fikri elə qəbirdədi. Çar-naçar ondan ayrıldılar. Qəbiristanlıqdan keçib, az getdilər, çox getdilər, gəlib yenə bir uca dağın ətəyinə çatdılar. Kərəm dedi:

– Sofi qardaş, dayan, bundan söz xəbər alım.

Aldı Kərəm, görək "Yüngül şərili" havası üstündə dağa nə dedi:

***Başın üstə şahin-şonqar səslənər,***
***Alvız dağı, heç əskilməz dumanın.***
***Ətəyində tuti, qumru bəslənər,***
***Alvız dağı, heç əskilməz dumanın.***

***Tüpü, boran olur, yağış ələyir,***
***Meşədə dolanır maral, mələyir,***
***Kollarında tülkü, çaqqal ulayır,***
***Alvız dağı, heç əskilməz dumanın.***

***Sinəndə xarlanmış nəmli qar olur,***
***Alt yanında bağça olur, bar olur,***
***Alma olur, heyva olur, nar olur,***
***Alvız dağı, heç əskilməz dumanın.***

***Belində otlayır qoyunun, malın,***
***Hində, Hindistana bəllidi alın,***
***Karvanın, köç-qonun, cahın-cəlalın,***
***Alvız dağı, heç əskilməz dumanın.***

***Uca-uca qayan, yastı daşın var,***
***Şirin-şirin ötən min bir quşun var,***
***Kərəm kimi nə bəlalı başın var,***
***Alvız dağı, heç əskilməz dumanın.***

Kərəm sözünü tamam edən kimi, Alvız dağı bunlara yol verdi. Buradan keçib, günə bir mənzil gedib, yenə də bir bulaq başına çatdılar. Kərəm baxdı ki, burada bir dəstə qız zarafatlaşa-zarafatlaşa paltar yuyur. Qızlar Kərəmi görən kimi tutdular yaxasından ki:

– Aşıq, bizə bir-iki kəlmə söz de!

Aldı Kərəm, qızlara "Hüseyni" havası üstündə görək nə dedi:

***Bulaq kənarında paltar yuyanlar,***
***Eyni mənim xan Əslimə bənzərsiz.***
***Yuyub-yuyub gül dalına sərənlər,***
***Eyni mənim xan Əslimə bənzərsiz.***

***Əyricə qaşı var, ucu əyməli,***
***Kətan köynək geyib, köksü düyməli,***
***O da sizin kimi gözəl, öyməli,***
***Eyni mənim xan Əslimə bənzərsiz.***

***Kətan köynək geyib, güldən tazacək,***
***Bülbül sitəm eylər gülə yazacək,***
***O da sizin kimi bəyaz, nazicək,***
***Eyni mənim xan Əslimə bənzərsiz.***

***Kərəməm, dolandım, buraya gəldim,***
***Sizi görən kimi şad oldum, güldüm,***
***Daralmayın, qızlar, mən Əsli bildim,***
***Eyni mənim xan Əslimə bənzərsiz.***

Söz tamam olanda qızlar getməyə başladılar. Kərəmin gözləri yaşla doldu. Dəsmalını çıxardı ki, gözünün yaşını silə, baxanda gördü ki,

əlindəki Əsli xanın verdiyi dəsmaldı. Dərdi təzələndi. Aldı görək “Kərəm dubeytisi” havası üstündə nə dedi:

***İşvə-nazlı gözəllərə,***
***Çitədəydim, yaylıq, səni.***
***Şəkər sözlü gözəllərə,***
***Çitədəydim, yaylıq, səni.***

***Ceyran gedər dərəsinə,***
***Ovçu sinər bərəsinə,***
***Üç gözəlin birisinə,***
***Çitədəydim, yaylıq, səni.***

Kərəm belə oxuyanda qızlar geri qayıtdılar. Onun yanından keçəndə aldı görək Kərəm gerisində nə dedi:

***Canım qızlar, gözüm qızlar,***
***Sizi görcək yaram sızlar.***
***Yarım məni çox arzular,***
***Çitədəydim, yaylıq, səni.***

***Yaylıq, səni yar işlədi,***
***Ətrafını naxışladı,***
***Əslim mənə bağışladı,***
***Çitədəydim, yaylıq, səni.***

***Nə ola, xan Əslim gələ,***
***Müşkül işlərim düzələ.***
***Handa bir qəşəng gözələ,***
***Çitədəydim, yaylıq, səni.***

***Dərdli Kərəm deyər necə,***
***Dərdim min oldu getdikcə.***
***Harda bir gözəl gördükcə,***
***Çitədəydim, yaylıq, səni.***

Qızlar, gəlinlər hamısı Kərəmə afərin dedilər. Kərəmlə Sofi burada bir az dincəldikdən sonra yenə yolllarına davam elədilər. Günə bir mənzil gəlib, Ərzurumun gədiyinə çatdılar. Kərəm baxdı ki, hava qaralır, dedi:

– Sofi, dayan bu dağa bir-iki söz deyim, yoxsa bizə yol verməyəcək.

Sofi hirslənib dedi:

– Xeyr, lazım deyil. Heç nə demə! Elə hər dağa-daşa söz deyəcəksən?

Kərəm bir söz demədi. Yavaş-yavaş dağın başına çıxmağa başladılar. Elə aşırıma az qalmışdı ki, bir boran başladı, qar başladı, gəl görəsən. Kərəm dedi:

– Qoymadın dağa bir-iki söz deyim, bizə yol versin, indi ölüb burada qalacağıq.

Sofi işi belə görəndə başladı Kərəmə yalvarmağa:

– Aman, Kərəm, nə sözün var de, bəlkə, nicat tapaq.

Kərəm aldı sazı, "Kərəm şikəstəsi" havası üstündə dedi:

***Ərzurumun gədiyinə varanda,***
***Onda gördüm burum-burum qar gəlir.***
***Lələ dedi: gəl bu yoldan qayıdaq,***
***Dedim: Xan oğluyam, namusuma ar gəlir.***

***Əzəldən mayılam o ala gözə,***
***Darayıb zülfünü, töküb gül üzə,***
***Xocalar yük tutub çıxdılar düzə,***
***Elə bildim karvan ilə yar gəlir.***

***Kərəməm, qürbətə saldım yerimi,***
***Tərk elədim namusumu, arımı,***
***Viran, alma əldən nazlı yarımı,***
***Gen dünya başıma yenə dar gəlir.***

Söz tamam oldu. Amma ki, çovğun, boran getdikcə artdı. Duman, qar hər tərəfi elə aldı ki, elə bil gecə oldu. Kərəm aldı, bu hala münasib

“Mansırı” havası üstündə dedi:

***Ərzurumun gediyinə varanda,***
***Onda dedim, qadir mövlam, aman hey!***
***Hər tərəfdən çovğun, boran, bad əsər,***
***Tutmuş hər yanımı çiskin, duman, hey!***

***Bülbül qonar, yırğaladar dalını,***
***Ördək üzər, dalğaladar gölünü,***
***Xudam qırsın bədxahların belini,***
***İndən belə görüşə yox güman, hey!***

***Su duran yerləri sonam göl eylər,***
***Çeşmim yaşı giribandan sel eylər,***
***Bəzirganlar üstümüzdən yol eylər,***
***Onda mənim halım olar yaman, hey!***

***İgid gərək sər meydanda oynada,***
***Eşq atəşin sinəsində qaynada,***
***Hər kəs üçün ölüm haqdı dünyada,***
***Tapılmaya üstlərində cahan, hey!***

***Kərəm deyər: eşq qazanın qaynadan,***
***Geniş ovalarda köhlən oynadan,***
***Fəryad edib, çox analar ağladan,***
***Mən ağlayım yana-yana, aman, hey!***

Kərəm baxdı ki, dağ yol verməк istəmir. Ölüm gəldi durdu onun gözünün qabağında. “Ruhani” havası üstündə dedi:

***Bu dünyada üççə şeydən qorxum var:***
***Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!***
***Heç birindən əsla könlüm şad deyil –***
***Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!***

***Bağrım başın fələk nə çaldı daşa,***
***Yazılanlar gəlir bu qərib başa.***
***Həsrət qaldım elə, qohum-qardaşa,***
***Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!***

***Çox süleymanları taxtdan endirdi,***
***Neçələrin gül rəngini soldurdu,***
***Neçələrin gəlməz yola gətirdi,***
***Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!***

***Qəribin boyuna kəfən biçilməz,***
***Əcəl camı çox acıdı, içilməz,***
***Üç dərdim var, bir-birindən seçilməz –***
***Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!***

***Neçələrin qalasına od atdı,***
***Neçənin aşına zəhrimar qatdı,***
***Neçələrin cavan ikən qocaltdı,***
***Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!***

***Kərəm yar yolunda canından keçdi,***
***Qürbət eldə əcəl badəsin içdi,***
***Gül bağından bülbül qürbətə uçdu,***
***Bir ayrılıq, bir yoxsulluq, bir ölüm!***

Başladılar dağın döşü ilə yuxarı çıxmağa. Boran, çovğun daha da bərkidi. Sofi başladı ağlamağa. Kərəm ondan xəbər aldı:

– Lələ, nə üçün ağlayırsan?

Sofi dedi:

– Ağlamayım, neyləyim? Ölüb bu dağda qalacağıq, bədənimiz qurd-quşa yem olacaq. Gəl qayıdaq geri.

Kərəm dedi:

– Lələ, öldü var, döndü yoxdu. İstəyirsən, sən qayıt, mən tək gedəcəyəm. Ölərəm, ölərəm, qalaram, qalaram.

Sofi dedi:

– Mən səni tək hara buraxım? İndi ki, belə oldu, yeri gedək, görək başımıza nə gəlir.

Başladılar dağa çıxmağa. Yuxarılarda boran daha da şiddətləndi. Sofi Kərəmin sazını alıb "Bəhməni" havası üstündə dedi:

***Ərzurumun gediyinə varanda,***
***Onda gördüm burum-burum qar gəlir.***
***Dedim: Kərəm, gəl bu yoldan qayıdaq,***
***Gördüm xan oğludu, ona ar gəlir.***

***Duman, çiskin hər tərəfi bürüyüb,***
***Bədənimdə cismi-canım əriyib,***
***Dedim: Kərəm, kim bu yolda yarıyıb?***
***Gördüm ki, gen dünya sana dar gəlir.***

***Mən Sofiyəm, neyləmişəm, neylərəm...***
***Dərd əlindən qara bağrım teylərəm.***
***Loğman yoxdu, dərdim kimə söylərəm?***
***Hayıf, tərlan oylağına indi sar gəlir.***

Sofi elə zor-güc sözü qurtarıb yıxıldı. Kərəm gördü ki, Sofi gedə bilmir. Onu qucağına götürüb, birtəhər yalın başına çatdırdı, bir balaca qayanın dibində yerə qoydu, üstünə xurcundan-zaddan örtdü, özü də dili tutulmuş bir halda büzüşüb, bir tərəfdə oturdu. Birdən qayanın üstündəki qar yığını uçub, Kərəmin başına töküldü. Birtəhər ki, qarın altından çıxdı, üzünü Ərzrum dağlarına tutub "Sultanı" havası üstündə dedi:

***Ərzurumun alçaq-uca dağları,***
***Yaşılbaş sonalar uçsun gölündən.***
***Ağzım açıb, sənə qarğış eylərəm,***
***Qəbul olsun, hər nə çıxar dilimdən.***

***Duman-çiskin heç başacan getməsin!***
***Ağır ellər ətəyini tutmasın!***

***Yaz olanda gül-çiçəyin bitməsin!***
***Heç gözəllər iyləməsin gülündən!***

***Düşmən oldun, düşmənliyin bildirdin,***
***Bais olub, sən Sofini öldürdün.***
***Kərəm deyər: gözyaşımı sildirdin,***
***Aşdı Qara Məlik qarlı belindən.***

Söz qurtaran kimi, Sofi ayağa qalxdı, dizlərinə taqət gəldi. Kərəmgil day heç bilmədilər ki, qardı, borandı, ya nədi. Heç bilmədilər haraya gedirlər. Elə üzlərini bir tərəfə tutub, getməyə başladılar. Ta ki, gedib-gedib, Ərzuruma çatdılar. Burada da heç bir şey öyrənə bilməyib, düşdülər yolun ağına. Elə şəhərdən təzəcə çıxmışdılar ki, yol qabaqlarında üçlədi. Qaldılar mat-məhəttəl, bilmədilər yolların hansı ilə getsinlər. Kərəm sazı döşünə basıb bu hala münasib görək "İncəgülü" havası üstündə nə dedi:

***Ərzurumdan çıxdım, üç oldu yolum,***
***Mən bu yolun hankısına gedəyim?***
***Gecə-gündüz çağırıram yaradan,***
***Mən bu yolun hankısına gedəyim?***

***Aman lələ, necə oldu halımız,***
***Harda qaldı Vətənimiz, elimiz,***
***Ördək uçdu, viran qaldı gölümüz,***
***Mən bu yolun hankısına gedəyim?***

***Kərəm çəkər cəfa mərdi-mərdana,***
***Bivəfa əlindən gəlmişəm cana.***
***Bir kimsə yoxdu ki, yalvaram ona,***
***Mən bu yolun hankısına gedəyim?***

Kərəmgil burada yol axtarmaqda olsunlar, eşit Əslidən. Bir az əzəl dedik ki, Qara Məlik Qeysəridə Süleyman paşanın yanına gedib, başına

gələnlərin üstünə bir az da yalandan qondarıb, Kərəmi çox pisləmişdi. Süleyman paşa da dediklərinə inanıb, onunla dostlaşmışdı. Hər yerə də adam qoymuşdu ki, Qeysəriyə Kərəm adlı aşıq gəlsə, ona xəbər versinlər. İndi Qara Məlik köç-külfətiynən burada yaşamaqda olsun, eşit Qeysəri qızlarından.

Yaz fəsli idi deyin Qeysəri qızlarından bir dəstə seyrə çıxmışdı. Qızlardan biri dedi:

– Qızlar, burada Əsli adında qərib bir qız var, gəlin onu da özümüzlə aparaq, yazıqdı.

Yoldaşları razı oldular. Qızlar Əsli xanımın yanına gəlib dedilər:

– Əsli bacı, gəl, sən də qoşul bizə, seyrə çıxaq.

Əsli qızların könlün sındırmaq istəmədi. Amma ki, Qara Məlik bağçalarından bayıra çıxmağı Əsliyə qadağan eləmişdi. Odur ki, Əsli başqa bir yerə gedə bilməyib, qızlardan xahiş elədi ki, elə onların bağçalarında gəzsinlər. Qızlar razı oldular. İndi qızlar Əsligilin bağçalarında gəzməkdə olsunlar, eşit Kərəmdən.

Kərəm bir müddət yol gedib, Qeysəri şəhərinə çatdı. Üst-başı elə cırım-cındır idi ki, heç bilmirdi hara getsin. Yolu düşdü Əsligilin həmin bağçasının yanından. Gördü ki, burada bir dəstə qız çalıb-oxuyub, oynayır. Kərəm keçib getmək istəyəndə bir də gördü, budu, bağçadakı evdən bir qız çıxıb, yüz naz-qəmzə ilə qızlara tərəf gedir. Diqqətlə baxanda Əslini tanıdı. Daha heç bir söz deyə bilmədi. Sazını döşünə basdı, götürdü, görək "Qarabağ qaytağısı" üstündə nə dedi:

***Sallana-sallana çıxdı xanadan,***
***Ay həzərat, gedən ceyran mənimdi!***
***Qana-qana öyüd alıb anadan,***
***Ay həzərat, gedən ceyran mənimdi!***

***Mən nə deyim çarxı dönmüş fələyə,***
***Axır saldı məni olmaz kələyə,***
***Əslim bənzər behiştdəki mələyə,***
***Ay həzərat, gedən ceyran mənimdi!***

***Gah ağladar, gahdan məni güldürər,***
***Dəsmal alıb, göz yaşımı sildirər,***
***Kərəm deyər: bu dərd məni öldürər,***
***Ay həzərat, gedən ceyran mənimdi!***

Qızlardan biri onu görüb, qaçdı Əslinin yanına ki:

– Əsli bacı, bir yanşaq dayanıb bağçanın ağzında, elə yanıqlı-yanıqlı oxuyur ki..

Əsli dedi:

– Çağır gəlsin, bir az çalıb-oxusun, bəlkə, ürəyimiz açıla.

Qız gedib Kərəmi gətirdi. Kərəm Əsliyə tanış gəldi. Amma nə qədər baxdısa anşırda bilmədi. Ona görə anşırda bilmədi ki, Kərəmin üzünü-gözünü tük basmışdı, saçları uzanıb çiyninə tökülmüşdü. Özü də elə arıqlamışdı ki, bir dəri qalmışdı, bir sümük. Üst-başı da lap tökülüb cındırlaşmışdı.

Kərəm başa düşmüşdü ki, Əsli onu tanıya bilmir. Odu ki, onu bir də sınamaq üçün aldı, görək "Naxçıvanı" havası üstündə nə dedi:

***Yenə gördüm nazlı yarın üzünü,***
***Köhnə dərdin təzələndi yarası.***
***Nələr çəkdim sevdiyimin əlindən,***
***Bilməm nədi möhnətimin çarası?***

***Kətan köynək geyib lalədən nəzik,***
***Qonça cövr eləyir bülbülə yazıq.***
***Dərdü-qəm çəkirəm, üzüyəm, üzük,***
***Qıyma mənə, ay cigərim parası.***

***Kərəməm, qürbətə düşübdü yolum,***
***Dağları bürüyüb yağışım, dolum.***
***Könül ki, dönməyir, mən necə dönüm,***
***Bəndə salıb qaşlarının qarası.***

Söz tamama yetdi. Qızlar Kərəmə afərin söylədilər. Qızlardan biri

dedi:

– Bu yansaq çox yaralı-yaralı oxuyur. Deyəsən, çox böyük dərdi var. Özü də qərib adama oxşayır.

Əsli soruşdu:

– Aşıq, haralısan?

Kərəm gördü, yox, Əsli doğrudan da onu tanıya bilmir. Bir ah çəkib dedi:

– Qarabağdanam.

Qarabağ sözünü eşidən kimi, Əslinin gözləri yaşardı. Kərəmin üst-başına, üz-gözünə baxıb, bir ovuc pul çıxartdı ki:

– Aşıq, mən də Qarabağdanam. Al bu pulu, özünə pal-paltar al, belə gəzmə.

Əslinin sözləri Kərəmə güllə kimi dəydi. "Yanıq Kərəmi" havası üstündə dedi:

***Xəyyat mənə zəri-ziba biçərdi,***
***İndi çılpaq qaldım, Əslim, gül mənə!...***
***Bir zaman daş-qaşnan oynardı əlim,***
***İndi çilpaq qaldım, Əslim, gül mənə!...***

***Yar əlindən düyünlüyəm, dağlıyam,***
***Qürbət eldə dərdim kimə ağlıyam?***
***Aləm bilir, mən bir xanın oğluyam,***
***Baş əyərdi nökər, naib, qul mənə!***

***Quru yerdə üryan qaldı bədənim,***
***Mən öləndə kimlər tikər kəfənim?***
***Kərəm deyər: yada düşdü Vətənim,***
***Bələd yoxdu, göstərəydi yol mənə!***

Əsli dediyinə peşiman oldu. Onun ürəyin almaq üçün bir gül qoparıb dedi: – Aşıq, heç olmazsa, bu gülü al məndən.

Kərəm dedi:

– Xanım, qulaq as, gör nə deyirəm:

***Mən yazığı ağlar qoyan bivəfa,***
***Ağlayan kimsəyə gül nəyə lazım?***
***Gülə-gülə yıxdın atam evini,***
***Düşmənlikdə şirin dil nəyə lazım?***

Əsli xan Kərəmin sözünü kəsib dedi:

– Aşıq, sən qərib olduğun kimi, mən də qəribəm. Vətəndə mənim də gözüyaşlı bir məşuqum qalıb. Sözüm onda deyil. Bura yanşaqlarının geyimi başqa cür olur. Sən, gəl, bu pulu məndən al! İndi ki, paltar istəmirsən, yolda xərcləyərsən.

Kərəm aldı sözün o biri bəndini:

***Həsrətindən yandım, yandım kül oldum,***
***Alışdım, alışdım, muma dil oldum,***
***Xan oğluyam, özüm döndüm qul oldum,***
***Qul olan kimsəyə qul nəyə lazım?***

***Kərəmin ömrünü sən verdin zaya,***
***Münkür oldun, üz tutmadın xudaya,***
***Oldum xarabatı, düşdüm, səhraya,***
***Xarabat əhlinə yol nəyə lazım?***

Əsli Kərəmi tanıdı. Ürəyi tab gətirmədi, yıxılıb özündən getdi. Qızlar Kərəmi qovub, bağdan çıxardılar ki, sən bizim qərib qonağa nə dedin ki, o belə oldu. Sonra toplaşdılar. Əslinin yanına. Əsli ayılan kimi qızlardan soruşdu:

– Qızlar, yanşaq necə oldu?

Dedilər:

– Qovduq, getdi.

Əsli durub o tərəfə-bu tərəfə boylandı, gördü, Kərəm bir az aralı dayanıb, həsrət-həsrət ona baxır. Qızlar da Kərəmi gördülər, istədilər söyüb-yamanlayıb qovalasınlar, Əsli qoymadı. Durdu ki:

– Mən evə gedirəm.

Qızlar düşdülər onun yanına.

İndi onlar gəlib-keçməkdə olsunlar, sənə deyim Kərəmdən.

Əsli ki, özündən getmişdi, qızlar onun döşünü-başını açmışdılar. İndi gəlib keçəndə Kərəm sazını alıb, görək Əsliyə "Kərəm dubeytisi" havasında necə işarə elədi ki, yaxasını bağlasın.

***Sallanıban gələn dilbər,***
***Yaxan düymələ, düymələ!..***
***Məni dərdə salan dilbər,***
***Yaxan düymələ, düymələ!..***

Kərəm belə oxuyanda Əsli xan qayıdıb qızlara dedi:

– Yanşaq tayfası sözcül olur. Baxın, sizlərdən kimin döşü açıqdı?

Qızlar dedilər:

– Bizlərdən döşü açıq olan yoxdu.

Kərəm bu dəfə işarəni vurmaq üçün Əsli xanın paltarlarının adını çəkdi, bəlkə, Əsli başa düşə ki, açıq döş onunkudu:

***Al geyib, yaşıl bürünər,***
***Zülfləri yana hörülər,***
***Yel vurar, sinən görünər,***
***Yaxan düymələ, düymələ!..***

***Yaxan çarpaz ilişməsin,***
***Heç kim dinib-danışmasın,***
***Yadlar görüb gülüşməsin,***
***Yaxan düymələ, düymələ!..***

Əsli yenə döşünün açıq olduğunu başa düşmədi. Kərəm bu dəfə görək Əsli xana nə kimi işarələr elədi:

***Köynəyinin gülü yaşıl,***
***Süsən sünbülə dolaşır,***
***Gözəllik sənə yaraşır,***
***Yaxan düymələ, düymələ!..***

***Əyninə geyibdi şilə,***
***Bizi tutub şirin dilə,***
***Zər kəmər çək incə belə,***
***Yaxan düymələ, düymələ!..***

***Kəlağayın ucu sarı,***
***Açılır könlüm qubarı,***
***Söylə görüm, kimin yarı,***
***Yaxan düymələ, düymələ!..***

Əsli yenə də bir şey başa düşməyəndə Kərəm alıb, axır sözünü belə tamamladı:

***Kərəm sənə nələr demiş,***
***Dil-dodağın qəndi-yemiş,***
***Kətan köynək, bəndi gümüş,***
***Yaxan düymələ, düymələ!..***

Kərəm belə deyəndə Əsli üst-başına baxıb gördü ki, Kərəmin dediyi nişanlar bundadı. Yaxası da açıqdı. Tez sinəsini düymələdi, Kərəmə gizli işarə verib, yola düzəldi.

Kərəm o saat özünü bazara verdi, bir dəst yaxşı libas alıb geyindi, birbaş Əslinin bağçasına getdi. Əslinin anası Kərəmi görüb, dedi:

– Ay oğlan, kimi istəyirsən?

Kərəm bilirdi ki, Əslinin anası diş həkimidir, odur ki, dedi:

– Ana, dişim ağrıyır. Dişimi çəkdirmək istəyirəm.

Arvad dedi:

– Gəl bəri, çəkim.

Kərəm evə girib oturdu. Arvad onun ağzını açıb dedi:

– Hansı dişin ağrıyır?

Kərəm dedi:

– Azı dişim.

Arvad kəlbətini onun ağzına saldı, çəkmək istəyəndə Kərəm

tərpəndi. Arvad Əslini çağırıb dedi:

– Qızım, bu oğlan kəlbətinin altında farağat dura bilmir. Gəl bunun başını dizinin üstünə qoy, qəribdi, yazıqdı, dişin çəkim.

Əsli Kərəmi tanıdı. Amma qorxusundan dinə bilmədi. Yavaşca Kərəmin başını alıb sinəsinə dayadı. Qara Məliyin arvadı Kərəmin azı dişini çəkdi. Kərəm dedi:

– Vay, saf dişimi çəkmisən. Ağrıyan o biri dişimdi.

Arvad o biri dişini də çəkdi. Əsli davam gətirə bilməyib, ağlamağa başladı. Arvad soruşdu:

– Qızım, bu nə işdi? Mən bu oğlanın dişini çəkirəm, sən niyə ağlayırsan?

Əsli dedi:

– Qərib oğlandı, yazığım gəlir.

Kərəm dedi:

– Arvad, sən yenə də saf dişimi çəkmisən. Ağrıyan o biri dişimdi.

Belə-belə, arvad Kərəmin otuz iki dişini tamam çəkdi.

Kərəm yerindən qalxdı. Amma elə qalxdı ki, elə bil heç dişi çəkilməmişdi.

Arvad Kərəmin Əsliyə çox həsrətnən baxmağından şübhələnib, işarə elədi ki, keçsin o biri otağa. Əsli çar-naçar üzünü çevirib getmək istəyəndə, Kərəm sazı basdı döşünə “Təcnis” havası üstündə dedi:

***Öldüm, öldüm, Əsli, sənin əlindən,***
***Yandı sinəm, bir də göstər yara üz.***
***Həmişə üstündə titrərdi canım,***
***Cəsəd dərdli, könül dərdli, yara yüz.***

***Baş qoyum dizinə, bəlkə, sağalam,***
***Sağ qolumla yar yolunda sağ olam,***
***Çətin, çətin bu yaradan sağalam,***
***Hicran təkdi, dərdim təkdi, yara yüz.***

***Dərdli Kərəm deyər: qurban yar üçün,***
***Kəs ciyərim, doğra bağrım, yar üçün,***

***Yar odu ki, yar yolunda, yar üçün,***
***Dərd-qəm çəkə, yaş axıda, yara üz.***

Söz tamama yetən kimi, Əsli xanın anası Kərəmi tanıyıb, bərkdən qışqırdı ki:

– Oy, aman, bu Kərəm imiş!..

Arvad Kərəmin dişlərini də götürüb, başı alovlu Qara Məliyin yanına xəbərə getməkdə olsun, otaqda Əsli ilə Kərəm tək qaldılar. Kərəm birtəhər ağzının qanını təmizləyib, Əsliyə tərəf gəldi. İki aşiq, məşuq bir-birinin boynuna sarıldılar. Amma Əsli bilirdi ki, anası xəbərə gedib, indi harada olsa, atasını tapıb gətirəcək. Odu ki, saçından iki tel ayırıb, sinəsinə basdı, görək "Hicran Kərəmi" havası üstündə nə dedi:

***Yenə düşdüm atəşinə, yanaram,***
***Yandım, Kərəm, məni rüsvay eyləmə!***
***Məni saldın sən bu eşqin oduna,***
***Yandım, Kərəm, məni rüsvay eyləmə!***

Aldı Kərəm:

***Bizim eldən sora-sora gəlmişəm,***
***Nələr çəkdim, Əsli, sənin əlindən?!***
***Dərin-dərin dəryalara dalmışam,***
***Nələr çəkdim, Əsli, sənin əlindən?!***

Aldı Əsli:

***Oğrun-oğrun dost bağına girmədim,***
***Əl uzadıb, qonça gülün dərmədim,***
***Ayrılalı bircə dəfə gülmədim,***
***Yandım, Kərəm, məni rüsvay eyləmə!***

Aldı Kərəm:

***Axıtmışam gözlərimdən yaşımı,***
***Qürbət elə saldım qərib başımı,***
***Anan çəkdi otuz iki dişimi,***
***Nələr çəkdim, Əsli, sənin əlindən?!***

Aldı Əsli:

***Qova-qova qərib elə gətirdin,***
***Bir olan dərdimi yüzə yetirdin,***
***Nə mən öldüm, nə də sən əl götürdün,***
***Yandım, Kərəm, məni rüsvay eyləmə!***

Aldı Kərəm:

***Düşdüm dağa-daşa, çölə, səhraya,***
***Bu sərimi saldın olmaz sevdaya.***
***Məhşər günü sözüm vardı mövlaya,***
***Nələr çəkdim, Əsli, sənin əlinnən?!***

Aldı Əsli:

***Aman Kərəm, paşam Kərəm, xan Kərəm!***
***Alış, Kərəm, tutuş, Kərəm, yan, Kərəm!***
***Əslin olsun sənə qurban, can Kərəm!***
***Yandım, Kərəm, məni rüsvay eyləmə!***

Aldı Kərəm:

***Bilmirəm, mən bu sağlığı neylərəm?***
***Xəncər alıb, bağrım başın teylərəm.***
***Dərd əlindən bu sözləri söylərəm,***
***Nələr çəkdim, Əsli, sənin əlinnən?!***

Aldı Əsli:

***Neçə ildi mən gəzirəm dağları,***
***Bu sinəmə çəkdin yaman dağları,***
***Əsli sənə Kərəm deyib yalvarı,***
***Aman Kərəm, məni rüsvay eyləmə!***

Aldı Kərəm:

***Kərəm deyər: dost bağına girmədim,***
***Əl uzadıb, qonça gülün dərmədim,***
***Mən yarımdan heç bir vəfa görmədim,***
***Nələr çəkdim, Əsli, sənin əlindən?!***

Söz tamam oldu, Əsli dedi:

– Kərəm, atam səni Süleyman paşaya bərk çuğullayıb. Əgər o, indi sənin burada olduğunu bilsə, yəqindi ki, tutub zindana saldıracaq. Amma sən qorxma. Mən bir kağız yazım verim sənə, apar ver Süleyman paşaya. Öz dərdini aç, dilnən də ona de. Bəlkə, paşa rəhmə gəlib, məni atamdan alıb, sənə verə.

Kərəm uşaq kimi ağlamağa başladı. Əsli Kərəmin ağlamağına səbir eləyə bilməyib "Zil Kərəmi" havası üstündə dedi:

***Ağlama, ağlama, bağrım qan olu,***
***Qoy qoşum yanına qulların, Kərəm!***
***Bir ərizə yazım Süleyman xana,***
***Özün danış dərdi-dilləri, Kərəm!***

***Nə qədər atam var, mən ona pəsəm,***
***İlqarımnan dönsəm, kəssin kilisəm,***
***Demə ki, qəribəm, mən də bikəsəm,***
***Çıxart xəyalından onları, Kərəm!***

Əsli deyər:

***Kərəm qüvvəli, sanlı,***
***Ölüncə atamla olacam qanlı.***
***İstəsən, atlansın əcəm, Osmanlı,***
***Virana qoyaram yolları, Kərəm!***

Əsli sözünü müxtəsər eləyib dedi:

– Kərəm, burada oturub ağlamaqdan bir şey çıxmaz. Ya budu ki, sən dur tək get, ya da ki, hər ikimiz gedək paşanın yanına, öz ərzimizi ona yetirək.

Kərəm dedi:

– Paşadan mənim ağlım bir şey kəsmir. İnanmıram, o, atanı qoyub, bizə qulaq asa.

Onda Əsli götürüb "Müxəyi" havası üstündə dedi:

***Əvvəl başdan sənin ağlın olsaydı,***
***Qaçırtmazdın bədoyları, quşları.***
***Uymaz idin sən atamın felinə,***
***Ağlar qoymaz idin tay-tuşları.***

***Sən xan oğlu, öz yerində qalsaydın,***
***Gəncə gözəlinin birin alsaydın,***
***Onun qadasını cana salsaydın,***
***İndi çəkdirməzdin incə dişləri.***

***Əsli deyər: mən ağlarım ürəkdən,***
***Qurtarmadıq atam quran kələkdən.***
***Şikayət eylərəm qanlı fələkdən,***
***Yazı yazan yazıb, belə işləri.***

Əsli sözünü qurtarıb, tələsik o biri otağa keçmək istəyirdi ki, Kərəm onu gedən görüb "Şirvan şikəstəsi" havası üstündə dedi:

***Dön bəriyə halallaşaq, ayrılaq,***
***Bir bəri dön, qurban yara, Əsli xan!***
***Mehtər ollam, cilovunu çəkərəm,***
***Vara-vara hər diyara, Əsli xan!***

***Məcnun kimi mən çöllərə varmışam,***
***Cəfakeş bağbanam, gülün dərmişəm,***
***Axşam-sabah gül üzünü görməsəm,***
***Olacaqdı günüm qara, Əsli xan!***

***Kərəm deyər: mənnən seyrə varmazlar,***
***Bənna olub, sınıq könlüm hörməzlər,***
***Yəqindi ki, səni mənə verməzlər,***
***Kim eylər dərdimə çara, Əsli xan!***

Əsli xan bir kağız yazdı, Kərəmə verib, dedi:

– Paşanın bir vəziri var. Çox ədalətli, ağıllı bir adamdı. Al, bu kağızı saxla, işdi, əgər səni tutub eləsələr, verərsən haman vəzirə.

Kərəm kağızı alıb çölə çıxan kimi gördü ki, Sofi onu gözləyir. Görüşdülər, öpüşdülər, qaranlıq qovuşurdu deyin, daha paşanın yanına getmədilər. Sofi onu götürüb gəldi mənzilinə. Gecə Kərəm nə qədər elədisə, yata bilmədi. Axırda durub çıxdı bayıra. Baxdı ki, karvanqıran ulduz göyün ortasına qalxıb, elə bil səhərdi. Aldı, görək karvanqıran ulduza "Gəraylı" havası üstündə nə dedi:

***Sübh oldu, dərdlilər yatmaz,***
***Dönə, karvanqıran dönə!***
***Eşq atəşi sərdən getməz,***
***Dönə, karvanqıran dönə!***

***Barmağında qızıl üzük,***
***Qolunda qızıl bilərzik,***
***Boynun əymiş qıza yazıq,***
***Dönə, karvanqıran dönə!***

***Sənə karvanqıran derlər,***
***Yara ilqar verən derlər,***
***Mənə dərdli Kərəm derlər,***
***Dönə, karvanqıran dönə!***

Bu dəmdə Sofi çıxdı çölə. Kərəm Sofiyə dedi:

– Sofi lələ, gəl gedək, Əsli xanın olduğu evin bacasına çıxaq, görək Əsli xan nə eləyir. Heç olmasa onun üzünü görüm.

Hər ikisi bir-birinə qoşulub, Əsli xanın yatdığı evin bacasına gəldilər. Kərəm bacadan baxıb, gördü ki, Əsli xan yatıb. Ürəyi qubar elədi, "Ovşarı" havası üstündə aldı sazı:

***Gah gedirəm, gah gəlirəm bacaya,***
***Oyan, Əslim, üzdə xalın sevdiyim!***
***Karvanqıran gəldi çıxdı ucaya,***
***Oyan, Əslim, üzdə xalın sevdiyim!***

***Mən gəzmişəm alçaq ilə ucanı,***
***Yar yolunda fəda qıllam bu canı.***
***Necə dözüm mən bu uzun gecəni?***
***Oyan, Əslim, üzdə xalın sevdiyim!***

***Səhər oldu, qalaq burda, nə edək?***
***Xəncər alıb, bağrım başın biz dələk,***
***Sofi lələ mənə deyir, dur gedək,***
***Oyan, Əslim, üzdə xalın sevdiyim!***

***Kəsdirəydim yastığının yanını,***
***Bir tutaydım kirpiyinin sanını,***
***Nə tapıbsan kor yuxunun kanını?***
***Oyan, Əslim, üzdə xalın sevdiyim!***

***Kərəməm, mayiləm ala gözünə,***
***Çəkər söhbətinə, şirin sözünə,***
***Satın aldın sən yuxunu özünə,***
***Oyan, Əslim, üzdə xalın sevdiyim!***

Demə, fəraraşlar onları pusurmuşlar. O saat hər tərəfdən tökülüb onları tutdular, qollarını bərk-bərk bağlayıb, paşanın yanına apardılar. Kərəm əhvalı belə görüb, aldı, görək "Dilqəmi" havası üstündə nə dedi:

***Mədəd, mədəd, Əslim, sənin əlindən,***
***Öldürməkdən qeyri kar bizə neylər?!***
***Biz ki, ta keçmişik can ilə sərdən,***
***İndi namus ilə ar bizə neylər?!***

***Əsli xanın atəşilə söylərəm,***
***Enib eşqin dəryasını boylaram,***
***Gecə-gündüz qəmlə, ahla oynaram,***
***İndi boran, çovğun, qar bizə neylər?!***

***Şahini gəzdirər bəylər qolunda,***
***Quşları səyirdər sağı-solunda,***
***Ruzi-səb durmuşam Haqqın yolunda,***
***Kəmənddir boynumda, dar bizə neylər?!***

***Eşqə uyub, əsil-nəsibi danmışam,***
***Seyraqıbın hiyləsini qanmışam,***
***Mən Kərəməm, eşq oduna yanmışam,***
***Cəhənnəmə girsək, nar bizə neylər?!***

Paşa Kərəmdən soruşdu:

– Sən niyə başqasının qızının bacasına çıxmşdın?

Kərəm aldı sazı, görək ona "İbrahimi" havası üstündə necə cavab verdi:

***Ay camaat, mənim dərdim –***
***Bir qəm, bir firqət, bir hicran.***
***Gözümü açandan gördüm***
***Bir qəm, bir firqət, bir hicran.***

***İtirdim Əsli xanımı,***
***Müxənnət içdi qanımı,***
***Hər zaman üzür canımı,***
***Bir qəm, bir firqət, bir hicarn.***

***Cəsədimdə yanan nardı,***
***Məni eşqə salan yardı,***
***Çəkdicəyim ahu-zardı,***
***Bir qəm, bir firqət, bir hicarn.***

***Söyləməklə dərdim bitməz,***
***Nazlı yarım mürvət etməz,***
***Yaralı sinəmdən getməz,***
***Bir qəm, bir firqət, bir hicran.***

***Kərəm deyər: qan-yaş töküm,***
***Yar, qapında boynum büküm,***
***Bəzirganam, mənim yüküm,***
***Bir qəm, bir firqət, bir hicran.***

Paşa dedi:

– Aşıq, sən bir müsəlman adamsan, Əsli xaçpərəst qızı. Bəyəm, dünyada ayrı bir qız sənin başına qəhətdi? Gəl, sən ondan əl çək, ayrı bir qız al!

Paşanın sözlərindən Kərəmin ürəyi cuşa gəldi, sazı sinəsinə basıb "Şahsarayı" havası üstündə dedi:

***Ay həzarat, necə deyim,***
***Mən dönərəm, könül dönməz...***
***Bir gözələ düşdü meylim,***
***Mən dönərəm, könül dönməz...***

***Kəklik kimi səkişlidən,***
***Köksü əlvan naxışlıdan,***
***Bir haramı baxışlıdan,***
***Mən dönərəm, könül dönməz...***

***Yolunda qoymuşam canı,***
***Didəmdən axıtdım qanı,***
***Kərəm sevdi Əsli xanı,***
***Mən dönərəm, könül dönməz...***

Paşanın vəziri Sofini çağırıb, Kərəmin əhvalatını ondan soruşdu. Sofi aldı, görək vəzirə "Ağır şərili" havası üstündə nə cavab verdi:

***Hey ağalar, üç dərd məni qocaldır:***
***Zülf dərdi, xal dərdi, bir də tel dərdi.***
***Mən yazığın min gününü bir eylər,***
***Nadan dərdi, xoryat dərdi, fel dərdi.***

***Tərk eylədi Vətənini, elini,***
***Əlindən aldırdı qonça gülünü,***
***Kimsə bilməz bu qürbətdə halını,***
***Bağça dərdi, Vətən dərdi, el dərdi.***

***Aç köksünü, üstünə bağ tikəyim,***
***Əlvan-əlvan çiçəklərdən əkəyim,***
***Mən bu dərdin hansı birin çəkəyim? –***
***Süsən dərdi, sünbül dərdi, gül dərdi.***

***Coşqun dərdim sular kimi bulandı,***
***Vardı getdi, qarlı dağlar dolandı,***
***Dərd bağlayıb qapı-qapı diləndi,***
***Paltar dərdi, əba dərdi, şal dərdi.***

***Yazıq oldu, düşdü dildən dillərə,***
***Bülbül qonmaz oldu qonça güllərə,***
***Ağlaya-ağlaya düşdük yollara,***
***Gələn dərdi, keçən dərdi, yol dərdi.***

***Sofi dedi: Kərəm üzümə baxar,***
***Bu canımı eşqin oduna yaxar,***
***Mən bilirəm, bu dərd məni tez yıxar, –***
***Əsli dərdi, Kərəm dərdi, dil dərdi.***

Sofi saz ilə dediyi kimi, söz ilə də Kərəmin bütün əhvalatını danışdı. Üstəlik, Əslinin yazdığı kağızı da Kərəmdən alıb, verdi vəzirə. Vəzir baxdı ki, Əsli yazıb: "Kərəmə rəhmin gəlsin. O mənə aşiqdi, mən də ona. Atam bizə zülm eləyir". Vəzir işi belə görəndə, Paşaya dedi:

– Paşam, Kərəm gerçəkdən bənzərsiz eşq aşığıdı. Biz gərək Əslini alıb ona verək.

Qara Məlik dad-fəryad elədi ki:

– Kərəm Haqq aşığı-zad deyil.

Paşa dedi:

– Biz onun Haqq aşığı olub-olmadığını yoxlarıq.

Paşanın Hüsniyyə adlı çox ağıllı bir bacısı var idi. Çağırıb əhvalatı ona söylədi. Hüsniyyə dedi:

– Mən bu saat onu yoxlaram.

Hüsniyyə xanım bir dəstə qızın hamısına bir cürə paltar geyindirib, yaz bağçasına gətirdi. Əslini də bu qızların içinə salıb, Kərəmdən soruşdu:

– De görüm, Əsli bu saat haradadı?

Kərəmə bəyan oldu ki, Əsli bağdadı, özü də qızlardan xeyli aralı, məlul-məhzun dayanıb. Aldı, görək Hüsniyyə xanıma "Gəraylı" havası üstündə nə cavab verdi:

***Xan Əslim bağça içində,***
***Gəzər zavallı, zavallı...***
***Qarşımızda ala gözün***
***Süzər zavallı, zavallı...***

***Qaşları bənzər kamana,***
***Aşığın eylər divana,***
***Zülflərini yana-yana,***
***Çözər zavallı, zavallı...***

***Hey ağalar, hey bəylər,***
***Kərəm qeyri yarı neylər?***
***Görən bizdən neyçün eylər***
***Həzər zavallı, zavallı...***

***Kərəmdi eşqinə yanan,***
***Olmuşuq dillərə dastan,***
***Aşığın qətlinə fərman***
***Yazar zavallı, zavallı...***

Hüsniyyə xanım dedi:

– Əslinin harada olduğunu bildin. İndi sənin gözlərini bağlayaca-

ğam, altı qız gətirib qabağından keçirəcəyəm. Hamısı bir boyda, bir libasda, üzləri də örtülü. Əgər onları da tanısan, doğurdan da Haqq aşığısan.

Bir boyda, bir buxunda, bir geyimdə altı üzü bürüklü qız gətirdilər. Kərəm aldı, görək qızları "Turacı" havası üstündə nə cür nişan verdi:

***Altı qızın biri Banı,***
***Altı qızlar, altı qızlar!***
***Bizə məhəbbətin hanı?***
***Altı qızlar, altı qızlar!***

***Altı qızın biri İnci,***
***Gözəllikdə lap birinci,***
***Qoynunda iki turuncu,***
***Altı qızlar, altı qızlar!***

***Altı qızın biri Püstə,***
***Dərdinnən olmuşam xəstə.***
***Qoy qədəmin sinəm üstə,***
***Altı qızlar, altı qızlar!***

***Altı qızın biri Ceyran,***
***Olum gözlərinə heyran.***
***Sizlə kaş sürəydim dövran,***
***Altı qızlar, altı qızlar!***

***Altı qızın biri Xədicə,***
***Qəddi əlif, beli incə,***
***Gözəl görməmişəm səncə,***
***Altı qızlar, altı qızlar!***

***Altı qızın biri Bəsti,***
***Gözləri canımın qəsdi,***

***Bu dərdlər Kərəmə bəsdi,***
***Altı qızlar, altı qızlar!***

Hüsniyə xanım dedi:

– Afərin! Sən doğrudan da Haqq aşığı imişsən. İndi qızın üzündə olan nişanları de, səndən əl çəkim.

Aldı Kərəm, görək Əslinin üzündə olan xallara "Qəhrəmanı" havası üstündə necə qiymət verdi:

***Ay həzarat, bilin, Əsli xanımın,***
***Üzündə xalları nazınan gəlir.***
***Bir xalı əlifdi, bir xalı beydi,***
***Bir xalı dəftərə yazınan gəlir.***

***Bir xalı heyvadı, gəlməz irəngə,***
***Bir xalı İranı salıbdı ləngə,***
***Bir xalı elçidi, gedər Firəngə,***
***Bir xalı söhbətü-sazınan gəlir.***

***Bir xalı yaxşıdı, bir xalı yaman,***
***Bir xalı könlümə salıbdı güman,***
***Bir xalı buluddu, bir xalı duman,***
***Bir xalı dağlara ayaznan gəlir.***

***Bir xalı bəzzazdı, Rumun Qeysəri,***
***Bir xalı içibdi abi-kövsəri,***
***Bir xalı ağlımı edib sərsəri,***
***Bir xalı ağ üzə düzülən gəlir.***

***Kərəmə gəlibdi təmizlik, paklıq,***
***Tanrıya gəlibdi yalnızlıq, təklik.***
***Qatardan ayrılmış ay gözəl kəklik,***
***Xan oğlu üstünə bazınan gəlir.***

Kərəm sözünü qurtardı, düz gəlib dayandı Əslinin qabağında. Hüs-

niyyə xanım dedi:

– Aşıq, qız tanımaqda mahirsən. İndi bir işimiz qalıb. Bu gün səhər burada bir qərib ölüb. Yuyublar, kəfənləyiblər, qalıb basdırmağı. Gedək ona bir namaz qıl, torpağa tapşıraq, sonra sənin toyunu eləyək.

Kərəm dedi:

– Baş üstə!

Hüsniyyə xanım fərraşlara əmr elədi ki, Kərəmi qəbiristana aparsınlar. Elə ki, Kərəmi apardılar, Hüsniyyə xanım paşaya dedi:

– Ölüb-eləyən yoxdu. Bu, mənim axırıncı sınağımdı. Bir diri adamı kəfənə tutdurub, tabuta qoydurmuşam. Durun, siz də gedək. Əgər bu bilsə ki, kəfəndəki ölü deyil, tay Haqq aşığı olmağına heç kəsin sözü ola bilməz.

Hamı Hüsniyə xanımın bu tədbirinə afərin deyib, ayağa qalxdı, qəbiristana tərəf yola düşdülər. Elə ki, gəlib çatdılar, Kərəm cənazəyə baxıb soruşdu:

– Deyirsiz ki, mən namaz qılmalıyam. Ancaq bilmirəm ölü namazı qılım, ya diri namazı?

Paşa qəsdən özünü qəzəbli göstərib dedi:

– Bu nə sözdü?

Kərəm dedi:

– Bu o deyən sözdü ki, kəfəndəki hələ ölməyib, diridi.

Hüsniyyə xanım yerindən dik qalxıb dedi:

– Afərin sənə, aşıq! Daha mənim sənə sözüm yoxdu. Sən doğrudan da Haqq aşığı imişsən. Qoy hamı bilsin ki, kəfəndəki doğrudan da ölü deyil, diridi.

Paşa Qara Məliyə dedi:

– Görürsən ki, bu, doğrudan da Haqq aşığıdı. Sən, gəl, qızı ver buna.

Qara Məlik dedi:

– Mənim ona veriləsi qızım yoxdu.

O, belə deyəndə vəzir irəli yeriyib dedi:

– Qara Məlik, budu, qızın özü də mənə yazıb ki, onlar bir-birini sevirlər. Əgər qız gəlib sənin üzünə dursa, nəticəsi çox pis olacaq. Sən, gəl, qızı ver Kərəmə.

Qara Məlik çar-naçar razı olub, dedi:

– Yaxşı, ancaq mənə üç gün möhlət verin ki, hazırlıq görüm.

Paşa razılaşıb, ona üç gün möhlət verdi.

İndi camaat toyu gözləməkdə, Kərəmlə Sofi də sevinməkdə olsunlar, eşit Qara Məlikdən. Bu namərd oğlu evinə gəlib, hamını yuxuya verdi. Gecə yarı ağırdan, yüngüldən götürüb yola düşdü, asta qaçan namərddi.

Səhər açıldı, gördülər Qara Məlik qaçıb. Paşa onun dalınca atlı saldı. Çox gəzib dolandılar, tapmadılar ki, tapmadılar. Kərəm halal-hümmət eləyib, Sofi ilə yola düşdü.

Səhər yeli əsirdi. Kərəm aldı, səhər yelinnən görək "Mirzəcanı" havası üstündə nə sifariş elədi:

***Əgər gedər olsan bizim ellərə,***
***Sənə bir sözüm var, dur, səhər yeli!***
***Mənim salamımı tez yetir yara,***
***Bu gün xan Əslimi gör, səhər yeli!***

***Qabaq gedib əsmə zülfün telinə,***
***Nəzər qıl ruyində bir cüt xalına,***
***Məhəbbət naməsin özün əlinə,***
***Bir tənha yerdə tap, ver, səhər yeli!***

***Kərəm deyər: burda qoysaq sazları,***
***Xatirimə düşdü şirin sözləri,***
***Qaradı qaşları, ala gözləri,***
***Sən də muradına ir, səhər yeli!***

Şəhərləri, kəndləri, keçdiləri salıq-soraq elədilər, öyrəndilər ki, Qara Məlik Hələb şəhərinə gedib. Günə bir mənzil, az getdilər, çox dayandılar, çox getdilər, az dayandılar, günlərin birində gəlib Hələb şəhərinə çatdılar.

Şəhər böyük, bunlar nabələd. Özləri də yorulub əldən düşmüşdülər. Bir bağın kənarında oturdular. Kərəmin eşqi yenə də cuşa gəldi. Sazı göynəkdən çıxarıb sinəsinə basdı, ahəstə-ahəstə "Göyçəgülü" havası üstündə deməyə başladı:

***Gizli sevda çəkib, eşqə düşənlər,***
***Bir gün olar, əlbət, əyana çıxar.***
***Çəkəlim möhnəti səbirlə, könül,***
***Görək bunun sonu nə yana çıxar...***

***Fərhad Şirin üçün dəldi qayanı,***
***Məcnun Leyli üçün gəzdi səhranı,***
***Kərəm Əsli deyib gəzər dünyanı,***
***Aşıq öz eşqinə mərdana çıxar.***

***Qaradı qaşları, gözü dolayı,***
***Yaxşı təbib gərək, versin davayı,***
***Axtarsalar hər tərəfdən dünyayı,***
***Belə aşıq ancaq bir dənə çıxar.***

***Bizə belə imiş təqdirin işi,***
***Axıtdı gözümdən qan ilə yaşı.***
***Aldı bu Kərəmi eşqin atəşi,***
***Bu sevdanın sonu büryana çıxar.***

Aşığın səsini eşidən kimi bir dəstə adam onların yanına gəldi. Kərəm sözünü bitirib, onlardan Qara Məliyi, onun köç-külfətini soruşdu. Adamlar onun Hələbdə olduğunu dedilər. Ordan ayrılıb güllü-çiçəkli bir bağa gəldilər. Bu bağ kimin ola, kimin olmaya? Hələb paşasının darğası Gülxanın. Demə, Kərəm oxuyanda Gülxan bir kənarda dayanıb qulaq asırmış. Kərəmin oxumağı onun çox xoşuna gəldi. Yaxına gedib baxdı ki, bu aşıq kimdisə, çox dərdli adama oxşayır.

Soruşdu:

– Aşıq, kimsən, haralısan, dərdin nədi?

Sofi Kərəmin başına gələni Gülxana nağıl elədi.

Gülxan dedi:

– Aşıq, fikir eləmə, haman adam ailəsi ilə bərabər buradadı. Mən səni sevgilinə çatdıraram.

Gülxan bunu deyib, bir qarı çağırdı. Qarıya çoxlu pul verib dedi:

– Gedərsən filan evə. Oraya Qara Məlik adında bir adam gəlib. Onun Əsli adında bir qızı var...

Qarı dedi:

– Tanıyıram, sən sözünü de!

Gülxan dedi:

– Bax, bu oğlanı ki, görürsən, haman qızın butasıdı. Atası qızı buna vermək istəməyib, qaçıb bura gəlib. Bu da qızı axtara-axtara gəlib çıxıb buraya. İndi sən gərək bunun gəlməyini qıza xəbər verəsən.

Qarı pulu aldı. "Baş üstə", – deyib, düzəldi yola. Bu qarı imanlı ipək qarı idi. Yolda fikirləşdi ki, bəlkə, burda hiylə-miylə var. Yaxşısı budu ki, qoy qabaqca öyrənim, görüm qız doğrudan da oğlanı sevir, ya yox.

Qərəz, qarı gedib çatdı Əsli olan evə. Baxdı ki, Əsli pəncərənin qabağında oturub, bahar buludu kimi gözlərindən yaş axıdır. Qarı salam verib, əleyk alandan sonra oturdu, başladı ordan-burdan söhbətə. Yavaş-yavaş gəlib çıxdı mətləb üstünə. Əsli açıb bütün əhvalatı qarıya danışdı. Qarı onu sınamaq üçün qəsdən başladı öyüd-nəsihət eləməyə ki:

– Nə istəyirsən ondan? O, müsəlman, sən xaçpərəst. Ondan əl çək, gəl, səni gözəl bir oğlana verim.

Əsli qarıdan bu sözləri eşitcək saçlarından üç tel ayırıb, sinəsaz elədi, aldı, görək "Cəlili" havası üstündə nə dedi:

***Qarı nənə, gəl eyləmə məzəmmət,***
***Bülbülüm var, gülşənim var, gülüm var.***
***Zalım fələk verib dərdin bolunnan,***
***Göydən yerə olub, yaman zülmüm var.***

***Ağ üstündən bağlamışam qaramı,***
***Təbib sənsən, gəl tez bağla yaramı.***
***Gözüyaşlı qoyub gəldim Kərəmi,***
***Yar yanında kasad olan dilim var.***

***Əsliyəm, əməyim getdi badlara,***
***Alışdım, tutuşdum, yandım odlara,***

***Qorxum budu, atam versin yadlara,***
***Sevgilimdən ayrı düşən əlim var.***

Qarı dedi:

– Qızım, mən səni sınayırdım. İndi səni Kərəmlə bağçada görüşdürsəm, razı olarsanmı?

Əsli xan bu sözü eşidən kimi, gözyaşını töküb dedi:

– Aman nənə, de görüm, Kərəm haradadı?

Qarı Kərəmin yerini ona söyləyib geri qayıtdı. Bu sözləri Gülxana söylədi. Gülxanla Kərəm bağçaya getdilər. Qarı da qayıdıb Əsli xana xəbər verdi. Əsli xan anasının yanına gəlib dedi:

– Ana, ürəyim darıxır, izin ver, bağa çıxım.

Anası ona izin verib dedi:

– Qızım, ancaq çox ləngimə, atan gələr, dava eylər.

Qarı Əsli ilə vədə yerinə gəlməkdə olsun, eşit Kərəmdən. Kərəm bir də baxdı ki, Əsli qarı ilə gəlir. O, Kərəmi gördü, amma onu bağbana oxşatdı. Çünki Kərəm bağbanın belinə söykənib dayanmışdı. Əsli dönüb, bağın o biri tərəfinə getmək istəyəndə, Kərəm “Kərəm gözəlləməsi” havası üstündə dedi:

***Aylar, illər həsrətini çəkdiyim,***
***Üzü dönmüş bivəfa yar, belə bax!***
***Gözəllərə sərxoş gəzmək ar deyil,***
***Açılıbdı gümüş kəmər belə, bax!***

***Oxudum əlifi, yetdim yasinə,***
***Şux məmələr xub yaraşır ya sinə,***
***Kamil ovçu bərəsinə ya sinə,***
***Rəncbərinəm, dayanmışam belə, bax!***

***Kərəm deyər: kam almadım dünyada,***
***Cəfa çəkdim, ömür verdim mən bada,***
***Məcnun kimi dolanıram dünyada,***
***Qocalmışam, piran oldum belə, bax!***

Əsli dönüb Kərəmi gördü. Sevindiyindən donub yerindəcə qaldı. Kərəm baxdı ki, Əsli başdan-ayağa qara geyinib. Sazı döşünə basıb "İncəgülü" havası üstündə dedi:

***Əvvəl bahar, yaz ayları gələndə,***
***Alaydım, gedəydim bağlara səni.***
***Cümlə quşlar muradını alanda,***
***Qaldıraydım yaşıl bağlara səni.***

***Camalın xubluğu mat eylər mahı,***
***Göylərə dayanır aşığın ahı,***
***Geyin al-yaşılı, geymə siyahı,***
***Haqq nəsib eyləsin ağlara səni.***

***Dərdli Kərəm deyər: gerçəkdi sözüm,***
***Bu məlul könlümü şad eylər üzün,***
***Qızarıb almalar, dəyəndə üzüm,***
***Endirəydim yaşıl bağlara səni.***

Sən demə, bu gün Hələb paşası gəzməyə çıxıbmış. Yolu buradan düşdü. Baxdı ki, darğanın bağında bir cavan oğlan dərdli-dərdli oxuyur, bir qız da qulaq asır. Bu, paşaya toxundu. Atını sürdü düz bağın içinə. Əsli adam gəldiyini görcək, işin üstü açılmasın deyə, qaçıb getdi. Paşa aldı Kərəmin başının üstünü, dedi:

– De görüm kimsən? Burada nə gəzirsən?

Kərəm dinmədi. Paşa bir də soruşdu. Kərəm yenə də cavab vermədi. Paşa bir də qəzəblə soruşanda, sazı sinəsinə mindirib "Qaytarma" havasında dedi:

***Şikayətim vardı çərxı-fələkdən,***
***Zalım fələk əydi, bükdü belimi.***
***Əzəl bülbül kimi fəryad edərkən,***
***İndi lal eylədi şirin dilimi.***

***Yandı ciyərciyim, döndü büryana,***
***Axdı çeşmim yaşı, döndü ümmana,***
***Gətirdilər məni ulu divana,***
***Bağladılar ayağımı, əlimi.***

***Dərdli Kərəm qoydu başı qadaya,***
***Yar ilə getmədi xəlvət odaya,***
***Çox şükürlər olsun bari-xudaya,***
***Gözüm ilə gördüm Əsli yarımı.***

Paşa diqqətlə qulaq asıb gördü, yox, burda nə isə, deyəsən, başqa bir məsələ var. Dedi:

– Aşıq, de görüm kimsən? Dərdin nədi?

Kərəm dinməmiş Sofi dedi:

– Paşa sağ olsun, bu, Gəncəli Ziyad xanın oğludu. Neçə ildi ki, Qara Məliyin qızına aşiqdi. Onun dalınca diyar-diyar gəzir. Axırda gəlib burda sevgilisini tapıb. Sevgilisi ilə görüşmək istəyirdi ki, siz gəlib çıxdınız.

Paşa soruşdu:

– Qız da bunu istəyirmi?

Sofi dedi:

– Bəli, soruşa bilərsiniz.

Paşa o saat bir ədalət divanı qurub, Qara Məliyi də, qızını da çağırtdırdı. Qıza dedi:

– Qızım, sən bu oğlanı sevirsənmi?

Əsli xan paşanın ayaqlarına yıxılıb dedi:

– Sənə qurban olum, paşa, bu mənim sevgilimdi. Atam məni ona verməyib, bizi fəraq oduna yandırır.

Paşa üzünü Əslinin atasına tutub dedi:

– Niyə qızını ona vemirsən?

Qara Məlik dedi:

-Əvvəla, mən xaçpərəstəm, o müsəlman. İkincisi də, mənim qızım nişanlıdı.

Paşa dönüb Əslidən soruşdu ki:

– Qızım, sən nişanlımısan?

Əsli dedi:

– Paşa, məni burada özləri güclə bir oğlana nişanlayıblar. Ancaq mən Kərəmdən başqasına getməyəcəyəm.

Paşa dedi:

–Qara Məlik, bunlara zülm etdiyin bəsdi. Gərək qızı verəsən ona.

Qara Məlik gördü ayrı yol yoxdu, dedi:

– Baş üstə! Mənə üç gün möhlət ver, hazırlıq görüm.

Camaat yerbəyerdən qışqırdı ki:

– Möhlət vermə, yenə də qaçacaq.

Paşa dedi:

– Yox, qaçmaz.

Sonra üzünü Qara Məliyə tutub dedi:

– Üç gün Əslini burada, öz qızlarımın yanında saxlayacağam. Get, hazırlaş. Üç gündən sonra toydu.

Hamı paşanın bu tədbirini bəyəndi. Hazırlıq başlandı. İndi hamı toya hazırlaşmaqda olsun, eşit Qara Məlikdən.

Qara Məlik Ziyad xana vəzir olmamışdan kilsədə keşişlik eləmişdi, cadu-sehr eləməyin yollarını yaxşı bilirdi. Tez qıza qırmızı xaradan don hazırlatdı. Döşünə tilsimbənd düymələr tikdirdi. Üçüncü gün Əslinin yanına gəlib, öz əlilə donu ona geydirdi, sonra da dedi:

– Qızım, mən çox şadam ki, sən öz muradına çatdın. Xoşbəxt ol! Ancaq sənnən axırıncı bir xahişim var. Babalım boynuna, əgər bu düymələri özün açsan, qoy düymələri Kərəm açsın.

Bəli, paşanın əmri ilə toy başlandı. Qırx gün, qırx gecə çaldılar, oynadılar, məclis keçirdilər, Əslini Kərəmə verdilər.

Kərəm gəlin otağına girib gördü ki, Əsli xan alxaraya bürünüb, özünə də yetmiş yeddi qələm ilə bəzək vurub. Kərəm bu gözəlliyi görən kimi, sazını alıb, görək "Paşaköşdü" havası üstündə nə dedi:

***Sevdiyim başdan ayağa,***
***Al qırmızı geyinibdi.***
***Yaraşır qəddi-dalına***
***Şal, qırmızı geyinibdi.***

***Atalıdı, analıdı,***
***Ördəklidi, sonalıdı,***
***Qulaqları tanalıdı,***
***Ləl, qırmızı geyinibdi.***

***Badə doludu içməyə,***
***Gül, fidan, ağac əkməyə,***
***Vaxtı gəlibdi açmağa,***
***Gül, qırmızı geyinibdi.***

***Yaşa, sevdiciyim, yaşa,***
***Nə yazılsa gələr başa.***
***Al yanaqda qoşa-qoşa,***
***Xal qırmızı geyinibdi.***

***Kərəm dədə gəldi sizə,***
***Qədəm basıb evinizə,***
***Mail oldu ala gözə,***
***Al qırmızı geyinibdi.***

Kərəm sözünü tamam eləyib, Əslinin boynunu qucaqladı. İki aşiq görüşüb, öpüşdülər. Əsli dedi:

– Can Kərəm, şükür olsun, çox cəfadan sonra axırda bir-birimizə çatdıq.

Bəli, adamlar dağılıb getdilər. Otaqda təkcə Kərəmlə Əsli qaldı. Əsli dedi:

– Kərəm can, atam babal salıb ki, donumun düymələrini sən açasan.

Kərəm irəli gəldi. Nə qədər elədi, düymələri aça bilmədi. Əsli də nə qədər çalışdısa, düymələri aça bilmədi. Aldı Kərəm, görək düymələrə "Yanıq Kərəmi" havası üstündə nə dedi:

***Aman fələk, dad eylərəm əlindən,***
***Açılsın Əslidən düymə, mən öldüm.***
***Əsli xan ağlıyar, Kərəm alışar,***
***Açılsın Əslidən düymə, mən öldüm.***

***Ağalar ağası, şahların şahı,***
***Mənə kömək olsun göylərin mahı,***
***İmansız atanın budu mətahı,***
***Açılsın Əslidən düymə, mən öldüm.***

Kərəm belə oxuyanda Əslinin yaxasındakı düyməsinin biri açıldı.

Aldı Kərəm:

***Kəsib qabağımı bir qara duman,***
***Çağırram mövlanı, halım da yaman.***
***Müşkülləri açan peyğəmbər, imam,***
***Açılsın Əslidən düymə, mən öldüm.***

Kərəm belə deyəndə düymənin biri də açıldı. Amma o biri düymə o saat bağlandı. Kərəm ağlaya-ağlaya dedi:

***Atan zalım, kilsələrdən kəndi var,***
***Hiyləgərdi, bilmək olmur, fəndi var,***
***Bir düymənin səksən səkkiz bəndi var,***
***Açılsın Əslidən düymə, mən öldüm.***

Belə deyəndə düymələr axıra kimi açıla-açıla getdi. Axırıncıya çatanda yenə başa kimi düyməlləndi. Aldı Kərəm, dedi:

***Bahar olcaq, dağlar, qarın ərisin!***
***Kərəm, ömrün bu qürbətdə çürüsün!***
***Düymə kəsən zərgər, əlin qurusun!***
***Açılsın Əslidən düymə, mən öldüm.***

Düymələr yenə də bir düymə qalanacan açıldı. Kərəm bir bənd də oxudu ki, axırıncı düymə açılsın. İş tərsinə oldu. Söz qurtaran kimi, yenə düymələr başa qədər bağlandı. Belə-belə, düymələr açıldı, bağlandı, axırıncı düymə açılanda bir od çıxıb Kərəmin sinəsinə düşdü. Kərəm başladı yanmağa. Əsli dad-fəğan eləyib ağlamağa, özünü yeyib-tökməyə

başladı. Kərəm Əslini belə görəndə aldı, görək yana-yana "Şahsarayı" havası üstündə nə dedi:

***Gəl, Əslim, gəl ağlama!***
***Yanıram, Əslim, yanıram!***
***Ciyərim odda dağlama,***
***Yanıram, Əslim, yanıram!***

***Bir atəş düşdü canıma,***
***Anam yox, gəlsin yanıma,***
***Ellər ağlasın halıma,***
***Yanıram, Əslim, yanıram!***

***Çəkdicəyim dərdlə ələm,***
***Məndən ibrət alsın aləm.***
***Belə çalınıbdı qələm,***
***Yanıram, Əslim, yanıram!***

***Kərəməm, söylənir adım,***
***Ərşə çıxıbdı fəryadım,***
***Əlimdən getdi muradım,***
***Yanıram, Əslim, yanıram!***

Alov təpədən dırnağa Kərəmi bürüdü. Əslinin dad-fəryadına camaat tökülüb gəldi. Hamıdan qabaq Əslinin tay-tuşları içəriyə doluşdular. Ancaq Kərəmin alovunu söndürmək mümkün olmadı. Tamam yanıb kül oldu. Əsli pərişan saçlarını sinəsaz eləyib, gözyaşını tökə-tökə, qızlara görək "Kərəmköçdü" havası üstündə nə dedi:

***Baxın, qızlar, mənim müşkül halıma,***
***Yandı Kərəm, saldı məni bu dərdə.***
***Əydi qamətimi, bükdü belimi,***
***Yandı Kərəm, saldı məni bu dərdə.***

***Bizə Haqdan bir inayət olurmu?***
***Məcarəmiz xoş rəvayət olurmu?***

***Məhşərdə görüşmək qismət olurmu?***
***Yandı Kərəm, saldı məni bu dərdə.***

***Mən Əsliyəm, itirmişəm mərdimi,***
***Bülbül uçub, xar alıbdı yurdumu,***
***Açın məzarını, görüm mürdünü,***
***Yandı Kərəm, saldı məni bu dərdə.***

Söz tamam oldu. Qızlar paşaya xəbərə qaçmaqda olsunlar, Əsli də tək-tənha ağlamaqda, eşit Qara Məlikdən. O, arvadına dedi:

– Get, Kərəmdən bir xəbər bil. Gərək o, yanıb kül ola.

Qara Məliyin arvadı qaça-qaça özünü yetirib, birtəhər pəncərədən Əslini səslədi. Əsli gördü gələn anasıdı, gəldi pəncərəyə. Anası xəbər aldı:

– Qızım, niyə ağlayırsan? Yoxsa, Kərəm səni aldadıb qaçıb?

Anası belə deyəndə, Əsli Kərəmin sazını götürüb, görək anasına "Qaytarma" havası üstündə nə cavab verdi:

***Allah sizə versin dərdi-bəlalar,***
***Ana, Kərəm yandı deyin ağlaram!***
***Qan ağlayır bağda güllər, lalələr,***
***Ana, Kərəm yandı deyin ağlaram!***

***Məni ağlar qoyduz cavan vaxtımda,***
***Qaralar yazdınız mənim baxtımda,***
***Atam tarmar olsun taci-taxtında,***
***Ana, Kərəm yandı deyin ağlaram!***

***Gödək etdiz siz Əslinin dilini,***
***Bülbül olan buraxarmı gülünü?***
***Gözümlə görürəm Kərəm külünü,***
***Ana, Kərəm yandı deyin ağlaram!***

Əsli bunu deyib, Kərəmin külünü qucaqlayıb, başına tökdü. Sən demə, külün içində hələ qor qalıbmış. Əslinin saçı od aldı. Anası onu

söndürmək üçün qapıya qaçdı ki, içəri girsin. Əsli tez qapını daldan bağladı. Qara Məliyin arvadı qışqırdı. Hamı tökülüb gəldi. Nə qədər elədilər, qapını aça bilmədilər. Əsli də yanıb kül oldu, Kərəmin külünə qarışdı.

Paşa Qara Məliyin də, arvadının da təqsirini üzünə oxuyandan sonra hər ikisinin boynunu vurdurdu. Kərəm ilə Əslinin külünü sandığa yığdılar. Qırx gün, qırx gecə yas saxlayıb, külü bir qəbirdə basdırdılar, üstündən də bir günbəz tikdirdilər. Sofi də ölüncə bu günbəzdə mücəvür qaldı.

Özləri bir-birinə qovuşmasa da, külləri qovuşdu.

Qara Məliyə də lənət oxudular. Onu da qəbiristanlığın bir küncündə basdırdılar. Deyirlər, Kərəmlə Əslinin qəbrinin üstündə iki qızılgül bitdi, pardaxlandı. Hər tərəfə ətir səpdi. Qara Məliyin qəbirinin üstündə də bir qaratikan kolu bitdi. Bu kol qanad atdı, bir qolu Kərəmlə Əslinin qəbiri üstündə bitən güllərin arasına getdi. Sofi fağır bu qara tikanı gündüzlər qırırdı, gecə yenə başqası bitirdi.

Ustad bir aşıq, bu nakam aşiq-məşuqu yad elədi, bu cahannamə ilə dastanı bağladı:

***Dəhri-fənada belə insan hanı?***
***Qılmaya fani ona dövran hanı?***
***Ey bivəfa dünya, sən nə zalımsan,***
***Bu qayətdə sənə gələn can hanı?***

***Əvvəl sənə gəldi Adəmü-Həvva,***
***Beş gün qonaq oldu səndə binəva,***
***Öldürdün Habili, saldın bir dava,***
***Düşdü arasına nahaq qan, hanı?***

***Neçə padşahlar gəldi sahib-cəng,***
***Cəmşidü-Cəm, Nuşirəvani-Hüşəng,***
***Dağyanus, Hüllakü, Çingiz, Teymur-Ləng,***
***Onlardan bircəsi bu zaman hanı?***

***Ey bivəfa dünya fanisən, fani,***
***Necə dağıtdın sən şövkətü-şani,***
***Gecələr çaldılar kürzü-girani,***
***Rüstəmi-Zal kimi pəhləvan hanı?***

***Neçə hakim gəldi, təbibi zaman,***
***Ərəstun, Əflatun, Fərəzdək, Xaqan,***
***İstədi dirildə özünü Loğman,***
***Qaldı kuzəsi də yarımçıq, hanı?***

***Hanı Xosrov, Həsən, Yusif-Züleyxa,***
***Hanı Əsli-Kərəm, Vamüqü-Əzra?***
***Şeyx Sənan sevmiş idi bir tərsa,***
***Ey bivəfa, səndə din, iman hanı?***

***Hafiz, Nəvai, Füzuli, Cami,***
***Şeyx Sədi, Hilali, Ürfü Nizami,***
***Dünya, səndə kəşf eləyib tamamı,***
***Firdovsitək nəzmi dürr-əfşan hanı?***

***Rumdan qalxan zaman o Fətəli xan,***
***Qılıncının ucundan damırdı qan.***
***Harami mənimdi, deyən qəlbi qan,***
***Harami burdadır, Həsən xan hanı?***

***Dünya, səndə aşıq Səməd var idi,***
***Nəzmi – şeiri ləli-göhərdar idi,***
***Bir gözəl eşqinə giriftar idi,***
***Onun kimi bir bəhri-ümman hanı?***

***Bu dünyada heç də gəzməmişdi kəm,***
***Aşıq Əli oğlu, aşıq Məhərrəm.***
***Həsrətin çəkirdi Rum, həm də Əcəm,***
***Əlində tütəyi-balaban hanı?***

***Hanı Molla Pənah, bivəfa cahan,***
***Təxəllüsü Vaqif, nəzmi dürr-əfşan.***
***İndi eyləmisən xak ilə yeksan,***
***Tapmaq olmaz o kamalda can, hanı?***

***Cümlə yola gedər hayıf gözəllər,***
***Sırf müşki-ənbər qoxuyan tellər,***
***Murad üstə neçə xınalı əllər***
***Torpağa döndülər, ay aman, hanı?***

***O ala gözlərə, o gül yanağa,***
***O nazik əndama, o tər buxağa,***
***Necə qıyıb, göndərirsən torpağa,***
***Nazənin-nazənin neçə can, hanı?***

***Müşgül işdi, bir də dolana dövran,***
***Növbət mənə yetə, aman, əlaman!***
***Bir gün olar, görən, bilən, tanıyan,***
***Deyərlər Valehi[1] – dürr-dəhan hanı?***

***Dastanın əsas hissələri Arif Əsgərov,***
***Gəncəli Babayev və Toğrul Ataxallının***
***repertuarından yazıya alınıb***
***(2022-2024-cü illər).***

***1. Cahannamə Abdalgülablı Valehə (1722-1822) məxsusdur.***

## İBRAHİMLƏ ASLAN ŞAH

Ustadlardan qayda-qanun budu, bir nağıl deyəndə, dastan deyəndə, ustadnamə deməliyik. Biz də nağılımıza ustad sözü ilə ayaq verək:

***Könül, talib olub, uyma şeytana,***
***Fitnə şəmatəti şər olacaqdır.***
***Bu dünya bir bağdı, bağbanı iblis,***
***Alması, heyvası, nar olacaqdı.***

***Gözəllər təşbehdi dağın gülünə,***
***Müştaq olma şirin ləhcə, dilinə,***
***Həvəslənib sığal vermə telinə,***
***Məhşərdə hər biri mar olacaqdır.***

***Əməl bir parçadı, mələklər dərzi,***
***Dərk eylə doğrunu, sünnəti, fərzi,***
***Nəkrayıl hirslənib çalanda gürzi,***
***O rövşən gözlərin tar olacaqdır.***

***Aldanma cüfəyə, uyma fənayə,***
***Güvənmə dövlətə, simi tilayə,***
***Bir gün köçürərlər dari-üqbayə,***
***Simü-zərdən əlin car olacaqdır.***

***Nütfədən pak olan siratdan keçər,***
***Müxənnət münkiri almasdı, biçər,***
***Səxavət əhlini mələklər seçər,***
***Kövsəri-rizvanda yar olacaqdır.***

***Söyün, zayiqətül-mövti yazanda,***
***Şərm ilə sal yada fəhmin azanda.***
***Gün hərarət edib, yer də qızanda,***
***Şahlar şahı şəfakar olacaqdır.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, yad-yamanın gözü tökülsün:

***Təzə aşnalıqla köhnə dostluğun***
***Fərqi var qış ilə yaz arasında.***
***Namərddə qaydadı: kəsər basdığın,***
***Hər kəs hesab çəksin öz arasında.***

***Qüdrətdən ucalan zülm ilə enməz,***
***Haqdan yanan çıraq bad ilə sönməz.***
***Dost dostdan inciyər, qəlbində dönməz,***
***Olar bir az ərki naz arasında.***

***Ələsgərəm, qəmü-möhnətdi yüküm,***
***Fil çəkməz bu dərdi, mən necə çəkim?!***
***Haqq ilə nahaqqı axtaran hakim***
***Tapar qulaq ilə göz arasında.***

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, namərdlərin ömrü puç olsun:

***Atadan-anadan tərbiyə almaq,***
***Övladına qüdrətdimi – qüdrətdi.***
***Səadətdi böyük yolu saxlamaq,***
***Bu da böyük hörmətdimi – hörmətdi.***

***Mətləb bilər söz mətləbi arayan,***
***Yarasını təbib əli sarıyan,***
***Oğul-qızdan, yar-yoldaşdan yarıyan,***
***Dünya sizə cənnətdimi – cənnətdi.***

***Hər düşən axşama açılar səhər,***
***İnsanda xoş sifət olar, xoş təhər,***
***Minnətli plovdan minnətsiz zəhər,***
***Qanan üçün şərbətdimi – şərbətdi.***

***Gözlənilən muraz başa gələrsə,***
***Tülək tərlan bir də daşa gələrsə,***
***Sözün bəyənilib xoşa gələrsə,***
***Şəmşir, əldə fürsətdirmi – fürsətdi.***

Ustadlara rəhmət, ərz eləyək qulluğunuza Qəndəhar şəhərində Bilal şahdan. Əzizlərim, ustadlar belə söyləyir ki, Bilal şah öz dövründə, zəmanəsində çox ədalətli, mərhəmətli bir şah olub. Kimsəsizlərə əl tutub, ac qarınlar doydurub, borcluları borcundan qurtarıb. El-oba hamısı bu şahdan razı olub.

Bilal şahın da bir cüt oğlu var idi. Birinin adı Aslan, o birinin adı İbrahim idi. Vaxt dolandı, günlər keçdi, bir gün yaranan bir gün köçəcək, deyiblər. Bilal şahın xanımı günlərin birində dünyasını dəyişdi. Həmin vaxtdan ailədə bir az çətinliklər yaşandı. Şah bütün günü qəmgin oldu, övladlarının tərbiyəsini bir qarıya tapşırdı. Amma deyirlər ki, get-gedə şahın qəzəbi artdı. Başladı əyalətə-rəiyyətə zülüm etməyə. Ağsaqqallar bir yerə yığılıb məşvərət elədilər. Dedilər ki, bu şah belə deyldi. Niyə belə oldu?

Bir ağıllı ağsaqqal ortaya çıxdı, dedi ki, bəs, şahı evləndirmək lazımdı. Belə qərara gəldilər ki, şahın yanına gedək, söhbətləşək. Bəlkə, bir köməyimiz dəydi. Elə də etdilər. Gəldilər şahın yanına:

– Qibleyi-aləm sağ olsun, bir məsləhətə gəlmişik.

Şah ağsaqqalları çox böyük hörmətlə qarşılayıb, dedi:

– Buyurun!

Ağsaqqallar məsələdən şahı agah elədilər. Dedilər:

– Şahım, bir kişiyə bir qadın lazımdı. Övladların tərbiyəsini davam eləməkçün, analıq da olsa, gərəkdi. Məsləhətimiz budur, gəlmişik ki, razılıq verəsiniz, sizi evləndirək.

Bəli, şah ağsaqqalların sözünü yerə salmayıb razılaşdı. Vəzir qalxdı ayağa, dedi:

– Mən eşitmişəm ki, bu yaxınlarda Misir şahı dünyasını dəyişib, onun xanımı duldu. İcazə versəniz, şahımın razılığı olsa, mən gedib o xanımı gətirərəm.

Şah razılığını bildirdi. Vəzir bir neçə adamnan Misirə yol başladı.

Aşıq dili yüyrək olar, o məqam çatdı ki, xanımı da götürüb gəldi vəzir. Bu tərəfdən İbrahimnən Aslan fikirləşdilər ki, analıq da olsa, gedək qarşılayaq, el-oba bizə nə deyər. Bəli, analıqlarının qarşısına çıxdılar. Həmən bu xanım gördü ki, bir cüt gözəl oğlan gəlir, ilahi elə bil xoş saatında bunları yaradıb. Xanım öz-özlüyündə belə fikirləşdi ki, yəqin ki, bu oğlanların biridi mənə elçi gələn. Nəhayət, sən saydığını say deyiblər, qoy görək fələk nə sayır.

Gəldilər şahın sarayına, xanımı öz otağında əyləşdirdilər. Axşam oldu, xanım baxdı gördü ki, bir nurani qoca içəri daxil oldu. Xanım sual etdi:

– Məni sənəmi gətiriblər?

Şah dedi:

– Bəli.

Bəli, əzizlərim, gecəni yatdılar, sabah üzünüzə xeyirliknən açılsın, sabah açıldı. Qarı Aslannan İbrahimi gətirdi analıqnan tanış eləməyə. Analıq baxıb gördü ki, dünən gəcavənin qarşısına çıxıb, onu qarşılayan oğlanlardı. Məsələdən agah oldu ki, şahın övladlarıdı.

Bu xanım İbrahimi görən kimi ona bir könüldən min könülə aşiq oldu. Bir gün İbrahimdən sual elədi ki, oğul, atanın otağı elə budumu?

İbrahim dedi:

– Yox aneyi-mehriban, atamın qırx otağı var.

– Oğul, məni gəzdirə bilərsənmi o otaqları?

Dedi:

– Bəli.

Otuz doqquz otağı gəzdilər, qırxıncı otağa daxil olan kimi həmən bu analıq qapını bağlayıb İbrahimə dedi:

– Bilirsən, nə var? Sən mənim olmalısan.

İstədi ki, İbrahimə əl atsın. O, analığının gözünün üstündən bir şillə vurub qaçdı. Xanım fikirləşdi ki, gedib şaha xəbər verəcək, oydu ki, özünü tez yetirdi şahın yanına. Dedi:

– Ayə, zalım oğlu zalım, bəs deyirdin ki, mənim belə tərbiyəli övladlarım var. İbrahimin gözü mənə düşüb, hələ biz otaqları gəzəndə istədi ki, mənə əl atsın.

Şah qəzəblənib, cəlladı səslədi. Cəllad hazır oldu.

– Buyur, qibleyi aləm, – dedi.

Şah əsəbi halda dedi:

– Cəllad, Aslannan İbrahimi aparıb dar ağacından asırsan.

Bütün şahın sarayı, aləm qarışdı bir-birinə. Vəzir bir yandan, vəkil bir yandan, hamısı bu işə məəttəl qaldılar. Vəzir dedi:

– Şahım, övlad itkisi pis olar. Siz onu asdırarsız, sonra bu dərdə-qəmə dözməzsiniz. Yaxsısı budur ki, onları ölkədən çıxardıb sürgün eləyəsiniz.

Vəzirin bu ağıllı fikri şahın beyninə batdı, oydu ki, cəllada əmr elədi:

– Xəzinədən hərəsinə bir qiymətli daş verirsən, aparıb ölkədən çıxardırsan.

Belə də oldu, xəzinədən hərəsi bir qiymətli daş götürdü. Yolda cəlladlar bunları aparanda Aslan xahiş elədi ki, bizim anamızın qəbiriynən bir vidalaşmaq arzumuz var. Onu yerinə yetirməkdə bizə kömək olasınız. Cəlladın yazığı gəldi, İbrahimnən Aslanı analarının qəbrinin üstünə apardı. Götürüb burda görək bir "Dilqəmi" havası üstündə anaları ilə necə vidalaşırlar, biz deyək, eşidənlər var olsun:

***Yetim balaların hüzurundadı,***
***Son dəfə görüşə gəlmişik, ana,***
***Yetimlik nə şeydi, bilənlər bilir,***
***Onu sən öləndən bilmişik, ana.***

***Vətəndən getməyə verdilər fərman,***
***Getməsək, edərlər qanmıza qaltan,***
***Gəlib evimizə girəndən şeytan,***
***Nə danışıb, nə də gülmüşük, ana.***

***Aslan, İbrahimin sinəsi dağlı,***
***Gəldik hüzuruna qolları bağlı,***
***Dünya yaranıbdı qaralı-ağlı,***
***Qaranlıq günlərdə qalmışıq, ana.***

Sözlərini tamam eləyib analarınnan vidalaşdıqdan sonra cəlladlar bu

iki qardaşı ölkədən çıxardılar. Onlar gəlib çıxdılar Misir torpağına.

Cəlladlar:

– Burdan beləsi öz işinizdi, – deyib, geri qayıtdılar.

Aslan İbrahimə baxanda bir az böyük idi. Fərasətli bir oğlandı. Baxıb gördü ki, uzaqda bir kənd görünür. Belə nəzərdə tutdu ki, yaxınlaşsınlar bu kəndə, bəlkə, burda bir az azuqə tapar, qalmağa bir yer eləyərlər. Gəlib çatanda gördülər ki, nə kənd var, nə də şəhər, bura böyük bir məzarıstanlıqdı. İçərisində bir kümbəz var. Daxil oldular kümbəzə. Aslan İbrahimə dedi ki, qardaş, sən burda dur, yəqin ki, belə bir məzarıstanlığın bir şenliyi də olar. Yaxında bir kənddən, şəhərdən bir şey taparam. Bir az azuqə gətirərəm. Razılaşdılar.

İbrahim burda qalmaqda olsun, Aslan payi-piyada yol başladı. Geth-aget, gəlib çıxdı Misir şəhərinə. Baxdı gördü ki, böyük bir yığıncaq var, camaat hamısı durmadan bura yaxınlaşır. Bir ağsaqqaldan soruşdu:

– Baba, camaat bura niyə topalaşıb?

Qoca dedi:

– Oğul, Misirin şahı yaxınlarda dünyasını dəyişib, indi camaat burda özünə yeni şah seçir.

Aslan fikirləşdi, nə yaxşı oldu, gözləyərəm, şah seçilər, mən də öz dərdimi deyərəm. Bəlkə, mənə bir kömək eləyər.

Beləliklə, camaat quş uçurtdu, quş bir neçə dəfə göydə dövrə vurandan sonra gəldi qondu Aslanın başına. Hamı gülüşdü. Bu əcnəbi bir oğlandı, bundan bizə şahmı olar deyib, Aslanı döyə-döyə aparıb saldılar bir daxmaya.

Təzədən quşu uçurtdular. Quş yenə göydə bir neçə dövrə vurub gəldi özünü həmən daxmanın bacasından saldı içəri. Quşun arxasınca gəldilər. Baxıb gördülər ki, quş qonub Aslanın başına, o isə quşa deyir:

– Ey Allahın heyvanı, məndə elə qismət olsa, öz vətənimdə, torpağımda olardım. Öz yerimdə şah oğluydum, Bilal şahın oğluydum. Yurdumdan didərgin salındım. Niyə gəlib mənim başıma qonursan?

Adamlar Aslanın sözlərini burda eşitdi. Qayıdıb gəlib camaata bildirdilər ki, sən demə, bu əcnəbi oğlan şah oğludu. Ağsaqqallar irəli durdu, belə qərara gəldilər ki, Aslanı şah seçsinlər.

Dedilər, daha yaxşı. Şah oğludu, şahlıqdan məlumatı var.

Beləcə, Aslanı taxta çıxartdılar, şah seçdilər. Aslanın bir neçə gün burada başı öz işlərinə qarışdı. İndi sizə kimdən deyim, İbrahimdən. İbrahim baxıb gördü qardaşı gəlmədi. Bir neçə gün keçdi, aclıq onu əldən salmışdı. Kümbəzin üstünə çıxıb uca bir səsnən qardaş deyib fəryad elədi:

***Qar daşı,***
***Qarlı dağdan qar daşı,***
***Heç kim əvəz eləməz***
***Bu dünyada qardaşı.***

Belə bir bayatı çəkdi, amma Aslan onun səsini eşidəsi deyildi.

Bu zaman Ziyad haramı yaxınlıqdan öz dəstəsiynən keçirdi. Baxdı ki, kümbəzin üstündən bir səs gəlir. Yaxınlaşıb gördülər ki, gözəl-göyçək cavan bir oğlandı. O saat Ziyad haramının dəstəsindən haramların biri irəli durdu. İstədi ki, İbrahimi qılıncdan keçirsin. İbrahim ağladı. Ziyad haramı yaxın durub, dedi:

– Oğul, niyə ağlayırsan, səni bura kim gətirib? Dərdini söylə.

İbrahim başına gələnləri danışmamışdan əvvəl gördü ki, haramının o birisi elə hazır durubdu. Boynunu qılıncnan vurasıdı.

Haramılar burda yol kəsib, adam soyardılar. İnsanların qanından, yağından dərman düzəltdirərdilər. İbrahim qorxdu ki, haramı bunu vuracaq. Götürüb burda bir "Ağır şərili" havası üstündə haramıbaşına necə yalvardı, biz deyək, eşidənlər var olsun:

***Başına döndüyüm, Ziyad haramı,***
***Öldürmə, Allaha bağışla məni.***
***Qardaş gəlib bağlamazmı yaramı,***
***Öldürmə, Allaha bağışla məni.***

***Bahar oldu, dağ çayları bulanıb,***
***Göz-göz olan yaralarım sulanıb,***
***Qardaş gəlib bu kümbəzi dolanıb,***
***Öldürmə, Allah bağışla məni.***

Haramının ürəyi yuxaldı. Fikirləşdi ki, belə bir gözəl oğlana qıymaq olmaz. İbrahim götürüb görək son bəndi necə deyir, özünü necə nişan verir, biz deyək, eşidənlər var olsun:

***İbrahiməm, bu dəryaya adayam,***
***Adım çıxıb, Alosmana sədayam,***
***Bilal şah oğluyam, bir şahzadəyəm,***
***Öldürmə, Allaha bağışla məni.***

Söz tamama yetdi, Ziyad haramının İbrahimə yazığı gəldi. Dəstə üzvlərinə dedi:

– İndiyə qədər bir belə adam öldürmüşük, bir bu uşağı öldürməyə əlim gəlmir. Bunu mən özüm oğulluğa götürürəm. Aparıb İbrahimi özüm saxlayacam.

Haramı dəstənin hamısı razılaşdı.

Onlar İbrahimi aparmaqda olsun, sizə kimdən xəbər verim Aslan şahdan. Aslan şah fikirləşdi ki, başım bu boyda işlərə qarışıb. Qardaşım yaddan çıxıb. Yatıb yuxuda gördü ki, İbrahim ona deyir:

– Zalım oğlu, adam da qardaşını unudarmı? Sən nə vaxtdı getmisən, heç məni yadına salmadınmı?

Aslan o saat dəli kimi oyandı. Vəzirə əmr elədi, qoşun düzəlsin. Vəzirlə bərabər cəm olub gəldilər həmən məzarıstana. Şah əmr elədi, qoşun kənarda dayansın.

Vəzirnən bərabər daxil oldular həmən kümbəzə, harda ki, İbrahimi qoymuşdu. Aslan şah baxdı ki, İbrahim kümbəzdə yoxdu. Görək məzarıstanlıqdan qardaşını necə xəbər aldı, "Qaytarma" havası üstündə nə dedi:

***Alçaqdan ucaya çəkilsin başın,***
***Məzarıstanlıq, İbrahimi neylədin?***
***Atılsın kərpicin, dağılsın daşın,***
***Məzarıstanlıq, İbrahimi neylədin?***

***Qalalar içində möhkəm qalasan,***
***İyidlər başına yaman bəlasan,***

***Qarğayıram, səni viran qalasan,***
***Məzarıstanlıq, İbrahimi neylədin?***

***Aslan şaham, qəm evində yatmışdım,***
***Dərdə-qəmə mən də yaman batmışdım,***
***İbrahimi burda qoyub getmişdim,***
***Məzarıstanlıq, İbrahimi neynədin?***

Vəzir soruşdu ki, qibleyi aləm, İbrahim kimdi? Kimi soruşursan burda?

Şah vəzirə cavab vermədi, məzarıstandan ayrılıb saraya gəldilər. Şah taxtına çıxan kimi əmr elədi:

– Bütün şəhərin girişinə-çıxışına, mehmanxanalara, yeməkxanalara diqqət edin, qərib qonaq görsəniz, ondan heç kim pul almasın, incitməsin. Birbaşa şahın hüzuruna, yəni mənim yanıma gətirsinlər.

Deyirlər ki, Misir dəryasının Cavidan paşa adında bir paşası var idi. Şah ona əmr elədi:

– Dəryadan kim keçsə, ondan bir manat belə almadan sağ-salamat keçirdərsən.

İbrahimin nişanını da söylədi, dedi ki, bu boyda, bu görkəmdə bir kəs görsəniz, mənə bildirərsiniz.

Nəhayət, şah burda işində olsun, sizə deyim İbrahimdən. İbrahimin başına nə gəldi? İbrahim məzarıstanlıqdan aralanandan – haramıbaşı aparandan sonra gecəni yatdı. Vaqeyi-aləmdə gördü ki, bir nurani, pirani qoca ona yaxınlaşdı. Şərab dolu piyaləni uzadıb, ic dedi. İbrahim dedi:

– Şərab haramdı, mən onu içə bilmərəm.

Ağ atlı, ağ çuxalı müdrik ona dedi:

– Oğul, bu, sən deyən şərabdan deyil. Mətləb verən şərabdı.

İbrahim badəni başına çəkdi.

Pirani qoca dilləndi:

– Oğul, Herat şəhərində Fətəli xanın qızı Hürnisə xanımı sənə buta verdim. Çox keçməz, mətləbinə çatarsan.

Həmin gecə İbarahimə buta verən ağa Heratda Hürnisə xanıma da o badəni içirdib, İbrahimi də ona buta verir.

İbrahim burda qalmaqda olsun, bir gün bu haramı dəstəsinin üzvləri belə qərara gəldi ki, Ziyad haramı bizə başçılıq eləyəndən xeyli qazancımız var. O uşağı oğulluğa götürəndən sonra qazancımız azalıbdır. Gəlin İbrahimi aradan götürək. Bəlkə, onda Ziyad haramı qoşula dəstəyə, başçılıq eləyə.

Az keçmədi, gördülər ki, bir ombası batıq qarı gəlir. Bu qarının sir-sifətindən şər-böhtan yağırdı. Yaxınlaşıb dedilər:

– Qarı nənə, sənə qızıl, pul, nə qədər istəsən verəcəyik, Ziyad haramının evindəki o oğlanı öldürməkdə bizə kömək eylə.

Qarı qızıl, pul adını eşidən kimi dedi:

– Mənim gözüm üstə, o nə şeydi ki qarı nənənin əlində.

Bəli, qarı pulu aldı, özünü yetirdi Ziyad haramının evinə. Qapını döyəndə Ziyad haramının xanımı Şəkər xanım dilləndi:

– Qarı nənə, niyə içəri keçmirsən?

Qarı dedi:

– İçəri keçməklik bir iş yoxdu. Bütün şəhər sizdən danışır. Sizin evinizdəki o İbrahim bütün şəhərdə deyib ki, mən Ziyad haramını öldürüb, xanımı Şəkər xanımı alacam.

Şəkər xanımın az qaldı ürəyi partlasın, bilmədi neyləsin. İbrahimnən Ziyad haramı ovdaydı. Gözlədi ki, axşam ovdan gəlsinlər. Bu xəbəri heç kəsə demədən, İbrahimi öldürsün. Axşam düşdü, Ziyad haramı İbrahimlə bərabər ovdan qayıtdı. Adəti üzrə İbrahim qaçdı getdi analığı Şəkər xanımla görüşsün. Qapının ağzından keçəndə gördü ki, burdan bir qarı çıxdı. İbrahim bilmədi bu kimdi. Ancaq keçdi içəri, analığına salam verdi.

Gördü analığı salamı almadı. Dedi:

– Anacan, salamı niyə almırsan?

Analıq qarı dediklərinin hamısını İbrahimə danışdı. Dedi:

– Biz sənə pislik eləmədik, gətirib oğulluğa götürdük. Sən gedib orda-burda deyibsən ki, Ziyad haramını öldürəcəm, onun xanımıyla evlənəcəm.

İbrahim bir söz tapmadı, başladı ağlamağa. Bu dəmdə Ziyad haramı gəldi içəri. Salam verdi. Gördü ki, xanımı salamı almır. Səbəbini soruşanda, qarı dediklərininin hamısını nağıl elədi Ziyad haramıya.

Dedi:

– Bu bic oğlu bici gətirdin bizim evimizi dağıtmağa? Bəs, bütün şəhərdə belə bir şayə yayıb.

Şəkər xanım Ziyad haramıya dedi ki, bunu öldürməlisən. Əlacsız qalan Ziyad haramı İbrahimi öldürmək qərarına gəldi. Atın tərkinə mindirib yola başladı. Yolda dedi:

– Mən səni o məzarıstanlıqdan götürüb gətirdim. Haramılar da səni öldürmək fikrində idi. Bəs niyə mənə bu pisliyi elədin?

İbrahim ağlayıb dedi:

– Mehriban ata, mənim bir günahım yoxdu.

Ziyad haramı soruşdu:

– Oğul, evə girəndə kimi gördün?

Dedi:

– Bir qarı çıxdı.

Ziyad haramı o saat fikirləşdi ki, xata burda qarıdan keçib. İbrahimi gətirdi həmən götürdüyü kümbəzə, məzarıstanlığa qoyub dedi:

– İbrahim, sən burda dur. Mən gedirəm, indi o qarını tapıb gətirəcəm. Günahkar qarıdısa, onun vəziyyətini özün burda görəcəksən. Yox, günahkar sən olsan, səni öldürməliyəm.

İbrahim razılaşdı.

Ziyad haramı getməkdə olsun, bir az keçmişdi İbrahim yatıb yuxuya getdi. Yuxuda bir də butasını gördü. Ürəyi qubar elədi. Yuxudan dəli kimi oyandı, fikirləşdi ki, mən burda Ziyad haramını niyə gözləyirəm? Günahım olmaya-olmaya gələ məni öldürə. Qarı ona nə deyər, nə deməz, bilmək olmaz.

İbrahim yol başladı birbaşa Herat şəhərinə, öz butasının dalıncan. Xeyli getdikdən sonra bir ağacın altında oturdu ki, bir az dincin alsın. Gördü, karvan gəlir. Karvan gəlib yetişəndə dəvənin üstündə saza gözü sataşdı. Xoca İbrahimi görüb ondan kimliyini, hardan gəlib, hara getməsini soruşdu.

İbrahim xahiş elədi ki, o sazı olarmı verəsən, dərdimi saznan deyəm. Xoca sazı verdi, İbrahim burda bir "İrəvan çuxuru" havası üstündə görək nə dedi, tərəfinnən ərz eləyək, eşidənlər var olsun:

***Başına döndüyüm Bəzirgan xoca,***
***Xoca bir yar deyim, ver nişan, barı.***
***Malın qismət olsun, gedəsən Haca,***
***Xoca bir yar deyim, ver nişan, barı.***

Xoca başa düşmədi İbrahim nə deyir. Dedi:
– Oğul, başa düşmədim sən nə deyirsən?
Sonra da sazı  sinəsinə basıb görək nə deyir:

***Başına döndüyüm, gülüzlü oğul,***
***Oğul, sən adın de, mən nişan verim.***
***Alışıb, oduna büryan olduğum,***
***Oğul, sən adın de, mən nişan verim.***

İbrahim deyir:

***Dəryalar içində dərin adadı,***
***Sağların içində dürlü bəladı,***
***Herat şəhərində bir xanzadadı,***
***Xoca, bir yar deyim, ver nişan, barı.***

Xoca deyir:
***Mən gələndə eyvanında durmuşdu,***
***Ağ üzündə həlqə birçək qurmuşdu,***
***Firəngi qayçıynan telin vurmuşdu,***
***Oğul, sən adın de, mən nişan verim.***

İbrahim cavabında yenə "İrəvan çuxuru" havası üstündə görək nə deyir,  tərəfindən ərz eləyək, eşidənlərə can sağlığı:

***İbrahiməm, şirin cannan bezərəm,***
***Dərsimi oxuyub, özüm yazaram.***
***Nə müddətdi sorağınan gəzərəm,***
***Xoca, bir yar deyim, ver nişan, barı.***

Xoca götürüb görək bu sorğuya necə cavab verir:

***Xoca Hasan xocaların gözüdü,***
***Aşıqların söhbətidi, sözüdü.***
***İndi bildim, Fətəli xan qızıdı,***
***Oğul, sən adın de, mən nişan verim.***

Xoca İbrahimi də dəvənin üstünə mindirib, yol başlayır Herat tərəfə. Bunlar gəlməkdə olsun, Hürnisə xanım yatıb yuxuda görür ki, İbrahim gələcək. Yanındakı qızları çağırıb deyir:

– Qızlar, sizə bir xoş xəbərim var.

O saat qızlar ordu kimi düzülüb hazır olurlar. Gözləyirlər görək nə xəbər olacaq.

Hürnisə xanım deyir:

– Qızlar, İbrahim gələcək. Onun gəlişini kim mənə birinci müjdə versə, bu boynumdakı qızıl boyunbağını ona verəcəm.

Dəstənin içində zirək qızlar var idi. Onlar yuxusuna haram qatıb gözləməyə çalışdılar, amma gecənin yarısına kimi dözə bilmədilər. Burda qızlardan biri barmağını kəsib, ora duz basdı. Dedi ki, sabahı diri açacam, gözləyib o boyunbağını özüm alacam. Belə də elədi. Çox inadkar qız idi, gözlədi, sabah açıldı, üzünüzə xeyirli sabahlar açılsın. Baxıb gördü, karvan gəlir. Üstündəki elə bir gözəl oğlandı ki, gəl görəsən. Özözünə dedi:

– Mən bu boyunbağını neynirəm, bu oğlan yaman xoşuma gəlib. Onunla ailə qurub xoşbəxt olaram.

Amma tez də fikirləşdi ki, yox, bunlar bir-birinə butadı. Qaçdı o saat Hürnisə xanımın yanına xəbərə, muştuluq elədi. Boyunbağını aldı.

Karvan gəlib Hürnisə xanımın eyvanının yanından keçir. Bura el yolu idi. Hürnisə xanım xocadan xahiş elədi:

– Xoca, o çiyni sazlı gedən oğlana sözüm var, bir anlıq karvanını əyləməyi xahiş eləyirəm.

Xoca baxıb gördü ki, gözəl-göyçək bir qızdı. Hürnisə xanım ağ örpəyi atdı üzünə, dedi:

– Görək İbrahim məni tanıyır, yoxsa yox.

Xoca karvanı əylədi. Hürnisə xanım götürüb burda İbrahimə görək nə deyir, "Təbriz gəraylısı" havası üstündə biz ərz eyləyək, siz var olun:

***Çiyni sazlı gedən oğlan,***
***Oğlan, gəl bəri, gəl bəri!***
***Məni dərdə salan oğlan,***
***Oğlan, gəl bəri, gəl bəri!***

İbrahim onu tanımadı, amma işarədən qandı ki, bu xanım sözü ona deyir. Götürüb İbrahim burda yenə "Təbriz gəraylısı" havası üstündə görək nə deyir, biz deyək, eşidənlərə cansağlığı:

***Eyvanında duran gözəl,***
***Qayıdıb gələ bilmərəm,***
***Bir yarım var, səndən gözəl,***
***Qayıdıb gələ bilmərəm.***

Hürnisə xanım:

***Çox işlər etdi iradə,***
***Səninlə mən içdim badə,***
***Gəl, səninlə yetək murada,***
***Oğlan, gəl bəri, gəl bəri.***

İbrahim:

***Danış, eşidim sözünü,***
***Kim çəkə işvə-nazını.***
***Fətəli şahın qızını,***
***Get pərim, gələ bilmərəm.***

Hürnisə xanım:

***Hürnisəyəm, çoxdu ahım,***
***Bilmirəm nədir günahım.***
***Can sənə qurban, İbrahim,***
***Oğlan, gəl bəri, gəl bəri.***

İbrahim:

***İbrahiməm, gətirmişəm,***
***İşi bura yetirmişəm,***
***Aslan qardaş itirmişəm,***
***Get pərim, gələ bilmərəm.***

Xoca hər iki gənci burda qoyub, karvanı ilə yoluna davam etdi.

İş o yerə çatdı ki, Hürnisə xanım örpəyi yenidən başından götürdü. İbrahim onu tanıdı. Hər iki aşiq-məşuq görüşüb həmsöhbət oldular. Hürnisə xanım İbrahimə dedi ki, sən şəhərin kənarında elə bir yer tap qal, atam bilməsin. Hələ ki, belə gözləyək. Elə də oldu. İbrahim gəlib Musa adlı bir halvaçıya nökər olmaq istədiyini dedi. Halvaçı cavabında dedi:

– Oğul, səndən çox xoşum gəldi. Görüb qanım qaynadı. Səni oğulluğa götürürəm. İşləyək, varım-dövlətim də sənindi.

İbrahim burda qalmaqda olsun, indi sizə kimdən deyim, Dağıstan mahalında Şəmi Qaradan. Şəmi Qara Süleyman xanın qızına aşiq olmuşdu. Amma Süleyman xan Şəmi Qaraynan qızın arasında yaş fərqi böyük olduğundan, danlamışdı. Şəmi Qara fitnə-hiylə işlədib demişdi ki, mən qızı oğluma istəyirəm.

Süleyman xan da ona demişdi:

– Onda oğlunu tap gətir. Bizdə adətdi, qız oğlanı, oğlan da qızı görməsə, olmaz.

Şəmi Qara əlacsız qalır, düşünür ki, neynəsin. Oğlu yox, bir kəsi yox. Özünə oğul axtarmağa başlayır. Nəhayət, gəlib halvaçı Musanın dükanına çıxır. İbrahimi görür. Düşünür ki, gözəl bir oğlandı, elə bunu tora salıb apararam.

Onu da deyim ki, Şəmi Qara əfsun oxuyurdu. Hiyləni, fəndi yaxşı bilirdi. Bir qədər halva alıb, halvaçı Musadan xahiş elədi ki, bu uşaq mənə kömək eləsin karvana qədər. O adnan uşağı çıxartdı kənara. İbrahimə tilsim oxuyub qoydu sandığına. Götürüb apardı Süleyman xanın hüzuruna.

Süleyman xanın yanına çatanda dedi:

– Xan sağ olsun, oğlum budu.

Süleyman xan baxıb gördü, özünün iki oğlu var, amma heç biri bunun əlinə su tökməyə yaramaz. Odur ki, dedi:

– Mən razıyam, qızımı verirəm.

Qız da gəlib oğlanı gördü, bir könüldən min könülə aşiq oldu. Süleyman xan burda bunlara toy eləyib yola saldı. Onlar Firəngistana yol başladılar. Gəlhagəl, gəlib Firəngistana çatdılar.

Şəmi Qara fikirləşdi ki, bir hiylə işlədib, Firəngin xanını aldatsın. O, çox əzazil adamdı. Elə də elədi. Xanın hüzuruna gəlib dedi ki, bu nökərim nə qədər arvad alıram hamısını əlimdən alır. Bəs, bir qayda-qanun yoxdumu?

Xan dedi:

– Nə qayda-qanun?

Şəmi Qara əvvəldən düşündüyünü xana çatdırdı. Xan o saat əmr elədi ki, nökərin boynu vurulsun. Bu vaxt Xeyransa xanım irəli yeriyib ağladı. Bir kəlmə sözü olduğunu deyir. Götürüb burda “Oğuzoğlu” havası üstündə xandan görək necə xahiş elədi, xanın rəhmi gəldimi, yoxsa yox:

***Uzaq eldən səni deyib gəlmişəm,***
***Əlac sənə qaldı, Firəngin xanı.***
***Mən səni özümə qəhmar bilmişəm,***
***Əlac sana qaldı, Firəngin xanı.***

***Canım qurban İbrahimin canına,***
***Öldürüb, batmaynan nahaq qanına.***
***Çapar göndər Dağıstanın xanına,***
***Əlac sənə qaldı, Firəngin xanı.***

Firəngin xanı burda bu sözləri, yalvarışı eşidəndə hər iki cavana yazığı gəldi, İbrahimi öldürtmədi. Şəmi Qaranı isə Nuhdan qalma bir quyuya atdırdı. İki nəfər adamı da quyunun başına qoyub tapşırdı ki, bu ölüncə burda dursunlar.

İbrahimnən Süleyman xanın qızı Xeyransa xanım isə Frəngin xanından icazə alıb yollarına davam elədilər.

Şəmi Qara yenə burda hiylə işlətdi, quyunun başında olan adamlara bir qədər pul verib, quyudan çıxdı. İbrahimgilin ardınca gəlib gördü, bir çəmənlikdə hər iki cavan uzanıb dincəlirlər. Bunları ovsunladı, qaldırıb qoydu dəvənin belinə. Yol başladı Misirə doğru. Misir dəryasından keçəndə Cavidan paşaynan rastlaşdı. İstədi paşaya pul verib, yoluna davam eləsin. Ancaq Cavidan paşa dedi:

– Şahın əmri var, pul götürmürük.

Şəmi Qara dedi:

– Zalım oğlu, şah nə bilir burda məndən pul aldın? Al bu pulu, dəryanın ortasında İbrahimi at dəryaya.

Elə də elədilər. Dəryada İbrahimi suya atdılar. Gəmi aralaşdı, İbrahim qaldı burda.

Xeyransa xanım gördü iş işdən keçib, Şəmi Qaraya dedi, böyük bir imarət tikdirərsən qapısız, aynasız olsun. O halda sənə hə deyəcəm.

İbrahimi dalğa vurub çıxardı kənara. Bir taxta parçasının üstündə oturmuşdu. O burda qalmaqda olsun, eşit Şəmi Qaradan. Şəmi Qara imarət hazır olanda Xeyransa xanımı kəndirnən çəkib qaldırdı qalanın başına və sonra ona dedi ki, kəndiri aşağı at mən də qalxım. Xeyransa xanım dedi:

– Elə şey yoxdu. Gedərsən İbrahimi tapıb öldürərsən, qanlı köynəyini mənə gətirərsən. Ondan sonra sənə hə deyəcəm.

İbrahim dəryanın kənarındaydı. Şəmi bu tərəfdən İbrahimi axtarmaqda olsun, Aslan şahın da iki çobanı var idi: Dəli çoban, Budaq çoban. Bunlar da bir dəstə heyvan itirmişdilər. Gəzə-gəzə gəlib dəryanın qırağında İbrahimə rast oldular. Gördülər qəribdi, götürüb özləri ilə apardılar. Ayda bir toğluya özlərinə çoban götürürlər.

Bu tərəfdən də Şəmi Qara öldürmək üçün İbrahimi axtarır. Qanlı köynəyini aparmalıydı. Şəmi Qara İbrahimi axtarmaqda olsun, çobanlar isə İbrahimi bir xeyli işlətdilər.

Bir gün çobanlar bayramqabağı İbrahimə dedilər ki, alver üçün bazara gedəcəyik. Sən də istəyirsən, öz haqqına düşən heyvandan apar sat, özünə əyin-baş alarsan. Belə də elədilər, bir yerdə bazara gəldilər. Şəmi Qara bazarın ətrafında İbrahimi axtarırdı. Aralıdan gördü ki, iki çoban qabaqda gedir. Bir dəstə heyvan da onların arxasınca gəlir. Arxada

da İbrahim. Başa düşdü ki, heyvanları qəssabın, sallağın yanına aparırlar.

Bunlardan qabaq özünü yetirdi qəssabın yanına. Bir qədər pul verib, dedi, iki çoban gəlir, arxasınca da bir dəstə heyvan. Arxada oğlan var, adı İbrahimdi. Onu öldürərsən, qanlı köynəyi mənə lazımdı.

Pul şirin şeydi, qəssab razı oldu. İbrahimnən bərabər çobanlar gəlib çatdılar. Heyvanlarını satıb əyin-baş almaq istəyirdilər. Çobanlar qəssabdan xahiş elədilər ki, bu oğlan yanında dursun, biz bir az bazarlıq eləyək gələk.

Qəssaba da elə bu lazım idi. Çobanlar aralanan kimi, İbrahimi sallaqxananın arxasına apardı. İbrahim baxdı gördü ki, bıçaqlar, baltalar elə itilənib ki, adamın gözünə işıq düşür. Bildi ki, qəssab bunu öldürəcək.

İbrahim sallağa yalvarıb-yaxardı ki, mən qəribəm. Bilal şahın oğluyam. Qəssab o saat fikirləşdi ki, ayə, bizim bu Misirin şahı da şah seçiləndə, o quş uçub onun başına qonan məqamda demişdi ki, Bilal şahın oğluyam.

Fikirləşdi ki, şah bilər, məni öldürüb nəslimi kəsər. Odur ki, İbrahimi buraxdı. Dedi, bala, burdan qaç, hara qədər gedə bilirsən get, amma köynəyini ver mənə. Qəssab onun köynəyini alıb heyvan qanına bulayıb bir yana qoydu ki, Şəmi Qara gələcək.

İbrahim qaçmaqda olsun. Gethaget gəlib bir imarətə rastlaşdı. Xeyransa xanım İbrahimi görüb səslədi:

– İbrahim, İbrahim.

İbrahim baxıb görür ki, bir qalanın başında Xeyransa xanım oturub. Kəndirdən tutub yuxarı qalxdı. Söhbət əsnasında məsələdən halı oldu.

İndi sizə deyim Şəmi Qaradan. Şəmi Qara qəssaba yaxınlaşıb qanlı köynəyi götürdü, sevinə-sevinə həmin imarətə gəldi. Səslənib Xeyransa xanımı çağırdı:

– İbrahimin qanlı köynəyini gətirmişəm.

O saat İbrahim qalanın başından səsləndi:

– Özün öləsən. İbrahim mənəm, bax, budu burdayam.

Şəmi Qara yenə öz əməllərindən əl çəkmədi. Baxdı ki, iş-işdən keçib, özünü çatdırdı Aslan şahın hüzuruna. Dedi:

– Şah sağ olsun, bu ölkədə ədalət nə vaxt bərpa olunacaq?

Şah soruşdu:

– Nə ədalət, sən kimsən?

Şəmi Qara cavab verdi:

– Mənim bir nökərim var. Dağıstandan özümə filan xanın qızını alıb gətirmişdim. Gözəl-göyçək oğlandı. Qoluzorlu olduğuna güvənib, onu əlimdən aldı.

Bunu eşidən Aslan şah əsəbiləşib vəzirə dedi:

– Vəzir, bu məsələni araşdır.

Vəzir özüylə bir neçə adam da götürüb həmən qalaya gəldi. İbrahimi qaladan endirdilər. Ona söz verdilər ki, əgər günahı olmasa, ona heç kim toxuna bilməz. Şahın hüzuruna gətirdilər.

Budaq çobanla Dəli çoban baxıb gördülər ki, bunların çobanını iki adam apardı saraya. Özlərini çatdırdılar saraya. Dedilər:

– Ayə, mənim çobanımı hara aparırsınız?

Şah çobanları sakitləşdirdi. İbrahimnən vəziri qəbul elədi. Bu tərəfdən də, halvaçı Musa da oğlunu – İbrahimi axtarırdı. Axtara-axtara, soraqlaşa-soraqlaşa şaha şikayyətə gəlmişdi. Bu dəmdə İbrahimi danışdırdılar. İbrahim şahdan icazə istəyib dedi:

– Olarmı, sözümü saznan deyim.

Götürüb burda bir "Dərvişi" havası üstündə görək nə deyir, biz deyək, eşidənlərə cansağlığı:

***Əzəl gündən qara gəlibdi baxtım,***
***Dilbilməz əlinə düşdüm, neyləyim.***
***Yadıma düşübdü vətənim, taxtım,***
***Dilbilməz əlinə düşdüm, neyləyim.***

Hər tərəfdən İbrahimə diqqət eləyirlər ki, görək daha nə deyəcək? Götürür burda İbrahim görək nə deyir:

***Canım qurban sənin kimi Aslana,***
***Əyri qılınc dal gərdəndə paslana.***
***Üç ay on gün yol getdim Dağıstana,***
***Dilbilməz əlinə düşdüm, neyləyim.***

***Nahaq yerdən mən dəryaya atıldım,***
***Birdən-birə eşq oduna qatıldım,***
***Yüz tümənə mən qəssaba satıldım,***
***Dilbilməz əlinə düşdüm, neyləyim.***

***Üç gün taxta-para üstündə qaldım,***
***Heyva təki həm saraldım, həm soldum.***
***Ayda bir toğluya mən çoban oldum,***
***Dilbilməz əlinə düşdüm, neyləyim.***

Axır bəndini bir "Ruhani" havasıynan görək necə deyir, biz deyək tərəfindən, sizlər xoşbəxt olun:

***Bilal şah oğluyduq, biz iki qardaş,***
***Hərəmiz götürdük bir qiymətli daş.***
***Aslan böyük, İbrahim kiçik qardaş,***
***Əcəm torpağına düşdüm, neyləyim.***

Bilal şahın adını çəkəndə Aslan şah hər şeyi başa düşdü, huşunu itirib yıxıldı. Vəzir, vəkil, loğman şahı ayıltdılar. İbrahim başına gələnlərin hamısını danışdı və özünün butası olduğunu dedi. Aydınlaşdı ki, İbrahimin Herat şəhərində butası var. Aslan şah İbrahimə dedi:

- Sən yorğunsan, getmə.

Herata qoşun yeritdi. Hürnisə xanımı ordan, halvaçı Musanı da burdan götürüb gəldilər. Bəli, burda Xeyransa xanımı Aslan şaha, Hürnisə xanımı İbrahimə verib toy elədilər. Onlar bir yerdə xoş güzaran keçirib xoşbəxt oldular. Ustad bu məclisi duvaqqapma ilə belə bağladı:

***Yığılın toya gəlin,***
***qohum-qardaşı bu bəyin.***
***Cümləniz edin dua,***
***xoş keçsin günü bu bəyin.***
***Üstünə kölgə salsın,***
***ol huma quşu bu bəyin.***
***Sürübən zövqü-səfa,***
***yüz olsun yaşı bu bəyin.***
***Həmişə bahar olsun,***
***payızı, qışı bu bəyin.***

***Nə əcaba səf tutuban,***
***oturubdu cehilləri.***
***Heç biri etməz səsi,***
***xamuş oluban dilləri.***
***Bəy yanının yaraşığı***
***toyların qızılgülləri.***
***Hər birinin bu dünyada***
***kasad olmasın əlləri.***
***Nə ki var bu məclisdə***
***həm tayı-tuşu bu bəyin.***

***Nə qəşəng igitdilər***
***yanında duran yançılar.***
***Dolanıb atın üstünə***
***təkli, cütlü qulluqçular.***
***Məclisi yola salır,***
***hərrənir böyük-kiçiklər.***
***İnşallah, günbəgündən***
***taleyi, baxtı açılar.***
***Götürər mərtəbəsin***
***yaradan kişi bu bəyin.***

***Başında çərkəz papaq,***
***qara çuxa əynindədi.***
***Arxalığı, köynəyi,***
***tər kəlağay boynundadı.***
***Çit qurşaq, badis tuman***
***hər birinin əynindədi.***
***Ağ dolaq, xəmsə corab,***
***sağırı başmaq cayindədi.***
***Həmişə aydın olsun***
***qabağı, qaşı bu bəyin.***

***Libasın hər birisi***
***yaraşır qaşına-boyuna.***
***Yığılıb dost-aşnası***
***gəlibən bunun toyuna.***
***Kimisi əl çalıban,***
***kimisi girər oyuna,***
***İki-üç gün şənlik edin,***
***sonra yollanın evinə.***
***Görməsin fitnə-fəsad***
***heç əslah başı bu bəyin.***

***Ay Xuda, bu bəy üçün***
***səndən istərəm bir dilək:***
***Yazmasın günahını***
***sol çiynində duran mələk.***
***Nə ki var mətləbində,***
***yetirginən çərxi-fələk.***
***Yarınan qoşa qarıt,***
***uzun əlin etmə gödək.***
***Bol olsun ruzisi,***
***əppəyi, aşı bu bəyin.***

***Bu bəyin Hatəm cürə***
***adı yayılsın aləmə.***
***Yığılıb dost-aşnası,***
***üç gündə gəlsin salama.***
***Yançının hər birisi***
***oxşayır Zala, Rüstəmə.***
***Vəsfini etməz tamam***
***xidmətkarı Molla Cuma[1] .***
***Nə şəfqət edir görək***
***sağdış-soldaşı bu bəyin.***

***Dastan 2023-cü ildə ustad aşıq***
***Gəncəli Babayev və aşıq Ədalət Alməmmədovun***
***dilindən yazıya alınıb.***

***1. Müxəmməs Molla Cumaya (1854-1920) məxsusdur.***

## QUL MAHMUD VƏ NİGAR XANIM

Ustadlar dastanı başlamazdan əvvəl ustadnamə deyərlər, biz də deyək bir olsun, dinləyənlərin ömrü nur olsun:

***Ay ağalar, gəlin sizə söyləyim,***
***Yəqin bu dünyanı pul dolandırır.***
***Kəsilib məhəbbət, qalmayıb hörmət,***
***Dövlətli dalınca mal dolandırır.***

***O dünyanın şərbətindən içməyən,***
***Körpü salıb üstdən karvan keçməyən,***
***Evdə arvadına sözü keçməyən,***
***Kənddə koxa olub, el dolandırır.***

***Aşıq Alı, halın oldu pərişan,***
***Ağ üzündə xalları var hər nişan.***
***Binamus qohumdan, namuslu düşman,***
***Öldürsə qəbrimdə gül dolandırır.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, düşmənin gözü tökülsün:

***Bülbül kimi vəcdə gələ bilmərəm,***
***Gülşənim olmasa, gülüm olmasa.***
***Yetişməz ellərə sözüm-söhbətim,***
***Kamanım olmasa, telim olmasa.***

***Olmasa aşiqin sözü-söhbəti,***
***Qazanmaz izzəti, şanı, şöhrəti,***
***Olarmı şeirimin dadı, ləzzəti,***
***Min bəhər yetirən çölüm olmasa.***

***Gəlməsə məclisə yarım, həmdəmim,***
***Şirin söhbətimi dinləyər kimim?***
***Dilsiz pərdələrdə dil açmaz simim,***
***Əhmədəm,  vətənim, elim olmasa.***

Ustadlar ustadnaməni iki deməzlər üç deyərlər, biz də deyək üç olsun, düşmənlərin ömrü puç olsun:

***Arif məclisində bir söz söylərəm,***
***Nə hədyan, nə çaşqın, nə qələt olmaz.***
***Nütfədən pak olan, loğmadan halal,***
***Mərifət elminə nabələd olmaz.***

***Bir söz söyləyərəm, ariflər qanar,***
***Müxənnətlər etdiyindən utanar.***
***Varlıqda dost olma, yoxluqda kənar,***
***"İyidəm" deyəndə bu adət olmaz.***

***O dünyanı, bu dünyanı gözləyən,***
***Həm savabı, həm üsyanı gözləyən,***
***Namus qədri bilib, nanı gözləyən,***
***İnşallah, heç yerdə xəcalət olmaz.***

***Bir şəxsin sənəti istəmək ola,***
***Səxavət eyləməz, Hatəm Tay ola.***
***Dövlət tapa, gədalıqdan bəy ola,***
***Başı ərşə çıxsa, ədalət olmaz.***

***Ələsgər, mətləbin Xudadan istə,***
***Kərəm olmaz müxənnəsdə, xəsisdə.***
***Bəylik, göylük, səylik olan məclisdə,***
***Qaç ki, orda xeyir-bərəkət olmaz.***

Sizə hardan xəbər verim, kimdən deyim, Şah Abbasın məkanından,

İsfahan şəhərində Xoca Məmməddən. Xoca Məmmədin, vardan-dövlətdən savayı gözünün ağı-qarası iki oğlu var idi. Böyük oğlunun adı Mahmud, kiçik oğlunun adı Qəmbər idi. Hər iki qardaş bir-birinə çox oxşayırdı.

Mahmuda niyə Qul Mahmud deyirdilər?! Mahmud, körpəliyindən elin-obanın xeyirinə-şərinə yaramışdı. Bütün ağsaqqalın-ağbirçəyin qulluğuna gedirdi. Bu minvalla ona Qul Mahmud deyilirdi.

Bir gün Mahmudla Qəmbər yatmışdı. Bunların üstünə kim gəldi – ağalar ağası Həzrət Əli:

– Oğlum, Mahmud, nə yatmısan dur ayağa!

Mahmud yuxudan hövlənək ayıldı. Gördü, başının üstündə bir nurani dərviş dayanıb, əlində də bir cam.

– Oğlum, al bu badəni nuş elə.

– Ağa, mən müsəlmanam. Müsəlman aləmində şərab haram buyrulub.

– Oğlum, bu şərab o şərablardan deyil. Bu şərab aşiqi məşuqə yetirən şərabdı.

Mahmud şərabı alıb nuş elədi. Qabın dibində bir az qalmışdı, onu da verdi Qəmbərə. Qəmbər də nuş elədi. Dərviş barmağını tutdu Mahmudun gözünün qabağına, dedi:

– Oğlum, nə görürsən?

– Ağa, böyük bir şəhər görürəm.

– Daha nə görürsən?

– Şəhərdə gözəl bir qız görürəm.

– Hə, oğlum, o şəhər Misir şəhəridir. O gördüyün gözəl xanım var ha, o da Misir paşası Cəfər paşanın qızı Nigar xanımdır. Onu sənə, səni də ona buta verdim.

Mahmud gözünü yumub-açanda görür ki, heç kəs yoxdu. Səhər açılır, Qəmbər də yuxudan ayılır, deyir:

– Qardaş, məndə nəsə bir hallar olur, başa düşə bilmirəm.

– Qardaş, ağam buta vermişdi. Hər ikimizə, çalmaq-oxumaq, aşiqlik verildi.

Amma Qəmbərə az verilmişdi. Qabın dibində qalanı içmişdi.

Mahmud, dedi:

– Qardaş, bəs, sən mənim yerimə olsan, neyniyərsən?!
– Necə?
– Qulaq as, "Qobustanı" havası üstündə:

***Yatmışdım, üstümə gəldi ərənlər,***
***Qardaş, mən Misirə getməli oldum.***
***Mətləbi bilsinlər doğru deyənlər,***
***Qardaş, mən Misirə getməli oldum.***

***Dedilər, əlində badəni doldur,***
***Getməli olursam, xərcliyim boldur.***
***Çox da uzaq deyil, beş aylıq yoldur,***
***Qardaş, mən Misirə getməli oldum.***

***Bu sözləri söyləyər biçarə Mahmud,***
***Ya rəbb, Haqdan olur bizə bir umud.***
***Ya Nigarı yetir, ya da bir tabut,***
***Qardaş, mən Misirə getməli oldum.***

Mahmud sözü tamam edir, hər iki qardaş gəlirlər bazara, sazbənd dükanı tapırlar. Yaxşı bir saz alıb evə qayıdırlar. Mahmudun anası Səlvi xanım görür ki, Mahmudla, Qəmbər gəlir, əllərində nəsə var. Gəlib evə daxil olur.
– Oğul, nədi o?
– Ana, bu, sazdı.
– Ay bala, sən saz çalıb-oxuya bilirsən?
– Ana, nəinki saz çalıb-oxumaq, hətta mənə ağam buta da verib.
– Bala, kimi?
– Misir şəhərinin paşası, Cəfər paşanın qızı Nigar xanımı.
– Ay bala, adama yuxuda hər söz deyərlər, sən nə danışırsan?
– Yox, ana, mən butamın dalınca getməliyəm.
– Ay oğul, siz ikiniz də cavan uşaqlarsız, mən sizi buraxa bilmərəm.
– Ana, yox getməliyəm. Mənə halallıq ver, yola düşüm.
Burda Mahmud sazı sinəsinə basıb, "Gəraylı" havası üstündə

anasına görək nə deyir:

***Sənə qurban olum, ana,***
***Var əməyin, halal eylə.***
***Südün əmdim qana-qana,***
***Var əməyin, halal eylə.***

Aldı anası:

***Sənə qurban, Qul Mahmudum,***
***Var əməyim, halal olsun.***
***Bir igidsən, mənim mərdim,***
***Var əməyim, halal olsun.***

Aldı Mahmud:

***Gecələr yatmam, bidaram,***
***Qara bağrımı didərəm,***
***Ana, Misirə gedərəm,***
***Var əməyin, halal eylə.***

Aldı anası:

***Qoca atan ağlar özü,***
***Axıdar qanlı yaş gözü,***
***Oğul, gəl unutma bizi,***
***Var əməyim, halal olsun.***

Aldı Mahmud:

***Qulağıma dəydi səda,***
***Pir əlindən içdim badə.***
***Xeyir-dua ver Mahmuda,***
***Var əməyin, halal eylə.***

Aldı anası:

***Oğul, sənin dilin şəkər,***
***Dərdü-qəmin belim bükər.***

***Səlbi xanım qan-yaş tökər,***
***Var əməyim, halal olsun.***

Söz tamama yetdi, Səlbi xanım dilləndi:

– Qoy, atan da sizlə getsin.

Kişi dedi:

–Gedə bilmərəm, uzaq yoldu.

Mahmud dedi:

– Mehriban ana, vallah, atama ehtiyac yoxdu. Yaşlı adamdı, uzaq yoldu, getməsin. Özümüz gedərik, iki qardaşıq, cavanıq, bir ayaq tez gedib, bir ayaq tez də gələrik.

Mahmudla Səlvi xanım sözünü tamam etdi. Qardaşlar ata-anasıyla halallaşıb Misirə yola düşdülər. Bir qədər getmişdilər, Misirə az qalan bir yerdə gecələməli oldular. İki cavan oğlan gecə bir daşın kölgəsində yatdılar. Gecənin bir vaxtı haramilər gəlib bunları tutdular. Nə qədər malları, pulları, azuqələri vardı, hamısını əllərindən aldılar. Hər iki qardaşın əl-ayağını bağlayıb getdilər. Bu minvalla üç gün bunlar burda belə qaldılar. Üçüncü günün sonunda, bir sövdəgər gedirdi Misirə, gördü ki, iki cavan oğlan daşın dibində oturublar. Yaxın gələndə gördü, bunların əl-ayağı bağlıdı. Tez onların əl-ayağını açıb, dedi:

– Ay bala, siz kimsiniz, hardan gəlib, hara gedirsiz?

Aldı Mahmud, bir neçə sözlə sövdəkara "Dərvişi" havası üstündə görək nə dedi:

***Ay sövdəkar, aşkar deyim sözümü,***
***Arxadaş et, mən Misirə gedirəm.***
***Səni görcək pənah bildim özümə,***
***Arxadaş et, mən Misirə gedirəm.***

***Budur indi sözlərimin əzəli,***
***Sizin yerlər bizim yerdən məzəli.***
***Qara saçlı o Misirin gözəli,***
***Arxadaş et, mən Misirə gedirəm.***

***Sinəm üstə düyünlüyəm, dağlıyam,***
***Ah çəkibən illərətək ağlıyam,***
***İsfahanda Xoca Məmməd oğluyam,***
***Arxadaş et, mən Misirə gedirəm.***

***Al yanaqsan, çəkilibdir qələm qaş,***
***Axıtdın, gözümdən tökdün qanlı yaş.***
***Qul Mahmudam, məni eylə arxadaş,***
***Arxadaş et, mən Misirə gedirəm.***

Qul Mahmud sazla dediyi kimi, sözlə də dedi:

– Biz, Məmməd sövdəgərin oğlanlarıyıq. Bəs, Misirə gedirdik, bizi axşam haramilər tutdular. Üç gündü burda ac-susuz qalmışıq.

– Elə mən də Misirə gedirəm. Sizi götürə bilərəm.

Sövdəkar hər iki qardaşı götürüb Misirə gəldi. Misir şəhərinə çatan kimi, bunlar acıydılar, getdilər bazara ki, görsünlər yeməkdən-içməkdən nə tapırlar. Gəlib gördülər bazarın meydanında böyük bir məclis toplanıb. Mahmud da gəldi bura. Gördü, bir azman qoca sənətkar aşıq əyləşib, qırx şəyirdi də yanında. Qürbət eldən gələn aşıqları bağlayıb sazlarını əllərindən alırlar. Mahmud salam verdi. Salamın almadılar. Üçüncü dəfə salam verəndə ustad başın qaldırıb dedi:

– Oğlum, sən kimsən?

– Bəs, sən kimsən?

– Mən Cəfər paşanın aşığıyam. Qırx şəyirdimlə burdayam. Gələn aşıqları bağlayıb, sazlarını əllərindən alıram. İndi sənlə necə söhbət edək?

– Ustad, sazı götür. Görək kim-kimin sazını əlindən alacaq.

Bir cürə saz tapıb verdilər Mahmuda. Axı, Mahmudun sazını haramilər aparmışdılar. Ustad aşıq öz sazını götürdü. Meydan qızışdı, hamı işin necə olacağını gözləyirdi. Bir-birini bərkə-boşa çəkdilər. Axırda Mahmud ustad aşığı bağladı və qırx şəyirdiylə birlikdə sazların əllərindən aldı. Gəlib bazarda bir hücrə tapdılar. Sazların içindən iki dənə ana saz götürdülər. Qalan sazları sazbənd dükanında satdılar. Onun pu-luna yeməkdən-içməkdən alıb hücrədə əyləşdilər.

İndi sizə kimdən xəbər verim, ustad aşıqdan. Ustad aşıq şəyirdlərindən bir neçəsini öyrədib göndərdi Cəfər paşanın yanına ki, gedin paşaya deyin ki, ustadımız orda olmayan vaxtı yad bir aşıq gəlib bizim sazlarımızı əlimizdən aldı.

Elə də elədilər. Paşaya tapşırılan kimi məlumat verdilər. Paşa əmr etdi:

– Kimdi o aşıq, tapın, gətirin bura.

Tez gəlib gördülər Mahmudla Qəmbər hücrədədir. Bunları qolbənd edib apardılar paşanın hüzuruna. Paşa dedi:

– Sən kimsən, mənim məmləkətimdə şəyirdlərin sazını alasan?

Şəyirdlərin sazın alasan deyəndə, Mahmud güldü.

– Nəyə gülürsən?

– Paşa sağolsun, nə şəyirdlər? Hətta birinci ustadın öz sazın almışam əlindən.

– Sən nə danışırsan? Bəs mənə dedilər, şəyirdlərin sazını almısan əlindən.

– Xeyr, birinci ustadın sazını almışam əlindən.

– Hə, o aşığı qolbənd edin salın zindana. Mənə çuğulluq edən şəyirdlərlə birlikdə. Mahmud səndən bir istəyim var.

– Nədir?

– Baxmayaraq ki, yad eldən gəlmisən. Misir şəhərində mənim aşığım olarsanmı?

– Bəli. Amma paşa sağolsun, bu oğlan da mənim kiçik qardaşımdır. Adı da Qəmbərdir. Buna bab bir iş tapaq, o da burda qalıb işləsin.

– O da, mənim qəlyanımın külün dəyişər, nolar ki, lap gözəl.

Bu minvalla, Mahmud paşanın aşığı oldu. Axı, Mahmud bilirdi ki, paşa kimdir. Ona buta verilmişdi. Mahmuda buta veriləndə Nigar xanıma da buta verilmişdi. Nigar xanım da Mahmudun kim olduğunu bilirdi.

Bir gün paşa adam göndərdi ki, aşığa deyin gəlsin, səfərə gedirəm. Gəldilər Mahmudun yanına. Mahmud fikirləşdi ki, paşa gedir səfərə, üç gün gəlməyəcək. Nigar xanımı ancaq belə görə bilər. Başqa cür görə bilməz, dedi:

– Paşaya deyin ki, məni üzürlü hesab etsin, bir az naxoşlamışam, gedə bilməyəcəm.

Paşaya bu xəbəri çatdırdılar. O, Mahmudu çox istəyirdi, dedi:

– Hə, nə olar ki, üç günlə heç nə olmaz. Gedib səfərdən gələrəm. Aşığa deyin, mən gəlincə özünə yaxşı baxsın, sağalsın.

Bəli, paşa səfərə getməkdə olsun, sizə deyim Mahmuddan. Nigar xanım gördü Qəmbəri, dedi:

– Qəmbər, tez Mahmuda de, mənim otağıma gəlsin.

Qəmbər gəlib sevincli halda dedi:

– Qardaş, muştuluğumu ver.

– Nədi?

– Nigar xanım, səni gözləyir otaqda.

Mahmud durdu, başmağının biri əlində, biri ayağında qaçdı Nigar xanımın otağına. Görək Mahmud Nigar xanıma "Aran gözəlləməsi" havası üstündə ne deyir:

***Bu dünya sənindir, ay ala gözlüm,***
***Geyin yaşıl köynək alların üstə.***
***Sən Allah, yaxanın aç düyməsini,***
***Zülfünü səpələ xalların üstə.***

***Həsrətdən ürəyim qaldı bürkülü,***
***Könlüm pərişandı, gözüm mürgülü.***
***Bir tər bənövşəyəm boynu bükülü,***
***Bitmişəm sən keçən yolların üstə.***

***Gəl, heç kimə bənzətmə məni,***
***Belə xatırlarmı sevən sevəni?***
***Uzaqdan-uzaqdan yaşatma məni,***
***Yaxın gəl, can verim qolların üstə.***

İki aşiq-məşuq görüşdülər, söhbətləşdilər. Üç gün, üç gecə bir yerdə qaldılar. Üçüncü günün tamamında Cəfər paşa səfərdən qayıtdı, dedi:

– Hanı, o aşıq? Nəsə kefim yoxdu. Gəlsin bir-iki ağız oxusun, mənim də eynim açılsın.

Tez, Qəmbər gəldi:

– Mahmud, tez ol.

– Noldu, qardaş?

– Bəs, paşa gəlib səfərdən, səni çağırır.

Mahmud tələsik çıxıb gedəndə Nigar xanım dedi:

– Ay Mahmud, hara gedirsən?

– Axı, paşa gəlib məni çağırır, getməliyəm, bilərlər.

– Gedirsən, qoy sənə bir əmanət verim, saxla, onu səndən alacam. Atamın məhrəbasıdı, bunu sənə verirəm yadigar. Allah əmanəti, alacam ancaq.

Mahmud aldı qoydu qoynuna məhrəbanı.

– Gedirsən, ay Mahmud, qoy bir-iki kəlmə də söz deyim, sonra get.

Götürüb görək "Ağır şəşəngi" havası üstündə nə deyir:

***Sən xoş gəldin bizə, səfa gətirdin,***
***Gəl, getmə, Mahmudum, aman günüdür.***
***Bu sınıq könlümə qubar yetirdin,***
***Gəl, getmə, Mahmudum, aman günüdür.***

Aldı Mahmud:

***Başına döndüyüm, qurban olduğum,***
***Ağlama Nigarım, yenə gələrəm.***
***Sən ağlasan, mən qəm-günü neylərəm,***
***Ağlama, Nigarım, yenə gələrəm.***

Aldı Nigar:

***Dost baxçası dop-doluca nəs olur,***
***Qızılgülün ətrafında xəs olur.***
***Sən gedirsən, mənim halım pis olur,***
***Gəl, getmə, Mahmudum, aman günüdür.***

Aldı Mahmud:

***Çirmə biləklərin, qanlı olmasın,***
***Sən sevən igid hərgiz solmasın.***
***İki sevgi qiyamətə qalmasın,***
***Ağlama, Nigarım, yenə gələrəm.***

Aldı Nigar:

***Dost baxçası dop-doluca gül olur,***
***Ağlamaqdan eynim yaşı sel olur.***
***Nigar deyər: bircə günüm il olur,***
***Gəl getmə, Mahmudum, aman günüdür.***

Aldı Mahmud:

***Mən səni sevmişəm məsti-məstanı,***
***Sən məni eylədin dillər dastanı.***
***Biçarə Mahmudun bağı-bostanı,***
***Ağlama, Nigarım, yenə gələrəm.***

İki sevgili beləcə söhbətləşib ayrıldılar. Mahmud gəldi paşanın hüzuruna.

– Aşıq, sağalmısan deyəsən?

– Bəli, paşam sağ olsun.

– Yox, rəngin nəsə xoşuma gəlmir, ağarmısan. Nə olub?

– Vallah, heç nə.

– Onda, bir-iki ağız oxu bir az kefim durulsun.

– Baş üstə.

Mahmud sazı götürüb "Dubeyti" havası üstündə dedi:

***Tərif oldu qoşa xallar,***
***Hərəsi bir yanaqdadır.***
***Baxışlarda bir həsrət var,***
***Neçə ildir soraqdadır.***

***Bağlanıbdı sağım, solum,***
***Əziyyətdən sınmaz qolum.***
***Hicranına qurban olum,***
***Vüsalım çox uzaqdadır.***

***Paşa, sən də eşqə gəlsən,***
***Gedib dərdməndini bilsən,***

***Ağzın dolu şəkər olsan,***
***Öpüş yeri dodaqdadır.***

– Adə, sən nə oxuyursan mənim üçün?

– Paşa sağ olsun, dedin oxu, mən də oxudum.

– Oğul, hələ sən xəstəlikdən ayılmamısan. Get ayılanda gələrsən. Mənim yetmiş yaşım var. Nə öpüş yeri dodaqdı?! Bu nə sözdü, mənim üçün oxuyursan.

Mahmud, pərt olmuş halda gedəndə qoltuğundan məhraba düşdü yerə. Paşa tez əmr etdi:

– Qaytarın onu dala.

Mahmudu qaytardılar geri, dedi:

– Götür görüm, nədir o məhraba.

Baxdı məhrabaya, öz məhrabasını tanıdı.

– Mən bunu Nigar xanıma vermişdim. Qızım məndən əmanət, yadigar saxlasın. Bu səndə nə gəzir?

Mahmud burda sazı sinəsinə basıb, "Gəraylı" havası üstündə görək nə deyir:

***Məhlədə bir gözəl sevdim,***
***Başında alavası var.***
***Qəsd edər canım almağa,***
***Heç bilməm, nə bəlası var.***

Belə deyəndə, paşa buyurdu ki, Qəmbər, sən də de!

Aldı Qəmbər:

***Qaçginən, çox uzatma,***
***Açıldın, Mahmud, açıldın.***
***Gülnən dörd yanın bəzətmə,***
***Açıldın, Mahmud, açıldın.***

Aldı Mahmud:

***Coşdu, dəli könlüm coşdu,***
***Coş verdi, həddindən aşdı.***

***Gözüm bir gözələ düşdü,***
***Yeddi hasar qalası var.***

Qəmbərin ürəyi qan oldu:

***Eynəl-Yaqut deyərlər,***
***Şirin canıma qıyarlar.***
***Mənsurtək diri soyarlar,***
***Açıldın, Mahmud, açıldın.***

Aldı Mahmud:

***Yarım pəncərədən baxır,***
***Ciyərim odlara yaxır,***
***Al geyinib, yaşıl taxır,***
***Məxmərdən nimtənəsi var.***

Aldı Qəmbər:

***Qardaş, sözlərini haxla,***
***Düşmən cigərini oxla.***
***Yan gizlət, qoynunda saxla,***
***Açıldın, Mahmud, açıldın.***

Aldı Mahmud:

***Mahmudam, sel tək axaram,***
***Ağ buxağa gül taxaram.***
***Adın verməkdən qorxaram,***
***Onun bir bəy babası var.***

Aldı Qəmbər:

***Qəmbəri elədin cannan,***
***Didəmi doldurdun qannan.***
***Ayırdılar səni mənnən,***
***Açıldın, Mahmud, açıldın.***

Mahmudla Qəmbər deyiləsini deyib qurtardılar. Paşa işi başa düşdü ki, Mahmudla Nigarın arasında sevgi-məhəbbət var. Tez əmr etdi:

– Mahmudu, qolbənd edib, atın zindana. Nigar xanımı da onun yanına salın.

Nigar xanımı da zindana saldılar. Sonra da dülgər çağırdı:

– Mənə iki adamlıq sandıq düzəlt.

– Baş üstə.

Dülgər iki adamlıq sandıq düzəldi.

– Bu sandığın ağzını bağlamağa altı min altı yüz altmış altı dənə qadağ düzəlt.

Bu da düzəldi gəldi. Hər iki aşiq-məşuqu sandığa qoyub atdılar dəryaya ki, bunların günahını yalnız dərya yuyar. Mən bunların günahından keçə bilmərəm.

İndi sizə kimdən deyim, biçarə Qəmbərdən. Qəmbər ağlaya-ağlaya ayaqyalın, başıaçıq ah-nalə çəkir, dəryanın kənarında qardaşını axtarırdı. Burda görək "Hüseyni" havası üstündə nə deyir:

***İki aşiq bir-bir üstə qoydular,***
***Atdılar dəryaya, qarda, vay deyim.***
***Hər cür cəhd elədim, bulmadım çara,***
***Günbatandan gündoğana vay deyim.***

***Araram, tapamam şirin qardaşım,***
***Tökülür gözümdən qan ilə yaşım,***
***Hər zaman uğrunda qoymuşam başım,***
***Qoy çıxsın gözlərim, qardaş, vay deyim.***

***Qəmbərəm, araram, meyidi taparam,***
***Sidq ürəklə qanım qana qataram.***
***Seyrəqib qisasın Haqdan görərəm,***
***İki bemuraza necə vay deyim?***

Qəmbər qardaşını axtarmaqda olsun, sizə kimdən deyim, Nəsib bağbandan. O, dünyagörmüş bir ağsaqqal idi. Gözəl bağı vardı, cənnət bağı deyilən. Nəsib bağda Qəmbərdən bir ayaq tez gördü ki, dəryanın

kənarında böyük bir sandıq var. Gəldi ki, sandığı götürsün, görsün nədir bu sandıqda olan. Sandığa gücü çatmadı, bir çatı bağlayıb çəkdi qoydu bağa. Gəldi, gördü bir cavan oğlan da bağın içində gəzir, dedi:

– Oğul, salam. Kimsən?

– Ağsaqqal, bəs siz kimsiz?

– Mən bu bağın sahibiyəm. Mənə Nəsib bağban deyirlər.

– Mən də İsfahanda Məmmədin oğluyam. Adıma Qəmbər deyirlər.

– Oğlum, nə əcəb bəs, sən burda gəzirsən?

– Mən, qardaşımla sevgilisini axtarıram. Cəfər paşa ikisini dəryaya atdırıb sandıqda.

– Oğul, səndən elə bir az irəli bir sandıq vardı, çəkib gətirmişəm bağa. Gəl gör, bu sandıqdımı.

Qəmbər baxdı sandığa, tanıdı, dedi:

– Bəli, bu sandıqdır.

Tez sandığın ağzını açdılar. Gördülər, Mahmudla Nigar bihuş halda hər ikisi sandıqdadır. Görək Qəmbər burda "Mirzəcanı" havası üstündə nə deyir:

***Ay ağalar, xan Nəsibin bağında,***
***İki gül sarmaşıb biri-birinə.***
***Biri gülə bənzər, biri bülbülə,***
***İki gül sarmaşıb biri-birinə.***

***Mahmudun kəkili ənbərə bənzər,***
***Nigarın saçları dumanı gəzər.***
***O qana bulaşan Qəmbərə bənzər,***
***İki gül sarmaşıb biri-birinə.***

***Qaraca oğlan der: mən mat qalmışam,***
***Əllərimi Haqq-duaya tutmuşam,***
***Vallah, səni vaqiədə görmüşəm,***
***Üçü dursun öpsün biri-birini.***

Qəmbər sözünü tamam edən kimi, Allah tərəfindən can gəldi Mahmuda da, Nigara da. Hər iki aşiq-məşuq qalxdılar ayağa. Öpüşdülər, görüşdürlər sevinclərinin həddi-hüdudu yox idi. Nəsib bağban yaxın-

laşdı, Mahmuda dedi:

– Oğul, salam. Ay oğul, Qəmbər dedi, biz qardaşıq.

– Bəli, biz qardaşıq.

– Bəs, nədir bu əhvalat? Paşa sizi niyə sandığa qoyub dəryaya atıb?

Mahmud bütün söhbətləri ətraflı şəkildə Nəsib bağbana ərz elədi. Dedi:

– Nəsib bağban, izin versən, üç-dörd bənd də “Mirzəcanı” havası üstündə deyərdim sənə.

– Buyurun.

***Laməkan şəhərdə cahana gəldim,***
***Qan içində əhli-cana yetişdik.***
***Əldən-ələ, qabdan-qaba süzüldüm,***
***Qətrə idim, bir ümmana yetişdim.***

***Ustad kəməndini saldım belimə,***
***Həqiqətdən su bağlandı gölümə.***
***Mərifətdən bir iş düşdü əlimə,***
***Qəvvas oldum, bir ümmana yetişdim.***

***Gözsüzdüm, göz görübən göz aldım,***
***Gec tərpəndim, istədiyim tez aldım.***
***Sirrim verdim, ustadlardan söz aldım,***
***Gövhərə uğradım, kana yetişdim.***

***Mahmud deyir: budur söz müxtəsəri,***
***Yar əlindən içdim abu-kövsəri,***
***Ey ərənlər, övliyalar mürsəli,***
***Min dərd çəkdim, bir dərmana yetişdim.***

Mahmud, sözünü tamam edəndən sonra Nəsib bağban, işdən halı oldu. Dedi:

– Ay oğul, gəl, mən arada vasitəçilik edim. Cəfər paşa da öz övladına xeyir-dua versin, sizin toyunuzu edək.

– Nəsib bağban, nə gözəl!

Bəli, Nəsib bağban pünhan bir çapar göndərdi paşanın yanına. Paşa naməni oxudu, işdən halı oldu, gəldi Nəsib bağbanın bağına. Həmişə gəlib paşa bağda dincələrdi. Nəsib bağbanla, yaxın dost idi. Dedi:

– Nəsib bağban, fikrin nədi?

– Paşa sağ olsun, bir qız bir oğlanındır. Onsuz da bunlar bir-birinə butadırlar. Öz ata xeyir-duanı ver, Allah xoşbəxt eləsin.

Paşa da ağıllı adamıydı. Öz xeyir-duasını verdi. Başa düşdü ki, bunlar Allah təala tərəfindən bir-birinə buta verilib. Bunları ayırmaq heç cürə mümkün deyil.

Qırx gün, qırx gecə Mahmudla Nigara toy elədi. Toyun sonuncu gecəsində bir azman sənətkar görək toyu necə bağladı:

***Nə əcəb xub yaradıb***
***Hüsnünü Tanrı bu qızın!***
***Nə əcəb gülşənə bənzər***
***gülüzarı bu qızın!***
***Nə əcəb məstələnib***
***Çeşmi -xumarı bu qızın!***
***Nə əcəb tazə bitib***
***Heyvası,narı bu qızın!***
***Nə əcəb çiçəklənib***
***Fəsli- baharı bu qızın!***

***Nə əcəb tağı-müqqəvvəs***
***Çəkilib qaşı kaman.***
***Nə əcəb xoş danışır,***
***Ləzətilən tuti-zəban,***
***nə əcəb xətləri reyhandı***
***üstəlik də püstə dəhan,***
***nə əcəb gərdən mina,***
***nə əcəb incə miyan,***
***nə əcəb bal ləbindən***
***olur carı bu qızın!***

***Nə əcəb söhbəti var,***
***Xırda məqalət nə əcəb,***
***Nə əcəb dərd-i dilə***
***Verib kifayət nə əcəb,***
***Nə əcəb düşmüş imiş***
***Nəqşi- xəyalət,nə əcəb***
***Nə əcəb istər imiş***
***Busə, vüsalət, nə əcəb,***
***Nə əcəb Qurbana[1]  rast***
***Gəldi bazarı bu qızın!***

***Dastan aşıq Babək Şakirli və***
***Elnur Babayevin dilindən***
***2023-cü ildə yazıya alınıb.***

***1. Müxəmməs Məlikballı Qurbana (1790-1865) məxsusdur.***

## MƏSUM VƏ DİLƏFRUZ

Ustadlar dastana başlamazdan əvvəl ustadnamə deyərlər, biz də dastanımızı ustadnamə ilə başlayaq:

***Yaxşı olar ellik, günlük, obalıq,***
***Yalqız daşdan divar olmaz, deyəllər.***
***Bəzirgansan, göstərməsən mətahın,***
***Axtarıb, yükündə nə var, deyəllər.***

***İskəndər atlandı, çıxdı zülmətdən,***
***Xızır gedib, içdi abi-həyatdan.***
***Bəs düşdü qılıncdan, geyimdən, atdan,***
***Sırfanı onlardan suvar deyəllər.***

***Əsil bəylər saxlar alıcı quşu,***
***Sərraf olan seçər qiymətli daşı.***
***Bir oğul atadan artırsa işi,***
***El içində ona tavar deyəllər.***

***Xoca Əziz quldu, buradan getməz,***
***Seyrəqib olanlar mətləbə yetməz.***
***Hər nə versən Allah yolunda, itməz,***
***Yüz min qada başdan sovar, deyəllər.***

Ustadlar ustadnaməni bir yox, iki deyər, biz də deyək iki olsun, düşmənlərin gözü tökülsün:

***Könül, sənə vəsfi-halım söyləyim,***
***Ya rəb, bu dünyada necolur könlüm?***
***Hərdən dərviş olur, hərdən dilənir,***
***Hərdən bəzirgandan bac alır könlüm.***

***Hərdən dəryalarda qarğı, qamışdı,***
***Hərdən bostanlarda dürlü yemişdi,***
***Hərdən əşrəfidi, hərdən gümüşdü,***
***Hərdən də pas tutub, tunc olur könlüm.***

***Əmrah sözlərini deyər, arınmaz,***
***Ərəb at yorulsa, könül yorulmaz.***
***Könül bir şişədi, sınsa, sarınmaz,***
***Sarınsa, sağalmaz, kəc olur könlüm.***

Ustadlar ustadnaməni iki deməz, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun:

***Könül, demədimmi ağlı uduzma,***
***Müxənnət qəlbində sirr ola bilməz.***
***Bedasılda vəfa, namərddə səxa,***
***Hər kişinin sözü bir ola bilməz.***

***Satqında etibar, yaltaqda ilqar,***
***Hər yetəndə iman, hər gədikdə qar,***
***Nanəcibdə vicdan, binamusda ar,***
***Ağ otun kökündə tir ola bilməz.***

***Azaflı, gözləmə hər arıdan bal,***
***Yalançıdan düzlük, bədzatdan halal.***
***Yapalaqdan tərlan, qarğadan qartal,***
***Tülküdən, pişikdən şir ola bilməz.***

Sizə hardan xəbər verim Yəmən vilayətindən. Yəmən vilayətində kimdən, tacir Xoca Əzizdən. Xoca Əziz çox varlı bir tacir idi. Övlad sarıdan Məsum adında çox ağıllı, kamallı, elmli bir oğlu var idi. Bir gün Xoca Əziz qəfləqatırı yükləyib Çin şəhərinə ticarət eləməyə getdi. Gəlib Çin şəhərinə çatıb malları tökəndən sonra eşitdi ki, Çin padişahı qızı Diləfruz xanıma hər tərəfi mərmər gözəl bir saray tikdirib. Gəzdi,

soraqladı sarayı tapdı. Baxıb gördü ki, doğrudan da saray dediklərindən də gözəldi. Padşahdan icazə aldılar. Bir rəssam tapıb dedi ki, bu sarayın şəklini çək. Amma onu da deyim ki, sarayın hovuzu sol tərəfdə, bağçası sağ tərəfdə idi. Rəssam elə çəkdi ki, bağça sol tərəfə düşdü, hovuz sağ tərəfə. Xoca Əziz də çəkilən şəkli götürüb Yəmənə qayıtdı. Ustalar çağırıb dedi ki, belə bir saray tikərsiz.

Beləcə, sarayı tikməyə başladılar. Bir müddətdən sonra sarayın tikintisi başa çatdı. Məsum bütün elmləri oxuyub sinədəftər eləmişdi. Köçüb orada yaşamağa başladı.

Sizə xəbər verim Sultan Süleymandan, yəni Süleyman şahdan. Sultan Süleymanın dişi bərk ağrıyırdı, nə eləyirdi, gecə yata bilməyirdi. Bir gün vəzir-vəkili çağırıb dedi:

– Bəlkə, yaxşı bir şey ola, mən ona tamaşa eləyəm, mənim dişimin ağrısı kəsə.

Vəzir-vəkildən bir səs çıxmadı. Fəriştələri çağırıb dedi ki, bəlkə, bir yaxşı şey yeri biləsiz, mən ona tamaşa eləyəm, dişimin ağrısı kəsə. Fəriştələrdən biri dedi ki, Şah sağ olsun, mən elə bir yerə sizi apararam ki, orda bir gözəl oğlan var. O oğlanın gözəlliyini görsəniz, sizin dişinizin ağrısı kəsəcək. Sultan Süleyman əmr elədi ki, tez məni ora aparın. Fəriştələr göynən gətirib Sultan Süleymanı qoydular Məsumun sarayına. Sultan Süleyman sarayı gəzəndən sonra baxdı ki, doğrudan da, çarpayıda bir oğlan yatıb, o qədər gözəldi ki, sarayın gözəlliyi bunun yanında heç nədi. Sultan Süleyman dedi:

– Nə olardı, buna yaraşan bir qız qarşısına çıxaydı. Burda bir-birilə deyib, güləydilər, şən həyat yaşayaydılar. Bəlkə, dişimin ağrısı ondan sonra kəsərdi.

Fəriştələrdən biri dedi: –
Şah sağ olsun, var.

– Hardadı?

– Çin padşahının qızı Diləfruz xanım. Gözəlliyi oğlannan yarıbayarıdı.
Sultan Süleyman dedi:

– Gedin onu taxtınnan gətirin, qoyun bu oğlanın yanına.

Fəriştələr gedib Diləfruz xanımı öz taxtınnan gətirib qoydular Məsumun yanına. Onların gözünün yuxularını aldılar. Sultan Süleyman öz

fəriştələri ilə çəkilib tamaşa eləməyə başladı. Qız yuxudan ayılıb gördü ki, yanında bir oğlan yatıb. Oğlana bir şillə vurdu ki, ay naməhrəm, sən mənim otağımda nə gəzirsən?

Məsum dedi:

– Ay xanım, bura mənim evimdi, mənim otağımdı. Sən gəlmisən mənim otağıma.

O, dedi, otaq mənimdi, bu dedi, otaq mənimdi. Diləfruz xanım dedi ki, gəl, hərə öz otağının nişanəsin desin, görək otaq kimindi? Diləfruz xanım birinci özü dedi ki, mənim sarayımın bağcası sağ tərəfdə, çay-hovuzu sol tərəfdədi. Məsum dedi, mənimki isə tərsinədi. Çıxdılar, gəzdilər, bir xeyli gəzənnən sonra qız baxdı gördü ki, yox, doğrudan da, elə saray Məsumun sarayıdı. Diləfruz dedi:

– Sən düz deyirsən.

Gəldilər otağa. Qız dedi:

– Sənin adın nədi?

– Mənim adım Məsumdu. Bəs, sənin adın nədi? Kimin qızısan?

Diləfruz dedi: –

Mən Çin padşahının qızıyam. Adım da Diləfruz xanımdı. Yəqin ki, Məsum, məni bura gətirən bir qüvvə var və məni də bir azdan götürüb, sənnən ayıracaqlar. Mən gedən kimi özümü lallığa vuracam, bu üzüyü də sənə verirəm. Üzüyü barmağına taxarsan. Həkim libasında gələrsən. Mən səni görənnən sonra dilim açılacaq, danışacam.

Bunlar bir xeyli danışdılar, güldülər. Sultan Süleyman feyz apardı ki, dişinin ağrısı kəsdi. Əmr elədi:

– Qızı aparın qoyun Çin şəhərinə.

Fəriştələr qızı götürüb aparıb qoydular Çin şəhərinə.

Səhərlər üzünüzə xeyirliyə açılsın, səhər açıldı. Diləfruz xanım ayılıb dedi:

– Məsum, bir az o yana yat.

Qızlar Diləfruz xanımın kefini soruşmağa gəlmişdi. Dedilər:

– Ay xanım, Məsum deyirsən, o kimdi?

Diləfruz xanım dedi:

– Sazımı verin, mən deyəcəm o kimdi.

“Orta müxəmməs” havası üstündə görək nə dedi:

***Səhər durdum, seyrə vardım,***
***Yarı gördüm bağ içində.***
***Dərib-dərib, dəstə bağlar,***
***Qızılgül yarpaq içində.***

***Ləblərin təhr edir qəndə,***
***Rəhm eylə mən dərdiməndə.***
***Yar məni vurubdu bəndə,***
***Bir əlvan otaq içində.***

***Diləfruzam, budu andım,***
***Deməynən yardan usandım.***
***Pərvanə tək oda yandım,***
***Qovrulmuşam yağ içində.***

Söz tamam oldu, Diləfruz xanım bunu deyənnən sonra lal oldu. Çin padşahına xəbər getdi ki, qızın lal olub. Padşah nə qədər həkim, loğman çağırdısa da, heç biri qızın dilini aça bilmədi. Bunlar burda qalmaqda olsun, sizə kimnən xəbər verim, Məsumdan. Məsum səhər yuxudan ayılıb baxıb gördü ki, gecə gördüyü qız yanında yoxdu. Başladı ağlamağa. Xoca Əzizə xəbər getdi ki, bəs oğlun xəstələnib, gecə-gündüz ahu-zardadı. Xoca Əziz fikirləşdi ki, yəqin oğlumun dərdi dəva-dərmanlıqdı. Bir neçə molla, həkim çağırdılar, gəldi Məsumun yanına. Məsum həkimləri görən kimi dedi:

– Mən özüm dərdimi sizə deyəcəm, siz dərmanın yazarsız.

Həkimlər dedi:

– Bu nə yaxşı xəstədi, özü dərdini deyəcək, biz də dərmanını yazacağıq.

Götürüb orda görək “Döymə Kərəmi” havası üstündə Məsum həkimlərə nə deyir:

***Molla, mən də bir sevdaya düşmüşəm,***
***Dərd əlindən yata bilməm, ağlaram.***

***Uçurdum əlimdən bəhri-laçınım,***
***Səyyadıyam, tuta bilməm, ağlaram.***

***Ah çəkibən sinəm üstən ötürrəm,***
***Gözyaşımnan şəccərələr bitirrəm,***
***Sərraf olsam, qiymətinə yetirrəm,***
***Amanatdı, sata bilməm, ağlaram.***

***Haqq da bilir əyriynən doğruyu,***
***Təbib bilir xəstəynən sayrıyı.***
***Məsum deyər: Diləfruzdan qeyriyi,***
***Çarx altında buta büməm, ağlaram.***

Söz tamama yetdi. Molla Məsumun könlünü alıb, dedi:
– Oğul, mən həm mollayam, həm də həkim.
Bu zaman Məsum təzədən aldı, görək nə dedi:

***Gəl, ay həkim, mənim dərdimə dərman,***
***Səndən olmaz, öz dübarım gərəkdi.***
***Eşqin tüccarıyam, qəm bəzirganı,***
***Həsrət çəkən intizarım gərəkdi.***

***Mən də düşdüm eşqin cəzri-səddinə,***
***Nə olaydı, yetəm dərdiməndimə.***
***Dərman eyləməyə yüz min dərdimə,***
***Diləfruz tək bir həmkarım gərəkdi.***

***Mən Məsumam, dəli-dolu olmuşam,***
***Saralıban heyva təki solmuşam.***
***Orada bəlgə verib, bəlgə almışam,***
***O nişanda öz dübarım gərəkdi.***

Söz tamam oldu, bir şey başa düşmədilər. Gəldilər Xoca Əzizin yanına, dedilər, tacir sağ olsun, sənin oğlunun dərdi dəva-dərmanlıq

deyil. Amma biz bir şeyin şahidi olduq ki, oğlun tez-tez Diləfruz adı çəkdi. Barmağında da bir üzük var idi, üstündə Diləfruz yazılmışdı. Xoca Əziz bildi ki, oğlu kiməsə bənd olub. Odur ki, həkimin haqqını verib yola saldı. Özü isə gəldi Məsumun yanına. Gördü, Məsum zar-zar ağlayır. Ata ürəyidi, necə dözsün. Götürüb orda görək ”Zil müxəmməs” havası üstündə nə deyir:

***Canım oğul, gözüm oğul,***
***Ağlama, Məsum, ağlama!***
***Sənə qurban özüm, oğul,***
***Ağlama, Məsum, ağlama!***

Aldı Məsum:

***Canım ata,  gözüm ata,***
***Ağlaram,  ata,  ağlaram!***
***Mövlam verib mənə buta,***
***Ağlaram, ata, ağlaram!***

Aldı Xoca Əziz:

***Bu yazılan necə yazıdı?***
***Sinən də eşqin közüdü,***
***De görüm kimin qızıdı?***
***Ağlama, oğul, ağlama!***

Aldı Məsum:

***Yazılan Haqdan yazıdı,***
***Bu sinəm eşqin közüdü,***
***Çin padşahının qızıdı,***
***Ağlaram, ata, ağlaram!***

Aldı Xoca Əziz:

***Coşar dəli könül, coşar,***
***Coşuban həddinnən aşar,***
***Əziz Çinə  yola düşər,***
***Ağlama, oğul, ağlama!***

Aldı Məsum:

***Mən Məsumam, oldum dəli,***
***Dadıma yetişsin Əli,***
***Həkim libasında yeri,***
***Ağlaram, ata, ağlaram!***

Söz tamama yetdi, elə bu vaxt da Məsumun anası girdi içəri. Məsum anasını görüb dedi:

***Budu, gəldi bahar fəsli,***
***Zimistan vaxtı yeridi.***
***Süsən, sünbül, lalə, nərgiz,***
***Beymürvət baxdı, yeridi.***

***Aşıq deyirsənmi məgər?***
***Bənövşə boynunu əgər.***
***Yatmış idi beyəsəbər,***
***Süleyman taxtı yeridi.***

***Lalə göstərər dağını,***
***Bağbanlar bəslər bağını.***
***Sevdalı Məsum ağlını,***
***Sərdən buraxdı, yeridi.***

Anası ağladı, onun boynunu qucaqlayıb, üzündən-gözündən öpdü. Gözyaşını onun gözyaşına qatdı. Anası işdən xəbərdar oldu.

Söz tamam oldu, Xoca Əziz baxdı gördü ki, Çinə getməkdən başqa çarəsi yoxdu. Odur ki, Məsumnan üzüyü alıb barmağına taxdı, qəflə-qatırı hazır eləyib Çinə yola düşərkən baxdı ki, qohum-qardaş hamı onu yola salmağa gəlib. Götürüb orda görək "Gəraylı" havası üstündə nə deyir qohum-qardaşa:

***Ey yığılan elim, ulusum mənim,***
***Əmanətdi, can Məsumum, can sizin.***

***Qohumum, qardaşım, varisim mənim,***
***Əmanətdi, can Məsumum, can sizin.***

***Mən bilirəm, mənim günahım nədir,***
***Dadıma yetişsin subhanı-qədir.***
***Gələm, ya gəlməyəm, vəsiyyətim budur,***
***Əmanətdi, can Məsumum, can sizin.***

***Xoca Əziz çəkər aman, əlaman,***
***Bu müşkül dərdimə  heç olmaz güman.***
***Qoy sizi qorusun bizi yaradan,***
***Əmanətdi, can Məsumum, can sizin.***

Söz tamam oldu, Xoca Əziz qohum-əqrəba ilə halallaşıb yola düşdü. Gəldi Çin sərhəddinə. Bir balaca nəhir – çay var idi. Ordan gəmi ilə keçməli idilər. Nə qədər əlləşdi, çalışdısa, gəmiçi onu gəmiyə buraxmadı. Çünki, Çin padşahı əmr eləmişdi ki, mənim ölkəmə, torpağıma başqa bir yerdən adamlar buraxmayın. Çünki istəmirdi onun qızının lal olduğunu bilsinlər. Xoca Əziz çox yalvardı, bir şeyə hasil olmadı. Götürüb orda görək "Qobustanı" havası üstündə nə dedi:

***Bir yanım çarhovuz, sonalar üzər,***
***Yol ver, gəmiçi, yol ver, qafiləm keçsin.***
***Bir yanım gülşənli, bülbüllər gəzər,***
***Yol ver, gəmiçi, yol ver, qafiləm keçsin.***

***Yönümü çöyürrəm şahlar şahına,***
***Sıtqımı bağlaram qibləgahıma.***
***Bir namə yazaram Çin padşahına,***
***Yol ver, gəmiçi, yol ver, qafiləm keçsin.***

***Saraldı Məsumum, gül kimi soldu,***
***Tuti  dilli Diləfruz da  lal  oldu.***
***Bir də görərsən ki, gəmin qərq oldu,***
***Yol ver, gəmiçi, yol ver, qafiləm keçsin.***

Bəli, söz tamam oldu, Xoca Əziz yenə çox yalvardı, amma onu gəmiyə buraxmadılar. Axırda çarəsiz qalıb Çin padşahına bir namə yazdı ki, mən qoca bir tacirəm, heç bir övladım yoxdur. İstəyirəm, gəlim sənin torpağında qalım, öləndə var-dövlətim də qalsın sənə. Ona görə də Çin padşahına nəfs güç gəldi, əmr elədi ki, Xoca Əzizi Çin torpağına buraxsınlar. Bəli, Xoca Əziz Çin şəhərinə gəldi, qəfləqatırı yerbəyer elədi, malın tökdü, hazırlaşdı satmağa. O vaxtı qayda belə idi ki, tacirlər malı satmamışdan qabaq padşah, vəzir, vəkil gəlib həmin malın keyfiyyətinə baxardılar. Həmin mala keyfiyyətinə görə qiymət qoyardılar. Tacirlər ondan artıq malı baha sata bilməzdilər. Çin padşahı da öz vəzir-vəkili ilə mala qiymət qoymağa gəldi, qiymət qoyub mala, geri qayıdanda Xoca Əziz padşaha yanaşıb dedi:

– Şah sağ olsun, mən eşitmişəm, sənin qızın lal olub, apar məni, qızın dilini açaram.

Çin padşahı çox sevindi ki, nə qədər həkim, loğman gətirmişdimsə də, heç biri Diləfruzun dilini aça bilməmişdi. Götürüb Xoca Əzizi saraya gəldi. Dedi:

– Səninlə bir şərtim var. Əgər mənim qızımın dilini açsan, qızı da sənə verəcəm, üstəlik var-dövlət də verəcəm. Amma aça bilməsən yerin zindan olacaq. Razısanmı?

– Bəli, razıyam. Çin padşahı əmr elədi, Xoca Əzizi Diləfruzun otağına apardılar. Xoca Əziz dedi, məndən başqa bir adam otağa girməsin. Xoca Əziz qapını açıb içəri girib baxdı ki, taxtda bir gözəl qız yatıb. Elə gözəldi, elə gözəldi, Aya deyir sən çıxma, mən çıxım, Günəşə deyir, sən çıxma, mən çıxım. Xoca Əziz Diləfruz xanımın biləyini aldı əlinə ki, görsün nəbzi necə vurur. Elə bu vaxtı da Diləfruz Məsumu yuxuda görürdü. Gözünü açıb gördü, əlinnən bir bilək yapışıb, amma barmağında Məsuma verdiyi üzük var. Başını qaldırdı baxanda gördü ki, başının üstündə ağsaçlı qoca bir adam dayanıb. Qız gördü ki, bu, heç həkimə oxşamır. Xoca Əziz burda yavaşca sazı götürüb, "Qobustanı" havası üstündə görək Diləfruz xanıma nə dedi:

***Sən ki, cananınnan canan döyüldün,***
***Niyə saldın eşq odunu canına?***

***Sən ki, onun üçün yanan döyüldün,***
***Nahaq yerdən sən susadın qanına.***

***Dərin-dərin dəryalara dalıbdı,***
***Saralıbdı, heyva təki solubdu.***
***Eşqə mübtəladı, cünun olubdu,***
***Əziz Məsumdu, gövhər kanı nə?!***

***Qırxların əlindən içibdi tası,***
***Mövlaya bağlıdı yəqin ixlası.***
***Mən Əzizəm, ol Məsumun atası,***
***Göndəribdi söygülüsü yanına.***

Diləfruz başa düşdü ki, bu adam Məsumun ya atasıdı, ya da qohum-qardaşınnan biridi. Götürüb orda görək "Baş yayma" havası üstündə nə deyəcək:

***Əl vurma mənim nəbzimə,***
***Məndə yoxdu can, ay həkim!***
***Əlbətdə ki, sən bilirsən,***
***Dərdimi pünhan, ay həkim!***

***Həkim, dur gəzək bağları,***
***Bülbülün gülşah çağları.***
***Məsumun çarpaz dağları***
***Sinəmdə nişan, ay həkim!***

***Diləfruzam, bu dünyada,***
***Canımı yandırdım oda,***
***Yatmışdım, onu yuxuda,***
***Gördüm pərişan, ay həkim!***

Söz tamam oldu, Diləfruz xanım gördü ki, üzüyün üstündə öz adı yazılıb – Diləfruz adı. Dedi:

– Məsumu tanıyırsanmı?

Xoca Əziz dedi:
– Məsum  tanımıram. Məsum bizdə dağa deyirlər.
Diləfruz bu məqamda sazı sinəsinə basıb görək nə soruşur:

***Əziz gəldin, əziz xəbər gətirdin,***
***Söylə görüm, Məsum sənin nəyindi?***
***Doğru danış, Haqq eşqini söyündür,***
***Söylə görüm, Məsum sənin nəyindi?***

***Baxaram, görünməz dağların başı,***
***Didəmdən axıtdım qanınan yaşı.***
***Ya Məsum atası, ya da qardaşı,***
***Söylə görüm, Məsum sənin nəyindi?***

***Diləfruzam, mən də çəkərəm ahı,***
***Dadına yetişsin şahların şahı.***
***Verdiyim ilqardan dönmərəm dahı,***
***Söylə görüm, Məsum sənin nəyindi?***

Diləfruz xanım fikirləşdi ki, bu, yəqin qorxudan açıb deyə bilmir. Ona görə də gəl bunu sınağa çək. Əgər Məsumun adamıdısa, hər şeyi açıb deyəcək. Götürüb orda görək "Orta şəşəngi" havası üstündə nə deyir, biz deyək, siz də şad olun:

***Uca-uca dağ başınnan gəlibsən,***
***Sənin həkimliyin nə nişanınnan?***
***Xəncər alıb, bağrım başın dəlibsən,***
***Sənin həkimliyin nə nişanınnan?***

Aldı Xoca Əziz:
***Uca-uca dağ başınnan gəlmişəm,***
***Mənim həkimliyim bu nişanınnan.***
***Xəncər alıb, bağrım başın dəlmişəm,***
***Mənim həkimliyim bu nişanınnan.***

Aldı Diləfruz:

***Həkim, sənin gözlərini oydurram,***
***Oydurub, yerinə manqal qoydurram,***
***Verərəm dabbağa, dərin soydurram.***
***Sənin həkimliyin nə nişanınan?***

Aldı Xoca Əziz:

***Saray əhli daldalardan baxarlar,***
***Şirin canı eşq oduna yaxarlar.***
***O nədi ki, barmaqlara taxarlar,***
***Mənim həkimliyim bu nişanınnan.***

Aldı Diləfruz:

***Diləfruzun dediyini tutasan,***
***Səni görüm mətləbinə çatasan,***
***Zərgər olub, mənə üzük satasan,***
***Sənin həkimliyin nə nişanınnan?***

Aldı Xoca Əziz:

***Mən Əzizəm, dediyimi tutacam,***
***Allah qoysa, mətləbimə çataçam.***
***Zərgər olub, sənə üzük satacam,***
***Mənim həkimliyim bu nişanınnan.***

Söz tamam oldu, Xoca Əziz bir fincan suya xanımın üzüyünü atıb Diləfruz xanıma verdi. Diləfruz xanım baxdı gördü ki, doğrudan da öz üzüyüdü. Başladı Xoca Əzizlə danışmağa. Dedi ki, sən kimsən? Xoca Əziz dedi:

– Mən Məsumun atasıyam.

Saray əhli aynalardan baxırdılar. Baxıb gördülər ki, Diləfruz xanım həkimnən danışır. Tez Çin padşahının yanına getdilər ki, bəs, həkim qızın dilini açdı. Çin padşahı Xoca Əzizi yanına çağırıb dedi ki, dilə mənnən, görüm nə diləyirsiən.

Xoca Əziz dedi:

– Şah sağ olsun, nə şərtin varsa, onu da verməlisən.

– Mənim şərtim bu idi ki, kim mənim qızımın dilini açsa, qızı da ona verəcəm. Üstəlik var-dövlət də verəcəm. Amma bir məsəl var, sən qoca adam, mənim qızım cavan qız uşağı. Axı, sizinki bir-birinizlə tutmaz. Gəl, sənə nə qədər istəyirsən var-dövlət verim, amma qızdan əl çək.

Aldı Xoca Əziz "Zarıncı kərəmi" havası üstündə görək nə dedi:

***Ay ağalar, heç kim qərib olmasın,***
***Qəriblərin yeri, yurdu dar olu.***
***Qərib dinsə, yerbəyerdən qınallar,***
***Elli dinsə, ellərində car olu.***

***Qəribin üzünə qapı açılmaz,***
***Yüz xan olsa, bir gədadan seçilməz.***
***Onun üzü gülüb, qəlbi açılmaz,***
***Tamam işi-gücü ahu-zar olu.***

***Xoca Əziz, dur buradan köç indi!***
***Köçübəni vətəninə keç indi!***
***Kor yapalaq öz yerində laçındı,***
***Tülək tərlan qürbətdərdə sar olu.***

Xoca Əziz dedi:

– Yox! Elə qızı da verməlisən.

Saray əhli dedi:

– Zalım oğlu, zalım, cavan qız uşağını neyləyirsən? O qədər var-dövlət alacaqsan ki, ömrünün axırına qədər bəsdi.

Xoca Əziz baxıb gördü ki, nə Çin padşahı, nə saray əhli onu düzgün anlamır. Götürüb orda görək "Qəhrəmanı" havası üstündə necə deyəcək:

***Qasid yoxdur, vətənimə göndərim,***
***Bir namə yazardım Yəmən elinə.***
***Xalçalar düzərəm Çinnən Yəmənə,***
***Ehtiyacım yoxdur dünya malına.***

***Mənsuru çəkdilər Hələbdə dara,***
***Gül üzünə bülbül sinəsi yara.***
***Hüsnünə zibalar, tikdirrəm xara,***
***Zibalar düzdürrəm qəddi-dalına.***

***Xoca Əziz, necə namus, nəc ardı?***
***Gədiklər bağlanıb, zirvələr qardı,***
***Qızın Diləfruz oğlum Məsuma yardı,***
***Qaynata da kəc baxarmı gəlinə?!***

Söz tamam oldu, Xoca Əziz dedi:

– Şah sağ olsun, mən qızı özüm üçün almıram, oğlum Məsum üçün alıram.

Xoca Əziz Məsumun başına nə əhvalat gəlmişdi, Çin padşahına nəql elədi. Çin padşahı yenə inanmadı. Onda Xoca Əziz dedi:

– İstəyirsən, Diləfruz xanımı çağır soruş.

Çin padşahı Diləfruz xanımı çağırıb soruşdu:

– Qızım, bu qoca düzmü deyir?

– Mehriban ata, bəli, düz deyir.

Artıq saray əhli xahiş, minnət elədilər ki, doğrudan da, Allah yazıbsa, deməli, qız Məsumun olmalıdır. Ver qızı Məsuma. Amma Çin padşahı yola gəlmədi ki, yaxşı, mən Diləfruzu verdim apardın. Birdən, bəlkə, sənin oğlun mənim qızımın xoşuna gəlmədi. Sən bir de görək oğlun nə gözəlliyin, nə kamalın sahibidi. Götürür orda görək "Bəy gözəlləməsi" havası üstündə Xoca Əziz nə deyir:

***Başına döndüyüm, gül üzlü şahim,***
***Səni görüm, o cənnətə girəsən.***
***Sabahım sərtacı, ey qibləgahım,***
***Günahkarsan, çəkdirəsən dara sən.***

***Uca dağ başında hərgiz qar olmaz,***
***Göy söyüddə heyva olmaz, nar olmaz,***

***Ay da, Gün də ona bərabər olmaz,***
***Gözəllikdə sən Məsumu görəsən.***

***Şah hökmünnən məni gətdilər üzə,***
***Məsumun yolunda çəkirəm cəza,***
***Bir qızdı, bağışla sən Xoca Əzizə,***
***Allahın yolunda gərək, verəsən.***

Söz tamam oldu, artıq Çin padşahının deməyə sözü, etməyə bəhanəsi qalmadı. Bir molla çağırıb Diləfruzun kəbinini Məsuma kəsdirdi. Xoca Əziz Diləfruz xanımı da götürüb Yəmənə yol aldı.

Xoca qızı alıb, yola düşməkdə olsun, görək Məsum necoldu. Məsum xiffətdən saralıb solurdu. Bir qoca qarı dedi:

– Oğul, var səndə, gözəllik səndə, niyə belə saralırsan?

Məsum qarının cavabında "Qocaman şikəstə" havası üstündə dedi:

***Başına döndüyüm, ay qarı nənə,***
***Saralıbdı, gül irəngim solubdu.***
***Bu gözlərim ağlamasın, neyləsin,***
***Dəli könlüm qəmü-qayğı alıbdı.***

***Mərd istərəm, bu sözləri götürə,***
***Götürübən, mənzilinə yetirə.***
***Babam gedib sevdiyimi gətirə,***
***O səbəbdən gözüm yolda qalıbdı.***

***Boyu sərv ağacı, gərdəni mina,***
***Şirin can od tutub istər ki, yana.***
***Diləfruz dərdi məni salıb bu günə,***
***Qoy desinlər, Məsum cinni olubdu.***

Nəhayət, Xoca Əziz Diləfruzu da gətirib gəldi. Qız gördü, Məsum heç onu qarşılamağa çıxmır. İçəri girib gördü Məsum yerə uzanılıdı, qəti danışmır, elə bil lal olub. Aldı Diləfruz, görək ağlaya-ağlaya nə dedi:

***Üzü qonça, ləbi lalə, bənövşə,***
***Alagözlü mehribanım, de, danış!***
***Sən danışsan, mənim qəlbim şad olu,***
***Mürvət eylə, çıxdı canım, de, danış!***

***Bayğu gələr, məskən salar bu dala,***
***Uçdu bülbül, gəldi qondu bu dala.***
***Al xançalın, qara bağrım budala,***
***Qoy tökülsün qızıl qanım, de, danış!***

***On dörd, on beşdi Diləfruzun hey yaşı,***
***Didə yaşı, qannı yaşı, hey yaşı.***
***Ümmana dönübdü gözümün yaşı,***
***Çürüdər də giribanım, de, danış!***

Məsumdan səs çıxmadı. O, maddım-maddım Diləfruzun üzünə baxırdı. Aldı Diləfruz, görək ağlaya-ağlaya daha nə dedi:

***Haray Allah, nələr gəldi başıma,***
***Çıxım xalqa nə danışım, nə deyim?!***
***Bir rəhm edin gözdən axan yaşıma,***
***Çıxım xalqa nə danışım, nə deyim?!***

***Yəqin bil ki, bu dərd məni öldürdü,***
***Öldürübən gül irəngimi soldurdu.***
***Deyəllər, yad qızı qəsdən öldürdü,***
***Çıxım xalqa nə danışım, nə deyim?!***

***Rəhm eylə, Diləfruz kimi kəsdəyə,***
***Həkim yoxdu, dərman edə xəstəyə.***
***Ana gəlib oğlun mənnən istəyə,***
***Çıxım xalqa nə danışım, nə deyim?!***

Diləfruz gözlərini çevirəndə Məsum qalxıb yerində oturdu, aldı,

sevgilisinə görək nə dedi:

***Alagözlü mehribanım,***
***Əfruz, xoş gəldin, xoş gəldin!***
***Sənə qurban yazıq canım,***
***Əfruz, xoş gəldin, xoş gəldin!***

***Mən qalmışdım yana-yana,***
***Eşqin kar eylədi, cana,***
***Gəl görüşək qana-qana,***
***Əfruz, xoş gəldin, xoş gəldin!***

***Çoxdan həsrət idim sənə,***
***Çox haqqı-say qoydun mənə.***
***Baş alıb Çindən Yəmənə,***
***Əfruz, xoş gəldin, xoş gəldin!***

***Dərdindən olmuşdum xəstə,***
***Qəddi mina, boyu bəstə.***
***Ayaq basıb gözüm üstə,***
***Əfruz, xoş gəldin, xoş gəldin!***

***Yar, qədəm qoydun otağa,***
***Olum boyuna sadağa.***
***Məsumam, düşdüm ayağa,***
***Əfruz, xoş gəldin, xoş gəldin!***

Söz qurtaran kimi qol-boyun oldular, görüşdülər. Başlarına gələnləri bir-birinə nağıl elədilər.

Hamı şad oldu, təzədən onlara qırx gün, qırx gecə toy elədilər. Bir ustad aşıq onların duvaqqapmasını belə bağladı:

***Bir gözəl gördüm bu gün,***
***canlarda candan artıqdı;***
***Qaməti sərv kimi,***
***zülfü reyhandan artıqdı;***
***Qabağı ayna kimi,***
***qaşı kamandan artıqdı;***
***Baxsan gər camala,***
***camalı güldən artıqdı;***
***Dodaqları qaymaq kimi,***
***dahanı şandan artıqdı;***
***Gözləri dan ulduzu,***
***şöləsi şamdan artıqdı.***

***Qoşulub üç gözələ,***
***bağları seyran eləyir;***
***Birisi solda durub,***
***canını qurban eləyir;***
***Dalınca bir özgəsi,***
***hökmünə fərman eləyir;***
***Üç qızın ortasında,***
***gör necə divan eləyir;***
***Özü rəiyyət balası,***
***hökmü sultandan artıqdı.***

***Şah kimi dövran qurub,***
***gözəllərə cərmə kəsir;***
***Yanaqlar əlvan-əlvan,***
***mah üzündə tellər əsir;***
***Durna tək sığallanıb,***
***sağ əlində yaylığı zər;***
***Gah silir üz-gözünü,***
***gah döşünün üstə qısır;***
***Ağlımı başdan alıb,***

*ciyərimə dağlar basır;*
*Buxaqda fil-fil kimi,*
*xalı mərcandan artıqdı.*

*Kəklik tək səkə-səkə,*
*yüz işvə-nazla yeriyir;*
*Ləbindən peyda olub,*
*qəndinən şəkər əriyir;*
*Gözləri pusqu tutub,*
*qoluna qolbaq sarıyır;*
*Eşqinə meyil verən,*
*vədəsiz, vaxtsız qarıyır;*
*Müxtəsər, Ələsgərin*
*ağzında dili quruyur;*
*Deyirsən, bu bəxtəvər*
*fəğfur, xaqandan artıqdı*

***Dastan aşıq Elman Talıstanlı və Elçin İsmayıllının dilindən 2024-cü ildə yazıya alınıb.***

*1. Müxəmməs Aşıq Ələsgərə (1921-1926) məxsusdur.*

## ALI XAN VƏ PƏRİ XANIM

Ustadlar dastanı başlamazdan əvvəl ustadnamə deyərlər, biz də deyək bir olsun, dinləyənlərin ömrü nur olsun.

***Qadir Allah, budur səndən diləyim,***
***Sən mərdi namərdə möhtac eyləmə.***
***Qeybi-xəzinədən yetir ruzisin,***
***Sən mərdi namərdə möhtac eyləmə.***

***Ədalət kanısan, kərəmin çoxdu,***
***Tənəli söz xəncərdi, nizədi, oxdu.***
***Qardaşın qardaşa vəfası yoxdu,***
***Qardaşı qardaşa möhtac eyləmə.***

***Namərd körpüsündən, ölsəm, keçmənəm,***
***Karvan olsam, mənzilinə köçmənəm,***
***Əlindən camını alıb içmənəm,***
***Sağ əli sol ələ möhtac eyləmə.***

***Şair olan deyər sözün arısın,***
***Arısı olmasa, olsun yarısın,***
***Qoy lap alsın gözlərimin birisin,***
***Bu gözü o gözə möhtac eyləmə.***

***Dəllək Murad deyər sözün zatını,***
***Əl əldən ötkündü işin çətini.***
***Qurda-quşa qismət eylə ətini,***
***Atanı oğula möhtac eyləmə.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, düşmənin gözü tökülsün:

***Nəs gündə yaranan nəs günə düşər,***
***Nəs gedər dünyadan nəs aqi bilər.***
***Ömür başa yetsə, vaxtın ötürməz,***
***Nə xəstə sağalar, nə saqi bilər.***

***Bağ pozulsa, bağban nara hey yanar,***
***Ağlar, fəğan çəkər, nara hey yanar,***
***Günahkar kimsənə nara hey yanar,***
***Nə kövsəri görər, nə saqi bilər.***

***Hüseyn, əhvalını yara deginən,***
***Təbib yoxdur, yara-yara, deginən,***
***Gəlməsə, sağalmaz yara, deginən,***
***Özü eylədiyi nasağı bilər.***

Ustadlar ustadnaməni iki yox, üç deyərlər. Biz də deyək üç olsun, düşmənlərin ömrü puç olsun:

***Ay hazarat, sevdim xublar şahını,***
***Döndü dərhal, mən deyəni demədi.***
***Umud ilə tutdum eşqin rahını,***
***Qaşı hilal, mən deyəni demədi.***

***Anladım ki, sevda sərdə qalacaq,***
***Getdikcə əhvalım yaman olacaq,***
***Çox gözlədim, yaxşı çağlar olacaq,***
***Bəxtü iqbal mən deyəni demədi.***

***Cuma da Mənsurtək dar qabağında,***
***Təqdirin qəzası var qabağında,***
***İstədim ölməyi yar qabağında,***
***Ol zül-Cəlal mən deyəni demədi.***

Sizə hardan deyim, Pitlis şəhərində Hacı Sayaddan. Hacı Sayad

mülkədar idi. Varlı-hallı bir şəxs idi ki, onun Xudadan bir tavaqqası, bir istəyi var idi: Ya Rəbbim, mənim gələcəkdə yurd-yuvama, mal-mülkümə sahib duran bir oğul övladı ver. Məni övladla sınağa çəkmə! Ac qarınlar doyduraram, kimsəsizlərə əl tutaram, borcluları borcundan qurtararam.

Bəli, Hacı Sayad elə də edir, Qanlı çayın üstünə körpü saldırır. Özünün sürüsündən, mal-qoyunundan kəsib məclis qurur, xeyir-dualar alır.

Bir gün vaxt gəldi, ona çatdırdılar ki, yoldaşın Gülüstan xanım dünyaya övlad gətirəsidir.

Adəti üzrə məscidə namaz qılmağa gedən Hacı Sayada bir muşduluqçu bu xəbəri çatdırdı:

– Gözün aydın olsun, ay Hacı Sayad, bir cüt övlad dünyaya gətirdi Gülüstan xanım.

Muştuluqçuya muştuluğunu verəndən sonra çıxdı ki, evə gəlsin, gördü hicrətdən bir uşaq səsi gəlir. Gəlib baxanda gördü ki, əskiyə bükülüb atılmış bir oğlan uşağıdı. Öz-özünə fikirləşdi, bu da qismətdi. Bunu burda qoya bilmərəm. Çuxasının ətəyinə büküb, evə gətirdi. İçəri daxil olub dedi:

– Ay Gülüstan xanım, Rəbbimizdən birini istəmişdik, üçünü qismət elədi.

Gülüstan xanım dedi:

– Ay kişi, ay Hacı Sayad, bir o uşağın üzünü bəri çevir, baxım.

Hacı Sayad uşağın üzünü ona sarı çevirdi. Gülüstan xanım uşağı görən kimi dedi:

– Mən halal südümü haramzadayə verə bilmərəm. Apar, uşaqlara ad qoyulana qədər qonşuluqdakı Xanı qarıya ver, qoy o saxlasın.

Vaxt gəldi, vədə yetişdi, qohum-əqrəba yığıldı. Bir çox qarılar gəldi, Zorcahan, Hürcahan, Pərcahan, İpək qarı, Köpək qarı, digər bir çoxları. Hərə bir ad dedi. Axırda İpək qarının dediyi bəyənildi.

O, dedi:

– Mən oğlanın adını Məhəmməd, qızın adını isə qoyuram Pəri xanım, bu uşaq isə tapılıb, ona görə bunun adını da Tapdıq qoyuram.

Beləcə, uşaqlar böyüyüb məktəb yaşına çatdılar. Onları mollaxanaya müəllim yanına qoydular. Məktəbə böyük həvəslə gedib-gəlirdilər. Xü-

susi olaraq Pəri xanımın davranışı, savad almağı, ərəbi-fars-türkü öyrənməyi daha çox qiymətləndirilirdi. Öz yoldaşları arasında sayılıb-seçilirdi.

Günlərin birində çavuş gəlib dedi ki, Hacı Sayad, ziyarətə gedənlərin siyahısı alınır. Sizlərdən kim gedəcək?

Hacı Sayad dedi:

– Mən özüm gedəcəm.

Gülüstan xanım bu tərəfdən dedi:

– Ay Hacı, mən də getmək istəyirəm.

Oğlu Məhəmməd də həddi-buluğa çatmışdı. Onun da fikrindən keçirdi.

Məhəmməd dedi:

– Mehriban ata, mən də getmək istəyirəm.

Bunlar siyahıya alındı. Elə ki, karvanın yola düşmə məqamı gəldi, Hacı Sayad üzünü Tapdığa tutdu:

Hacı Sayad dedi:

– Oğul, səni Allaha, bacını da sənə tapşırıram. Səfərimiz uzaqdı, gedib-gələnə qədər onu qoru və bacına yaxşı bax.

Karvan yola düşdü. Beləcə, Tapdıq da evdəkilərlə bir yerdə xeyli gözəl günlər keçirdi. Bir gün bazardan gələn vaxtı Xanı qarı bunun qarşısını kəsib dedi:

– Ədə, bir iş görmüsənmi?

Tapdıq onun bu sözlərinə təəccüblə cavab verdi:

– Qarı nənə, nə iş görməliyəm ki?

Qarı dedi:

– Ədə, iki oğlan uşağının birinin adı Məhəmməd olanda, o birinin adını da Əhməd qoyarlar. Səni məsciddən gələndə tapıb gətiriblər. Ona görə də sənin adını Tapdıq qoyublar.

Tapdıq dedi:

– Bəs, mən neyləməliyəm?

Qarı dedi:

– Bazara gedib ordan bir şal yaylığı al gətir, Pəri xanıma təklif elə, onu özünə həyat yoldaşı seç. Onu ala bilərsən.

Bicin ağlına həmişə bic söz batar. Gedib bazardan bir yaylıq alıb

gətirib, bacısına verəndə, bacısı gördü ki, bu, xeyirli yaylıq deyil. Ona görə də dedi:

– Qardaşım, bu nə yaylıqdı?  Axı, biz doğma qardaş-bacıyıq.

Tapdıq dedi:

– Yox, mənə hər şeyi danışıblar.

Burda  götürüb "Nəcəf şərilisi" havası üstündə Pəri xanım qardaşına necə yalvarır, ərz eyləyək qulluğunuza:

***Başına döndüyüm, qurban olduğum,***
***Çıxma yoldan, qardaş, aman günüdü!***
***Alışıb oduna büryan olduğum,***
***Çıxma yoldan, qardaş, aman günüdü!***

***Mən tutaram ətəyindən dadınan,***
***Pərvanayam, qovrulmuşam odunan,***
***Məni rüsvay etmə bədnam adınan,***
***Çıxma yoldan, qardaş, aman günüdü!***

***Gələndə, bəs, nə deyim mən Hacıya,***
***Şirincə nemətim döndü acıya.***
***Heç qardaş da kəc baxarmı bacıya?***
***Çıxma yoldan, qardaş, aman günündü!***

***Bu dərd qalar Pəri xanım canında,***
***Pərvanə tək yanar şamlar yanında.***
***Üzüqara durruq Haqq divanında,***
***Çıxma yoldan, qardaş, aman günüdü!***

Söz  tamama yetdi. Pəri xanım özü həm də bir şairə kimi idi. Gördü qardaşı bu şeirdən, sənətdən bir şey anlayan deyil. Odur ki, sözlə də dedi ki:

– Qardaş,  indi mən sənə bir məsləhət eləyim. Gəl, balaxanaya qalxaq. Mən ayağımı hər bir pilləkənə qoyduqca, nə desəm, sən onu təkrar elə.

Ayağını pilləkənə qoydu və dedi:

– Lənət şeytana!

Tapdıq da təkrar elədi:

– Lənət şeytana!

Bir necə pilləkən qalxana qədər bu sözlər təkrar olundu. Yuxarı çatanda Pəri xanım dedi:

– Qardaş, sənə çatdımı?

Tapdıq dedi:

– Dediyimdən dönən deyiləm, səni alacam.

Bu vaxtı Pəri xanım özünü saxlaya bilmədi, yanında ağır misdən bir aftafa var idi. Naəlac qalan Pəri xanım aftafanı götürüb onun başına vurası oldu. Bunu vurandan sonra Tapdıq dığırlanıb düşdü pilləkənin ayağına. Ürəyi durmayan Pəri xanım gəlib onun yarasını sarıdı, qanını kəsdi, evə apardı. Bir həkim çağırdıb, bunu müalicə elətdirdi.

İndi sizə kimdən deyim, ziyarətə gedənlərdən. Çavuş gəldi ki, deməzsənmi, ziyarətə gedənlər gəlir. Bu vaxtı Pəri xanımın içəridə başı işə qarışmışdı, Tapdıq eşikdə idi. Dedi:

– Bizimkilər sağ-salamatdımı?

Çavuş dedi:

– Bəli, salamatdı.

Bu qısa söhbətdən sonra Tapdıq kirmişcə tövlədən bir at yəhərləyib, ziyarətdən gələnləri qarşılamağa getdi. Elə ki, çatdı bunların yanına, torpağı ziyarət elədi, əyildi.

Hacı Sayad dedi:

– Oğul, qalx. Nə olub başına sənin?

Tapdıq dedi:

Nə olacaq ki, deyiləsi döyül.

Hacı Sayad  dedi:

– Ədə, ürəyimi partlatma, de görüm nə olub?

Tapdıq dedi:

– Bir qız tapşırıb getmişdin mana, mən dediyimnən durub-oturmadı. Gördüm mənim sözümə baxmır, əyri yola gedir. Mən də maneçilik eliyəndə başımı bu hala saldı.

Bəli, Tapdıqdan bu sözləri eşidən Hacı Sayad oğlu Hacı Məhəm-

mədə dedi:

– Oğul, get o ləçəri öldür, onun qanlı köynəyini mənə gətir. Nə qədər gətirməyibsən, mən evə getməyəcəm.

Atanın əmrini alan Hacı Məhəmməd tez evə gəldi. Bu vaxt bacısı eşiyə çıxmışdı, gördü qardaşı gəlir. İstədi dizi üstə qarşısına gedib onu ziyarət eləyə. Məhəmməd dedi:

– Yox, bacı, məni yox. Əvvəlcə ata-anamızı ziyarət elə, məni də onlarla bir yerdə ziyarət eləyərsən.

Pəri xanım dedi:

– Bir at gətirim, mən də gedim onları qarşılamağa.

Məhəmməd dedi:

– Yox, sən də mənim atımın tərkində oturarsan.

Beləcə, onlar bir az getdikdən sonra Məhəmməd Həcdən gələn yolu qoyub, atın başını ayrı səmtə burdu. Bunu görən Pəri xanım dedi:

– Qardaş, Həcdən gələnlər bu yolnan gəlmir?

Məhəmməd dedi:

– İndi yol dəyişilib.

Bir qədər gəlib köhnə qəbiristanlığa çatdılar. Məhəmməd Tapdığın dediklərini, atasının tapşırığını anladıb, dedi:

– Bacı, hal-vəziyyət belədi, səni öldürəcəm, atamın əmridi.

– Qardaş, etmə-eləmə, billah, məndə günah olmadı, o məni vadar elədi.

Bunu deyəndən sonra Pəri xanım qardaşına yalvarmağa başladı ki, bəlkə, yalvarışını nəzərə alıb, bağışlayar. Burda götürüb "Ruhani" havası üstündə nə deyir, biz deyək, eşidənlər şad olsun:

***Başına döndüyüm, gülüzlü qardaş,***
***Öldürmə, xudaya bağışla məni.***
***Axar, gözlərimdən gedər qanlı yaş,***
***Öldürmə, Xudaya bağışla məni!***

Aldı Məhəmməd:

***Başına döndüyüm, gülüzlü bacı,***
***Bacı, karı görmə bu işdə məni!***

***Öldürəcəm səni, yoxdu əlacım,***
***Bacı, karı görmə bu işdə məni!***

Aldı Pəri xanım:

***Qardaş, söylə görüm, taxsırım hansı?***
***Silinsin, könlümün açılsın pası.***
***Məni öldürəndə, özün tut yası,***
***Adın Məhəmmədə bağışla məni!***

Aldı Məhəmməd:

***Bacı, mən neyləmişəm, neylərəm,***
***Xəncər alıb, bağrım başın teylərəm.***
***Bir canım var, sənə qurban eylərəm,***
***Bacı, karı görmə bu işdə məni!***

Aldı Pəri xanım:

***Mən Pəriyəm, yalvarıram dadınan,***
***Pərvanə tək yandım eşqin oduna.***
***Sən məni öldürmə bədnam adınan,***
***Adın Məhəmmədə bağışla məni!***

Aldı Məhəmməd:

***Çərxi-fələk gör nə işlər qayırdı,***
***Səni məndən, məni səndən ayırdı.***
***Hacı Sayad Məhəmmədə buyurdu,***
***Bacı, nahaq görmə bu işdə məni!***

Pəri nə qədər dedi, gördü yox, qardaşı bunu bağışlamayacaq. Qardaşı isə onun gözünün içinə baxıb, qılınc endirməyə əli gəlmədi. Göz gözdən utanar, dedi:

– Bacı, səni öldürməyəcəm, gəl, belə bir az hərlənək.

Gəlib köhnə bir qəbirin yanına çatdılar, Pəri xanımın başı qarışan kimi, arxadan bismillah eləyib bir qılınc endirdi. Qılınc Pərinin kürəyinə endi. Huşu başınnan gedən Pəri xanım birbaşa iki qəbirin arasına düşdü.

Atası Məhəmmədə demişdi ki, bacını öldürəndən sonra qanlı köynəyi gətirərsən. Ona görə də Pərinin əynindəki köynəyin bir hissəsini cırıb götürdü. Beləcə atasının yanına yol başladı.

Hacı Sayyad bir də gördü, oğlu gəlir. Tələsik soruşdu:

– Oğul, öldürdünmü?

– Ata, öldürdüm.

– Çörəyim sənə halal olsun! Axır ki, bu ləçərdən canımız qurtardı.

İndi sizə kimdən deyim, Pəri xanımdan. Bir yandan bağlayan bir yandan açar, deyiblər. Allah öldürməyəni heç nə öldürə bilməz. Bu, bəxt-taledi. Pəri xanım gecənin bir vaxtı ayıldı, əvvəlcə elə bildi tərləyib. Əlini atanda gördü ki, yox, bu, tər deyil, qandı. Əlacı kəsildi, "Dilqəmi" havası üstündə yenə Xudaya yalvarmağa başladı:

***Zalım fələk, nələr gəldi başıma,***
***Mədəd Allah, səndən mənə bir imdad!***
***Bilməm kimlər zəhər qatdı aşıma,***
***Mədəd Allah, səndən mənə bir imdad!***

***Həsrət qaldım vətənimə, elimə,***
***Qan bulaşıb müşkü-ənbər telimə,***
***Qardaş adı daha gəlməz dilimə,***
***Mədəd Allah, səndən mənə bir imdad!***

***Ülkər doğub, odu, Aydan ucadı,***
***Gələn bəzirgandı, gedən xocadı.***
***Bir deyən yox, Pəri xanım necədi,***
***Mədəd Allah, səndən mənə bir imdad!***

Allahdan buna bir imdad gəldi. Birtəhər yaxınlıqdakı meşəyə getmək üçün özündə qüvvə topladı. Meşəyə gəlib çatanda gördü, bir kəsilmiş ağac var, bir tərəfi oyulub. İstədi buraya pənahlansın. Sən demə, ağacın aşağı hissəsi lap çürüyübmüş. Bu çökəyə düşdü, kürəyi möhkəm ağrıdı. Huşu başınnan getdi.

Pəri burda qalmaqda olsun, indi sizə kimnən deyim, vanlı Alı xan-

dan. Vanlı Alı xan cavan bir oğlan idi. Həddi-buluğa çatmışdı. Gecə röyasında gördü ki, bir tərlandı, iki qanadı qırılıb.

Səhər Qara vəziri çağırdı, dedi:

– Vəzir, bu gecə bir röya görmüşəm, bunu yoz.

Qara vəzir dedi:

– Xan sağ olsun, bir uzaq səfərə ova gedəcəyik. Amma bu ov yaxşı ovdu, ancaq sənnən bir istəyim var. Ovumuz nə olsa, onu tən bölək.

Razılaşdılar. Bu oylaq Pitlis tərəfdəydi. Bir neçə çaparı da özləri ilə götürdülər, xan və vəzir elə-belə getməzdi. Gəlib o yerə çatdılar ki, artıq gün batan vaxtıdı. Axşamnan çadır qurdular, səhərlər üzünüzə xeyirliklə açılsın, tezdən çıxdılar ki, bir görək ovda nə çıxacaq qarşımıza. Baxdılar bir kəklikdi, bunlar yaxınlaşanda kəklik uçdu, gedib bir ağaca qondu. Pəri xanım ağacın çürük yerində oturmuşdu.

Alı xan dedi:

– Vəzir, deyəsən bizim birinci ovumuz boşa çıxdı. Sən get gör kəklik hara qondu.

Vəzir gəldi, yaxınlaşanda gördü ki, burda ağacın oyulan çürük yerindən bir parıltı gəlir. Öz-özünə dedi, İlahi, bu nə ola bilər? Bir az yaxınlaşanda gördü ki, bir gözəllər-gözəli qadındı, huşu üstə yoxdu. Fikirləşdi ki, bu sağalsa, Alı xanı qoyub, məni bəyənəsi deyil. Gəl, sən bunu dan. Amma bir az götür-qoy etdikdən sonra düşündü ki, birdən xan bilər, məni məhv edər.

Gəlib dedi:

– Xan sağ olsun, deməzsənmi, yuxun çin olub.

Çaparlar da yanında, Alı xan gəldi baxmağa. Gördülər bir qızdı, ancaq özündə deyil. Yarası çox ağırdı. Köməklik göstərdilər, ayıldı. Dedi ki, mən yaralıyam, özüm də köynəksizəm. Nə olar, ehtiyat paltarınız varsa, birini verin, geyinim, sonra danışaq. Alı xan ova hazırlıqlı gəlmişdi. Bir köynək verdilər, Pəri xanım əyninə geyindi. Alı xan gördü ki, İlahi, belə bir gözəl, belə bir mələk min gözəlin içində təkdi. Düşündü, görəsən nədi bunun dərdi, nolub buna? Burda bir "Aran gözəlləməsi" havası üstündə görək nə dedi:

***Səhər-səhər bir ov çıxdı qarşıma,***
***Könül sevdi sənin kimi maralı.***
***Üzündü mahitab, camalın günəş,***
***Elə bildim yerin-göyün qaralı.***

Aldı Pəri xanım:

***Başına döndüyün, ay cavan oğlan,***
***Könlüm dərd əlindən olub yaralı.***
***Nə müddətdi mən çəkirəm intizar,***
***Gəlməyir səbrimin əsla qəralı.***

Aldı Alı xan:

***Səyrağıblar bir araya gəlməsin,***
***Danışıban, gizlin sirrin bilməsin,***
***Tanrı səni məndən ayrı salmasın,***
***Dəli könül dönməz səndən aralı.***

Aldı Pəri xanım:

***Seyrağıblar bir araya gəldilər,***
***Danışdılar, gizlin sirri bildilər.***
***Qara bağrım dəlik-dəlik dəldilər,***
***Dəli könlüm dönməz səndən aralı.***

Aldı Alı xan:

***Çapardan ayrılıb, gəlmişəm pünhan,***
***Deyim məkanımı nişanbanişan:***
***Xəbər alsan – mənəm vanlı Alı xan,***
***Söylə görüm, sənin əslin haralı?***

Aldı Pəri xanım:

***Səhər-səhər doğan dan ulduzuyam,***
***Aşıqların söhbətiyəm, sazıyam.***
***Adım Pəri, Hacı Sayad qızıyam,***
***Xəbər alsan, o Pitlisin maralı.***

Xain hər yerdə xaindi, vəzir dedi:

– Xan sağ olsun, kim bilir bu nə yuvanın quşudu? Bu, sağ-əməlli adamdı, yaralayıb, ölümcül niyə bura tullayıblar? Bunnan bizə ziyan gələcək. Gəl, gedək.

Alı xan vəzirin sözünnən alınıb, bir az diksindi. Atının başını burub getmək istəyəndə, Pəri xanım onu gördü. Düşündü ki, bunlar gedənnən sonra burda kimsə bunun köməyinə çatmayacaq. Az ömrü qalıb, bir-iki gün qan gedib, ac-susuz öləcək. Ayrı əlacı yox idi. Görək burda “Kərəm şikəstəsi” havası üstündə necə yalvardı, biz deyək, eşidənlər şad olsun:

***Atamı, anamı yaman qandırdı,***
***Zalım Tapdıq, xan, başına döndüyüm!***
***Zalım qardaş şan-şan etdi sinəmi,***
***Yaram verir qan, başına döndüyüm!***

***Bir qardaş adımı bədnam eylədi,***
***Biri xəncər aldı, bağrım teylədi.***
***Ata buyruq verdi, fərman eylədi,***
***Yaralıyam mən, başına döndüyüm.***

***Uğradım çöllərə, mən oldum ahu,***
***Yetişsin dadıma şahların şahı.***
***Qismət belə yazıb əlbət, İlahi,***
***Qəbul eylə sən, başına döndüyüm!***

***Mən sığındım məzar sandıq daşına,***
***Bir rəhm eylə gözdən axan yaşıma.***
***Pəriyəm, Alı xan, dönüm başına,***
***Apar məni, can, başına döndüyüm!***

Alı xan dedi:

– Vəzir, bu bizə yaraşmaz, necə onu burada qoyub gedək? Yaralıdı, kömək edəni yoxdur. Aparaq onu sağaldaq, bir ləyaqətli adama verərik. Bu, Allaha da xoş gələr. Yox, biz deyən olmaz, özü başının çarəsini qılar.

Amma mən bunu aparacam.

Pəri xanımı atın tərkinə mindirdilər, Vana gəlib çıxdılar. Loğman çağırdılar, onun yarası sarındı. Günü-günnən Günəş kimi parlayan Pəri xanım, sanki bir güldü, min gül açıldı. Vəzir gördü, bu bir qənirsiz gözəldi, özü də bu yaxınlarda Alı xan buna toy edib özünə alacaq. Odur ki, şeytana uyub dedi:

– Alı xan, axı bizim şərtimiz var idi. Biz ova gedəndə nə demişdik?

Alı xan dedi:

– Vəzir, bu, sənə vurulan cüyürdümü, ceyrandımı, bölək, bu, bəni-insandı.

Ətrafda, xan sarayında ağıllı-başlı adamlar var idi. Söhbətdə iştirak edən adamlardan biri dedi:

– Nəyin qovğasını edirsiniz? Hərəniz üzüyünüzün üstünə adınızı yazdırın, göndərin Pəri xanıma, hansını qəbul eləyər, onun da olar.

Belə də etdilər. Pəri xanım  Alı xanın üzüyünü öpüb gözünün üstə qoydu. Vəzir qəlbində bununla barışa bilmədi.

Günlər gəldi, vaxt-vədə çatdı. Alı xan yeddi gün, yeddi gecə toy eləyib Pəri xanımı özünə yar elədi. Məqam gəldi ki, Pəri xanımın bir cüt oğlu oldu. Oğlanın birinin adını Məhəmməd,  o birinin adını Əhməd qoydular. Beləcə, günlər keçdi, aylar, illər dolandı. Uşaqlar gəlib səkkiz yaşına çatanda, məktəbə qoydular ki, mollaxanada təhsil alıb elmlənsinlər.  Bir gün uşaqlar məktəbə gedən vaxt  gördülər ki, anaları yaman ağlayır.

Məhəmməd dedi:

– Ana, dərdin nədi,  niyə ağlayırsan?

Pəri xanım dedi:

– Oğul, niyə ağlamayım? Mənim də elim var, günüm var, obam var, atam-anam var, qohum-əqrəbam var. Onları yada salıb ağlayıram.

Bu xəbər çatdı Alı xana. Alı xan alicənab adam idi. Dedi, narahat olma.

Karvan düzəldi, kəcavə bəzəndi, balaları da yanında kəcavəyə mindirib, yola salanda könlü qübar eylədi. Ətrafında qoruyucu, köməkçisi var idi. Pəri xanım onlara arxayın oldu. Ayrılıb gedən zaman Alı xan dedi, kəcavəni bir az saxlayın. Görək burda “Köç getdi” havası

üstündə Alı xan nələri dedi:

***Başına döndüyüm, alagöz Pərim,***
***Pərim, gedərgisən, haçan gələrsən?***
***Sənə qurban olsun canınan sərim,***
***Pərim, gedərgisən, haçan gələrsən?***

Aldı Pəri xanım:

***Başına döndüyüm, qurban olduğum,***
***Yarım, gedərgiyəm, yenə gələrəm.***
***Zay olmasın ağlın, huşun, kamalın,***
***Yarım, gedərgiyəm, yenə gələrəm.***

Aldı Alı xan:

***Sizin yerlər bağçalımı, barlımı?***
***Almalımı, heyvalımı, narlımı?***
***Çünki aparırsan bir cüt oğlumu,***
***Pərim, gedərgisən, haçan gələrsən?***

Aldı Pəri xanım:

***Uca dağdan çətin yollar aşıbdı,***
***Qürbət eldə qara bağrım bişibdi,***
***Atam, anam yenə yada düşübdü,***
***Bəyim, gedərgiyəm, yenə gələrəm.***

Aldı Alı xan:

***Alı xan deyərlər mənim adıma,***
***Darda qalsam, qırxlar yetər dadıma.***
***Hər vaxt Pəri gəlib düşər yadıma,***
***Pərim, gedərgisən, haçan gələrsən?***

Aldı Pəri xanım:

***Atam məni bağlamışdı nəzirə,***
***Qürbət eldə yurdum oldu cəzirə.***

***Mən Pərini tapşırmazdın vəzirə,***
***Bəyim, gedərgiyəm, yenə gələrəm.***

Elə ki, yola düşdülər, gəlib o yerə çatdılar ki, karvan axşamlamalı idi. Qara Vəzir köməkçilərə dedi:

– Siz gedin çadırı aralı meşənin bir yerində rahat yerdə qurun. Bu gecə gözətçiliyi mən özüm eləyəcəm. Gecənin bir vaxtı Pəri xanım gördü ki, bunun çadırına Qara Vəzir gəldi. Özünü o yerə qoymadı, dedi:

– Vəzir, nə baş vermişdir?

Qara Vəzir dedi:

– Bizim şərtimiz var idi, indiyə qədər Alı xanın olubsan, Pitlisə gedib-gələnə qədər mənim sərəncamımda olacaqsan.

Pəri xanım:

– Mən sizə yalvarmamışdım, – deyib, özünü o yerə qoymadı.

Namərd Qara Vəzir onu oğlanlarını öldürməklə yanıdı. Pəri xanımın böyük oğlunun yanına getdi. Qılıncı çəkib yatdığı yerdə başını üzmək istəyəndə Pəri xanım gözünün yaşını tökdü. Qara vəzirə üz tutub "Qaytarma" havası üstündə dedi:

***Qara Vəzir, sən Allahı sevərsən,***
***Öldürmə oğlumu, aman günüdü!***
***Öldürübən mənə zülüm edərsən,***
***Öldürmə oğlumu, aman günüdü!***

***Rəhm eylə bağbana, pozma bu bağı,***
***Ana ürəyinə gəl vurma dağı,***
***Əridi, könlümün qalmadı yağı,***
***Öldürmə oğlumu, aman günüdü!***

***And içirəm mərd igidlər sərinə,***
***Yaradanın ərəninə, pirinə,***
***Qıya baxsan, səni salar dərinə,***
***Öldürmə oğlumu, aman günüdü!***

***Mən Pəriyəm, həsrət qaldım beş günə,***
***Fələk kəmənd atdı ömrüm köşkünə,***
***Adı bəlli Məhəmmədin eşqinə,***
***Öldürmə oğlumu, aman günüdü!***

Qara Vəzir onun yalvarmağına baxmayıb Məhəmmədin başını kəsdi. Dedi:

– Min yalvarsan da, ağlasan da səndən əl çəkmərəm. İndi nə deyirsən? Əgər yenə də razı olmasan, kiçik oğlun Əhmədin də başını kəsəcəm.

Pəri xanım ağlaya-ağlaya dedi:

– Zalım vəzir, oğlanlarımın başını kəsməyəsən, neyləyəsən, yenə razı olmaram.

Qara Vəzir o saat qılıncı çəkib Əhmədin də başını kəsdi.

Pəri xanım şivən elədi, oğlanlarının qanına boyandı. Amma zalım vəzirin ona ürəyi yanmadı, ondan əl çəkmədi. Pəri xanım qaçmaq üçün kələk qurub dedi:

– Çox gözəl, mənim də istədiyim bu idi. Çünki uşaqlar sirrimizi açardı.

Qara Vəzir sakitləşmək bilmirdi. İşin mürəkkəbliyini görən Pəri xanım dedi:

– İnnən sonra mən sənin, sən də mənim, amma sənnən bir təvəqqəm var. İcazə ver bir, soluğumu genəldim, gəlirəm.

Etibar eləməyən Qara Vəzir Pərinin belinə bir ip bağladı. Pəri xanım gedə-gedə bu ipi açaraq bir kola bağlayıb özünü verdi meşəyə. Gethaget gedib atasının saldırdığı Qanlı çayın üstündəki körpüyə çatdı.

Sizə kimdən deyib, bəzirganbaşından. Karvan dayanmışdı, bəzirganbaşı yanındakı köməkçisinə dedi:

– Oğul, get, o körpünün yanında bulaq var, ordan bir qab su gətir.

Qulluqçu gəlib baxanda gördü nimdaş paltarda bir qadın oturub. Gözəlliyinə baxanda ağlı çaşdı. Paltarına baxdı, lap havalandı, su da götürmədən qayıdıb gəldi, dedi:

– Ağa, körpünün üstə bir gözəl xanım gördüm nimdaş paltarda. Sübh tezdənnən bu hardan gəlib bura düşüb? Başmağının biri əlində, biri

ayağında.

Bəzirganbaşı özünü çatdırdı körpünün yanına. Gəlib çatanda gördü ki, nə pəri, heç kim yoxdu. Pəri xanım elmləri öyrənmişdi, təhsil almışdı. Üstündə kağız, qələm var idi. Bir namə yazıb daşın altına qoyub ordan ayrılıb yoluna davam etmişdi. Bəzirganbaşı naməni tapıb oxudu. Görək burda nə yazılmışdı, "Mixəyi" havası üstündə biz deyək, eşidənlər şad olsun:

***Gedən bəzirganlar, gələn xocalar,***
***Bu kağızı Alı xana yetirin!***
***Evim yıxdı ay qaranlıq gecələr,***
***Bu kağızı Alı xana yetirin!***

***Yazımı yazanın sınsın qələmi,***
***Qaraymış yazısı, bədmiş kəlamı.***
***Cüt oğlumu qırdı qanlı haramı,***
***Bu kağızı Alı xana yetirin!***

***Dərmanım bir ikən dərdim oldu yüz,***
***Bir həkimdi, bir loğmandı, bir də siz.***
***Öz adım Pəridi, məkanım Pitlis,***
***Bu naməni Alı xana yetirin!***

Bəzirganbaşı kağızı oxuyandan sonra qoyun çibinə qoyub aralanmaqda olsun, Pəri xanım burdan gəlib yaylaq tərəfə çıxdı. Bir neçə silsilə dağ vardı. Aralıdan baxanda gördü ki, sürü var. Qorxa-qorxa özünü çobanın yanına çatdırdı. Görək burda "Təbriz dubeytisi" havası üstündə ona nə dedi, biz deyək eşidənlər şad olsun:

***Nagah yerdən urcah oldum,***
***İmdad eylə mənə, qardaş!***
***Mən fağırın bu günündə***
***İmdad eylə mənə, qardaş!***

Aldı çoban:

***Nagah yerdən urcah oldun,***
***Dərdin söylə mənə, bacı!***
***Bəlkə, bir əlac eyləyəm,***
***Dərdin söylə mənə, bacı!***

Aldı Pəri xanım:

***Mənim bu halım bilərlər,***
***Əl çalıb, yaman gülərlər.***
***İndi dalımca gələrlər,***
***İmdad eylə mənə, qardaş!***

Aldı çoban:

***Dərin dəryaya dalaram,***
***Canım odlara salaram,***
***Sənin qisasın alaram,***
***Dərdin söylə mənə, bacı!***

Aldı Pəri xanım:

***Pəriyəm, nədi günahım,***
***Ərşə dayanıbdı ahım.***
***Bir Alı xandı pənahım,***
***İmdad eylə mənə, qardaş!***

Aldı çoban:

***Nə gəzirsən dağdan-dağa?***
***Canım canına sadağa.***
***Qadan gəlsin bu Budağa,***
***Dərdin söylə mənə, bacı!***

Pəri xanım dedi:

– Gəl, qardaş-bacı olaq. Sən mənə qardaş, mən də sənə bacı olum. Amma sənnən bir təvəqqım var, and içək, bir-birimizə sadiq olaq.

Çoban dedi:

– Mənim  evdə bacım, anam var.

Pəri xanım dedi:

– Məni bu nimdaş paltarnan ana-bacının yanına aparma. Bir dəst paltar ver, bu üstəkini çıxardım.

Çoban elə də elədi, ona bir dəst paltar gətirdi. Pəri xanım paltarlarını dəyişib xurcuna qoydu. Buna da elə bu lazım idi ki, oğlan paltarı geyinsin. Götürüb burda bir namə yazdı. Əlində ağac var idi, naməni o ağaca bağladı. Çoban heyvanları bir yerə yığanda arxasına ağacı atıb özünü meşəyə verdi. Çoban gördü ki, Pəri xanım yoxdu. Ağacı atıb, bir başına da kağız yazıb qoyub. Narahat oldu. Görək burda nə yazmışdı çobana,  "Naxçıvanı" havası üstündə ərz edək qulluğunuza:

***Başına döndüyüm, ay çoban qardaş,***
***Harda görsən, Alı xana de, gəlsin!***
***Didəmdən tökürəm mən qan ilə yaş,***
***Harda görsən, Alı xana de, gəlsin!***

***Yəqin tanıyarsan görcəyin onu,***
***Oddan köynəyidi, alovdan donu.***
***Yaxandan tutaram qiyamət günü,***
***Harda görsən, Alı xana de, gəlsin!***

***Adım Pəri xanım, Alı xan butam,***
***Çərx-fələk eylədi mənə yüz sitəm.***
***Qoymadı mətləbə, murada çatam,***
***Harda görsən, Alı xana de, gəlsin!***

Çoban  evə gəlib anasınnan, bacısınnan görüşdü. Sürünü sahiblərinə paylayandan sonra dedi ki, mən onu axtarmalıyam, mənə qardaş deyib. Həmin nimdaş paltarı bir heybəyə qoyub, yoluna da bir az azuqə götürüb, Pəri xanımı axtarmağa getdi. İndi eşit Pəri xanımdan.

Pəri xanım özünü yetirdi Pitlis şəhərinə, gəldi öz evlərinə. Gördü ki, Tapdıq oturub küləfrəngidə. Pəri xanım ona yaxınlaşıb dedi:

– Ay qardaş, qərib bir oğlanam, məni nökər tutarsanmı?

Tapdıq cavab verdi:

– Yaxşı gəlmisən, elə sənin kimi bir bədğur keçəl lazımdı ki, hər gördükcə kəffara verək.

Bu dəmdə Hacı Səyyad eşiyə çıxdı. Keçəl libasında Pərini görüb dedi:

– Oğul, irəli gəl görüm nə işin sahibisən?

Pəri xanım irəli gələndə Hacı gördü ki, bunun gözləri Pəri xanımın gözlərinə oxşayır. Bir ah çəkdi ki:

– Oğul, əlindən nə iş gəlir?

Pəri xanım dedi:

– Hər bir şey əlimdən gələr. Amma samovar qoymaq, istəkan-nəlbəki yumaq olsa, lap yaxşı.

Hacı dedi:

– Oğul, gəl! Danışmaq lazım deyil. Nə istəsən, verəcəyəm.

Pəri xanım burda qalmaqda olsun, sizə kimnən deyək, Alı xandan. Kəcavə qara bəzəndi, getdi çıxdı Van şəhərinə. Başıalovlu, dərdli Alı xan neyləməliydi. Balalarını dəfn edəndən sonra öz-özünə dedi: Bir çobanın bir toğlusu itir, bir kəndçinin bir inəyi itir, onu axtarır, mən yarımı axtarmayım? Ona görə də, ayağıma çarıq geyinəcəm, əlimə əsa alacam. O çarıq cırılıb, əsa gödələnəcən axtaracam. Anasının yanına gəlib dedi, mehriban ana, mən getməliyəm.

Anası, – ay oğul, getməginən, gözümün ağı-qarası bir oğulsan, – desə də, Alı xan dedi:

– Yox, mən getməliyəm, ana, məni qoruyan Rəbbimiz var.

Burda götürüb bir "Paşaköçdü" havası üstündə anasına görək nə dedi, ərz edək qulluğunuza:

***Qadir Allah, sən bilirsən,***
***Nə bəlalı başım mənim!***
***Durum, başım alıb gedim,***
***Artıbdı, təşvişim mənim!***

***Əlimdən uçurtdum bazım,***
***Dərdimi kağıza yazım.***

***Gərək gedim qürbət gəzim,***
***Dərvişlikdi işim mənim!***

***Baxar gözüm, yarı görməz,***
***Qoçaq qoçaqdan iz sormaz.***
***Axar çeşmim seli, durmaz,***
***Ceyhun olub yaşım mənim.***

***Alı xan eyləyir nəzir,***
***Yaradan üstündə hazır;***
***Boynu sınmış Qara Vəzir***
***İtirdi sirdaşım mənim!***

Anasıynan bülbül güldən ayrılan kimi görüşüb ayrıldılar. Üz qoydular İstambul tərəfə.

İndi eşit Nərgiz xanımdan. Alı xanla Qara Vəzir İstambulda küləfrənginin altından keçirdilər. Gördülər ki, orda bir qız əyləşib. Qız da gördü ki, iki dərviş gəlir. Bu dərvişdən biri heç zada dəyməz, amma biri bir oğlandı ki, yemə, içmə, xətti-xalına, gül camalına tamaşa elə.

Bir qızıl onluq qaravaşa verib dedi:

– Apar bunu o qabaqda gələn dərvişin kəşkülünə sal, adını da xəbər al.

Qarabaş gətirib qızılı kəşkülə salanda dərviş qızılı çıxardıb geri verdi, dedi:

– Bala, biz pul yığan dərvişlərdən deyilik. Dərdimiz var, dərd əhliyik.

Qarabaş soruşdu:

– Bəs adın nədir?

Dərviş cavab verdi:

– Mənim adım Alı dərvişdi, onun adı Qara dərviş.

Qız qayıdıb getdi, pulu Nərgiz xanıma verib, dedi:

– Deyirlər biz pul yığan dərvişlərdən deyilik, dərd əhliyik. Özü də qabaqcan gələnin adı Alı dərvişdi, sonra gələninki Qara dərviş.

Nərgiz xanım bir könüldən min könülə Alı xana aşiq oldu. Telindən

bir tük ayırıb, aldı görək "Aran gözəlləməsi" havası üstündə görək nə dedi:

***İltimas eylərəm, ay Alı dərviş,***
***Gəl al məni, getmə bizim ellərdən.***
***Sən də mənim kimi eşq oduna düş,***
***Gəl al məni, getmə bizim ellərdən.***

Aldı Alı xan:

***İltimas eyləmə, a Nərgiz xanım,***
***Gedərgi qonağam, qala bilmərəm.***
***Nə müddətdi bir tərlanım itibdi,***
***Gedərgiyəm, burda qala bilmərəm.***

Aldı Nərgiz:

***Mənəm bu yerlərin sultanı, xanı,***
***Tutmuşam dəstimə gülü, peymanı.***
***Mən səni sevmişəm, sən də sev məni,***
***Gəl al məni, getmə bizim ellərdən.***

Aldı Alı xan:

***Mənim yarım geyir alı-qırmızı,***
***İşvəsi-qəmzəsi yandırır bizi.***
***Bağın bənövşəsi, gülü, nərgizi,***
***Gedərgiyəm, burda qala bilmərəm.***

Aldı Nərgiz:

***Sən mənim canımsan, canı cananım,***
***Sevgilim, sərtacım, dinim, imanım,***
***Sənə qurban olsun bu Nərgiz xanım,***
***Gəl al məni, getmə bizim ellərdən.***

Aldı Alı xan:

***Leyliyə Məcnundu, Əsliyə Kərəm,***
***Nə ola bir yarın camalın görəm.***

***Qadir Allah, səndən möhlət istərəm,***
***Gedərgiyəm, burda qala bilmərəm.***

Nərgiz xanım Alı xanın dərdindən halı olub onu yola saldı. Alı xan yola düşdü. Gecəni gündüzə qatıb Hasanqara deyilən bir meydana çatdı. Adətən, bu meydanda itirdiyini axtaran, namə gətirən, namə göndərən olur. Gördü, bir bəzirganbaşı hündür yerə çıxıb, əlində də bir namə, deyir, ay camaat, bir neçə dəfə bura gəlmişəm, ancaq heç nə hasil olmayıb. Alı xan gəldi ki, görsün bu nədi. Gördü ki, bu Pəri xanımın dəsti-xəttidi. Özündə əmin oldu ki, Pəri xanım sağdı. Görək burda “Hüseyni” havası üstündə bəzirganbaşına nə dedi:

***Başına döndüyüm, bəzirganbaşı,***
***Bu kağızı yazan sonam necoldu?***
***Ayağına dəyməsin yolların daşı,***
***Bu kağızı yazan sonam necoldu?***

Aldı Bəzirgan:

***Başına döndüyüm, ay dərviş qardaş,***
***Kağız mənə nagah yerdən tuş oldu.***
***Sən də mənim kimi yaman dərdə düş,***
***Kağız mənə nagah yerdən tuş oldu.***

Aldı Alı xan:

***Aləm bilir, şirin candan bezaram,***
***Özüm öz dərdimi pünhan yazaram.***
***Pərim deyə, bu dünyanı gəzərəm,***
***Bu kağızı yazan sonam necoldu?***

Aldı Bəzirgan:

***Eşqin səməndini minib çapmışam,***
***Bənna olub, sınıq könül yapmışam.***
***Naməni çay üstə yoldan tapmışam,***
***Namə mənə nagah yerdən tuş oldu.***

Aldı Alı xan:

***Alı xan deyərlər mənim adıma,***
***Pərvanə tək qovrulmuşam oduna,***
***Hər zaman düşəndə Pəri yadıma,***
***Bu kağızı yazan Pərim necoldu?***

Aldı Bəzirgan:

***Yetişsin dadına Heydəri-kərrar,***
***Yolunda qoymuşam mal, mülk – hər nə var.***
***Sana qurban olsun Saleh sövdakar,***
***Kağız mənə nagah yerdən tuş oldu.***

Kağızı alan Alı xan bəzirganbaşını yaxşı mükafatlandırdı. Varlığa nə darlıq.

Pəri xanımı bir tərəfdən çoban axtarır, bir tərəfdən də Alı xan. Alı xan kağızı oxuyub yəqin elədi ki, Pəri sağdı. Özü də bu aralardadı. Qərəz, çoban da bunlara qoşuldu. Mənzilbəmənzil gəzə-gəzə çatdılar Pitlis şəhərinə. Hacı Sayadın qapısına yaxınlaşdılar. Pəri xanım qapıda durmuşdu. Gördü ki, Qara vəzir, Alı xan, bir də çoban gəlir. Özünü bir az başqa şəklə salıb onları qabaqladı, salam verdi. Alı xan baxdı ki, bu, keçəl oğlandı, amma nə isə gözə şirin gəlir. Alı xanın quşu qondu ona, soruşdu:

– Bala, sən kimsən, adın nədi?

Pəri xanım dedi:

– Adım Keçəl Əhməddi. Özüm də, bax, bu evdə nökərəm.

Alı xan soruşdu:

– Yaxşı, bura kimin evidi?

Pəri xanım dedi:

– Buranın sahibinə Pitlisli Hacı Sayad deyərlər. Çox dünyagörmüş, gəzmiş, dolaşmış adamdı. Həmişə kimin nə dərdi olsa, onun yanına gələr. Əgər siz bir gecə ona qonaq olsanız, ondan çox şey əxz eyləyə bilərsiniz.

Alı xan soruşdu:

– Bəs, biz necə eləyək ki, ona qonaq olaq?

Pəri xanım dedi:

– Siz burda gözləyin, mən gedib ona deyim.

Bunu deyib Pəri xanım daban aldı içəri, Hacı Sayadın yanına.

Hacı baxdı ki, keçəl sözlü adama oxşayır, soruşdu:

– Keçəl, nə var?

Pəri dedi:

– Hacı, bizim yerlərdən iki dərviş gəlib, bu gecə sizə qonaq olmaq istəyir.

Hacı dedi:

– Get çağır, gəlsinlər. Sənin qonağın mənim də qonağımdı.

Pəri xanım qaçıb Alı xangili içəri çağırdı. Dərvişlər yedilər, içdilər gecə araya gələndə Hacıgil də gəldilər bu otağa, ordan-burdan söhbət başlandı. Pəri xanım üzünü tutub Alı xana dedi:

– Ağa dərviş, bir nağıldan, əhvalatdan deyin, qulaq asaq, gecəmiz keçsin.

Alı xan qızardı. Dedi:

– Vallah, biz nağıl-zad bilən dərvişlərdən deyilik.

Nağıl adı gələndə çobanın kefi duruldu. Dedi:

– Nağılın yaxşısını elə dədə-babadan keçəllər bilərlər, sən birini danış, biz də qulaq asaq.

Yerbəyerdən hamı çobanın sözünü təsdiqlədi. Pəri xanıma da elə bu lazım idi. Dedi:

– Çoban qardaş, mən bir nağıl deyərəm, amma ki, bir şərtim var. Mən nağılı qurtarana qədər gərək heç kim bayıra çıxmaya.

Çoban o saat çomağını çiyninə qaldırıb, dedi:

– Bu mənlikdir, duraram qapıda. Bir adamı yerindən tərpənməyə qoymaram.

Bunu deyib, çoban keçdi qapının yanına. Hamı gözünü dikdi keçələ. Pəri xanım diz üstə əyləşib, bir Tapdığa baxdı, bir də dönüb Qara Vəzirə, nağıla başladı.

– Ay Hacı əmi, günlərin bir günündə bu Bitlis şəhərində dövlətli bir hacı vardı. Bu hacının oğul-uşağı yox idi. Arzu elədi ki, Allah mənə züryət versə, Qanlı suyun üstündən körpü saldıracağam. Xudavəndi

aləm ona iki uşaq verdi. Biri oğlan, biri də qız. Həmin gün Hacı məsciddən bir uşaq da tapıb gətirdi. Arvadına dedi:

– Arvad, biz birini istədik, amma xudavəndi aləm üçünü verdi.

Arvad dedi:

– Mən halal südümü haramzadaya əmizdirə bilmərəm. O yaxşı olsa idi, atmazdılar.

Bu sözü eşidəndə Tapdıq keçəlin sözünü yarımçıq kəsib, dedi:

– Mən eşiyə çıxmaq istəyirəm.

Budaq çoban dedi:

– Yerində otur. Bu rəvayət başa çatmamış heç kimi eşiyə buraxmayacam.

Pəri xanım danışa-danışa gəlib qardaşının onu öldürdüyü məqama çatanda bir hönkürtü qalxdı Hacı Sayadın sinəsinnən. – Ay oğul, – dedi, – sənə qurban olum, Pərinin axırı nə oldu, bir de görüm? Pəri xanım da bütün haqsızlıqları danışdı burda. Dedi:

– Əmi, darıxma, onu da deyəcəm.

Ona yardımçı olan, arxa durub sahib çıxan Alı xandan danışdı. Söhbət meşədə olan əhvalata gələndə, vəzir dedi:

– İcazə verin, mən eşiyə çıxmaq istəyirəm.

Budaq çoban dedi:

– Qara köpək, sənnən axşamnan ağlım bir şey kəsmiyib. Onsuz da mənim gözümə yaxşı dəymirsən, yerində otur.

Pəri xanım isə bu məqamda əvvəlcə bir “Qaytarma”, sonra isə “Yanıq Kərəmi” havası üstündə daha nələr söylədi, tərəfindən ərz eləyək:

***O zaman ki, çıxdıq Vandan İrana,***
***Qatırlı, şütürlü, mayalı dərviş!***
***Dindirəndə kəlmə-kəlmə danışan,***
***Gəlindən, qızdan da hayalı dərviş!***

***O zaman ki, çıxdım yollara Vandan,***
***O qürbət ellərdə mən oldum candan,***
***Halımı xəbər al Budaq çobandan,***
***O bilir hər işi, əhvalı dərviş!***

***Başım qoydum astanaya, daşa da,***
***Bir rəhm eylə gözdən axan yaşa da,***
***Mən də gördüm bir qaranlıq meşədə,***
***O sən itirdiyin maralı, dərviş!***

***Fələk məni çox ağlatdı, güldürdü,***
***Ağladıban göz yaşımı sildirdi,***
***Duran Vəzir bir cüt oğlum öldürdü,***
***Mərd igid qanına qan alı, dərviş!***

***Səhər-səhər doğan dan ulduzuyam,***
***Atamın-anamın xoş avazıyam,***
***Adım Pəri, Hacı Sayad qızıyam,***
***İstəsən, göstərim camalı, dərviş!***

Pəri bu sözü deyib, başından örpəyi atdı, on dörd hörüklü yasəmən saçları töküldü topuğuna.

Hacı Sayad, qardaşı, anası, hərəsi bir yandan qızı qucaqlarına basdı. Çoban çomağın ucuynan hərəsini bir tərəfə itələyib dedi:

– Çəkilin o yana. Bacımızı yeməyəcəksiniz ki, heç öldürəndə ürəyiniz yanmırdı. İndi şirin olub?

Sonra çomağın ucunda paltarı götürüb qoydu Pərinin qabağına, dedi:

– Bacı, dur paltarı dəyiş, səni heç kəsə verəsi deyiləm, öz evimizə aparacağam.

Hacı Sayad dedi:

– İndi biz bunlara nə eləyək?

Çoban dedi:

– Onların da işinə özüm baxacağam. Hamıdan qabaq bax, bu Tapdığın işinə baxaq. Bir yerdə adam çörək yesə, ora xəyanət eləməz. O ola ki, qardaş bacıya. Bunun günahı çox böyükdür. İndi mən Tapdığı qıyma-qıyma doğrayıb camaatın ayağının altına tökəcəyəm. Qoy camaat ayaqlayıb üstündən keçsin.

Çoban bunu deyib o saat Tapdığı parçaladı. Sonra Qara vəziri cəzalandırdı. O qarı ki, Tapdığı öyrətmişdi, onu da bağladı bir xam qatırın quyruğuna, buraxdı ki, qarı bilər, qatır bilər. Bu işlər hamısı qurtarandan sonra Alı xan Pəri xanıma yanaşmaq istədi. Hacı Sayad qoymadı, dedi:

– Daha mən qızımı sənə verməyəcəyəm.

Hacı Sayad Alı xana belə deyəndə çoban çomağı qaldırdı:

– O mənim bacımdı, heç kəsə dəxli yoxdu, heç kəsə də verəsi deyiləm. Bacı, dur gedək evimizə.

Çobana nə qədər dedilərsə, bir şey çıxmadı. Pəri xanım gördü ki, çoban sözünün üstündə möhkəm durub, atası da onu buraxmaq istəmir. İş belə olanda götürüb Pəri görək "Kərəm gözəlləməsi" havası üstündə nə dedi:

***Qanlı dağlar yenə düşdü araya,***
***Haşa üzünüzdən, yaman, ayrılıq!***
***Ölüm haqdı bu dünyada hər kəsə,***
***Ölümdən betərdi aman, ayrılıq!***

***Dərdim bir dəryadı, könlüm bir ada,***
***Günbəgündən artdı, oldu ziyada.***
***Hərdən bir cüt oğul düşəndə yada,***
***Ucalır başımdan duman, ayrılıq!***

***Mən Pəriyəm, bu meydanda durmağa,***
***Müjgan oxun şirin cana vurmağa,***
***Dünya bivəfadı, bir də görməyə,***
***Gəlmir sağlığıma guman, ayrılıq!***

Alı xan davam gətirməyib aldı, Pərinin cavabında görək "Mirzəcanı" havası üstündə nə dedi:

***Başına döndüyüm, alagöz Pərim,***
***Ala gözlü yarım, Pərim, ağlama!***

***İstəyirlər səni məndən alalar,***
***Yaxşı yerə gəlib karım, ağlama!***

***Fələkdən dağıldı bürcü-hasarım,***
***Yaxşı keçinmədi baxtım, ilqarım,***
***Mən öləndən sonra saxla paltarım,***
***Səndə qalsın yadigarım, ağlama!***

***Alıyam, sığındım bivəfa yara,***
***Bu bitməz işlərə kim eylər çara?***
***Sən bivəfasanmış, ay üzü qara,***
***Dürüst kəsdim etibarım, ağlama!***

Pəri tovuz quşu kimi qanad açdı. Aldı görək "Təbrizi" havası üstündə nə dedi:

***Uzaq yoldan gələn yarım,***
***Yoluna qurban olduğum.***
***Bircə danış tuti kimi,***
***Dilinə qurban olduğum.***

***Yoxdu səntək bir mərdana,***
***Məni gətirməsin cana,***
***Gəl, sarıl bəyaz gərdana,***
***Qoluna qurban olduğum.***

***Keçib bu dağlardan aşaq,***
***Mövc vurub dərya tək coşaq,***
***Pəri der, gəl qucaqlaşaq,***
***Belinə qurban olduğum!***

Çoban da, Hacı Sayad da baxdılar ki, bunları bir-birindən ayırmaq heç insaf deyil. Hacı bir aşıq gətirdi. Pəri xanımla Alı xana yeddi gün, yeddi gecə təzədən toy vuruldu.

Toyun axırıncı günü ustad aşıq məclisə gəlib, bu duvaqqapma ilə onların toylarını bağladı, dastanı bitirdi:

***Bir belə ay gözəlin***
***özünə qurban olasan,***
***Dindirib, danışdırıb***
***sözünə qurban olasan,***
***Camalı mahi-taban,***
***üzünə qurban olasan,***
***Süzülüb nə xoş baxır,***
***gözünə qurban olasan,***
***Nə əcəb, göftarı xoş,***
***avazına qurban olasan.***

***Qız, sənin qoynun içi***
***mixək, darçın, hil kimidi,***
***Tökülüb dal gərdənə***
***saçların sünbül kimidi,***
***Dəhanın şəhdi-şəkər,***
***dodaqların bal kimidi,***
***Mərmər sinə, bəyaz buxaq,***
***yanaqların gül kimidi,***
***Bülbülü-şeyda oluban,***
***yazına qurban olasan.***

***Bircə baxın bu gözələ,***
***nə əcəb türfə çağıdı,***
***Məclisi məst eləyən,***
***əlində kövsər sağıdı,***
***Sinəsi mərmər kimi,***
***Savalanın yaylağıdı,***
***Sonası pərvaz olub,***
***şux tərlanın növrağıdı,***
***Çöllərində ördəyinə,***
***qazına qurban olasan.***

*İstərəm ol Xudadan,*
*bir gecə yanda qalası,*
*Könlünə sirdaş olub,*
*həmişə dərdin alası,*
*Açılmış qönçə kimi,*
*şükufəli bağ lalası,*
*Dağında maral quzusu,*
*yazında ceyran balası,*
*Səkə-səkə seyrə çıxıb,*
*düzünə qurban olasan.*

*Məhəmmədəm[1], kəşt eylədim,*
*bu cümlə cahanı gəzib,*
*Gəncəni, Qarabağı,*
*Şəkini, Şirvanı gəzib,*
*Xoyu, Salmas, Marağa,*
*Təbrizi, Tehranı gəzib,*
*Arayıb axtarıban,*
*mülkü-Süleymanı gəzib,*
*Bir belə şux gözəlin*
*nazına qurban olasan.*

***Dastan Məmməd Bozalqanlı (Ələsgərov) və Şəmşəd Elmanoğlunun dilindən 2023-cü ildə yazıya alınıb.***

*1. Müxəmməs Varxiyanlı Məhəmmədə (XVIII əsrin ikinci yarısı-XIX əsrin ortaları) məxsusdur.*

## MƏHƏMMƏD VƏ GÜLƏNDAM

Ustadlar dastan başlayanda əvvəlcə ustadnamə deyərlər. Biz də bir ustadnamə deyək, könlümüz şad, üzünüz gülər olsun:

***Bir insan ki, əsil olsa binadan,***
***Qəlbə dəyməz, düz xəyalı gözləyər.***
***Artırıb zinətin, şahənşah olsa,***
***Bir nəzərdə cəm mahalı gözləyər.***

***Bir dostda olmasa ilqar, dəyanət,***
***Dərdə düşsən, heç vaxt etməz əyanət.***
***Evinə, malına eylər xəyanət,***
***Müxənnət dost qumaş, alı gözləyər.***

***Qəza-qədər başa salsa qaranı,***
***Dövlətə dost olan etməz çaranı,***
***Kasadlığa düşsən, kəsər aranı,***
***Tikə dostu dövlət-malı gözləyər.***

***Əsl dostun məhəbbəti çox olu,***
***Özü düz, sözü düz, xəndək ox olu,***
***Mərd igidin dəyanəti çox olu,***
***Dost yolunda qabaq-dalı gözləyər.***

***Demə, Şair Vəli düşüb gümana,***
***Fəhmin yetiribdi yaxşı-yamana.***
***Kamil olan qovlu verməz şeytana,***
***Dərk eləyər, pür kamalı gözləyər.***

Ustadlar ustadnaməni bir yox, iki deyərlər, biz də deyək iki olsun, düşmənin gözü tökülsün:

***Nə lazımdır, naqabilə söz deyəm,***
***Xətirinə ya dəyməyə, ya dəyə?***
***Sizin olsun eyvan, otaq, alaçıq,***
***Bizə bəsdir ya kölgəlik, ya dəyə.***

***Pis övlada öyüd versə yaxşı ata,***
***İgid çıxıb süvar ola yaxşı ata.***
***Kamil ovçu bərəsində yaxşı ata,***
***Keçirəndə ya dəyməyə, ya dəyə.***

***Hüseyn deyər, mayil oldum Gülxara,***
***Geyinibdi atlas, ziba, gülxara.***
***Qorxuram ki, qismət ola gül xara,***
***Bağban ölə, dal-budağı yad əyə.***

Ustadlar ustadnaməni iki yox, üç deyərlər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun:

***Nagahdan atılsa mərd igidə daş,***
***Görmə bir kimsədən, o, dostdan olar.***
***Namərdin yarası öldürməz mərdi,***
***Pozular damağı, həvəsdən olar.***

***Göz açıb dünyaya qıldım tamaşa,***
***Kim qaçar, qəzanın toruna düşə.***
***İki həsrət bir-birinə qovuşa,***
***O gün cənnət bağı gülüstan olar.***

***Mətahım qəlp oldu, al qumaşım bez,***
***Gəl biçarə Nəcəf, hər cəfaya döz.***
***Yayılar aləmə nəsihətli söz,***
***Ariflər dilində bir dastan olar.***

Sizə hardan deyim, kimdən deyim, İsfahan şəhərindən, şah oğlu Şah

Abbasdan. Ustadlar belə nağıl edirlər ki, Şah Abbas öz qoşunuynan şikara çıxmışdı. Qayıdanbaşı yolu Mollaxana deyilən kənddən düşdü. Bu zaman kəndin uşaqları yolun qırağında oynaşırdılar. İçində Məhəmməd adında bir dilli-dilavər, qoçaq uşaq var idi. Dedi:

– Ay uşaqlar, gələn Şah Abbasın qoşunudu. Elə qabaqda gələn də Şah Abbasın özüdü. Əyər məni eşitsəniz, mən deyəni eləsəniz, şahdan ənam alacayıq.

Uşaqlar razı oldular, Məhəmməd sırayla uşaqları düzdü yolun qırağında. Şah gəlib keçəndə irəli yeriyib şaha təzim elədi. Salam verdi. Onun bu hərəkəti şahın xoşuna gəldi, atın cilovunu dartıb dayandı. Dedi:

– Adın nədir, oğlum?

Dedi:

– Şah sağ olsun, adım Məhəmməddi.

Şah dedi:

– Vəzir Allahverdi xan, bu uşaqlara ənam, xərclik verib yola sal. O başda duran uşağı isə götürüb mənim yanıma gəl.

Atını sürüb getdi. Vəzir Allahverdi xan şahın dediyi kimi uşaqlara ənam, xərclik verdi. Məhəmmədi götürüb şahın dərgahına gətirdi.

Şah öz taxtı-tacında oturub əmr elədi ki, Məhəmməd gəlsin. Məhəmməd içəri gəldi. Şaha təzim edib, qulluğunda hazır olduğunu bildirdi. Şah dedi:

– Oğlum, kimlərdənsən, atan kimdi, anan kimdi?

Dedi:

– Şah sağolsun, nə atam var, nə anam, yetim oğlanam.

Şah dedi:

– Bəs, səni kim saxlayır?

Dedi:

– Bir nənəm var, o saxlayır.

Şah dedi:

– Oğlum, mənim yanımda qalıb mənə qulluq eləyərsənmi?

Dedi:

– Şahım, ixtiyar sahibisiniz, necə istəyirsiniz.

Oydu ki şah əmr elədi, Məhəmmədin nənəsini gətirdilər, şahın dərgahından ev verdilər. Şah Məhəmmədə dedi:

– Əlindən nə iş gəlir?

Dedi:

– Şahım sağ olsun, bir az çalıb-oxuyuram.

Bəli, o gündən Məhəmməd başladı ara işlərində işləməyə. Bir neçə ildən sonra Məhəmməd böyüyüb həddi-buluğa çatan cavan bir oğlan oldu. Şah Məhəmmədi yanına çağırıb dedi:

– Oğlum, de görüm, şikara çıxarsanmı?

Məhəmməd dedi:

– Bəli, çıxaram.

O gündən Məhəmməd başladı şikara getməyə. Bir gün gedib beşin vurdu, bir gün gedib onun vurdu. Bir gün də gedib səkkiz gün dağlarda qaldı, əlinə bir ov keçmədi. Əliboş qayıtmaq istəmirdi. Gözünü dolandırıb gördü, uzaqda bir hündür dağ var. Fikirləşib öz-özünə dedi, yəqin o dağda ov olar. Atını sürüb dağın zirvəsinə çıxdı. Baxdı gördü bu dağda gül gülü, bülbül bülbülü çağırır. Sanki yerə xalı sərmisən. Elə buna görə də dağın adına Əlvan dağ deyərdilər. Gördü dağın döşündə bir alaçıq var. Neçə günüydü çöllərdə idi, acmışdı. Fikirləşdi ki, yəqin o alaçığın sahibində çörək olar. Gedim bir parça çörək istəyim. Atı sürüb alaçığın qapısına gələndə alaçıqdan bir qız çıxdı, qəddi qamət, boy uca, gərdan mina, getmə gözümdən, gedərəm özümdən. Bir könüldən min könülə Məhəmməd qıza vuruldu. Qız da oxumuş, savadlı qız idi. Gördü, atlı acdı, keçdi içəri, qızıl məcməyidə yemək gətirib Məhəmmədə verdi. Özü də keçdi alaçığına.

Məhəmməd yeməyini yedi, fikirləşdi ki, ürəyini qıza necə açsın. Belə qərara gəldi ki, gəl, məcməyini qır, ver qıza, gör nə deyir. Elə də elədi. Qız gəldi ki, qablarını aparsın. Məhəmməd qırıq məcməyini qıza verəndə, Məhəmmədin nə deməyini qız başa düşdü. Dinməz qayıdıb alaçığın iplərini açdı. Yumrulayıb atın üstünə aşırdı. Atı minib getmək istəyəndə görək Məhəmməd "Hüseyni" havası üstündə nə deyir, deyək xoşbaxt olun:

***Dünya gözəlisən, dağlar maralı,***
***Sevdiciyim sənəm, sən geri qayıt.***
***Qoyma məni burda bağrı yaralı,***
***Sevdiciyim sənəm, sən geri qayıt.***

Görək qız nə deyir:

***Dağlar ceyranıyam, çöllər ülkəri,***
***Əcəm oğlu, tez ol, sən geri qayıt.***
***Çox cavanlar qoydum könlü yaralı,***
***Əcəm oğlu, tez ol, sən geri qayıt.***

Məhəmməd deyir:

***Dağlar maralısan, göylər ülkəri,***
***Görmüşəm ləbində qəndi, şəkəri.***
***Mən ovçuyam, buraxmaram şikarı,***
***Sevdiciyim sənəm, sən geri qayıt.***

Qız deyir:

***Dağlar ceyranıyam, göylər ülkəri,***
***Çoxları arzular bu qənd, şəkəri,***
***Ağladaram sənin kimi nökəri,***
***Əcəm oğlu, tez ol, sən geri qayıt.***

Məhəmməd deyir:

***Məhəmmədəm, mənə verdin azarı,***
***Sədrin üstə gördüm meydan bazarı.***
***Bil ki, mənəm şah Abbasın nökəri,***
***Sevdiciyim sənəm, sən geri qayıt.***

Qız deyir:

***Güləndam çoxuna verdi azarı,***
***Çox dəllal axtarır meydan bazarı,***
***Ağlar qoydu sən təki kamandarı,***
***Əcəm oğlu, tez ol, sən geri qayıt.***

Bəli, söz tamama yetdi, Güləndam ata bir qamçı vurub yalın belini aşdı. Məhəmməd fikirləşdi ki, ayə, neçə gündü şikar axtarıram, bundan gözəl şikar hardan əlinə keçəcək. Ata bir qamçı vurub ikinci yalda

Güləndamın qabağını kəsdi, "Kərəm gözəlləməsi" havası üstündə görək nə dedi:

***Başına döndüyüm, qurban olduğum,***
***Məni qoyub, sən haraya gedirsən?***
***Ala gözlərinə heyran olduğum,***
***Məni qoyub, sən haraya gedirsən?***

Görək Güləndam nə cavab verir:

***Çox oğlan dərdimdən dəli olubdu,***
***Yan çevirib, mən Kəşmirə gedirəm.***
***Yanıb atəşimə, pərvanə oldu,***
***Yan çevirib, mən Kəşmirə gedirəm.***

Məhəmməd:

***Dayanmaynan sən də məndən aralı,***
***Bağrımın başını qoyma yaralı.***
***Mən ovçuyam, buraxmaram maralı,***
***Məni qoyub, sən haraya gedirsən?***

Güləndam:

***Ölməmişkən dolan məndən aralı,***
***Sağ canımı eyləməynən yaralı.***
***Naşı ovçu tuta bilməz maralı,***
***Yan çevirib, mən Kəşmirə gedirəm.***

Məhəmməd öz-özünə dedi ki, gəl, gücünü bu qıza bildir. Gücünü bildirmək üçün görək Məhəmməd nə deyir:

***Məhəmmədəm, gənci meydan bilərəm,***
***Zərbinən başına qılınc vuraram,***
***Üz üstə atından yerə salaram,***
***Məni qoyub, sən haraya gedirsən?***

Görək Güləndam  axırıncı bəndi necə dedi:

***Güləndam görüncə gücünü qandı,***
***Dedi ikimizə cəngi meydandı.***
***Nakəs öz əhdini, andını dandı,***
***Yan çevirib mən Kəşmirə gedirəm.***

Söz tamama yetdi, Güləndam getmək istəyəndə Məhəmməd qılıncı çəkib durdu. Güləndam dedi, dayan, oğlan, o vurduğun dəmirçi zindanı deyil, ha vurursan. Əl atıb qılıncı çəkib Məhəmmədin başına bir zərbə vurdu, Məhəmməd huşunu itirib atın ayaqlarının altına düşdü. Güləndam acıqlı ilan kimi atdan endi ki, Məhəmmədin başını kəsib özünnən Kəşmirə aparsın. Məhəmmədin iki qaşının arasından məhəbbət oxu qalxıb Güləndamın ürəyinə sancıldı. Ürəyində dedi, səni vuran yerdə qolum quruyaydı. Görək orda Güləndam "Dilqəmi" havası üstündə nə deyir:

***Başına döndüyüm, qurban olduğum,***
***Sevsən məni, o Kəşmirə gəlginən.***
***Yanıb atəşinə giryan olduğum,***
***Sevsən məni o Kəşmirə gəlginən.***

***Qara duman əlvan dağı bürüsün,***
***Gözlərinnən qanlı yaşlar süzülsün,***
***Səni vuran yerdə qolum qurusun,***
***Sevsən məni, o Kəşmirə gəlginən.***

***Göz yaşıynan namə yazdı Güləndam,***
***Mən səni unutsam, çürüsün əndam.***
***Unudub ilqarı, deməynən yadam,***
***Sevsən məni, o Kəşmirə gəlginən.***

Bəli, söz tamama yetdi, Güləndam fikirləşdi ki, Məhəmmədin başına dərman qoyub sağaldar. Əl çəkməz, tutar yaxasından yolundan eylər.

Oydu ki, üçgünlük dərman bağladı başına, sarıdı, məktub yazıb başının altına qoydu. Məhəmmədin atının hörüyünü yerə çaldı, öz atını isə minib getdi.

Güləndam getməkdə olsun, sizə deyim Məhəmməddən. Bəli, üç gün tamam olanda Məhəmməd ayıldı. Özünə gəlib gördü, qız nə gəzir, lələ köçüb yurdu qalıb. Gözü qəfildən məktuba sataşdı. Açıb oxudu. Orada yazılmışdı ki, Kəşmir şəhərindənəm. Adım da Güləndamdı.

İstədi Güləndamın dalınca getsin, birdən yadına Şah Abbas, nənəsi düşdü. Dedi, gedim onlardan icazə alım, sonra gedərəm. Atı minib gəldi şahın hüzuruna.

Şah dedi:

– Oğul, neçə gündü hardasan?

Dedi:

– Şahım sağ olsun, əlimə ov keçmədi, əliboş da qayıtmaq istəmədim.

Şah dedi:

– Oğul, bu ov elədi ki, bir gün gedib yüzün vurarsan, yüz gün gedib birin vura bilməzsən. Bundan peşiman olma. Başın niyə sarıqlıdı?

Dedi:

– Şah sağ olsun, atdan yıxılmışam.

Şah şübhələnmişdi. Dedi:

– Vəzir Allahverdi xan, aç görüm, bunun başının yarasına baxaq.

Vəzir Allahverdi xan Məhəmmədin başının sarığını açdı. Dedi:

– Şah sağ olsun, qılınc yarasıdı.

Şah güldü, dedi:

– Sənə ovmu qəhət idi, gedib Güləndama başını yardırdın. Nə əcəb o, səni öldürməyib? O, neçə-neçə oğlanın başını kəsib aparıb. Niyə səni öldürmədi? Nə dedin?

Məhəmməd məktubu çıxardıb şaha göstərdi, Güləndamın dalınca getmək üçün şahdan izin istədi. “Qəhrəmanı” havası üstündə dedi:

***Başına döndüyüm, ay gözəl şahım,***
***Güləndam məni o Kəşmirə istəyir.***
***Səndən qeyri yoxdu mənim pənahım,***
***Güləndam məni o Kəşmirə istəyir.***

***Səməndimi mindim, Əlvənə sürdüm,***
***O gözəl Əlvənddə çadırın gördüm.***
***Nanını yedim, məcməyisin qırdım,***
***Güləndam məni o Kəşmirə istəyir.***

***Bir cavab söylədim, cavabım aldı,***
***Zərbinən qılıncı kəlləmə çaldı,***
***Üzü üstə atımdan bil, yerə saldı,***
***Güləndam məni o Kəşmirə istəyir.***

***Məhəmməd umudun dünyadan üzüb,***
***Bədənimin qanı kəlləmdən süzüb,***
***Gəl-gəl deyib, adıma kağız da yazıb,***
***Güləndam məni o Kəşmirə istəyir.***

Şah dedi:

– Səni böyüdüb boya-başa çatdıran nənən var, gərək o da izin versin.

Məhəmməd üz tutdu nənənsinin yanına. Nənəsi çox narahat idi, gözünün ağı-qarası bir Məhəmməd idi. Məhəmmədi görəndə sevindi. Oğul, neçə gündü hardasan, gözüm yolda qalıb, başın niyə sarıqlıdı?

Dedi:

– Nənə, dilnən desəm, dilim od tutub yanar. Bir başı nimçə, bir başı çömçə olsa, deyərəm.

Nənəsi dedi:

– Oğul, sağsan, bu dünyadan danış, ölmüsən, o dünyadan danış. Bir başı nimçə, bir başı çömçə nədir?

Dedi:

– Nənə, ona saz deyirlər. O, gahdan qəm çalır, gahdan dəm çalır.

Məhəmmədə gətirib bir saz verdilər, Məhəmməd sazın zilini zil, bəmini bəm eləyib, aldı sinəsinə, "Azaflı dubeyti" havası üstündə görək nənəsindən nə cür icazə istədi:

***Canım nənə, gözüm nənə,***
***Rüsxət ver, mən gedər oldum.***
***Sənə qurban özüm, nənə,***
***Rüsxət ver, mən gedər oldum.***

Aldı nənə:

***Canım oğul, gözüm oğul,***
***Qoymaram gedəsən, oğul.***
***Sana qurban özüm, oğul,***
***Qoymaram gedəsən, oğul.***

Aldı Məhəmməd:

***Düşmüşəm yarın qəhrinə,***
***Bax, nənə, işin təhrinə.***
***Gəl deyir Kəşmir şəhrinə,***
***Rüsxət ver, mən gedər oldum.***

Aldı nənə:

***Qoymam səni mən ölməmiş,***
***Ömrümü başa vurmamış.***
***Şah sana rüsxət verməmiş,***
***Qoymaram gedəsən, oğul.***

Aldı Məhəmməd:

***Məhəmməd o yarı görüb,***
***Baxçadan gülünü dərib.***
***Şahım mənə izin verib,***
***Rüsxət ver, mən gedər oldum.***

Aldı nənə:

***Sənə qurban Şəhrəbanu,***
***Bəs kimə tapşırdın məni?***
***Yandırarsan din-imanı,***
***Qoymaram gedəsən, oğul.***

Söz tamama yetdi,nənəsi gördü ki, Məhəmmədi qaytara bilməyəcək, şah da icazə verib, razı oldu.

Məhəmməd nənəsiynən, şahnan halal-hümmət eləyib yola düşdü. Bir mənzil getmişdi, gördü, yolun üstündə bir gözəl  bulaq axır, qəşəng bir çəmənlik var. Fikirləşdi ki, elə at da burda dincələr, özüm də dincələrəm. Atı qolbənd eləyib ota buraxdı. Özü bulaqda yuyundu. Təzəcə oturmuşdu ki, bir tikə çörək kəssin, iki nəfər başının üstünü aldı. Dedilər:

– Bura qatır gəlsə, dırnaq salar, quş gəlsə, qanad salar. Sən nə cürətnən burda oturmusan?

Burda Məhəmməd sazını alıb, görək "Oğuzoğlu" havasında nə deyir:

***Axdı didəm yaşı, döndü sellərə,***
***Yoxdu bu dərdimdən qanan, ağlasın.***
***Sığışmaz ki, dərdim deyəm, dillərə,***
***Yoxdu bu dərdimdən qanan, ağlasın.***

***Ağrıyar bədənim, sızıldar yaram,***
***Öz dərdimə yoxdu mümkünüm, çaram.***
***Bir gedən yox, şaha kağız göndərəm,***
***Yoxdu bu dərdimdən qanan, ağlasın.***

***Kimim var ki, gələ girə dayağa,***
***Qanımla boyandım əlvan boyağa.***
***Qaradı cəsədim başdan-ayağa,***
***Yoxdu bu dərdimdən qanan, ağlasın.***

***Məhəmmədəm, mən gəzmişəm ellərdə,***
***Vətəndən uzaqda qaldım çöllərdə.***
***Sevdiyimin gözü qaldı yollarda,***
***Yoxdu bu dərdimdən qanan, ağlasın.***

Dur, qabağımıza düş, deyəndə, Məhəmməd istədi əl-qol atsın, amma

aman verməyib tutub əl-ayağını bağlayıb boynundan iki pud qurğuşun asaraq aparıb zindana saldılar. Məhəmmədin gözü zindanda bir az işıqlandı. Qaranlıq idi. Gördü, bir qoca kişi oturub, mirvari kimi ağ saqqalı tökülüb sinəsinə. Dedi:

– Baba, mənim günahım nə idi, mən nə iş gördüm? Məni niyə buraya gətirdilər?

Qoca dedi:

– Oğlum, o sən düşdüyün çəmənlik qara divin yağı qoruğudu. Səni gətirən də qara divin qarovuludu. İndi ondan keçibdi. Sənə bir söz deyəcəm, yaxşı diqqətnən qulaq as: Qara divin bir yoldaşı var, Gözəl xanım adında. Səni çağırtdıracaq, ancaq nəbadə üzünə baxasan. Əyər üzünə baxsan, ağlını başından alacaq. Bir də sənə nə desə, nə eləsə, bacımsan sözündən başqa ayrı söz işlətmə.

Qoca söznən dediyini sazla da "Baş sarıtel" havası üstündə dedi:

***Canım oğul, gözüm oğul,***
***Dinəndə bacıdan danış.***
***Qurban sənə özüm, oğul,***
***Dinəndə bacıdan danış.***

***Çalış, üzünə baxmayasan,***
***Öz evini yıxmayasan,***
***Sözlərimdən çıxmayasan,***
***Dinəndə bacıdan danış.***

***Miskin baba eylər vəsyət,***
***Təbinnən dəyişmə xəsyət.***
***Yadında saxla bir nəsihət,***
***Dinəndə bacıdan danış.***

Söz təzəcə qurtarmışdı ki, iki qız daxil oldu içəri, Məhəmmədi götürüb apardılar. Gözəl xanımın qapısından ayağını içəri qoyanda özündən asılı olmayaraq gözləri onun üzünə sataşdı. Huşunu itirib yıxıldı. Qızlar üzünə su vurub ayıltdılar. Gözəl xanım dedi:

– Oğlan, de görüm niyə yıxıldın?

Dedi:
– Xanım, tutmam var, xəstəyəm, o tutdu yıxıldım.
– Bəs yerə niyə baxırsan?
Dedi:
– Bu da tutmamdan əmələ gəlir. Gərək üç gün yerə baxam.
Burda Gözəl xanım görək nə deyir:

***Dürüst üzümə baxginən,***
***Oğlan, al məni, al məni.***
***Qolunu dola boynuma,***
***Oğlan, al məni, al məni.***

Aldı Məhəmməd qızın cavabında:

***Naməhrəmə mən baxmaram,***
***Bacımsan, səni almaram.***
***Qolum boynuna taxmaram,***
***Bacımsan, səni almaram.***

Aldı Gözəl xanım:

***Qılıncımı qanlar alar,***
***Canım sənə qurban olar,***
***Gül üzüm saralıb-solar,***
***Oğlan, al məni, al məni.***

Aldı Məhəmməd:

***Qərib olan mehman olar,***
***Mehman özü qurban olar,***
***Qürbətdə saralıb solar,***
***Bacımsan, səni almaram.***

Aldı Gözəl xanım:

***Düşmən dərisin soydurram,***
***Şah mənəm, fərman buyurram.***

***Gözlərini mən oydurram,***
***Oğlan, al məni, al məni.***

Aldı Məhəmməd:

***Döydür Məhəmmədi, döydür,***
***İstəyirsən, gönün soydur.***
***Lap belə, gözümü oydur,***
***Bacımsan, səni almaram.***

Söz tamama yetdi. Gözəl xanımın acığı tutdu. İki pud qurğuşun əlavə elədi, Məhəmmədin boynuna taxıb zindana göndərdi.

Məhəmməd zindanda gözləməkdə olsun, sizə xəbər verim qara divdən. Qara div şikardan gəlmişdi, Gözəl xanımı çağırdı ki, bax gör nə cah-cəlalnan gəlmişəm.

Dedi:

– Nə cah-cəlalnan gələcəksən? Kişilikdən danışırsan. Yolnan gedən gədənin biri arvadının qoluna əl atır, sən də kişilikdən danışırsan.

– Ayə nə gədə, nə qol atır?

Dedi:

– Qarovulçular bir cavan oğlan gətirmişdi. Acıydı, yazığım gəldi. Apardım çörək verəm, qoluma əl atdı.

Qara div acıqlandı, istədi gedib zindanda Məhəmmədin başın kəssin. Birdən yadına düşdü ki, həyətdə sehirli daş var. Gedib sehirli daşa baxdı. Gördü, yox, əksinə, Gözəl xanım nə qədər çalışıb, Məhəmmədi yola gətirə bilməyib. Məhəmməd bacımsan, anamsan sözündən başqa söz işlətməyib. Bu, Qara divin xoşuna gəldi. Getdi Məhəmmədin yanına, alnından öpdü. Dedi:

– Oğlum, qorxma, səni buraxacam, çıxıb gedəsən. Amma səni çağırtdıracam Gözəl xanımın yanına. Hədələyəcəm, qorxub eləmə.

Div gedib öz taxtı-tacında əyləşdi, Gözəl xanımı da çağırdı. Cəllada əmr elədi, Məhəmmədi gətirdilər. Cəllada dedi:

– Aparıb bunu mənim torpağımdan çıxarın. Böyük tikəsini qulağı boyda doğrayıb, qanlı köynəyini mənə gətirərsiniz. Elə eləyin ki, qanı mənim torpağıma düşməsin.

Amma xəlvəti cəllada tapşırdı ki, nəbadə onu incidəsən.

Cəllad Məhəmmədi götürüb getdi. Qara div kəsə yolnan xəlvəti keçdi qabağa. Məhəmmədə dedi:

– Oğlum, indi səni boşduyuram. De görüm, məndən nə istəyirsən? Çəkinmə, de.

Məhəmməd dedi:

– Səndən bir xahişim var, o qocanı mənə bağışlayasan.

Qara div əmr elədi, qocanı gətirdilər. Qocaya da bir at verdi. Yola düşdülər. Bir mənzil gedib iki yolun ayrılığına çatdılar. Qoca dedi:

– Oğlum, indi burda yolumuz ayrılır. Sən bu yolu gedərsən, mən bu yolu gedəcəyəm.

Halallaşıb ayrıldılar. Məhəmməd bir mənzil getmişdı, artıq şəhərə çatırdı. Gördü, yalın üstündə bir sürü dana otlayır. Bir oğlan arxası üstə uzanıb ayaqlarını göydə oynadır. Oğlana salam verdi. Danaçının adı Nağıydı. Qalxdı, gördü bir atlıdı, çinində də saz. Dedi:

– Aşıqsanmı?

Məhəmməd dedi:

– Bəli, aşığam, nabələdəm, mənə köməkdarlıq elə, yol göstər.

Danaçı dedi:

– Sənə bir neçə kəlmə sözüm var. Əgər sözümə cavab verdin, sənə köməkdarlıq eləyib yol göstərəcəm. Yox, əgər cavab verə bilmədin, sazını əlindən alıb, səni danaya göndərəcəm. Elə mənə bir köməkçi lazımdı.

Məhəmməd fikirləşdi ki, ayə, bu bir danaçıdı, mənə nə deyəcək ki, bilməyim. Razı oldu. Görək danaçı Nağı "Göyçəgülü" havasında nə dedi, Məhəmməd nə cavab verdi:

***Səndən xəbər alım, ay aşıq qardaş,***
***İnsan olan neçə şeydən hasildi?***
***Dünya nə üstündə bərqərar oldu?***
***O nəydi ki, dördü beşdən asıldı?***

Məhəmməd cavabında:

***Al cavabın deyim danaçı qardaş,***
***Ağ danalar göy danandan əsildi –***

deyəndə, Nağı qışqırıb dedi:

– Dayan! Belinin nəziyinə bir çomağ vurram, ilan kimi burda sürünərsən. Ayə, nə bildin ağ dana göy danadan əsil olduğunu?

Məhəmməd gördü, yox, Nağı sözün qabağını bilir. Dedi:

– Danaçı qardaş, gözüm danalarda idi, elə huşum da danaynan getdi. İcazə ver, sözünün cavabın deyim:

***Al cavabın deyim, danaçı qardaş,***
***İnsan olan dördcə şeydən hasildi.***
***Abi ataş, xaki baddan xəlq olub,***
***O, ruhdu ki, dördü beşdən asıldı.***

Aldı Nağı:

***Nuh yazmışdı peyğənbərin yaşını,***
***Hindistanda şəhid etdi dişini.***
***Cənab Əmir kəsdi qəndil başını,***
***O, yola bənd oldu,bindən asıldı.***

Aldı Məhəmməd:

***Kimə yazmışdılar ulu yaşını,***
***Hindistanda şəhid etdi dişini.***
***Cənab Əmir kəsdi qəndil daşını,***
***O, yola bənd oldu, dindən asıldı.***

Aldı Nağı:

***Mən özüm keçələm, adımdı Nağı,***
***Sənə yağlamışdım, bax, bu çomağı,***
***Göz üstə saxlaram qanan qonağı,***
***Qanan qonaqlara hörmət vəsildi.***

Aldı Məhəmməd:

***Məhəmmədi bağışlaynan, ay Nağı,***
***Azad eylə qulluğunnan dustağı.***
***Axşam oldu, yola salnan qonağı,***
***Oturmağımnansa, getmək hasildi.***

Söz tamama yetdi, Nağı dedi:

– İndi de görüm, sana nə köməkdarlıq eləyə bilərəm? Məndən nə istəyirsən?

Məhəmməd dedi:

– Kimsəsiz adamam, şəhəri də tanımıram.

Sonra da Güləndam xanımın məktubunu göstərib dedi:

– Məni onnan görüşdürməyə köməkdarlıq elə.

Nağı gülüb dedi:

– Sənin işin mənnən keçir. Bax, gördüyün bu üç yüz dana Güləndam xanımındı, mən də onun naxırçısıyam. Amma bir çətinliyimiz var.

– Nədi o çətinlik?

Dedi:

– Güləndam xanım Əlvan dağından qayıdandan Heydər bəy zornan Güləndam xanımı alıb. Güləndam xanım onnan qırx gün möhlət istəyib. Bax, indi otuz doqquzuncu gündü, səhər qırx gün tamam olur. Gərək bu gecə biz öz işimizi görək.

Haylayıb dananı yığdı, Məhəmmədi götürüb gəldi evə. Nənəsini çağırdı və "Oğuzoğlu" havası üstündə ona görək dedi:

***Canımın yiyəsi, ay gözüm nənə,***
***Qonağın könülü xoş gəldin söyər.***
***Səndən budur iltimasım, ay nənə,***
***Qonağın könülü xoş gəldin söyər.***

***Döyməkdən ağzında qoymadım dişi,***
***Vədəsiz, kamalsız ağartdım başı.***
***Qonaq neynər aşığ, bozbaş, lavaşı,***
***Qonağın könülü xoş gəldin söyər.***

***Pis sözüynən diysindirmə qonağı,***
***Qaş-qabaq tökəndə pozlur damağı,***
***Sənə söyləməkdən yoruldu Nağı,***
***Qonağın könülü xoş gəldin söyər.***

Sözü tamama yetirdi. Oturdular. Nağı Məhəmməddən Əlvan dağında Güləndamın yazdığı məktubu istədi, Məhəmməd həmin məktubu çıxarıb Nağıya verdi. Nağı kağızı alıb qarıya dedi:

– Nənə, bu məktubu aparıb Güləndam xanıma verərsən, onun öz dəsti-xəttiynən yazdığı məktubdu.

Qarı çoxbilmiş idi. Bunların söhbətindən başa düşdü ki, Məhəmməd Güləndam xanımın dalınca gəlib. Gözünün ağı-qarası bir ümidi Nağıydı. Fikirləşdi ki, əgər məktubu Güləndama verər, işin üstü açılarsa, Heydər bəy Nağını öldürər. Oydu ki, gedib bir az hərlənib qayıdıb gəldi. Nağı dedi, nənə, məktubu verdinmi? Dedi, xeyr oğul, getdim, Güləndamı evdə tapmadım.

Görək kağızı vermədiyinə qarı nə deyir, onun qabağında Nağı nə deyir:

Aldı qarı:

***Başına döndüyüm, qurban olduğum,***
***Apardım kağızı, verə bilmədim.***
***Oduna yanıban büryan olduğum,***
***Apardım kağızı, verə bilmədim.***

Aldı Nağı:

***Canım nənə, gözüm nənə, ay nənə,***
***Apardın məktubu, niyə vermədin?***
***Yadındanmı çıxdı, ay gözüm nənə?***
***Apardın məktubu, niyə vermədin?***

Qarı gördü ki, Nağı əsəbiləşib, işin üstü açılmasın deyə, yalan söyləmək qərarına gəldi:

***Gedərkən yolda heç düşüb yatmadım,***
***Ha yüyürdüm, mənzilinə çatmadım.***
***Getdim, Güləndamı öydə tapmadım,***
***Çalışdım, üzünü görə bilmədim.***

Aldı Nağı:

***Əyib-əyib sənin qəddin pükəcəm,***
***Gözündən mən qanlı yaşlar tökəcəm,***
***Bu çomaqnan yurdunda turp əkəcəm,***
***Apardın kağızı, niyə vermədin?***

Aldı qarı:

***Qonağın Məmmədə bağışla ananı,***
***Boynuna götürmə babalı, qanı.***
***Qurban olsun sənə bu Nərgiz banu,***
***Apardım kağızı, verə bilmədim.***

Aldı Nağı:

***Niyə mənə qəsəm verdin qonağı,***
***Yediyin, içdiyin eylərəm ağı.***
***Sənə burda yalvarmadımı Nağı?***
***Apardın kağızı, niyə vermədin?***

Söz tamam oldu. Nağı məktubu götürüb özünü yetirdi Güləndama. Heydər bəy tapşırmışdı ki, Güləndamın yanına heç kimi buraxmayın. Oydu ki, Güləndamın kənizi istədi Nağını boşdamasın. Səsi-küyü Güləndam eşidib endi aşağı. Gördü Nağıdı. Dedi:

– Nağı, xeyirdimi?

Nağı dedi:

– Sənə bir şad xəbər gətirmişəm, kənizlərin məni içəri buraxmır.

– Ayə, nə xəbər gətirmisən?

Dedi:

– Boynundakı boyunbağını ver, deyim.

Güləndam boyunbağısını verdi.

Nağı burda alır, görək "Paşaköşdü" havasında nə deyir:

***Canım xanım, gözüm xanım,***
***Məhəmməd bizə gəlibdi.***
***Qurban sənə özüm, xanım,***
***Məhəmməd bizə gəlibdi.***

***Sənsən gözəllər ülkəri,***
***Ləbindi Misir şəkəri,***
***Şah Abbasın öz nökəri,***
***Məhəmməd bizə gəlibdi.***

***Əlvan dağında tapdığın,***
***Könlünü könlünə yapdığın,***
***Başını qılıncla çapdığın,***
***Məhəmməd bizə gəlibdi.***

***Öydə qoymuşam qonağı,***
***Nədi mənə sözün sağı?***
***Muştuluq istəyir Nağı,***
***Məhəmməd bizə gəlibdi.***

Nağı sazla dediyini sözlə də dedi:

– Bəs, Məhəmməd gəlib, mənim qonağımdı.

Güləndam xanım pul verib, dedi:

– Get yaxşı bazarlıq elə, Məhəmmədə hörmət elə, axşam qaş qaralanda gələcəm.

Nağı gedib bazarlıq elədi, iki dənə də yüyrək at aldı.

Məhəmmədin ürəyi davam gətirməyib, sazını götürüb burda görək "Dərvişi" havasında nə deyir:

***Kəm ağlım məni salıb çöllərə,***
***Könlüm, fələk, gör nə yaman pozğundu.***

***Sığışmır ki, dərdim deyəm dillərə,***
***Könlüm, fələk, gör nə yaman pozğundu.***

***Kifayətdi, könlümə həm dursunlar,***
***Ziyarətdi, əlin əlimə versinlər,***
***Bu günümdə hərgah məni görsünlər,***
***Deyirlər ki, bu divana azğındı.***

***Kim neylər ki, yazı tərsə yazıla,***
***Qorxum budu, yardan əlim üzülə.***
***Saatımın biri dönüb yüz ilə,***
***Dəqiqəmin biri mənə yüz gündü.***

***Gəldin bu qürbətə hardan, Məhəmməd?***
***Kimin var, qurtara dardan, Məhəmməd?***
***Sevildin, ayrıldın yardan, Məhəmməd?***
***Deyəsən ki, yarın səndən üzgündü.***

Güləndam xanım gözlədi, qaş qaralanda özünü yetridi Nağının yanına. Nağıynan görüşüb, halal-hümmət eləyib, hərəsi bir at minib yola düşdülər. Bunlar  getməkdə olsun, sizə xəbər verim kənizdən.

Kəniz gözlədi, səhər açıldı. Getdi gördü Güləndam xanım yoxdu, özünü yetirdi Heydər bəyə. Bəs, evin yıxılmasın, Nağı gəlmişdi, nəsə Məhəmməddən danışırdılar, səhər tezdən getdim ki, Güləndam xanım otağında yoxdu. Heydər bəy əmr elədi, qoşun atlandı, düşdülər Məhəmmədin dalınca. Gedib gördülər Nağı dana otarır. Sərkərdələr istədilər Nağını öldürsünlər, Heydər bəy dedi:

– Yox, qara döyün sərhəddindən keçəndə bir nəfər verməliyik. Onda Nağını verib gedərik.

Elə də elədilər. Nağını götürüb getdilər. Gördülər yalın başında bir qaraltı gəlir. Nağını göndərdilər ki, yəqin bu qara döyün qaravuludu. Qoy tutub aparsınlar, biz keçib gedək.

Nağı gördü Məhəmmədnən Güləndamdı, sarmaşıq kimi bir-birinə sarılıb yatıblar. Orda görək Güləndamı “Koroğlu dübeytisi” havasıyla nə cür oyatdı:

***Canım xanım, gözüm xanım,***
***Oyan, xanım, qoşun gəlir.***
***Sənə qurban özüm, xanım,***
***Oyan, xanım, qoşun gəlir.***

Güləndam deyir:

***Canım Nağı, gözüm Nağı,***
***Sən o yandan, mən bu yandan!***
***Heydərə çəkərəm dağı,***
***Sən o yandan, mən bu yandan!***

Nağı:

***Gəlin qaçaq, kimsə bilməz,***
***Dost ağlayıb, düşmən gülməz,***
***Ağlayıb, gözyaşını silməz,***
***Oyan, xanım, qoşun gəlir.***

Aldı Güləndam:

***Diləyim Haqdan dilərəm,***
***Onlar bilər, mən bilərəm,***
***Cəmini atdan salaram,***
***Sən o yandan, mən bu yandan!***

Görək axır bəndin nə cür dedilər:

***Nağının özü bir candır,***
***Bir canı sizə qurbandır,***
***Gələn dəryayı ümmandır,***
***Oyan, xanım, qoşun gəlir.***

Aldı Güləndam:

***Sən Güləndama baxginən,***
***Çapdığın yıxıb yaxginən,***
***Kələni mənə çıxginən,***
***Sən o yandan, mən bu yandan!***

Bəli, o tərəfdən Heydər bəyin qoşunu gəlib yetişməkdə idi. Dava libasını geydilər. Qoşun təbil-cəngini vurdular. Bunlar bir sürü körpə quzunun içinə ac canavar kimi düşmüşdülər. Güləndam xanım soldan vurdu, sağdan çıxdı, sağdan vurdu, soldan çıxdı. Nağı da çomağını işə saldı. Məhəmməd də Güləndam kimi böyük hünər göstərdi. Artıq Güləndamın qüvvəsi tükənməkdə idi. Güləndam bu məqamda yenə sazı sinəsinə basıb, görək "Şahsevəni" havası üstündə nə deyir:

***İldırım tək at sürməkdən,***
***Daha məndə hal qalmadı.***
***Şimşək tək qılınc vurmaqdan,***
***Daha məndə hal qalmadı.***

***Sağdan düşdüm, soldan çıxdım,***
***Kəllədən qayalar yapdım,***
***Leşlərindən hasar çəkdim,***
***Bizim dağda el qalmadı.***

***Çökək, dərə, göl oldu qan,***
***Düşmən başna oldu fərman.***
***Məni haldan salıb dərman,***
***Məndə tutar, bel qalmadı.***

***Gəldim, zindanına düşdüm,***
***Tilsim bulağından içdim,***
***Qara divin yerinə keçdim,***
***O bilməmiş bel qalmadı.***

***Güləndam, heç söyləmə xöyrat,***
***Xöyrata yaraşmaz şəryət,***
***Qaçmağa da qoymur qeyrət,***
***Danışmağa dil qalmadı.***

Birdən Məhəmmədin yadına düşdü ki, Qara div buna tük verib. Tükü cibindən çıxardıb Günəşin qabağına tutdu. Qara div qoşunuynan hazır oldu. Qırılan qırıldı, qalanı qırğı görmüş sərçə kimi, qaçıb kola-kosa

doldular. Məhəmməd, Nağı, Güləndam üç gün Qara divin qonağı oldular. Dördüncü gün getməkləri üçün Məhəmməd Qara divdən icazə istədi.

Qara div dedi:

– Oğul, Məhəmməd, Gözəl xanımı da öz xoşumla verirəm sənə. Onu da apar.

Məhəmmədi yaxşı hörmət, izzətlə yola saldı. Nağı, Məhəmməd, Güləndam və Gözəl xanım Əlvan dağına gəldilər. Güləndam oğlanın başını çapdığı yerə gələndə Məhəmməddən soruşdu:

– Məhəmməd, bura haradı?

Aldı Məhəmməd, görək saznan, söznən buranın hara olduğunu Güləndama "İncəgülü" havası üstündə necə dedi:

***Nə xəbər alırsan, Güləndam xanım,***
***Sənə qonaq gələn yerdi bu yerlər.***
***Günbəgündən məni dərdə salırsan,***
***Sənə qonaq gələn yerdi bu yerlər.***

***Səməndimi mindim, gərdənə sürdüm,***
***O çökəkdə sənin çadırın gördüm,***
***Çörəyini yedim, məcməyin qırdım,***
***Mən ölüb, sən qalan yerdi bu yerlər.***

***Məhəmmədəm, mən keçmişdim canımdan,***
***Burda göl qurmuşdu, gülyaz, qanımdan,***
***Xəbər al əhvalım Gözəl xanımdan,***
***Gedibən gəldiyim yerdi bu yerlər.***

Məhəmməd sözünü tamama yetirdi. Güləndam səkkiz rəng çiçək dərib dedi:

– Məhəmməd, mən bu bir dənə çiçəyi yeyib öləcəm.

Yeddisini də dalbadal göstərdi ki, bunları mənim göydəmə sürtərsən.

Güləndam çiçəyi yeyib, dünyasını dəyişəndə Məhəmməd bir-bir çiçəkləri onun bədəninə sürtdü. Qız buludun altından Ay çıxan kimi oyandı. Məhəmməd yeriyib qızın boynunu qucaqladı. Nağıya da dedi:

– Ay Nağı, çox zəhmət çəkibsən, Gözəl xanımı da sənə verirəm.

Nağı Məhəmmədin sazını götürüb bu yerdə görək "Naxçıvanı" havası üstündə nə deyir:

***Şükür olsun xaliqin o gününə,***
***Məhəmmədi mənə mehman elədi.***
***Zikr edəm, dua qılam bu günümə,***
***Məhəmmədi mənə mehman elədi.***

***Heç demirdin bu dünyada mən varam,***
***Dərdimə yox idi mümkünüm, çaram,***
***Axirətdən sağalmadı bu yaram,***
***Güləndam xanım indi dərman elədi.***

***Nağı, rəndə vurma, şüşə nəzilməz,***
***Basmaqnan, gəc yeriyən düzəlməz,***
***Könül bir şüşədi, sınsa, sağalmaz,***
***Gözəl xanım yaman çəm-xəm elədi.***

Nağı sözünü tamama yetirdi. Atlarını minib şahın qulluğuna gəldilər. Şah işdən barxud olub, Məhəmmədin gəldiyini bildi. Güləndam xanımın görüşünə gəldi. Güləndamın gözəlliyini görüb ona heyran qaldı. Qayıdıb öz taxtı-səltənətində oturdu. Vəzir Allahverdi xanı hüzuruna çağırıb dedi:

– Güləndama deyərsən mənim qırx dənə nökərim var, onun ən zəifi Məhəmməddi. Mən səni özüm üçün gətirtmişəm.

Vəzir Allahverdi xan gəlib Güləndama dedi və şahın onu çağırdığını bildirdi. Güləndam qılıncını belinə bağlayıb şahın hüzüruna gəldi. Şah vəzir Allahverdi xannan göndərdiyi sözü özü Güləndama təkrar elədi ki, bəs səni özüm üçün gətirmişəm. Güləndam dedi, sənə deyiləsi bir neçə sözüm var, icazə ver, onu deyim, ondan sonra danışarıq. Görək "Qəhrəmanı" havası üstündə nə dedi:

***Şah oğlu, şah Abbas ay cənnətməkan,***
***Mən gələndə Məhəmmədə gəlmişəm.***
***Şahlarda olmazmı heç namus çəkən,***
***Mən gələndə Məhəmmədə gəlmişəm.***

***Hökmü-ədalətsən, divani-şəryad,***
***Şəriyət heç zaman söyləməz qələt,***
***Papaqda qeyrət var, yaylıqda ismət,***
***Mən gələndə Məhəmmədə gəlmişəm.***

***Bənna olan tikdiyini sökərmi?***
***Çay ömründə heç geriyə axarmı?***
***Qaynata da gəlininə gəc baxarmı?***
***Mən gələndə Məhəmmədə gəlmişəm.***

***Son sözünü, budu, dedi Güləndam,***
***Şahlar şahı əl götürsün yaxamdan.***
***Kəşmirdən gələndə keçmişəm candan,***
***Mən gələndə Məhəmmədə gəlmişəm.***

Dalınca da bir bayatı oxudu:

***Üz meydandı,***
***Sinəm bazar, üz meydandı.***
***Şahım, fərmayış elə,***
***Bacarsan, düz meydandı!***

Güləndam sözünü tamam elədi. Şah Güləndamda olan qüvvəni bilirdi.

Şah dedi:

– Camalına baxdım qüsur görmədim, dedim, bəlkə, ağlında qüsur ola. Səni sınayırdım, afərin.

Qırx gün, qırx gecə toy eləyib Güləndamı Məhəmmədə, Məhəmmədi Güləndama tapşırdı. Gözəl xanımı da tapşırdılar Nağıya. Onlar muradlarına çatdılar, istəyənlər də öz muradına çatsın. Ustad məclisin sonunda xeyir-duasını verib "Müxəmməs" havası üstündə tapşırmasını etdi:

***Həzərat, yaxşı baxın,***
***qarşıda duran gözələ!***
***Ay qabaq, lalə yanaq,***
***qaşları kaman gözələ;***

*Huridi, ya pəridi,*
*mələkdi, qılman gözələ;*
*Bu surətdə, bu camalda,*
*kim deyər insan gözələ?!*

*Gətirin arifləri,*
*fəhm ilə diqqət eləsin;*
*Sözümdə xilaf varsa,*
*göstərsin, isbat eləsin;*
*Qoynunda bir cüt ləli,*
*sərraflar qiymət eləsin;*
*Mümkünsə, cəza versin,*
*işin ədalət eləsin;*
*Hər kimin dərdi varsa,*
*düşüb şikayət eləsin;*
*Zülfünnən dara çəkən,*
*ədalət, divan gözələ.*

*Tovuz kimi cilvələnib,*
*çıxıb qabağa, yaraşır;*
*Ağ libas tər əndama,*
*başdan-ayağa yaraşır;*
*Ağızda mirvari diş*
*qaymaq dodağa yaraşır;*
*Çay süzür, padnos düzür,*
*gətirir qonağa, yaraşır;*
*Zərəfşan xalları var,*
*büllur buxağa yaraşır;*
*Afərin, səd afərin,*
*alıcı tərlan gözələ.*

*Şəms olub gözəlliyi,*
*nuru qalxıb təcəllaya;*
*Mələklər əhsən deyir,*
*ərşdə durub tamaşaya;*

***Hər kəsin dərdi olsa,***
***onlar gəlir təmənnaya;***
***Bu hüsndə, vəcahətdə***
***bənzəri var Züleyxaya;***
***Mələkdi, oxşarı yox***
***nə kövkəbə, şəmsu-aya.***
***Hüsnünə könül verib***
***gətirir iman gözələ.***

***Dodağın südlü qaymaq,***
***şəkər zülalından betər;***
***Dil şirin, dəhan şirin,***
***Təbrizin balından betər;***
***Şox salıb ay qabağa,***
***həbəşi xalından betər;***
***Çəkilib qələm qaşı,***
***qüdrət hilalından betər;***
***Anlağı, mərifəti***
***loğman kəmalından betər;***
***Aşıq Hüseynin[1] xoşuna gəlib,***
***Dedi, bir dastan gözələ.***

Söhbətimiz burda sona yetdi. Var olsun qulaq asanlar.

***Dastan 2023-cü ildə ustad aşıq Nizami Şirinov və aşıq Afil Bəxtiyarlının dilindən yazıya alınıb.***

***1. Müxəmməs Hüseyn Bozalqanlıya (1863-1941) məxsusdur.***

## NƏCƏF VƏ PƏRİZAD

Ustadlar dastan başlayanda əvvəl ustadnamə deyərlər. Biz də məclisimizə ustadnamə ilə başlayaq:

***Səni bəyənməyən, ay mələk sazım,***
***Qırıqdı zatından, mayası yoxdu.***
***Əməli əl verir şərə-şeytana,***
***Könlündə bir Quran ayəsi yoxdu.***

***Nəyimə lazımdı soyum deyənlər,***
***Təki pul-paradan doyum deyənlər,***
***Sazı bir qırağa qoyun deyənlər,***
***Kökündən uzaqdı, niyəsi yoxdu.***

***Yağılar tanıyır bu yavuz eli,***
***Kimdi Təbriz, Şirvan, ya Tovuz eli,***
***Sazına sahib çıx, ay oğuz eli,***
***Sazın səndən başqa yiyəsi yoxdu.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, düşmənlərin ömrü solsun:

***Arifsən, məclisdə yaxşı söz söylə,***
***Görənlər desinlər kamalı yaxşı.***
***Gözəl əyləş, gözəl danış, gözəl gül,***
***Gözlər gözəl, hüsnü camalı yaxşı.***

***Nanəcib kimsənin düy bağrına daş,***
***Müxənnət adamla sən olma qardaş.***
***Namərd dağ olsa da, əymə ona baş,***
***Dolan ev içində havalı yaxşı.***

***Yıxılan əlindən tut, söylə dur,***
***Mərdlər ilə gen süfrə aç, dövran qur,***
***Bir kimsədən sual eşit, cavab ver,***
***Baxan desin, sorğu-suvalı yaxşı.***

***Hər layiqsiz sözü gətirmə dilə,***
***Bülbül kimi həvəs eylə sən gülə,***
***Aşıqsan, sazını gütür çıx elə,***
***Dolan hər oymağı, mahalı yaxşı.***

***Aşıq Mənsur deməz şirin candan bez,***
***Seyrəqib kimsədən yön alıb öt tez.***
***El içində gözəl dolan, gümrah gəz,***
***Görən desin əcəb cəlalı yaxşı.***

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, düşmənlərin ömrü puç solsun:

***Ay ariflər, qanlı fələk cəbrindən,***
***Qohumdan, qardaşdan, eldən ayrıldım.***
***Fərhad kimi çəkdim şirin qəmini,***
***Çığa pərvaz etdi, teldən ayrıldım.***

***Bir yanım var, yar qolunda sadağa,***
***Bal bələnib dilə, dişə, dodağa,***
***Nə müddətdi bağban idim bu bağa,***
***Dərmədim qönçəsin, güldən ayrıldım.***

***Abbas deyər: yar ayrısı yamandı,***
***Heç kəsə göstərmə, Allah amandı!***
***Qınamayın, əlif qəddim kamandı,***
***Dodaq qaymaq, dili baldan ayrıldım.***

Bəli, qulluğunuza ərz eləyim İsfahan şəhərində Şah oğlu Şah Abbasdan. Şah oğlu Şah Abbasın Məhəmməd adında bir bəzirganı var idi. Hörmət olaraq onu Əziz bəzirgan deyə çağırardı. Məhəmməd bəzirganın varı-dövləti başından aşırdı. Ancaq onun bir sınıq yeri var idi. Bu da övladının olmaması ilə bağlıydı. Övladsızlıq dərdi onun içini söküb dağıdırdı. Günlərin bir günü İsfahana İstanbuldan ticarətnən məşğul olan bir bəzirgan gəldi. Alxas çəmən deyilən bir yerə çatdı. Bura gələn karvanların dayanması üçün səmitdi bir yer idi. Çadırlar quruldu. Bu vaxt bunlardan bir az aralı gəlib bir karvan da düşdü. Məhəmməd bəzirgan dedi:

– Gedin görün o gələn karvan hardandı, bəzirganın adı nədi? Vaxtı olsa, deyin ki, Məhəmməd bəzirgan sizi çağırır. Gəlsin tanış olaq, bir qismət çörək kəsək.

Bəli, əzizlərim, həmin şəxs İstanbullu Əhməd bəzirgan idi. Gəldi, görüşdülər. Söhbət zamanı Məhəmməd bəzirgan dedi:

– Əhməd bəzirgan, dünya varından, övladdan nəyin var?

Dedi:

– Dünya varından heç bir kəm-kəsirim yoxdu. Var-dövlətim saysız-hesabsızdı, amma züryətim yoxdu.

Məhəmməd bəzirgan gördü ki, bu da onunla eyni dərddədi. İçərisindən bir sızıltı qopdu. Bunlar bir qədər söhbət eləmişdilər ki, şərqi oxuya-oxuya bir dərviş çadıra daxil oldu. Elə gözəl oxuyurdu ki, bunun belə gözəl oxumağına tamaşa edən bəzirganlar hərəsi bir abbası qızıl pul uzatdı. Bu vaxtı dərviş dedi:

– Mən pay verən dərvişəm, pay alan dərviş deyiləm.

Məhəmməd bəzirgan dedi:

– Üzündən nur tökülür, özün də elə pay verən dərvişə oxşuyursan. Buyur, bizə təklif elə, görək, nə pay verəcəksən?

Dərviş bir alma çıxartdı. Almanın bir üzü lalədən qırmızı, o biri üzü isə süddən ağ idi. Bu almanın hər bir tərəfi bir övladı xatırladırdı. Biri oğlan, biri isə qız bəxşişiydi.

Dedi:

– Bu almanı aranızda yarı bölərsiniz, həyat yoldaşınızla bölüb yeyərsiniz. Vaxt gələcək, sizə övlad qismət olacaq. Amma hansının

oğlan, hansını qız olduğunu indi deməyəcəm. Ona görə ki, aranızda mübahisə düşər. Vaxt gələcək, onlar böyüyəcək, məktəbə gedəcək. Övladları görüşdürmək sizin borcunuzdur. Əgər görüşdürməsəniz, günaha batarsınız.

Sözlərini tamamlayıb, dərviş qeybə çəkildi.

Bəzirganlar dedilər ki, İsfahandan İstanbula, eləcə də İstanbuldan İsfahana gətirilən mallar yaxşı qiymətə gedir. Gəl, mallarımızı əvəzləşdirək. Kimin malı artıq olsa, onun haqqı ödənsin. Razılaşıb dedilər:

– Bu da Allahın bizə verdiyi qismətdi. Həm də belə yaxşıdı.

Almanı yarı bölüb, özləri də burda siğə qardaş oldular. Bir-birinə söz verib ayrıldılar, yollarına davam etdilər.

O vaxt ki, Məhəmməd bəzirgan gəlib çatdı evinə, həyat yoldaşı dedi:

– Məhəmməd bəzirgan, indiyədək çox səfərlərə gedib-gəlibsən, amma heç vaxt səndən belə gözəl ətir gəlməmişdi, bu nə ətirdi belə?

Bəzirgan almanı çıxarıb dedi:

– Bu almanın ətridi ki, biz təam eləyib yeyəndən sonra Allahın qismətidi, övladımız olacaq.

Eləcə də Əhməd bəzirgan almanı bölüb həyat yoldaşıyla yedilər. Vaxt gəlib yetişdi, bunların hərəsinin bir övladı oldu. Məhəmməd bəzirganın oğlu, Əhməd bəzirganın isə qızı dünyaya gəldi. Bir çox qarılar, qohum-qonşular ad qoyma mərasiminə toplaşdılar. Hərə bir ad dedi. Biri dedi, qoy ömrü uzun olsun, möhkəm olsun, adını Daşdəmir qoyaq. Digəri Allahverdi qoyulmasını təklif etdi. Amma biri çıxıb dedi ki, mən bu oğlanın adını Nəcəf qoyuram. Beləcə, Nəcəf adı verilməsinə razılaşdılar. Gələn qonaqların hamısına xələt verib yola saldılar. Onlar getməkdə olsun, Eşit Əhməd bəzirgandan.

Əhməd bəzirganın ailəsi qızının adını Pərizad qoydu. Vaxt gəldi, günbəgün, aybaay böyüyən Nəcəf yeddi yaşına çatdı. Məhəmməd bəzirgan dünyasını dəyişdi.

Yeddi yaşından sonra mədrəsəyə gedib oxumağa davam eləyən Nəcəf böyüyüb on səkkiz yaşına yetişdi. Elmləri sinədəftər elədi. Artıq savadlı, bacarıqlı bir gənc idi. İşləmək həvəsinə düşmüşdü. Dedi:

– Ana, mən istəyirəm atamın vəzifəsini davam eləyəm.

Ana oğlunun qürbət elə getməsini istəmirdi. Çünki ata yox idi, ona görə də istəmirdi ki, oğlundan uzaqlarda olsun. Dedi:

– Oğul, mən səni gərəkli bir işdə çalışmaq üçün Şah Abbasın yanına göndərəcəm. Gedərsən, o, sənə nəyi məsləhət görsə, onu da edərsən.

Nəcəf anasının dediyi kimi etdi. Gəldi Şah Abbasın qəbuluna. Ədəblə baş əyib kim olduğunu çatdırdı. Şah dedi:

– Bəli, sən mənim əziz bəzirganım, dostum olan Məhəmməd bəzirganın övladısan. Elə atanın sənətini davam elə. Sənə xəzinədən pul və köməkçilər ayrılacaq. Bu işə davam eləyərsən.

Nəcəf sağollaşıb gəldi anasının yanına. Dedi:

– Ana, Şah Abbas məni atamın vəzifəsinə təklif elədi. İndi deyə bilərsənmi atamın, o qürbət ellərə, İstanbula gedəndə dostlarından kim var idi?

Anası dedi:

– Oğul, İstanbulda atanın Əhməd bəzirgan adlı bir siğə qardaşı vardı. İşdi, gedib tapsan bil ki, o, sənin əmindi.

Beləliklə, Nəcəf işinə başladı. Karvanla yola düzəldi. Az gedib, çox gedib gəlib çatdı İstanbul şəhərinə. Karvan yerləşdi, çadırlar quruldu. Eşit Əhməd bəzirgandan. Əhməd bəzirgan artıq ahıl yaşında idi. Bəlkə də, yaşı yetmişi, səksəni haqlamışdı. Gələn karvanlara baş çəkir, düşünürdü ki, görəsən, İsfahandan gələnlərdən mənim dostum Məhəmməd bəzirgannan bir xəbəri olan varmı? Bunu soruşanda cavanlardan biri dedi:

– Əmi, sənin dediyin o Məhəmməd bəzirgan dünyasını dəyişib. Oğlu isə bizim başçımız – baş bəzirganımızdı. Çadırı odur, gedin tanış olun. Nə gərəkdirsə, ondan daha yaxşı öyrənə bilərsiniz.

Əhməd bəzirgan, beləcə, hər şeydən halı olub, gəldi Nəcəfin yanına. İçəri daxil olub, onu bağrına basdı. Dedi:

– Oğul, sən mənim siğə qardaşımın övladısan. Mən sənin əminəm. İndi burda nə qədər karvan əhli varsa, hamınız mənim qonağımsınız.

Bütün karvan əhlini yerləşdirdilər. İndi eşidin Pərizad xanımdan. Pərizad xanım fikirləşdi ki, axı, atamın siğə qardaşının oğlu gəlib. Gedib ona xoş gəldin eləyim. Gəlib Nəcəfi görən kimi, bir könüldən min könülə ona aşiq oldu. Dedi:

– Yarəbbim, mən niyə gecikmişəm, axı bu, mənim can paramdı.

Nəcəf də Pərizad xanımı görən kimi bir könüldən min könülə ona aşiq oldu. Dedi, elə mənim qismətim budu.

İki cavan bir-birinə aşiq oldular. Pərizad öz-özünə dedi, gəl, bu oğlanın İstanbul şəhərində – bizim xanlıqda qalması üçün ona bir təklif elə. Gör, bəlkə, onu burda saxlaya bildin. Odur ki, “Nəcəfi” havası üstündə görək nə dedi:

***Başına döndüyüm, xan əmim oğlu,***
***Gəl, getmə, gəl, getmə, qal bizim xanda.***
***Lalə tək sinəmi eyləmə dağlı,***
***Sənin məhəbbətin var şirin canda.***

Görək Nəcəf nə deyir:

***Başına döndüyüm, xan əmim qızı,***
***Gəl, gedək, gəl, gedək, qal İsfahanda.***
***Eşqin atəşinə yandırma bizi,***
***Bəxti şirin olur nar İsfahanda.***

Pərizad xanım:

***Ağamın əlindən içmişəm camı,***
***Mənim tək gözəldən alginən kamı.***
***Gəzdim İstanbulu, Ruminən Şamı,***
***Heç oğlan görmədim yar, sən nişanda.***

Nəcəf:

***Şamama bəslənər torpaq içində,***
***Qızılgül bəslənər yarpaq içində,***
***Alt-üstü ləmpəli otaq içində,***
***Gəl, olaq qol-boyun yar, İsfahanda.***

Pərizad xanım:

***Eşqin səməndini minib çaparsan,***
***Bənna ol, sən sınıq könlüm yaparsan,***

***Əgər getsən, mən Pərzadı apar sən,***
***İndi ki, qalmadın yar bizim xanda.***

Görək Nəcəf nə cavab verir:

***Nəcəf alsın qadasını Pərzadın,***
***Fərqini qılmışam aşnanın, yadın.***
***İndi bildim ürəyində muradın,***
***Gəl gedək, mətləbin al İsfahanda.***

Pərizad xanım gördü ki, Nəcəfin burda qalmaq fikri yoxdu. Atası rəhmətə getmişdi, anası da onun yolunu gözləyirdi. Pərizad fikrini atasına, anasına çatdırmaq üçün burdan ayrılıb evə getdi. Anası gördü ki, qızı elə bil havalanıb. Dedi:

– Qızım, mən səni suya buyururam, duz gətirirsən, çörəyə buyururam, gedib odun gətirirsən. Yoxsa, gedib qonağa aşiqmi oldun?

Pərizad xanım cürə sazını sinəsinə basıb, "Koroğlu dübeytisi" havası üstündə görək anasına fikrini necə çatdırdı:

***Canım ana, gözüm ana,***
***Yardan ötrü mən ağlaram.***
***Sənə qurban özüm, ana,***
***Yardan ötrü mən ağlaram.***

Anası dedi:

- Qız, sən nə danışırsan? Atan bilsə, ona nə deyərsən?

Pərizad xanım sözünü belə davam etdi:

***Keşkə dədəm dərdim qana,***
***Əl batırmaz nahaq qana.***
***Nəcəf gedir İsfahana,***
***Yardan ötrü mən ağlaram.***

***Canım ana, gözüm ana,***
***Südün əmdim qana-qana.***

***Pərzad qurban Nəcəf xana,***
***Yardan ötrü mən ağlaram.***

Səsə Əhməd bəzirgan içəri girdi. Anası dedi:

– Bu qızın nə hədyan danışır. Nəcəf xana qoşulub İsfahana getmək istəyir.

Atası dedi:

– Arvad, çox əcəb eləyir. Bizim əhdi-peymanımız var. Mən söz vermişəm, sözümə də əməl eləməliyəm. Qız böyüdükcə onun ətri müşk-əmbər kimi ətrafa yayılır. Əgər mən bunları bir-birinə qovuşdurmasam, günaha bataram.

Bir həftənin içində toy çalındı. Pərizad xanımı verdilər Nəcəfə. Elə ki, karvan düzəldi, yola düşmək məqamı yetişdi. Atasından, anasından ayrılan Pərizad xanım "Mirzəcanı" havası üstündə görək nə dedi:

***Mən də gedər oldum qürbət ellərə,***
***Haqq belə yazıbdı yazımı mənim.***
***Atam yox, anam yox qürbət ölkədə,***
***Kim çəkəcək işvə-nazımı mənim.***

Anası dedi, qızım görürsənmi, gəl, səni qoymayım getməyə. Pərizad davam elədi:

***Yara söz vermişəm, qala bilmərəm,***
***Yarı eşq oduna sala bilmərəm,***
***Özgələrnən dərdi bölə bilmərəm,***
***Daha görməzsiniz üzümü mənim.***

***Pərizadam, düşdüm mən də bu dərdə,***
***Heç kafər düşməsin mən düşən dərdə.***
***Nəcəf xannan olmayaydım şərməndə,***
***Heç kim izləməsin izimi mənim.***

Pərizadın anasının bir tilsim kitabı var idi, yola düşüb getmək zamanında qızını çəkdi öz otağına, həmin tilsim kitabını onun köynəyinin altından sinəsinin üstünə yerləşdirib, dedi, qızım, gedirsən, Nəcəf xandan da qoçaq oğlanlar var. Bu tilsim kitabına kim toxunsa, o, tilsimə düşəcək.

Tilsim kitabını anası qızın köynəyinin altına qoydu. Amma Nəcəf xan bilmirdi ki, qızın sinəsində tilsim kitabı var. Odur ki, bunlar halal-hümmət eləyib yola düşdülər. Gəlib Alxas çəmənliyi adlı yerdə gecələməli oldular. Bu müddət ərzində Nəcəf xan qızı heç dindirib-danışdırmamışdı. Ona görə də düşündü ki, birdən qız məndən inciyər, gedib giley-güzar eyləyər. Durub gedim Pərizad xanımın çadırına. Odur ki, üz tutdu Pərizad xanımın çadırına. Gəlib gördü, Pərizad xanım mışıl-mışıl yatıb. Qıymadı bunu oyatsın, zərli libasını, papağını, paltarını bir qırağa qoyub, dirsəkləndi qızın yanında. Qızın sinəsində tilsim kitabı var idi. Ona toxunanda kitab oldu bir göyərçin. Pərizad xanım donunda Nəcəf xanın gözünə göründü. Dedi:

– Oğlan, mən getdim, sən də gəl.

Nəcəf xan düşdü bu kitabın dalına. Gedib çıxdı tilsim dağına. Yarıdan aşagı daş, yarıdan yuxarı insan şəklinə düşdü.

Sizə kimdən xəbər verim, Pərizad xanımdan. Gecənin bir yarısı idi, Pərizad xanım oyandı ki, yanında bir kişi libası var. O saat tanıdı ki, Nəcəf xanın libasıdı. Əlini sinəsinə atanda gördü ki, kitab yoxdu. Dedi:

– Anamın evi tikilsin, mənə yaman gün ağladı.

Bildi ki, Nəcəf xan tilsimə düşüb. Fikirləşdi ki, Nəcəf xanın libasını geyinim, papağını başıma qoyum, adım da olsun Nəcəf xan. Karvana hay salım ki, durun, Pərizad xanım yoxdu. Eləcə də etdi, paltarını geyinib, papağı başına qoyanda ürəyinə bir qatar söz gəldi. Görək burda "Hüseyni" havası üstündə nə dedi:

***Cavan sevdim, fərəhləndim, ucaldım,***
***Hayıf, getdi yar, otağı boş qaldı.***
***Özüm dərdə saldım, vaxtsız qocaldım,***
***Çəkdi sinəm üstə dağı, boş qaldı.***

***Əynimə geymişəm yarın libasın,***
***Üstündən qurşadım zəri-zibasın,***
***Uçdu getdi, qoydu dövlət xanasın,***
***Yaxşı deyib-gülmək çağı boş qaldı.***

***Gül qəfəsdən uçurmuşam göyərçin,***
***Kəsəydim yolunu, olaydım laçın.***
***Pərzad papaq altdan qərq eylər saçın,***
***Getdi Nəcəf, solu, sağı boş qaldı.***

Pərizad xanım sözünü tamam elədi. Karvan əhli Pərizad xanımın dediyindən bir şey başa düşmədi. Pərizad xanım karvana yola düşmək əmri verdi. Öz-özünə dedi, mən buraya gələndə özümnən iki qarabaş gətirmişəm. Mən paltarı geyinim, karvanı başsız qoymaq olmaz və Nəcəfi də axtarmalıyam. Ona görə də əvvəlcə birinci saqinin çadırına getdi. Burda "Baş dübeyti" havası üstündə görək saqini necə ayıltdı, saqi qalxıb ona nə dedi:

***Budur gəldi bahar fəsli,***
***Dağların lala vaxtıdı.***
***Nə yatmısan, oyan, saqi,***
***Əlbət ki, yara vaxtıdı.***

Gəlib içəri daxil oldu. Saqi bu sözləri eşidən kimi qalxdı. Dedi:

– Nəcəf xan, ayıb deyilmi, sən gecənin bu vaxtında mənim çadırıma gəlibsən. Əgər Pərizad xanımın çadırını axtarırsansa, burdan anrıkı çadırlardadı.

Pərizad gördü ki, qarabaş onu tanımadı, öz-özünə dedi, bunlar məni tanımadısa, karvan əhlinin heç biri tanımaz.

Dedi:

– İndi gəl keç Pəri xanımın çadırına.

***Nə yatmısan, Pəri xanım,***
***Qanlı yaş tökür giryanım.***

***Əldən getdi intizarım,***
***Gül bağlaram, qara vaxtıdı.***

***Bülbül gileylidi xardan,***
***Qurtarmadım intizardan.***
***Ayrı düşdüm nazlı yardan,***
***Dərdimə çara vaxtıdı.***

Elə ki, gördü Pəri xanım da bunu tanımadı, dedi, çox yaxşı oldu. Əlac qaldı o yerə ki, artıq bütün karvan əhlinə xəbər verilməlidi. Xəbər yayıldı, deməzsənmi, Pərizad xanım çadırında yoxdu. Hamı ayağa qalxdı, meşəni gecə səhərə qədər axtardılar. O yer, o köşək, o kol-kos qalmadı ki, axtarmasınlar. Tapa bilmədilər. Atalar deyir, "sən düşündüyünü düşün, gör fələk nə düşünəcək". Bir də baxdılar ki, qarabaşlar özlərinə sığal çəkirlər. Amma bu sığal o sığaldan deyildi. Onlar belə düşünürdülər ki, biz Pərizad xanımdan geri qalan gözəlikmi? Niyə Nəcəf xan bizləri alıb yoluna davam eləmir?

Burda Pərizad xanım bir "Təcnis" havası üstündə görək necə bəyan edir:

***Səba dost zülfünə şana çəkəndə,***
***Yayılar gərdənə, ay bular bular.***
***Hər kim ki, sidqinən dilək diləsə,***
***İnşallah mətləbin, ay bular, bular.***

***Sərrafın dəstində nə danə dedim,***
***Murqu dahanında nə danə dedim,***
***Dərdimi dərdbilməz nadana dedim,***
***Anlamaz, başını ay bular, bular.***

***Bu dərd, bu qəm mənim canımda qaldı,***
***Saraldı heyva tək, gül rəngim soldu,***
***Desələr, Nəcəfi kim dərdə saldı,***
***Onda deyərsiniz, ay bular, bular.***

Ona kimi karvanın sağından, solundan dedilər:

– Nəcəf xan, artıq getməyin vaxtı çatıb.

Karvan yola düşmək məqamına gəlib çatdı. Pərizad xanım bir namə yazdı. Hər halda, karvandan gedən adam sonra gəlib onu axtaranda ocaq daşının altına qoyulan naməyə baxar, deyə, düşündü. Görək, "Dərvişi" havası üstündə necə dedi. Biz deyək, eşidənlər sağ olsun:

***Başına döndüyüm, yari-vəfadar,***
***Mən sənin ucundan dərbədar oldum.***
***Məcnun kimi viranələr küncündə,***
***Dolandım çölləri, sərgərdar oldum.***

***Baş açmadım heç dediyim sözümdən,***
***Ağlamaqdan qan yaş gəlir gözümdən,***
***Hərdənbir də ab alıram özümdən,***
***Yanıb eşq oduna, səməndər oldum.***

***Kimlər çəkdi can içində dadımı,***
***Çox aradım həmdəmimi, yadımı.***
***Pərzad idim, Nəcəf qoydum adımı,***
***Gedib İsfahanda dərbədər oldum.***

Naməni yazıb qoydu ocaq daşının altına. Karvan İsfahana yola düzəldi. Bir neçə gündən sonra karvan mənzilbaşına yetişdi. Pərizad xanım çox tədbirli adam idi. Düşündü ki, bundan sonra necə eləmək lazımdı: Axı Nəcəfin evini tanımırdı. Bir qarı ilə qarşılaşdı. Ona dedi:

– Deməzsənmi, Nəcəf xanın huşu gedibdi, evlərini də tanımır, gəlin, Nəcəf xanı öz evinə aparaq.

Beləliklə, gətirdilər Nəcəfi öz evinə. Anasını istədi. Anası gəlib dedi:

– Oğul, buna görə sənin bəzirgan olmanı, getməni istəmirdim. Gözümün ağı-qarası bir oğulsan, sana gələn mana gəlsin.

Bir neçə gün keçdi, gözünün altından gələnləri yoxalayan Pərizad xanım Nəcəfin anasını və ətraf adamları tanıdı.

Anası dedi:

– Oğul, atan hər səfərdən gələndə Şah Abbasa layiq xonça tutardı. Onu sən niyə eləmirsən?

Dedi:

– Ana, yeni yaxşılaşmışam, mən də eləyərəm.

Çox keçmədi, şaha layiq bir xonça tutub, onun yanına getdi. Bir yanını da qaçaraq qoydu ki, burda heç bir şey bilinməsin.

Bir almadan yaranan bu iki gənc oğlannan qız o qədər bir-birinə oxşayırdı ki, heç olmayan kimi. Şahın yanına gəlib ədəblə baş əydi və xonçanı təqdim elədi. Şah Abbas gördü ki, bu, çox ləyaqətli insandı, təklifini də çox gözəl bilir. Vəziri yanına çağırdı dedi:

– Vəzir, mənim elə bir verə biləcək şeyim yoxdu, yəni mənim əhli-əyalımdan. Sənin qızın Gülgəz xanımı istəyirəm Nəcəf xana əyal eləyək.

Vəzir dedi:

– Şah sağ olsun, əgər siz belə rəva bilirsinizsə, nə deyirəm, mən də razıyam.

Bir namə yazıb göndərdilər Nəcəfə ki, vəzirin qızı Gülgəz xanımı razılığımızla sənə əyal elədik. Gəlib apara bilərsən. Bunu eşidən Pərizad xanım fikirləşdi ki, burda neyləməliyəm? Boyun qaçırsam, şahın qəzəbinə gələrəm. İndi başımın çarəsini qılmalıyam. Bir yandan bağlayan, bir yandan açar deyib, razılıq verdi. Məclis quruldu, toy oldu, Gülgəz xanımı Nəcəf xanın iqamətgahına gətirdilər. Gülgəz xanım bu vaxtı gördü ki, Nəcəf xan Quran oxuyur. Dedi:

– İndi deyib-gülmək, danışmaq vaxtıdı. Bir başınızı qaldırın.

Pərizad xanım dedi:

– Atam rəhmətə gedəndə mənə vəsiyyət eləyib ki, mən öləndə qırx gün mənim yasımı saxlayıb Quran oxuyarsan. Xətm eləyərsən.

Gəlin bu sözdən sonra əlavə etdi ki, qırx gün də mənim adımdan qaynatam üçün quran oxu, xətm elə. Pərizad xanım ürəyində sevindi ki, hə, qırx gün deyirdim, qırx gün də əlavə oldu. İnşallah, bu səksən gündə ya Nəcəf xan gələr, ya mən bir yol tapıb İsfahan şəhərindən qaçıb canımı qurtararam.

İndi bunlar burda günü sanamaqda olsun, eşit Nəcəfdən. Nəcəf tilsimə düşdüyü dağda qurşaqdan aşağı daşlaşmışdı. Gecə-gündüz ah-

nalə eləyirdi. Bir yandan bağlayan bir yandan açır. Ovçu Əhməd heyvanların, quşların dilini bilən mahir bir ovçuydu. Tilsim dağının ətrafına gəlib çobanlardan, soruşdu:

– Buralarda ov görən oldumu?

Yox, dedilər. Ov görmədik, amma tilsim dağından bir xısın-xısın səs gəlir.

Ovçu Əhməd dedi:

– Nə olur-olsun, mən gedib onu bilməliyəm və ora getməliyəm.

Gəldi tilsim dağına. Bir qədər gəlmişdi, aralıdan gördü bir gözəl oğlandı. Fikirləşdi ki, gedim bir əvvəlcə görüm bunun dərdi nədi? Gəlib əl təmənna eləyəndə tilsimə düşdü. Bu da burda daşlaşıb qaldı. Gördü ki, göyərçin qızılquşa deyir:

– Sən məni vurub yuvamdan çıxar. Onların başının üstünə apar. Tilsimə düşən o oğlan mənim başımı üzüb, qanı Nəcəfin üstünə tökülsə, onlar tilsimdən qurtara bilər.

Bunu başa düşən Əhməd ovçu dedi:

– Oğul, mən quşların dilini bilirəm. Hazır ol, qızılquşu buraxıram, göyərçini vurub yuvadan sənin üstünə gətirəcək, ayıq-sayıq olmalısan.

Qızılquş şığıyıb göyərçini yuvasından vurub çıxartdı. Nəcəf xan əlini atıb göyərçini tutdu. Başını elə üzdü ki, qanı bunların üstünə dağıldı. Beləcə, tilsimdən qurtardılar. Bir qədər gəlmişdilər, Ovçu Əhməd dedi:

– Oğul, səndən bir şey xəbər alım. Sən nə günahın sahibi idin, nə dərdin vardı ki, gəlib bura çıxıbsan?

Nəcəf dərdini "Zarıncı Kərəmi" havası üstündə görək necə dedi:

***Dad eylərəm qara bəxtin əlindən,***
***Yar üzünə həsrət qalan mən oldum.***
***Əyyub kimi canda yara bəslərəm,***
***Əzəl doğru, sonra yalan mən oldum.***

***Nə dostum var, nə də ki, bir həmdəmim,***
***Günü-gündən artır dərdiynən qəmim.***
***Nuh kimi dəryada qərq oldu gəmim,***
***Gəmisi dəryada qalan mən oldum.***

***Nəcəfəm, qurtarmam qəm otağından,***
***Bülbül əl götürməz gül budağından,***
***Dilindən, dişindən, tər buxağından,***
***Tərsa sevən Şeyx Sənan mən oldum.***

Əhməd ovçu dedi:
– Oğul, indi bildim nəyə görə sən bu dərdə düşübsən.
Nəcəf davam elədi:

***Mədəd, mədəd aləmləri yaradan,***
***Mədəd məni bu cadudan qurtara.***
***Ənbiyalər, övliyalər, ərənlər,***
***Mədəd məni bu cadudan qurtara.***

***Mənim ağam şahi-mərdan ya Əli,***
***Kərəm eylə, qiblə səmtə dön geri.***
***Yerin-göyün, ərşin-gürşün ləngəri,***
***Haray məni bu cadudan qurtara.***

***Nəcəfəm, çağırram, ya şahlar şahı,***
***Yetişsin dadıma ol gibləgahı.***
***Xorasanda qızıl gümbəz fərahı,***
***Mədəd məni bu cadudan qurtara.***

Ovçu Əhməd əlavə olaraq dedi:
– Oğul, cadudan qurtardın. İndi anladım nəyin ucbatından bu günə düşübsən. Mənim gözəllər-gözəli bir qızım var, adı da Xanı xanımdı, pəhləvandı. Gedəndə onu kəbin eləyib sənə verəcəm.
Nəcəf öz-özünə dedi:
– Vay, gərək bu tilsimdən qurtarmayaydım.
Amma bilirdi ki, Ovçu Əhmədə bir can borcu var. Evə gəldilər. Nəcəf günü-gündən saralırdı. Xanı xanım soruşdu:
– Nəcəf, niyə günü-gündən saralırsan?
Dedi:

– O zirvələrdə uçan bir qızılquşu, qartalı gətirib qəfəsə salanda sorulmazmı dərdin nədi? Mən gəzmək istəyirəm.

Bir neçə atlı adamlarnan məsləhət eləyib bunu gəzməyə yola saldılar. Birinci, karvan harda dayanmışdı oraya gəldi. Gördü lələ köçüb, yurd ağlayır. Gəlib ocaq daşını qaldıranda başa düşdü ki, Pərizad artıq kişi donunan bunun geyimini geyinib İsfahana gedib. Baxdı bir karvan gəlir, ora elə yer idi ki, gələn karvan hər səmtə gedirdi. "Naxçıvanı" havası ilə görək bəzirgandan nə ismarladı:

***Əgər gedər olsan şəhri İsfahana,***
***Yetir namələrim yara, bəzirgan!***
***Göndərsin cavabın çöl quşlarından,***
***Yazsın ağ üstündən qara, bəzirgan!***

***Heç bilmədim nə qatdılar badəyə,***
***Nə müddətdir mən düşmüşdüm caduya.***
***Yetir ərzi-halım Pərizadəyə,***
***De, bir qulun itib, ara, bəzirgan!***

***Ağız gövhər, dişi inci, sədəfi,***
***Ta madəm çəkirəm sinəmdə ahı.***
***Desələr, gördünmü sən də Nəcəfi,***
***De, həsrət qalıbdı nara, bəzirgan!***

Bəzirgan naməni alıb bir neçə günə İsfahana çatdı. Adət beləydi, papağın böyür hissələrinə naməni taxardılar, kimdən gedir adını yazardılar. Pərizad xanım araya salıb gəlib-gedən karvanlardan ya Nəcəfin özünü, ya da naməsini gözləyirdi. Gözü yolda idi. Karvan gəlib yol ayrıcına çatanda Nəcəfin kağızını görüb tanıdı. Dedi:

– Bəzirgan əmi, o kağız mənə çatacaq.

– Ay oğul, sən ki məndən qabaq gəlibsən. Bəs onda naməni niyə məndən göndərirdin?

– Bəzirgan əmi, naməni göndərən mənim əmim oğludu. Biz bir-birimizə bir almanın yarısı kimi oxşayırıq. Qürbətdə olan əmim oğludu.

Sənin ağrın alım, bəzirgan əmi, bunun cavabını yazsam, çatdırarsanmı?

– Ay oğul, niyə çatdırmıram? Mən də bunnan savaba bataram. Nə yazırsan yaz, indi görüm, göndərdiyin naməni nə deyib yazırsan.

"Qaytarma" havası üstündə görək Pərizad necə deyir:

***Göz yaşımnan yara namə göndərdim,***
***Namə, halım çatdır yara, durma, gəl!***
***Gözlərim yollarda, can intizarda,***
***Vədə verdik bir ilqara, durma, gəl!***

***Aşiq bilər məşuqunun halını,***
***Mən sevmişəm ağ üzündə xalını,***
***Gözləməkdən sən namənin yolunu,***
***Qalmadı gözümdə qara, durma, gəl.***

***Pərzad deyər, düşmənlərim güldülər,***
***Süsən bilər, sünbül bilər, gül bilər.***
***Qiyamətdi, qızı qıza verdilər,***
***Keçdi günüm belə qara, durma, gəl.***

Pərizadın naməsi Nəcəfə yetişdi, oxuyanda tamam halı dəyişdi. Pərizad göndərdiyi namə onu yerindən oynatdı. İndi eşit Xanı xanımdan. Dedi:

– Ayə, zalım oğlu, səni buraya zorlamı gətiriblər? Nədi, yenə saralmağa başladın? Bir dərdini de görüm.

Dedi:

– Xanı xanım, dərdimi sənə saznan deyəcəm.

Sazı sinəsinə basıb, "Göyçəgülü" havası üstündə görək dərdini necə izhar elədi:

***Dərdim çoxdu, izhar edə bilmirəm,***
***Gözü yolda, dərdi dərdə qatanam.***
***Sevmişəm, ayrılıb gedə bilmirəm,***
***İllərlə mən qəmxanada yatanam.***

***Gözəl sənsən, gözəllərin ülkəri,***
***Yolunda qoymuşam can ilə səri.***
***Ya hurisən, ya mələksən, ya pəri,***
***Nə vaxtdandı yasa-qəmə batanam.***

***Yəqin bil, Nəcəfin din-imanısan,***
***Züleyxasan, Misirin sultanısan,***
***Adın Xanı, özün xanlar xanısan,***
***Diləmişəm, diləkliyəm, butanam.***

Beləcə, halal-hümmət eləyib yola düşdülər. Nəcəf xan bütün olanları yolda Xanı xanıma danışdı. Xanı xanım dedi:

– Bunları sən niyə qabaqcadan demirdin. Gen gündə həmdərdinəm, dar gündə qardaşın.

Gecəni gündüzə qatıb gəlib çatdılar İsfahana. Xanı xanım dedi ki, Nəcəf, yaxşı çıxmaz ki, sən məni o evə aparasan. Yaxşısı budur, məni tanış bildiyin evlərdən birinə qoy. Qızlar gəlib məni aparsın.

Nəcəfin bu fikir ağlına batdı. Xanı xanımı evlərdən birinə qoyub, üz tutdu qızların yanına. Qapıya çatmışdı, Pərizad xanım Nəcəfi görüb tanıdı. İki həsrət bir-birinə qovuşdu. Pərizad xanım dedi:

– Nəcəf, indi sən burda dayan, mən gedim vəzirin qızı Gülgəz xanıma bunu muştuluqlayım.

Götürüb "Şirvan gözəlləməsi" havası üstündə görək necə dedi:

***Qalx ayağa, bircə vəzirin qızı,***
***Sənin butan, mənim yarım gəlibdi.***
***Əyninə geymisən alı-qırmızı,***
***Sənin butan, mənim yarım gəlibdi.***

***Sənə çox vermişəm cəfayi-cəza,***
***Qırx günün namazın qıldırdım qəza.***
***Axdı eynim yaşı dərya dərəcə,***
***Sənin butan, mənim yarım gəlibdi.***

***Pərzad deyər, kimlər nəyə nə qatdı,***
***Gecə deyil, gündüz mənə zülmətdi.***
***Nəcəf oldu, mənim adım Pərizaddı,***
***Hər iki gözəlin yarı gəlibdi.***

Pərizad xanım hər şeyi başa saldı vəzirin qızına. Dedi, mən səni indiyədək boş yerə incitməmişəm. Nəcəfə də işarə eləmişdi ki, mən sözümü ona deyəndən sonra içəri daxil ol. Nəcəf xan içəri daxil olanda bir güldən min gül açılan vəzirin qızı Gülgəz xanım "Kərəm gözəlləməsi" havası üstündə görək nə dedi, necə dedi:

***Sən gəldin otağa, nur yağdı bağa,***
***Bu sınıq könlümə həmdəm, xoş gəldin!***
***Sən gələn yollara canım sadağa,***
***Bu sınıq könlümə həmdəm, xoş gəldin.***

***Sən gedəli çox qəlbimə dəyirdi,***
***Bənövşə tək əlif qəddim əyirdi,***
***Qızılgülün hulqumunnan döyürdü,***
***Bu sınıq könlümə həmdəm xoş, gəldin.***

***Gülgəz deyər, indi bizim özümüz,***
***Dil-dil ötər bülbülümüz, gülümüz.***
***Vəzir qızı, sən də, mən də ikimiz,***
***Gedək deyək Xanı xanım, xoş gəldin.***

Bunlar birgə getdilər Xanı xanımı gətirməyə. Vəzirin qızı hələ Nəcəfin özü gəlib çıxmamışdan imkan tapan kimi atasına bir namə yazmışdı. Orada deyirdi ki, siz məni verdiniz Nəcəfə. Gələndən bəri mənə zülüm verir. Xahiş eləyirəm, gəlib məni aparın. Amma Pərizad xanımın bundan xəbəri yox idi. Şahın yasavulları gəldi. Dedilər ki, deməzsən, namə çatıb. Namə elə məqamda çatmışdı ki, Şah Abbas buna inanmırdı. Deyirdi ki, mən Nəcəfdən bunu gözləmirəm. Əgər vəzirin qızına zülüm olunubsa, o, dar ağacından asılmalıdı. Bunlar qayıdıb

gəldilər. Gördülər ki, Nəcəf yoxdu. Məlum oldu ki, Nəcəfi şahın adamları aparıb. Şahın adamlarına isə onun oğlu başçılıq edirdi.

Xanı xanım dedi:

– Mənim pəhləvanlığım mənə nə vaxt lazım olacaqdı.

Yarağını-yasağını geyindi, özünü vurdu meydana görək "Qəhrəmanı" havası üstündə nə dedi:

***Çağırıb Allahı, girrəm meydana,***
***Şah oğluna deyin, meydana gəlsin.***
***Meydanı boyaram zərəfşan qana,***
***Şah oğluna deyin, meydana gəlsin.***

Gördü vəzir qılıncı işə salıbdı.

***Vəzir qılıncını salmasın qına,***
***Yanıb-yanıb, bağrım dönəcək qana.***
***Yüz tülkü neyləyər bir ac aslana,***
***Şah oğluna deyin, meydana gəlsin.***

***Bilməyənlər qoy anlasın, Xanıyam,***
***Bu meydanda dost-düşməni tanıyam.***
***Yəqin bil, Nəcəfin qoç qurbanıyam,***
***Şah oğluna deyin, meydana gəlsin.***

Meydandakı adamlar dedilər:

– Qadın olasan, meydana şahı çağırasan. Bu nə deməkdir?

Üzünü tutdu Nəcəf tərəfə. Olanları, başına gələnlərin hamısını danışdı. Şah sağ olsun, Pərizad xanımın şərəfinə məclis quruldu. Üç gün, üç gecə toy çalınıb Pərizad xanımı Nəcəfə, digər iki qızı da Nəcəfin iki gənc oğlan qohumları var idi, onlara verdilər. Şah Abbas onlar üçün qırx gün, qırx gecə toy məclisi qurdurdu.

Sonda isə bir ustad aşıq məclisi tamamlayıb, "Müxəmməs" havası üstündə görək nə dedi:

*Zər üstündən zər geyinib,*
*Başında darağı gözəl.*
*Ala gözdə siyah sürmə,*
*qaşlarının tağı gözəl.*
*Ağız püstə, dodaq qaymaq,*
*yanağının ağı gözəl.*
*Zənəxdana xal düzülüb,*
*büllurdu buxağı gözəl.*
*Xara köynək, yaxası gül,*
*üstə boyunbağı gözəl.*

*Şeyda bülbül cəh-cəh edir,*
*bağçaların barı təzə.*
*Səd afərin kamil bağban,*
*bəsləyibdi narı təzə.*
*Sinən Səmərqənd kağızı,*
*Sandım, yağıb qarı təzə.*
*Təbiət bəxş eləyibdi,*
*buna gözəl yarı təzə.*
*Naqafil çıxdı qarşıma,*
*alır canım yağı gözəl.*

*Bu gün axşam bazarıdı,*
*çıxıb nə seyran eləyir.*
*Neçəsini qəhrə salıb,*
*gör necə dövran eləyir.*
*Xəstələrin loğmanıdı,*
*dərdinə dərman eləyir.*
*Görənlər də mail olub,*
*canını qurban eləyir.*
*Hərdən gəlib məclisimdə*
*dolandırır saqi gözəl.*

***Cuna altda qısa teli,***
***onun üstdən al yaraşır.***
***Bir əlində tər bənövşə,***
***buxağına gül yaraşır.***
***Nazik belinə kəmər,***
***altdan tirmə şal yaraşır.***
***Bir beləcə şux gözələ,***
***tərif dalbadal yaraşır.***
***Qoynun içi gülşən bağı,***
***gül açıb, yarpağı gözəl.***

***Vəsf eyləyir Aşıq Əsəd[1],***
***Dolanır hər yanı belə.***
***Əndəlib tək leyli-nahar,***
***gəzir gülüstanı belə.***
***Kəpəzdə ovun gözləyir,***
***Alvızın tərlanı belə.***
***Yaşasın belə gözəli,***
***qoy sürsün dövranı belə.***
***Naz-qəmzəsi təbiidir,***
***mehmanı, otağı gözəl.***

***Dastan ustad aşıq Məmməd Bozalqanlı və***
***aşıq Əli Pənahoğlunun dilindən***
***2022-ci ildə yazıya alınıb.***

***1. Müxəmməs Aşıq Əsəd Rzayevə (1874-1950) məxsusdur.***

## ŞAHZADƏ ƏBÜLFƏZ

Ustadlar dastanı başlamazdan əvvəl üç ustadnamə deyərlər, biz də deyək bir olsun, dinləyənlərin ömrü nur olsun:

***Düzlük baş tacıdır, uyma yalana,***
***Hörmətdən düşərsən haqqı deməsən.***
***Gözün gördüyünü danmaq günahdır,***
***Rəğbətdən düşərsən haqqı deməsən.***

***Sərvətə aldanma, vara düz danış,***
***Vursalar sinənə yara, düz danış.***
***Dilindən çəksələr dara, düz danış,***
***Diqqətdən düşərsən haqqı deməsən.***

***Tamaha yol vermə, nəfsinə aman,***
***Bir gün dərya olar damla tək daman.***
***Gəncəli, vüqarlı dayan hər zaman,***
***Qiymətdən düşərsən haqqı deməsən.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, düşmənlərin gözü tökülsün:

***Mərd yaranıb bu dünyaya mərd gələn,***
***Namərd kölgəsində yatmayacaqdır.***
***Unudub ilqarı, əhdi-peymanı,***
***Namusu, qeyrəti atmayacaqdır.***

***Sirrini söyləmə sirr verən yada,***
***Axırda səni də tez verər bada,***
***Mərd igidlər ta ölüncə dünyada,***
***Dostunu dünyada satmayacaqdır.***

***Sərraf olub, ləli dürdən seçirdin,***
***Dost əlindən şərbət alıb içirdin,***
***Ey Ağacan, yaxşı günlər keçirdin,***
***Keçən günə günlər çatmayacaqdır.***

Ustadlar ustadnaməni iki deməzlər üç deyərlər, biz də deyək üç olsun, düşmənlərin ömrü puç olsun.

***Yazıya bax, gözəl gedir çirkinə,***
***Əğyar olan alagözə mil çəkər.***
***Bu ağrıdan ürək yanar, od olar,***
***Naləsini dodaq çəkər, dil çəkər.***

***Dərdimiz bir, sərimiz bir dünyada,***
***Fələk zalım, taleyimiz kür dünyada,***
***Murad almaq bir əcəb sirr dünyada,***
***Çərx hərlənər, neçə-neçə il çəkər.***

***Aşıq Nəsib, bas sinənə sazını,***
***Qadir Allah qara yazdı yazını.***
***Sözünü de, bilməsən də yazını,***
***Qəm karvanın çəksə-çəksə, fil çəkər.***

Sizə hardan xəbər verim, hardan deyim Misirdən. Misir padşahının çox ağıllı, kamallı Şahzadə Əbülfəz adında bir oğlu var idi. Şah oğlunu həddindən artıq çox istəyirdi. Günü-güzəranları yaxşı keçirdi. Bir axşam, Şahzadə Əbülfəz taxtın üstündə yatmışdı, aləmi-röyada gördü ki, bir gülşən bağıdı, bu bağda gəzir. Gəzə-gəzə gəldi baxdı bir çarhovuz var, dedi, elə burdan da bir az su içərəm. Çarhovuza yaxınlaşanda baxdı ki, bir nazənin gözəl var. Bu xanım Əbülfəzi görən kimi ayağa qalxdı. Tez bir cam sudan doldurub verdi Əbülfəzə.

– Əbülfəz, al bu badəni nuş elə.

Əbülfəz, badəni aldı nuş elədi, soruşdu:

– Bəs sən kimsən, bura haradır?

– Mən, Yəmən padşahının qızı, Sərvinaz xanımam. Bura da Yəmən bağı deyərlər. Məni sənə buta veriblər, Əbülfəz.

Əbülfəz yuxudan ayıldı, dəli kimi baxdı ki, nə bağ var, nə qız var. Əbülfəzin günü-gündən rəngi-ruhu saralmağa başladı. Şah baxdı ki, Əbülfəz bir az naxoş görünür. Dedi:

– Oğul, dərdin-azarın mənə gəlsin. Nolub sənə?

– Əziz ata, biləsən ki, mənə Yəmən padşahının qızı Sərvinazı buta veriblər, aləmi-röyada görmüşəm. Onun dərdindən artıq günüm-güzəranım yoxdur. İzin versən, mən Sərvinaz xanımı gətirməyə gedərəm.

Şah əvvəl-əvvəl razı olmadı.

– Oğul, gözümün ağı-qarası bir dənə sənsən. Mən səni uzaq bir ölkəyə göndərə bilmərəm.

Amma Əbülfəzin halı günü-gündən pisləşirdi. Bir gün məsləhət gördülər ki, şah sağolsun, izin ver getsin, belə bu dərd çəkir.

Bəli, şah razılığa gəldi nəhayət ki. Əbülfəz ata-anasıyla vidalaşıb yoluna davam etdi. Üzü Yəmənə sarı getməkdə olsun. Aylarla yol getdi, xeyli getmişdi. Gəlib bir biyabanla rastlaşdı. Gördü ki, bir qəsrdir. Fikirləşdi ki, dönərəm bura, icazə istəyərəm, bir qədər burda dincələrəm. Sonra yoluma davam edərəm. Atdan düşdü. Atı bağlayıb, qapını döydü. O saat qapıçı qapını açdı. Əbülfəz dedi:

– Qardaş, izin verərsinizmi, mən bir qədər burda qalıb dincələm, yol adamıyam. Uzun yol gəlmişəm, yorğunam. Sonra yoluma davam edəcəm.

Baxdı ki, qapıçı elə Əbülfəzin üzünə baxır. Soruşdu ki, niyə mənə elə baxırsan?

– De görüm, sən Şahzadə Əbülfəz deyilsən ki?

Belə deyəndə, Əbülfəz öz-özünə düşündü, görəsən bu, məni hardan tanıyır.

Qapıçı bunu içəri aparıb, dedi:

– Burda əyləş, xanıma muştuluq verim.

Əbülfəz gördü, bu tərəfdən bir nazənin gözəl gəlir. İlahi buna bütün gözəllikləri verib. Xanım yaxınlaşdı, ədəblə salam verdi.

– Əbülfəz, xoş gəlmisən.

Gördü ki, xanım da bunu tanıyır.

Xanım kənizlərə əmr etdi, süfrə bəzəndi. Təam etdilər, süfrəni yığışdırdılar. Həmin bu xanım Əbülfəzə dedi:

– Əbülfəz, niyə soruşmursan ki, mən kiməm və səni hardan tanıyırıq?

– Vallah, mən bu sirrə məəttəl qalmışam. Bayaqdan elə bilirəm ki, bura bir cənnətdir, sən də bir mələksən.

– Yox-yox, Əbülfəz, bura nə cənnətdir, nə də mən mələk deyiləm. Mən Kim padşahın qızı, Rəna xanımam. 15 yaşıma çatanda mənə çox yerdən elçilər gəldi, heç kimə hə demirdim. Atam da ixtiyarı özümə vermişdi. Bir gün aləmi-röyada bir oğlan gördüm. Dedilər ki, bu Misir padşahının oğlu Şahzadə Əbülfəzdi. O gündən Əbülfəzin dərdindən gecəm-gündüzüm olmadı. Atamdan icazə alıb bu karvan yolunun qırağında həmən bu qəsiri yapdım və 3 ildir ki, sənin yolunu gözləyirəm. Hətta atam da fərağından dözmədi, dünyasını dəyişdi. Anam da ondan qabaq dünyasını dəyişmişdi. Camaatımız, elimiz də xahiş etdi ki, mən atamın yerində şah olum, razılıq vermədim. Bu biyabanda səni gözləmişəm. Allahın bu gününə şükür, gəlmisən.

Əbülfəz ağladı, pis oldu. Bu tərəfdən Sərvinaz xanım, burdan da Rəna xanım. Nəhayət, bir xeyli söhbətdən sonra Əbülfəz fikirləşdi ki, gəl, düzünü de:

– Rəna xanım, biləsən ki, mənim bura gəlib çıxmağımda məqsədim Yəmən padşahın qızı Sərvinaz xanımdır. Onun dalıyca gedirəm. Onu mənə yuxuda buta veriblər.

Rəna çox pis oldu. Baxdı ki, bunun sevgilisi var, pis oldu, başladı ağlamağa. Qapıçı da qoşuldu buna, başladı ağlamağa.

Nəhayət, Əbülfəz izin istədi. Başına gələnlərin hamısını Rəna xanıma danışandan sonra dedi:

– İcazənlə, mən getməliyəm. Qismət olsa, əgər sağ qalsam, qayıdıb gələcəm. Yox, əgər başıma bir iş gəlsə, nə etmək olar.

Bəli, Rəna xanım eləcə ağlayırdı, başını qaldırmırdı. Əbülfəz götürüb burda görək Rəna xanıma "Dərvişi" havası üstündə necə təskinlik verir:

***Qismət olsa, mən qayıdıb gələrəm,***
***Ala gözlü Rəna xanım, ağlama.***
***Sil gözünü, bax üzümə, sən Allah,***
***İnsaf eylə, çıxdı canın, ağlama.***

***Şəhri Yəmən xeyli burdan uzaqdır,***
***O səbəbdən ürəyimdə sazaqdır.***
***Sərvinazım yol gözləyir nə vaxtdır,***
***Odur mənim şöhrət-şanım, ağlama.***

***Xəncər alıb qara bağrım teylədin,***
***Əbülfəzi cismi-candan eylədin.***
***Üç il məni biyabanda gözlədin,***
***Damarımda axan qanım, ağlama.***

Bəli, Rəna xanım sakitləşir. Əbülfəz söz verir ki, mütləq salamat qalsam, qayıdacam. Rəna deyir:

– İndi ki, gedirsən, get. Başına çox pis işlər gələcək, çünki mənim uzaqgörənliyim var. Bu barədə elmim, təhsilim, savadım var. Hadisələri görə bilirəm. Sənin başına çox məşəqqətlər gələcək. Səni hara göndərsələr, əvvəl mənim yanıma dəyib sonra gedərsən. Bircə bunu unutma.

Bəli, sağollaşdılar, halal-hümmət etdilər. Əbülfəz yoluna davam elədi. Gəlhagəl, aşıq dili yüyrək olar, yol uzundur, uzun yolları qət edib gəldi çatdı Yəmən şəhərinə. Bir az fikirləşdi ki, şəhərdə gəzim, görək gecələməyə bir yer taparammı? Gəldi gördü bir qəssab dükanıdır, dükanın qarşısına bir xeyli adam toplaşıb. Bir qoca kişidən soruşdu:

– Bu adamlar bura niyə yığışıb?

– Oğul, görürəm qərib adama oxşuyursan.

– Bəli.

– Oğlum, bizim Yəmən padşahının çox gözəl, göyçək bir qızı var. Adı da Sərvinazdır. Ona qonşu dövlətlərin padşahlarının oğlanları, öz ölkəmizdə elçi gəlməyən adam yoxdur və padşahın da bir pəhləvanı var, Əmir pəhləvan. Pəhləvan da qıza elçi düşüb. Sərvinaz da Əmir pəhlivana getmək istəmir. İndi ona görə bizim şahımız o gördüyün dağın dalında

bir tilsimli büllur qala yapıb. Elə bir qaladır ki, başdan ayağa tilsimdir. Elçi düşənlərin hamısını ora göndərir, kim o qalanın tilsimini sındırsa, qalada şüşənin içində qoyduğu qiymətli daşı ona aparsa, qızını ona verəcək.

Bəli, indi oğul, gedənlər gedir, geri qayıdan yoxdur. Bax, buna görə cavanlar yığışıb bura. Qəssab Həmzə kişi də qalanın bəzi sirlərini bilir. Bu cavanlar Həmzədən, o sirləri öyrənmək üçün yığışırlar.

Əbülfəz fikirləşdi ki, yaxşı oldu. Birtəhər dil taparam, Həmzə kişiyə yaxınlaşaram. Elə ki, axşam oldu, hamı dağılışdı. Həmzə baxdı gördü, sakit, fağır bir oğlan durub orda, amma o qədər gözəldi, cüssəli, boylu-buxunlu, dedi:

– Oğul, olmaya qəribsən?

– Bəli.

– Oğul, bu axşam mənim qonağımsan. Elə səni oğulluğa götürəcəm. Övladım da yoxdu.

Əbülfəzi götürüb gəldi evə. Xanımı soruşdu:

– Həmzə, bu kimdi?

– Bu, Allah qonağıdır.

– Qonağa da qurban olum, Allaha da qurban olum.

– Arvad, bu oğlan çox xoşuma gəlir, oğulluğa götürürəm, nə deyirsən?

Arvad razı oldu, sevincək süfrə açdılar, yedilər, içdilər, yatdılar. Sabah açıldı, Həmzə durdu getdi dükana. Əbülfəz axşama qədər gözlədi, Həmzə kişi qayıdanda dedi:

– Mehriban ata, bəs, mənə bir yol göstər, mən də öz cəsarətimi göstərim. O tilsimi sındırmağa mən də getmək istəyirəm. Axı, gün keçir, ay keçir, qərib adamam. Evdən-eşikdən, atadan-anadan ayrılmışam.

Həmzə dedi:

– Oğul, sənə qalanın sirlərini deyəcəm. İndi atları yəhərlə.

Atları yəhərlədilər, üz tutdular həmən dağa. Tilsimli dağın dibinə çatanda atdan düşdülər. Həmzə dedi:

– Oğul, bax, burdan bu dağı aşacaqsan. Dağın o üzünə aşan kimi bir dərya çıxacaq qarşına. Qorxma, ancaq irəli get! Nə sağa baxarsan, nə sola. Dəryanı keçsən əgər, baxacaqsan ki, hər tərəf od tutub yanır. Özünü

vur alovun içinə, ancaq nə sola, nə də sağa baxma, irəli get. Bu dediklərimi edə bilsən, tilsimi sındırarsan. Qalanın qarşısına çatanda iki nəhəng şir çıxacaq qarşına. O şirləri də məhv edə bilsən, demək olar ki, tilsimi sındırmış olursan.

Bəli, Həmzənin xeyir-duasını aldı, bu tərəfdən də fikirləşdi ki, yeri-göyü yaradan var. İnsana, pəhləvana qüvvəti Allah-təala verir. Dedi, gəl, xudanı səslə. Görək burda "Baş divani" havası üstündə nə deyir:

***Dar günümdür, yetiş dada, ya xudam, səndən mədəd,***
***Mən içmişəm eşq camını, yuxuda səndən, mədəd.***
***Ölüm olsa bu səfərdə, Sərvinazdan dönmərəm,***
***Gözüm qalıb cənnət adlı qoxuda, səndən mədəd.***

***Görən varmı mənim kimi, bəxt-taleyi kəm ola,***
***İki gözdən ağlar ola, kirpikləri nəm ola.***
***Neçə cadu, neçə tilsim, neçə əfsun cəm ola,***
***İnanmıram Əbülfəzi qorxuda, səndən mədəd.***

Bəli, xuda köməyinizdə olsun, Əbülfəz Həmzə kişiylə vidalaşıb, Allahdan güc alaraq, dağı o üzə aşası oldu. Dağın o üzünə çıxanda baxdı, Həmzə dediyi kimi, bir dəryadı, elə təlatüm edir ki, gəl görəsən. Vahimədən insan bağrı yarılır. Özünü irəli vurdu, bir xeyli getmişdi, baxdı, nə dərya var, nə də su var. Bir qədər getdi, gördü od tutub aləm yanır. Özünü vurdu odun içinə bu odu da keçdi. Baxdı qalaya, qalaya baxanda adamın gözünə işıq düşür. Qalanın yaxınlığına çatanda iki dənə şir Əbülfəzə hücum etdi. Sehirli qılıncla şirləri məhv elədi, qapını açıb keçdi qalaya. Qalaya keçəndə baxdı gördü bir adam asılıb ayağından. Bir başqası da bu adamın dərisini soyur. O asılan dedi:

– Ey insan, Allah səni yaxşı yetirib. Məni bu namərdin əlindən qurtar.

Amma Həmzə kişi, tapşırmışdı ki, heç kimə baxmazsan. O saat Həmzənin sözü yadına düşdü. O asılan adamı da, dərisini soyan adamı da qılıncla məhv elədi. Bir az irəli getdi, baxdı hər tərəfdən buna kəsilmiş insan qolu-qıçı atılır. Bunları da yığdı odun kimi üst-üstə. Baxdı

taxtın üstündə, dediyi kimi, şüşənin içərisində həmən qiymətli daş. Yaxınlaşdı, daşı götürəndə gördü üç dənə kəsilmiş adam başı atdılar. Bundan da qorxmadı, başları bir tərəfə etdi. Həmən qiymətli daşı götürdü. Qaladan çıxmaq istəyəndə baxdı ki, bu tərəfdən bir gözəl xanım gülə-gülə Əbülfəzə tərəf gəlir. Əbülfəz o saat yenə də Həmzəni yadına saldı. Xanım yaxınlaşdı, dedi:

– Cavan oğlan, səni Allah yetirib bura. Elə mən sənin kimi bir oğlan axtarırdım. Nə gözəl oğlansan.

Əl atdı ki, Əbülfəzin əlindən tutsun, Əbülfəz qılıncı sıyırdı bu qızı da məhv elədi. Həmin vaxt bir gurultu, bir nərilti qopdu ki, yer-yerdən oldu, göy-göydən. Bir az keçmiş gördü ki, sakitlikdir. O saat Əbülfəz fikirləşdi ki, qalanın tilsimini sındırıb. Sevinə-sevinə qiymətli daşı da götürdü gəldi o yerə ki, Həmzə o yerdə gözləyir. Həmzə, Əbülfəzi görəndə ürəyi açıldı, bağrına basdı. Oğul, mən bilirdim ki, bu işin öhtəsindən sən gələ bilərsən. Çox sevindi Həmzə. Gəldilər evə, gecəni yatdılar. Sabah açıldı, Həmzə Əbülfəzə dedi ki, oğul, vaxtdır, məqamdır, getməliyik. Qiymətli daşı da götürüb gəldilər şahın hüzuruna. Həmzə irəli yeridi və təqdim etdi şaha, dedi:

– Şah sağ olsun, bu gördüyün qərib bir oğlandır, Misirdən gəlib. Misir padşahının oğlu Əbülfəzdir. İndi bu da eşidib hamı kimi, qalanın da tilsimini sındırıb.

Ona qədər də saraya xəbər çatmışdı ki, qalanın tilsimini sındırıblar, şahın xəbəri var idi və həmən qiymətli daşı Həmzə kişi təqdim etdi şaha. Şah baxdı ki, öz qoydurduğu daşdı. İrəli yeridi, əlin vurdu Əbülfəzin kürəyinə, üzündən öpdü, dedi:

– Oğul, bu gündən mənim oğlumsan, sənə bir adam güldən ağır söz deyə bilməz. Və qızımı da sənə nişanlayıram.

Əmir Pəhləvan bu sözü eşidəndə çox pis oldu. Şah bütün əyan-əşrəfin yanında elan etdi ki, qızımı Əbülfəzə verirəm. Əmir pəhləvan da çox çalışırdı ki, qızı alsın. Amma pəhləvan olsa da, belə qorxusundan tilsimli qalaya yaxınlaşmırdı.

Əmir pəhləvan özünü yetirdi Qulam adlı cadugar dostuna. Yaxınlaşdı Qulama, dedi:

– Qulam, bir əcnəbi oğlan gələ, burda Sərvinaz xanımı ala. Onda

mənim pəhləvanlığım hara, niyə belə ola bilər ki, sən bir tədbir görməlisən, bu əcnəbini məhv etməliyik.

Qulam razılaşdı, dedi:

– Amma ən yaxşı yol odur ki, Sərvinaz xanımı mən oğurlayıb aparıb tilsimə salaram. Şahzadə Əbülfəz də bir az gözləyəcək, görəcək ki, qız yoxdu, yoxa çıxıb, oğurlanıb. Gedəcək öz ölkəsinə.

Bu söz pəhləvanın beyninə batdı. Axşam düşəndə Qulam Sərvinaz xanımı oğurladı, aparıb şəhərdən bir xeyli aralı meşənin dərinliyində tilsimə saldı. Ceyrana çevirdi. Özü də bir qoca surətində meşədə qalmaqda olsun, eşit şah sarayından.

Şahın sarayına vəlvələ düşdü. Hər kəs bir-birinə xəbər verdi ki, bəs, Sərvinaz xanımı oğurlayıblar. Əbülfəz eşitdi xəbəri, gəldi şahın yanına, dedi:

– Şah sağ olsun, izin versən, mən gedib Sərvinaz xanımı taparam.

Şah sevindi, icazə verib dedi:

– Əgər tapsan, bütün taxtım, tacım, sarayım hamısı sənindir.

Əbülfəzin burda yadına düşdü ki, axı Rəna xanım demişdi səni çox sınaqlar gözləyir. Səni harasa göndərsələr, gəlib məndən məsləhət alarsan.

Nəhayət ki, Əbülfəz gəldi yetişdi biyabanda Rəna xanımın qəsrinə. Rəna gördü, Əbülfəz gəlir. Çox sevindi, yolunu gözləyirdi, dedi:

– Əbülfəz, başına nələr gəldi, söhbət elə görüm.

Əbülfəz başına gələnlərin hamısını danışdı. Qalanın tilsimini sındırdığını dedi, amma dedi ki, indi Sərvinaz xanımı oğurlayıblar. Mən səndən gəldim xeyir-dua alım, gedib onu tapım. Rəna xanım xeyir-dua verdi, bildiklərindən bir qədər öyrətdi və dedi ki, bu kəsə yolu gedərsən, meşənin dərinliyində ceyran surətindədi Sərvinaz xanım, yanında da bir qoca var. Gedərsən qocayla xoşluqla danışıb dil taparsan. Sərvinaz xanımı ala bilsən o başqa, yox, ala bilməsən, qocanı öldürərsən. Onun qanını həmin ceyranın üstünə çəkərsən, öz surətinə qayıdacaq. Ceyran surətində olan Sərvinaz xanımdır.

Əbülfəz, Rəna xanımla halal-hümmət eləyib, sabahısı yola düşdü. Gəlhagəl, Rəna xanım deyən meşəyə çatdı. Gördü, doğrudan da burda bir qoca var. Ceyran da yatıbdı. Amma qocanın sifətində nur yoxdur.

Elə bil ki, bu qocanı çınqıllıqda altdan yuxarı at sürüyüb. Qocaya dedi:

– Səndən əvvəl xoşluqla yarımı istəyirəm.

Sazını çıxardı qocaya burda görək "Təbrizi" havası üstündə nə dedi:

***Qoca, sənə bir ərzim var,***
***İnsaf eylə, ver yarımı.***
***İzin verməm zillət çəkə,***
***İnsaf eylə, ver yarımı.***

Qoca:

***Canım oğlan, gözüm oğlan,***
***Oğlan, yarın burda deyil.***
***Budur sənə sözüm oğlan,***
***Oğlan, yarın burda deyil.***

Əbülfəz:

***Sənsən bir qoca pirani,***
***Sürübsən səfa-dövrani.***
***İncitmə ahu ceyranı,***
***İnsaf eylə, ver yarımı.***

Qoca:

***Mənəm bir qoca pirani,***
***Gəzmişəm cümlə-cahanı.***
***Oyatma yatan ceyranı,***
***Oğlan, yarın burda deyil.***

Əbülfəz:

***Əbülfəzəm, mən şahzada,***
***Əlimdən gedərsən bada.***
***Öldürərəm səni burda,***
***İnsaf eylə, ver yarımı.***

Qoca:

***Qulamam, cana doyaram,***
***Diriykən dərini soyaram.***
***Ananı ağlar qoyaram,***
***Oğlan, yarın burda deyil.***

Əbülfəz baxıb gördü ki, söhbəti uzatmağın yeri deyil, siyirdi qılıncı, qocanı iki böldü. Qocanın qanından, Rəna xanım dediyi kimi, çəkdi ceyranın üzərinə, ceyran surətini dəyişdi. Baxdı gördü Sərvinaz xanımdır. Sərvinaz xanım Əbülfəzi tanıdı, axı buta verəndə badə içirmişdi. Dedi:

– Oğlan, o bağda bir cam verdim. Sən həmin oğlan deyilsənmi?!

– Bəli, mənəm.

Hər iki həsrətlər burda görüşür. Şaha xəbər çatır, muştuluqçular gedir, bəs, əcnəbi oğlan Sərvinazı tapıb gətirir. Bu tərəfdən Əmir pəhləvan da bunu eşitdi. Şad olanlar şad oldu, amma Əmir pəhləvan ürəyində heç şad ola bilmirdi. Başqa bir tor qurmaq niyyətinə düşdü.

Bəli, Əbülfəz gəlib saraya çatdı. Şah, Əbülfəzin boynun qucaqladı, hər ikisinin üzündən öpdü. Vəzirə əmr etdi:

– Vəzir, bu gündən toy tədarükünə başlayarsınız. Mən qızımı Əbülfəzə verirəm.

Hamı sevindi. Əmir pəhləvan, fikirləşdi ki, neyniyim, necə edim, belə qərara gəldi ki, Əbülfəzi öz evinə qonaq çağırsın. Dedi:

– Əbülfəz, qoçaqlığına, igidliyinə bərəkallah. İstəyirəm ki, bu axşam mənim qonağım olasan.

Əbülfəz hiss etmişdi bunun xəyanətini. Öz-özünə dedi ki, getmək lazım deyil. Amma tez də fikrini dəyişdi ki, Əmir elə düşünər ki, qorxudan gəlmədi. Razılıq verdi, onun qonağı oldu, yeyib-içdilər. Ən axırda hərəsinə bir çay gəldi. Sən demə, Əmir pəhləvan Əbülfəzin çayına zəhər qarışdırıbmış. Əbülfəz, çayı içən kimi, rəngi saraldı, haldan düşdü, bihuş olub yıxıldı. Yıxılan kimi Əmir pəhləvan bunu qılıncdan keçirdi. Gecəylə bir ağ sandığa qoyub apardı. Bir xeyli uzaqda biyabana sandığı tulladı. Evə gəlib qan izlərin sildi. Təmizləyib rahat oldu. Əbülfəz burda qalmaqda olsun, sizə Rəna xanımdan deyim.

Rəna xanım yatdı, aləmi-röyada gördü ki, Əbülfəz qan içindədir. İmdad, kömək istəyir. Yuxudan dəli kimi oyanıb bütün kənizləri çağırdı. Atları yəhərləyib düşdülər biyabana, Əbülfəzi axtarmağa. Gethaget, baxdılar ki, uzaqda bir ağ sandıq görsənir. Bir xeyli qarğa, quzğun toplanıb başına. Özlərini yetirdilər bura. Rəna xanım sandığı açdırdı. Baxdı gördü Əbülfəz qanın içində. Əl atdı nəbzini yoxladı, gördü ki, nəbzi vurur sağdı. Sevincindən bilmədi nə etsin, tez əmr elədi, sandığı götürdülər. Rəna xanım gətirdi öz qəsrinə. Loğmanlar yığışdı, təbiblər gəldi, burda bunu sağaltmaqda olsunlar, sizə kimdən xəbər verim, şahdan.

Şah xəbər aldı ki, Əbülfəz gözə dəymir. Dedilər:

– Şah sağ olsun, dünən Əmir pəhləvanla ikisini sarayın qapısından çıxan gördük.

Şah, vəzirə dedi:

– Vəzir, bu nə məsələdir?

– Şah sağ olsun, elə bu işdə günahkar Əmir pəhləvanı görürəm.

Pəhləvanı çağırdılar, şah Əbülfəzi xəbər aldı. Pəhləvan dedi:

– Şah sağ olsun, Əbülfəzi mən o gün gələndə, Sərvinaz xanımı tapıb gətirəndə hamı kimi orda gördüyümdür.

Söhbət o yerə yetişdi ki, şah çox bikef oldu. Sərvinaz xanım ağlamağa başladı. Hamı deyirdi daha Əbülfəz öldü. Əmir pəhləvan elçi göndərir, şaha deyir ki, qızını mənə versin. O əcnəbi oğlan itdi, öldüsündən-qaldısından xəbər yoxdur. Şah yenə vəzirlə, vəkillə məsləhətləşir. Dedilər:

– Ver, canını qurtar. İndi sümükləri çürüyüb Şahzadə Əbülfəzin. Bu da əl çəkmir, ver qızı.

Bəli, şah razılıq verdi. Sərvinazı danışdırdılar, dedi:

– Bu şərtlə razı olaram ki, 40 gün gözləməliyəm. 40 gündən sonra razı olaram.

Bu burada gözləməkdə olsun. Rəna xanım da orda Əbülfəzi sağaltdı. Bir gecə Əbülfəz aləmi-röyada gördü ki, Sərvinaz deyir ki, zalım oğlu zalım, əgər sağsansa, özünü mənə yetir. Məni bu namərdə verirlər.

Yuxudan dəli kimi oyandı. Rəna xanım baxdı ki, Əbülfəz birtəhərdir, dedi:

– Nolub sənə, Əbülfəz?

– Rəna xanım, bəs Sərvinaz dardadır. Gecə yuxuma gəlib, bəs, mən özümü yetirməliyəm ora.

Rəna xanım dedi:

– Əbülfəz, bilirəm gedirsən, səni saxlamaq olmayacaq. Amma sənə bir məsləhətim var. Öz libasında gedə bilməzsən. Xəbər verərlər, Əmir pəhləvan eşidər ki, sən sağsan, sənə bir də tor qurub öldürərlər. İndi sənə aşıq geyimi verəcəm, onu geyinərsən. Aşıq qiyafəsində gedib şahın sarayına yaxınlaşarsan. Ondan sonra vəziyyət necə olar, daha orasını sən biləcəksən.

Əbülfəz gördü, gözəl məsləhətdi. Rəna xanım buna bir aşıq geyimi verib yola saldı. Əbülfəz gəlməkdə olsun, gəlib gördü şəhərdə, bazarda heç kim yoxdu. Xəbər aldı birindən, dedilər ki, bəs bu gün bizim şahımızın qızı Sərvinaz xanımın toyudur. Əmir pəhləvana verirlər. Ona görə bazar-dükan bağlıdır, hamı toydadır.

Əbülfəz özünü yetirdi şahın sarayına, qapıdan girəndə baxdılar bir aşıq gəlir. Apardılar şahın hüzuruna.

– Şah sağ olsun, bir aşıq gəlib.

Şah baxdı bir cavan oğlandı gözəl-göyçək yaraşıqlı, dedi:

– Oğlum, oxuya bilirsənmi?

– Bəli.

– Elə yaxşı oldu gəlişin. Bir-iki hava oxu, feyziyab olaq.

Vəzirə dedi:

– Vəzir, bu oğlanın gözü Şahzadə Əbülfəzin gözünə oxşayır.

– Şah sağ olsun, Əbülfəzin sümükləri çoxdan çürüyüb, olmaz bu.

– Vallah oxşadıram, nə deyim.

Nəhayət, Əbülfəz sazını çıxarıb, görək özünü "Qəhramanı" havası üstündə necə təqdim elədi:

***Gecə-gündüz işim ah-zarda qaldı,***
***Ədalətli şahım, ədalət eylə.***
***Uşaq idim, düşdüm dərdi-möhnətə,***
***Ədalətli şahım, ədalət eylə.***

***Gecə-gündüz işim ahu-fəğandı,***
***Ciyərimin başı qırmızı qandı.***
***Bu cavan canıma rəhm et, amandı,***
***Ədalətli şahım, ədalət eylə.***

***Bu sitəmkar məni saldı tufana,***
***Rəhm etmədi mənim kimi cavana,***
***Qılınc çəkib boyandırdı al qana,***
***Ədalətli şahım, ədalət eylə.***

***Sərvinazım fərağımda ağladı,***
***Rəna xanım ürəyimi dağladı,***
***Biinsaf pəhləvan məni doğradı,***
***Ədalətli şahım, ədalət eylə.***

Sözünü tamamladı, baxdı gördü şah doğrudan da bunu tanıyır. Amma Əmir pəhləvan yerində o yana-bu yana boylanıb, özünü nasaz hiss edir. Vəzir dedi:

– Otur yerində, namərd oğlu namərd.

Əbülfəz baxdı gördü ki, Sərvinaz xanım siyah pərdənin arxasından baxır. Kənizləri anasına deyir:

– Ana, vallah bu Əbülfəzdi.

– A qızım, sənə elə gəlir. Əbülfəzi unut.

Burda görək Əbülfəz özünü "İbrahimi" havası üstündə necə tanıdır.

***Aman, şahım, canım şahım,***
***Yarım əğyara dil verib.***
***Məgər ölüb şeyda bülbül,***
***Qönçə gül xara dil verib.***

***Ərz eləyim sultanıma,***
***Qəfildən gəldi yanıma.***
***Bulaşdırdı al qanıma,***
***Gəlib dildara dil verib.***

***Yuxusunda məni sevdi,***
***Durub əhvalımı duydu,***
***Rəna xanım qanım yudu,***
***Yar özgə yara dil verib.***

***Sürməmişəm zövqü-səfa,***
***Yolunda çox çəkdim cəfa,***
***Sərvinaz olub bivəfa,***
***Bir sitəmkara dil verib.***

Sözünü tamamladı, başından aşıq papağını çıxardı. Hamı gördü bu Əbülfəzdir. Saray qarışdı bir-birinə. Şah durdu Əbülfəzin boynun qucaqladı. Hamı şahzadənin sağ olmağına sevindi. Əbülfəz burda sazı sinəsinə basıb, görək "Orta sarıtel" üstündə nə dedi:

***Bir ərzim var şahım, sənə,***
***İzin ver, mənə söyləyim.***
***Bu zalım zülm edib mənə,***
***Qoy məni, gedim öldürüm.***

***Yalvarıram zarı-zarı,***
***Ayırmışdı nazlı yarı.***
***Rəhm etginən, səni Tanrı,***
***İzin ver, gedim öldürüm.***

***Uşaqlıqda keçdim candan,***
***Yara dəyib mənə candan.***
***Budu iltimasım səndən,***
***İzin ver, gedim öldürüm.***

***Qoy durum gedim yanına,***
***Vəlvələ salım canına.***
***Bulaşdırım al qanına,***
***İzin ver, gedim öldürüm.***

Elə Əmir pəhləvan qalxdı ki, aradan çıxsın, şah bunu gördü, əmr etdi cəlladlara:

– Atın onu zindana. Ən ağır cəza nədirsə, onu verərsiz.

Sonra üzünü Əbülfəzə tutub dedi, səni daha heç bir yana buraxası deyiləm.

Əbülfəz dedi:

– Heç insafdan deyil mən burda şən həyat yaşayım, Rəna xanım orda gözüyaşlı qalsın.

Şah dedi:

-– Oğul, nolub?

– Şah sağolsun, mən nə müddətdir vətəndən ayrılmışam, bu tərəfdən də Rəna xanım gözləyir. İzin versən, getməliyəm.

Şah dedi:

– Vəziri göndərərəm, gedib gətirər.

Şahzadə Əbülfəz dedi:

– Rəna xanım çox ağıllı qızdı. İzin versən, Sərvinazı ora apararam. Ana-atamın da gözü yoldadı.

Nəhayət ki, şahdan xeyir-dua aldı. Atlara mindilər, şah bunları təmtəraqla yola saldı.

Dağlardan, dərələrdən keçib gəldilər Rəna xanımın sarayına. Rəna xanım küləfringidən baxırdı, onları görüb pişvazına çıxdı. Bir qədər dincəldikdən sonra Əbülfəzə yaxınlaşıb dedi:

– Mən sənə icazə vermişdim. Niyə onu da mənim kimi bədbəxt elədin.

Şahzadə Əbülfəz baxdı ki, Rəna xanımın rəngi-ruhu qaçıb, dedi:

– Niyə elə danışırsan, səni burda belə pərişan qoyub getmək mənim üçün çox çətindir.

Rəna xanım dedi:

– Eşqimi sənə bəyan eləyirəm. Mənimki bura qədər imiş.

Rəna xanım öz halında deyildi. Əlləri əsirdi. Rəngi zəfəran kimi saralmışdı. Zəhər onun bədənini param-parça edirdi. Şahzadə Əbülfəzi yanına çağırdı. Dedi:

– Hazırladığım zəhər şərbətini içmişəm. Eşq yolunda canımı fəda etdim.

"Nəcəfi" havası üstündə dedi:

***Misir şahzadəsi, qulaq ver mənə,***
***Halal eylə, dəxi mən gedər oldum!***
***Neçə vəsiyyətim var sənə indi,***
***Halal eylə, dəxi mən gedər oldum!***

***Maral kimi oxlanmışam dizimdən,***
***Doymamışam yarın şirin sözündən,***
***Ahu baxışından, xumar gözündən,***
***Halal eylə, dəxi mən gedər oldum!***

***Anam yoxdu, sinəsini dağlasın,***
***Atam yoxdu, fərağımda ağlasın,***
***Qoy kənizlər gözlərimi bağlasın,***
***Halal eylə, dəxi mən gedər oldum!***

Şahzadə Rəna xanımı bağrına basıb ağlaya-ağlaya dedi:

– Zindəganım, bu nə işdi tutursan. Özünə rəhmin gəlmirdi, bəs mənə niyə rəhmin gəlmədi. Səndən sonra mənim halım necə olacaq.

Rəna xanım dedi:

– Əzizim, bir könülə iki məhəbbət sığmaz. Sənin xoşbəxtliyin üçün bunu etdim:

***Məhəbbət rişəsin sökə bilmədim,***
***Daha göz yollara dikə bilmədim,***
***Eşqin odunu mən çəkə bilmədim,***
***Halal eylə, dəxi mən gedər oldum!***

***Məhəbbətin artdı saatbasaat,***
***Eşqindən bir ləhzə olmadım rahat,***
***Yar yanımda, can verirəm farağat,***
***Halal eylə, dəxi mən gedər oldum!***

Rəna xanım bir yanıqlı ah çəkdi. "Əlvida, sevgilim, əlvida" – deyib, gözlərini yumdu. Şahzadə Əbülfəzlə Sərvinaz xanım fəğan elədilər. Gözüyaşlı Əbülfəz dedi:

***Qurbanı olduğum gül üzlü yarım,***
***Dayan, gözəl yarım, mən də gəlirəm.***
***Üzüldü taqətim, getdi qərarım,***
***Dayan, gözəl yarım, mən də gəlirəm.***

***Uşaqlıqda seyr eylədim cahanı,***
***Eşq odundan çəkdim ahı, fəğanı,***
***Səndən sonra istəmirəm dünyanı,***
***Dayan, gözəl yarım, mən də gəlirəm.***

***Tərki-vətən olub gəldim bu dəştə,***
***Otağın oxşayır bağı-behiştə.***
***Mələk deyim sənə, ya da fəriştə,***
***Dayan, gözəl yarım, mən də gəlirəm.***

***Sənə qurban olum, ay qaşı kaman,***
***Aç şəhla gözünü, ölürəm aman.***
***Lazım deyil mənə səndən ayrı can,***
***Dayan gözəl yarım, mən də gəlirəm.***

Sərvinaz ağlaya-ağlaya şahzadənin yanına gəlib ona təsəlli verməyə çalışdı. Əbülfəz sazı sinəsinə basıb gözyaşı tökə-tökə Sərvinaza görək "Hüseyni" havası üstündə nə dedi:

***Uşaqlıqdan valeh, heyran olduğum,***
***Xudahafiz, daha mən də gedirəm.***
***Ağlar gözlərinə qurban olduğum,***
***Xudahafiz, daha mən də gedirəm.***

***Oxuyub dərsimi, yetdim tamama,***
***Qara xəbərimi göndər anama,***
***Cavan öldüm, yetişmədim mən kama,***
***Xudahafiz, daha mən də gedirəm.***

***Sağalmadı bu qəlbimin yarası,***
***Tapılmadı bu dərdimin davası,***
***Anama yazginən, saxlasın yası,***
***Xudahafiz, daha mən də gedirəm.***

***Yazginən, üstümdə qəbir tiksinlər,***
***Gəlib məzarıma güllər əksinlər,***
***Bəylik otağıma qara çəksinlər,***
***Xudahafiz, daha mən də gedirəm.***

***Məndən sonra bu dünyadan doysunlar,***
***Şahanə rəxtimi durub soysunlar,***
***Rəna ilə bir məzara qoysunlar,***
***Xudahafiz, daha mən də gedirəm.***

Səsə ətraf, yaxın adamlar gəldilər. Təbiblər, loğmanlar çağırıldı. Əbülfəzi, Sərvinaz xanımı sakitləşdirdilər. Yavaş-yavaş Rəna xanım özünə gəldi. Bir müddət nasaz qaldı, amma yavaş-yavaş sağaltdılar. Gün o gün oldu ki, Rəna xanım artıq yaxşıladı. Əbülfəz dedi:

– Rəna xanım, daha biz getməliyik. Çünki mənim atam-anam yolumu gözləyir. Neçə müddətdir onlardan aralıyam.

Əbülfəz, Rəna xanımı da, Sərvinaz xanımı da götürüb, hər üçü yola rəvan oldular. Gəlib çatdılar Misir torpağına. Bunları görüb tanıyanlar sevindilər, hamısı şaha muştuluğa qaçdı. Şah oğlunu qarşıladı, anası-atası çox sevindi. Əbülfəz Rəna xanımı, Sərvinaz xanımı ata-anası, yaxınları ilə tanış elədi. Məclis quruldu, axırda aşıq "Müxəmməs" havası üstündə öz xeyir-duasını verdi:

*Yığılın toya gəlin,*
*qohum-qardaşı bu bəyin.*
*Cümləniz edin dua,*
*xoş keçsin günü bu bəyin.*
*Üstünə kölgə salsın*
*ol huma quşu bu bəyin.*
*Sürübən zövqü-səfa,*
*yüz olsun yaşı bu bəyin.*
*Həmişə bahar olsun,*
*payızı, qışı bu bəyin.*

*Nə əcaba səf tutuban,*
*oturubdu cehilləri.*
*Heç biri etməz səsi,*
*xamuş oluban dilləri.*
*Bəy yanının yaraşığı,*
*toyların qızılgülləri.*
*Hər birinin bu dünyada*
*kasad olmasın əlləri.*
*Nə ki var bu məclisdə,*
*həm tayı-tuşu bu bəyin.*

*Nə qəşəng yigitdilər*
*yanında duran yançılar.*
*Dolanıb atın üstünə,*
*təkli, cütlü qulluqçular.*
*Məclisi yola salır,*
*hərrənir böyük-kiçiklər.*
*İnşallah, günbəgündən*
*talehi, baxtı açılar.*
*Götürər mərtəbəsin*
*yaradan kişi bu bəyin.*

***Başında çərkəzi papaq,***
***qara çuxa əynindədi.***
***Arxalığı, köynəyi,***
***tər kəlağay boynundadı.***
***Çit qurşaq, bədis tuman***
***hər birinin əynindədi.***
***Ağ dolaq, xəmsə corab,***
***sağrı başmaq ciyindədi.***
***Həmişə aydın olsun***
***qabağı, qaşı bu bəyin.***

***Libasın hər birisi***
***yaraşır qaşına-boyuna.***
***Yığılıb dost-aşnası,***
***gəlibən bunun toyuna.***
***Kimisi əl çalıban,***
***kimisi girər oyuna,***
***İki-üç gün şənlik edin,***
***sonra yollanın evinə.***
***Görməsin fitnə-fəsad***
***heç əslah başı bu bəyin.***

***Ay Xuda, bu bəy üçün***
***səndən istərəm bir dilək:***
***Yazmasın günahını***
***sol çiynində duran mələk.***
***Nə ki var, mətləbində,***
***yetirginən çərxi-fələk.***
***Yarınan qoşa qarıt,***
***uzun əlin etmə gödək.***
***Bol olsun ruzisi,***
***əppəyi, aşı bu bəyin.***

***Bu bəyin Hatəm cürə***
***adı yayılsın aləmə.***
***Yığılıb dost-aşnası,***
***üç gündə gəlsin salama.***
***Yançının hər birisi***
***oxşayır Zala, Rüstəmə.***
***Vəsfini etməz tamam***
***xidmətkarı Molla Cuma[1] .***
***Nə şəfqət edir görək,***
***sağdış-soldaşı bu bəyin.***

***Dastan aşıqalrdan Gəncəli Babayev***
***və Ədalət Alməmmədovun***
***dilindən 2023-cü ildə yazıya alınıb.***

***1. Müxəmməs Molla Cumaya (1854-1920) məxsusdur.***

## SƏYYAD VƏ SƏADƏT

Ustadlar dastanı başlamazdan əvvəl bir ustadnamə deyərlər, biz də deyək bir olsun, dinləyənlərin ömrü nur olsun:

***Könül, sənə vəsfi-halım söyləyim,***
***Ya rəb, bu dünyada necolur könlüm?***
***Hərdən dərviş olur, hərdən dilənir,***
***Hərdən bəzirgandan bac alır könlüm.***

***Hərdən dəryalarda qarğı, qamışdı,***
***Hərdən bostanlarda dürlü yemişdi,***
***Hərdən əşrəfidi, hərdən gümüşdü,***
***Hərdən də pas tutub, tunc olur könlüm.***

***Əmrah sözlərini deyər, arınmaz,***
***Ərəb at yorular, könül yorulmaz.***
***Könül bir şişədi, sınsa, sarınmaz,***
***Sarınsa sağalmaz, kəc olur könlüm.***

Ustadlar ustadnaməni bir deməzlər, iki deyərlər, biz də deyək iki olsun, düşmənlərin gözü tökülsün:

***Eşqin şərabından bir qətrə içən,***
***Əlbəttə, od tutub yanar ariflər!***
***Gizlin sirri hər cahidə car açan,***
***Düşər etibardan, kənar ariflər!***

***Əvvəl ustadımdan dərsini alan,***
***Dünyanın varmı, yoxunu bilən,***
***Sərində bir zərrə kamalı olan,***
***Dediyindən necə dönər, ariflər?!***

***Məhəmməd də bilməz ömür yaşını,***
***Canıma salmısan eşq ataşını,***
***Heç kəs qanmaz bu dünyanın işini,***
***Biri köçər, biri qonar, ariflər!***

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, düşmənlərin ömrü puç olsun:

***Bir elə kişinin tut ətəyindən,***
***Aləmə imdadı ol eylər-eylər.***
***Zərrəcə üstündə olsa nəzəri,***
***Yerdən daş götürsən, ləl eylər-eylər.***

***Böhtan demə, böhtan tutar adamı,***
***Qul eylər, bazarda satar adamı.***
***Cəhənnəm odundan betər adamı***
***Axırda yandırıb kül eylər-eylər.***

***Aqil insan deməz hər gördüyünü,***
***Daldalar düşməndən vay dərdiyini,***
***Görməzsən namərdin pay verdiyini,***
***Versə də, minnətin bol eylər-eylər.***

***Xəstə Qasım deyər sözün bu başdan,***
***Pay umma qohumdan, yaddan, qardaşdan.***
***Özün zəhmət çəksən, su çıxar daşdan,***
***Əridib dağları, yol eylər-eylər.***

Sizə hardan xəbər verim, kimnən deyim, Herat şəhərindən. Herat şəhərində Hidayət xocadan. Hidayət xocanın varı-dövləti aşıb-daşırdı. Ancaq övladı yox idi. Bir gün Hidayət xocanın xanımı Nərgizbanı bağda gəzib, təbiəti seyr eləyirdi. Bir az da fikir eləyirdi: İlahi, bizə də bir övlad nəsib elə. Bu vaxt bir dərviş peyda oldu. Nərgizbanı dedi ki, dərviş qardaş, əylən görüm. Gedim gətirib sənin payını verim.

Dərviş dedi:

– Ay bacı, mən pay alan dərvişlərdən deyiləm, pay verən dərvişlərdənəm. Al bu almanı, ömür-gün yoldaşınla nuş elə. Ay keçər, vaxt dolanar, sizin də bir övladınız olar.

Nərgizbanı almanı götürüb sevinə-sevinə gəldi evə. Olanları danışdı, almanı nuş elədilər. Ay keçdi, vaxt dolandı, Ay parçası kimi bir oğlan uşağı dünyaya göz açdı. Uşağın adını Səyyad qoydular. Səyyad on yaşına çatmışdı ki, atası onun təlim-tərbiyəsini anasına tapşırıb, on beş illik ticarətə çıxdı. Bir neçə müddət sonra anası onu mollanın yanına elm öyrənməyə qoydu. Mollanın yanında iki-üç il qaldı. Molla baxdı ki, Səyyad qeyri-adi bir istedad sahibidi. Gələcəkdə buna rəqib kəsilə bilər deyə, yanından qovdu. Səyyad gəldi evə.

Ay keçdi, vaxt dolandı, Səyyad on beş-on altı yaşına çatmışdı ki, birdən fikirə daldı. Olub-keçənləri yadına saldı. Fikirlər içində olarkən bir dərviş peyda olub dedi:

– Ay oğul, al bu badəni nuş elə.

Səyyad dedi:

– Babam dərviş, bu badə bizə yasaqdı.

Dərviş dedi:

Bu badə o badələrdən deyil. Bu badə Leylini Məcnuna, Fərhadı Şirinə aşiq edən badələrdəndi. Al, götür nuş elə.

Səyyad badəni nuş eləyib, dedi:

– Babam dərviş, sinəm yanır. Mənə bir imdad elə.

Dərviş dedi:

– Gözünü yum.

Səyyad gözünü yumdu.

– Nə görürsən?

– Uzaq-uzaq yollar görürəm.

– Başqa nə görürsən?

– Bir şəhər var, bir imarətgah var. İmarətgahın eyvanında bir dünya gözəli var.

Dərviş dedi:

– Gördüyün şəhər Şirvan şəhəri, gördüyün qız da Fərrux Mirzənin qızı Səadət xanımdı. Səni ona, onu da sənə buta verirəm. İndi isə

gözlərini yum.

Səyyad gözlərini yumub açanda dərviş yoxa çıxdı. Huşu başınnan gedib, üzü üstə yıxıldı yerə. Anası gəlib gördü ki, Səyyad nə haldadı. Səslədi qonşuları, təbibləri, loğmanları, hamı yığıldı. Biri dedi dəli olub, biri dedi xəstəliyə tutulub. Bir başbilən qarı var idi, dedi:

– O, eşq yuxusuna gedib. Üç gün tamam olmaz ki, ayılacaq. Üç gün tamam oldu. Səyyad ayıldı.

Anası dedi:

– Ay oğul, de görüm, nə dərdə düşmüsən, dərdin nədi?

– Səyyad dedi:

– Ay ana, mən dərdimi dilimlə desəm, dilim yanar. Mənə bir saz gətirin, dərdimi sazla deyəcəm.

Sazı gətirdilər. Səyyad sazı basıb sinəsinə, "Naxçıvani" havası üstündə anasına dərdini görək necə dedi:

***Yatmış idim xabi-qəflət içində,***
***Bəlalı başıma sevda göründü.***
***Ərənlər sərvəri bir nəzər saldı,***
***Saqinin dəstində badə göründü.***

***Əbcəd hesabilə gətirdi, ana,***
***İsgəndər aslandı, götürdü, ana.***
***Şəhadət barmağı yetirdi, ana,***
***Gözümə bir mələkzadə göründü.***

***Biqafil guşuma gəldi bir səda,***
***Ağamın dəstilə mən içdim bada,***
***Leylini Məcnuna, Şirin Fərhada,***
***Səadət Səyyada buta göründü.***

Söz tamama yetdi Səyyad sazla dediyini sözlə də dedi. Şirvan şəhərində Fərrux Mirzənin qızı Səadət xanımı mənə buta verdilər. Mən öz butamın dalınca gedəcəm. Nə qədər elədilərsə də, Səyyad yola gəlmədi. Anası ah-nalə qopardı, qanlı yaş tökdü. Səyyad anasını belə

görəndə ürəyi dözmədi, götürdü görək bir "Göyçəgülü" havası üstündə nə dedi. Biz deyək, siz də qulaq asın:

***Başına döndüyüm, gülüzlü ana,***
***Ağlama, sızlama, məni qoy gedim.***
***Ağlaram, gözümdən tökərəm qan-yaş,***
***Ağlama, sızlama, məni qoy gedim.***

Söz tamama yetdi, Səyyad sazını da götürüb yola rəvan oldu. Çox gəldi, az gəldi, gəlib bir dağın döşünə çatdı. Qar, çovğun necə başladısa, Səyyad fikirləşdi ki, elə mənimki bura qədər imiş. Ona görə də deyiblər ki, heç vaxt böyüyün sözündən çıxma. Bir qədər fikirə daldı. Baxdı bir çobanın səsi gəlir. Yaxınlaşdı çobana. Çoban gördü ki, ona yaxınlaşan aşıqdı, yaman qara, çovğuna düşüb. Çoban dedi:

– Ay aşıq qardaş, sən nə gəzirsən burda? Hardan gəlib, hara gedirsən?

Səyyad dedi:

– Ay çoban qardaş, qulaq as, dərdimi saznan deyim.

Götürüb görək burda "Hüseyni" havası üstündə dərdini çobana necə deyir:

***Başına döndüyüm, ay çoban qardaş,***
***Bir sona salıbdı çöllərə məni.***
***Ağlaram, gözümdən tökərəm qan-yaş,***
***Bir sona salıbdı çöllərə məni.***

***Şirindi söhbəti, şirindi sözü,***
***Xoş idi kəlməsi, baldı avazı.***
***Adı Səadət, Fərrux Mirzənin qızı,***
***O sona salıbdı çöllərə məni.***

***Ay qabaq altında siyah tel düzən,***
***Qaş oynadıb, ala gözünü süzən,***
***Səadətlə Səyyadı bir-birinə yazan,***
***Bir sona salıbdı çöllərə məni.***

Söz tamama yetdi. Çoban bildi ki, aşıq Fərrux Mirzənin qızının sevgilisidi, ona yol göstərdi. Aşıq beləcə ayrılıb yoluna davam etməkdə olsun, sizə xəbər verim Səadət xanımdan. Səadət xanım yatıb yuxusunda görmüşdü ki, Səyyad gəlir. Bir dəstə qızı yanına yığıb bağda gəzir, təbiəti seyr eləyirdi. Səyyad gəlib yetişdi bağa. Baxdı ki, bağ nə bağ, bağ deyirəm sənə. Bir dəstə də qız, təbi cuşa gəldi. İstədi sazını çıxarıb oxusun. Bağban yetişdi:

– Aşıq, sən nə gəzirsən burda?

Səyyad dedi:

– Bağban əmi, niyə qəzəblənirsən?

Bağban dedi:

– De görüm, hardan gəlib, hara gedirsən? Nə işin var burda?

Səyyad baxdı ki, bağban yaman əsəbləşib, dedi:

– Ay bağban əmi, qulaq as, dərdimi sazla deyim.

Götürüb görək burda "Təbriz gəraylısı" havası üstündə Səyyad dərdini bağbana nə təhər deyir:

***Qəzəb edib, salma qəmə,***
***Bu firqətlə o dəm məni.***
***Bir alovlu odam özüm,***
***Nə atırsan oda məni.***

***Qəm əlindən gəldim dada,***
***Dərdim dərdlərdən ziyada,***
***Ağam verib özü bada,***
***Mən tutmuşam o daməni.***

***Axtarıb yolun düzünü,***
***Girmanda Fərrux qızını,***
***Səyyadam, Səadət özünü,***
***Mən sevmişəm, o da məni.***

Söz tamama yetdi. Bütün qızlar yığışıb gəldi aşığın yanına. Dedilər, aşıq, nə gözəl çalıb-çağırırsan, bizə də bir tərif oxu. Bəs nə üçün

gəldiyindən oxu.

Görək Səyyad bir "Kərəm gözəlləməsi" havası üstündə mətləbini necə çatdırır:

***Başına döndüyüm, ay gözəl qızlar,***
***Adı Səadət – o gözəli sevmişəm.***
***Nazlı yarı gördüm bağça içində,***
***Adı Səadət – o gözəli sevmişəm.***

***Geymək üçün yaşılı var, alı var,***
***Sevmək üçün ləblərinin balı var,***
***Yanağında bir cüt qoşa xalı var,***
***Adı Səadət – o gözəli sevmişəm.***

***Seyrağıblar məclisindən qaçılar,***
***Şux artanda ağlı başdan şaşılar,***
***Səyyad deyər: yazdı, güllər açılar,***
***Adı Səadət – o gözəli sevmişəm.***

Söz tamam oldu, Səadət bildi ki, yuxusunda gördüyü aşıq elə bu aşıqdı. Qızlar hamısı da yığışıb bir daha gəldilər Səyyadın yanına. Dedilər:

– Aşıq, Səadətin tərifini oxudun, bəs bizim tərifimiz hanı, bizə nə oxuyursan?

Götürdü görək Səyyad burda bir "Gilənar" havası üstündə qızları necə tərif elədi:

***Yığılıb bir bölük sonalar kimi,***
***Geyinib gəliblər tər-təzə qızlar,***
***Kimi al geyinib, kimi qırmızı,***
***Kimisi bənzəyir tovuza qızlar.***

***Cilvəli tərlanım, gir donnan dona,***
***Qoymaram üstünə bir qubar qona.***

***Kimisi yaşılbaş, kimisi sona,***
***Kimisi bənzəyir ağ qaza, qızlar.***

***Mövlanın əlindən içmişəm bada,***
***Çağıraram, gəlib yetişər dada,***
***Səyyad ilə Səadət yetsin murada,***
***Sizinki də qalsın bu yaza, qızlar.***

Söz tamama yetdi, qızların içində Səlmi adında bir qız var idi. Çox şeytanxislət qız idi. Xasiyyətinə görə ona çuğul deyərdilər. Gəldi durdu Səyyadın qabağında. Dedi:

– Aşıq, söylə görüm, mən gözələm, ya Səadət gözəldi?

Aşıq dedi:

– Olarmı ki, saznan söyləyim?

Götürüb görək burda bir "Koroğlu dübeytisi" havası üstündə Səyyad Səlmiyə nə dedi:

***Gözəllərdən sən əlasan,***
***Səlmi, sən də, Səlmi, sən də.***
***Mənim başıma bəlasan,***
***Səlmi, sən də, Səlmi, sən də.***

***Teli əlvan xınalısan,***
***Guşu qızıl tanalısan,***
***Qoynu turunc məməlisən,***
***Səlmi, sən də, Səlmi, sən də.***

***Səlmi, boyun ər-ərdimi?***
***Sinən şəmsü-qəmərdimi?***
***Mənim artırma dərdimi,***
***Səlmi, sən də, Səlmi, sən də.***

***Şah buyurmaz belə fərman,***
***Olmazmı dərdinə dərman?***

***Səyyadam, Səadətə qurban,***
***Səlmi, sən də, Səlmi, sən də.***

Bəli, bu söz Səlminin çox acığına gəldi, tez özünü yetirdi Fərrux Mirzəyə. Bildirdi ki, qızın Səadət yad bir aşıqnan bağda gülşən seyrindədi. Fərrux Mirzə tez əmr elədi, Səyyadı gətirdilər onun hüzuruna. Birbaş İsfahana sürgünə göndərdi. Səyyad yetişdi şahın hüzüruna. Şah Abbas gördü ki, bu cavan aşıq əli-qolu bağlıdı. Soruşdu:

– Ay cavan, nədi dərdin? Səni niyə əlin-qolun bağlı formada göndəriblər?

Görək burda Səyyad öz dərdini "Misri" havası üstündə necə deyir şaha. Biz deyək eşidənlər şad olsun:

***Başına döndüyüm ədalət şahı,***
***Şahım, mətləbimi biləsən gərək.***
***Sahibim, sərtacım, qibləgahım,***
***Şahım, mətləbimi biləsən gərək.***

***İncimədim sehrəkarın dilindən,***
***Baş açmadım fitnəsindən, felindən,***
***İndi gəldim o Şirvanın elindən,***
***Şahım, mətləbimi biləsən gərək.***

***Səyyadın şirindi sözü-söhbəti,***
***Xoşdu kəlmələri, baldı avazı.***
***Səadət – Fərrux Mirzənin qızı,***
***Şahım, mətləbimi biləsən gərək.***

Söz tamama yetdi, Şah Abbas Səyyadı xeyli imtahan, sorğu-sual elədi. Baxdı ki, həqiqətən də bu, Haqq aşığıdı. Bunun haqqını tapdalamaq olmaz. Bir namə yazıb göndərdi ki, bunu verərsən Fərrux Mirzəyə. Səyyad naməni götürüb gəldi. Naməni verdi Fərrux Mirzəyə.

Fərrux Mirzə oxudu ki, həqiqətən də Şah Abbas da Səyyadın Haqq aşığı olduğunu bilibdir. Bunların qovuşmasına vəsilə olmağını bildirib-

dir. Bəli, belə olduğu halda fikirləşdilər ki, bir Səadətin də niyyətini bilək, görək Səadət istəyirmi, istəmirmi? Qasid göndərdilər. Qasid gəlib Səadətdən soruşanda, götürüb görək burda bir "Cəlili" havası üstündə ərzini necə bildirir:

***Başına döndüyüm yarın qasidi,***
***Söylə, atam versin Səyyada məni.***
***Ağlaram, gözümdən tökərəm qan-yaş,***
***Götürüb versələr bir yada məni.***

***Xudam mənim özü verib butamı,***
***Bu yaşanan bir yazımı, xətamı?***
***Olanlardan halı edin atamı,***
***Salmasın qovğaya, bil, dada məni.***

***Səadətəm, çox acılar yaşaram,***
***Dərya kimi çalxanaram, daşaram,***
***Dağlar keçib, çox ölkələr aşaram,***
***İstərəm öz butam oyada məni.***

Söz tamama yetdi, Gördülər ki, doğrudan da Səadət öz sevgisi yolunda bütün çətinliklərə sinə gərən bir gözəldi. Ona bu yolda kömək durmaq, xeyir-dua vermək lazımdı. Beləcə, bu çal-çağırdan sonra ağsaqqallar yığışdı, toy məclisi quruldu, Səadəti Səyyada verdilər. Üç gün, üç gecə toy oldu. Bir ustad aşıq gəlib axırda bəylə-gəlinə öz xeyir-duasını verdi:

***Həzərat, bircə baxın,***
***görün necə yar oynuyur.***
***Naz edir, süzür gedir,***
***sevdiyim aşikar oynuyur.***
***Tazə can, qəmzəsi qan,***
***ağ sinəsi qar oynuyur.***
***Al yanaq, büllur buxaq,***

*məmələri nar oynuyur.*
*Əl vurun, cərgə durun,*
*balaca dilbər oynuyur.*

*Mərdana, bu meydana*
*əcəb açıb qollarını,*
*Habelə sığmaz dilə,*
*vəsf eləsəm dillərini,*
*Qaz ayaq, durna sayaq*
*xoş oynadır əllərini.*
*Yan çəkə, səkə-səkə*
*burub gedir bellərini,*
*Afərin, səd afərin,*
*necə hamavar oynuyur.*

*Bu sona, əcəb həna,*
*gör nə yaxıb əllərinə,*
*Mərdana, dal gərdana*
*nəxşi düzüb tellərinə.*
*Nə nazik, zər bilərzik*
*bağlayıbdı qollarına.*
*Bu qəmər, gümüş kəmər*
*qurşuyubdu bellərinə.*
*Buxağa, ay qabağa*
*düzübdü illər, oynuyur.*

*Əl çalın, bir səs salın,*
*bu baxtavar gəlsin cuşa,*
*Gəl yaxın, bircə baxın,*
*ağ üzünə, qələm qaşa,*
*Mən mail, oldum zail,*
*eşq atəşi vurdu başa,*
*Binəva, çəkər cəfa,*
*olmaz səfa, bu tamaşa,*

***Əlaman, Allah, aman,***
***cəlladi-xunxar oynuyur.***

***Gəl görək, keçdi ürək,***
***kəhlik cürə səkib əyri.***
***Can canı, xublar xanı,***
***sevdim səni, dil əzbəri.***
***Aç üzün, çıxsın gözün,***
***bir bəri bax, a müştəri.***
***Bu dünyada, üqbada***
***yoxdur bunun bərabəri.***
***Əlqissə, rüxsari-gül,***
***gözləri xumar oynuyur.***

***Sərraflar qiymət qoyar,***
***hər adama yüz min manat.***
***Bu işvədə, bu qəmzədə,***
***kimdə olar qədd-qamət,***
***Əl hissə və əl qissə,***
***ay həzərat, ay camaat,***
***Bu gülmək, bu oynamaq,***
***bu tamaşa, bu qiyamat,***
***Əlbəttə, bu məclisdə***
***Molla Cuma[1] var, oynuyur.***

***Dastan aşıqlardan Amil Bəxtiyarlı və***
***Afil Bəxtiyarlının dilindən 2022-ci ildə yazıya alınıb.***

***1. Müxəmməs Molla Cumaya (1854-1920) məxsusdur.***

## ABDULLA VƏ CAHAN

Ustadlar dastan başlayanda ustadnamə deyər, biz də bir ustadnamə deyək, şad olun:

***Ayrı düşdüm vətənimdən, elimdən,***
***Başı çənli, qanlı dağlar, qal indi!***
***İçən ölməz dərdə dərman suyundan,***
***Axar sular, tər bulaqdan, qal indi!***

***Bivəfasan, mən görmədim vəfanı,***
***Çox çəkmişəm sənin cövrü-cəfanı,***
***Məndən sonra rəqim sürər cəfanı,***
***Fərş döşəli ağ otaqlar, qal indi!***

***İlqarsızsan, vəfan yoxdu dünyada,***
***Dostunun sirrini verirsən yada,***
***Şamamanı dərdirirsən xoryada,***
***Səbzə, bostan sarı dağlar qal indi!***

***Qurbaniyəm, yəqin oldu sözlərim,***
***Eşq əlindən kabab istər gözlərim,***
***Qan tökdürən qürbət eldə, gözlərim,***
***Ağla, canan deyib ağla, qal indi!***

Ustadlar ustadnamə deyəndə onu bir deməz, iki deyər. Biz də deyək, iki olsun, dərd-qəm düşmənin yükü olsun:

***Dəli könül, heç ahu-zar eyləmə,***
***Hər iş öz qaydasınca keçib gedəcək.***
***Dünyanı beşəlli qamarlayanlar,***
***Əcəl şərbətini içib gedəcək.***

***Qapında var olsa süfrədə aşın,***
***Dostaların çoxalar, ucalar başın.***
***Bədbəxlik üz versə, qohum-qardaşın,***
***Hərəsi bir yana qaçıb gedəcək.***

***İstər nökər olsun, istər hökümdar,***
***Dünyada hər kəsin ömür payı var.***
***Bir gün də gələcək, Bilal dilizar,***
***Bu gözəl dünyadan köçüb gedəcək.***

Ustadlar ustadnaməni iki yox, üç deyib, biz də deyək üç olsun, düşmən ömrü puç olsun:

***İblisin hiylə ilməyin,***
***Min toxucu sökə bilməz.***
***Bir evi fələk yıxmasın,***
***Yıxsa, aləm tikə bilməz.***

***Biçə bilməz əkməyənlər,***
***Alın təri tökməyənlər,***
***Dost namusun çəkməyənlər,***
***Öz namusun çəkə bilməz.***

***Viran qalmış qala kimi,***
***Oda düşmüş lala kimi,***
***Ata belin bala kimi,***
***Heç bir dərd bükə bilməz.***

***Şeytan olanlar qarğanar,***
***Bağban olanlar barlanar,***
***Şakir halalla varlanar,***
***Haram toxum əkə bilməz.***

Bəli, əzizlərim, sizə xəbər verim İsfahan şəhərindən. İsfahan şəhə-

rində Qiyas vəzirdən. Qiyas vəzir şah Abbasın ağıllı, bilikli vəziri idi. Onun gözünün ağı-qarası Abdulla adlı bir oğlu var idi. Abdulla tək övlad olduğundan qohum-əqraba, dost-tanış hamı onun xətrini çox istəyirdi. Bir molla tutmuşdular, Abdullaya dərs deyirdi. Vaxt-vədə yetişdi, Abdulla gəlib on səkkiz yaşına çatdı, bütün elmləri sinədəftər elədi. Bir gün molla dedi:

– Abdulla, artıq bütün elimləri öyrənmisən, hara istəsən gedə bilərsən. Bu gündən mən də oldum sənin lələn.

Abdulla dedi:

– Lələ, sən bilirsən ki, mən bu vaxta qədər keçən vaxtımı elm, savad öyrənməyə sərf eləmişəm. Heç bir yeri gəzməmişəm, heç bir yeri görməmişəm, heç bir yeri də tanımıram. Gəlsənə, atamdan icazə alasan, birlikdə gəzməyə çıxaq.

Lələ razı oldu. Qiyas vəzirdən icazə aldı, hərəsi bir at götürüb gəzməyə çıxdılar. Bir də baxdılar, bir aşıq çiynində saz gedir. Aşıq bunları görən kimi, əlini qulağının dibinə atıb bir bayatı çəkdi:

***Əzizim, küncü haray,***
***Ələsbər küncü haray,***
***Bir vəfalı həmədəmlə***
***Gəzəydim küncü haray.***

Abdulla dedi:

– Lələ, o nə deyir elə.

Lələ dedi:

– Ay oğul, aşıqdı da, aşığın qaydası oxumaq, bayatı deməkdi. Neynirsən, qoy varsın getsin.

Abdulla dedi:

– Lələ, o, yaxşı söz deyir. Aşıqlar əzəldən dünyagörmüş, dünya gəzmiş olurlar. O Ələsbər yəqin yaxşı yerdi ki, aşıq onu belə tərif eləyir. Mən gərək gedib oranı görəm.

Ələsbər də məsafə cəhətdən bunlara yaxın idi. Odur ki, atlarını sürüb Ələsbərə gəldilər, gəzdilər. Gördülər, Ələsbər doğrudan da gəzməli, görməli gözəl bir yerdi. Abdullanın çox xoşuna gəldi. Dedi:

– Lələ, mən atamdan izin alıb gəlib burda yaşayacağam.

Lələ bir söz demədi. Evə qayıtdılar. Lələ vəzirin hüzuruna gedib ərz elədi:

– Vəzir sağ olsun, oğlun Abdulla Ələsbəri görüb bəyənib, deyir orda gedib yaşamaq istəyirəm.

Vəzir Abdullanı çağırdı. Abdulla vəzirin qarşısında əlini köksünə qoyub, baş əydi. Mehriban ata, mənə görə qulluq:

– Oğul, eşitdim gedib Ələsbərdə yaşamaq istəyirsən. Burda sənin nəyin əskikdi ki, gedib Ələsbərdə yaşamaq istəyirsən?

Abdulla dedi:

– Əziz ata, ora mənim çox xoşuma gəlib, ona görə də istəyirəm gedib orda yaşayam.

Vəzir çox dedi, Abdulla az eşitdi. Qiyas vəzir fikirləşdi ki, bunu yolundan döndərsə, ancaq şah döndərə bilər. Odur ki, şahın hüzuruna gedib ərz elədi:

– Şah sağ olsun, oğlum Abdulla Ələsbəri görüb bəyənib, deyir, gedib orda yaşamaq istəyirəm. Qibleyi-aləm, qoyma getsin.

Şah dedi:

– Vəzir, əvvələ yurdun o başı, bu başı olmaz. Sonra da Ələsbər, doğrudan da, gəzməli, görməli, gözəl bir yerdi. Özü də bizim məmləkətə çox yaxındı. Neynək, yaşayırsa, qoy getsin yaşasın. Amma oğlunu tək buraxma. Sən də onunla get.

Bəli, əzizlərim, Qiyas vəzir əhli-əyalın götürüb Ələsbərə köçüb yaşamaqda olsun, sizə xəbər verim kimdən, hardan, Şirvan ölkəsindən, Xan çoban elindən, Camal bəydən. Camal bəyin Cahan xanım adında bir qızı var idi. Bu mahalda Ağaxan adlı varlı-hallı bir adam yaşayırdı. Bir gün Ağaxan Cahan xanımı bağçada gəzərkən gördü. Soruşdu:

– Bu kimin qızıdı?

Dedilər:

– Camal bəyin.

Ağaxan beş-altı atlı seçib göndərdi Camal bəyin yanına. Dedi:

– Gedin ona deyin, qızı mənə versin.

Camal bəy də fikirləşdi ki, Ağaxan varlı-hallı, mahalda tanınmış bir adamdı. Odur ki, qızının xeyir-duasını verib, geri qayıtdılar. Amma

Camal bəy bir neçə müddət gözlədi, gördü Ağaxandan bir xəbər çıxmadı. Ona xəbər göndərdi:

– Ağaxan, mənim qızımı alacaqsan, ya yox?

Ağaxan dedi:

– Gedin Camal bəyə deyin ki, qızının başını bəzəyib mənim sarayıma göndərsin.

Camal bəy də fikirləşdi ki, ayə, mən nə qədər əskik adam olmalıyam ki, özüm öz qızımın başın bəzəyib Ağaxanın sarayına göndərim. Yox, mən burda yaşaya bilmərəm. Burdan köçüb gedəcəm.

Camal bəy ailəsini də götürüb, Ələsbərdə yaşamaqlarında olsunlar, sizə xəbər verim kimdən, Abdulladan. Abdulla yenə lələsini götürüb gəzməyə çıxmışdı. Baxdı gördü ki, uzaqda gözəl yaşıllıq bir yer görünür. Dedi:

– Ay lələ, gəlsənə, ora gedək.

Lələynən atı çapıb gəldilər. Gördülər, burdan bir bulaq axır. Gözəl bir meşədi. Abdulla başını qaldırıb ağacın başına baxdı. Gördü ağacda bir quş oturub. Quş elə gözəldi ki, hər tükü bir rəngə çalır. Dedi:

– Lələ, o nə quşdu elə.

Dedi:

– Bala, ona bizdə şahqonqar quşu deyərlər.

– Lələ, o quş mənim çox xoşuma gəlir, mən o quşu tutacam.

– A bala, şahqonqar quşu tora gəlməz.

Dedi:

– Lələ, yox mən o quşu tutmalıyam.

Lələ də çox dərinə getmədi, dedi:

– A bala, neynək, çörəyimiz, azuqəmiz qurtarıb. Onda mən gedim çörək gətirim, sən də toru qur, gözləyək nə vaxt gəlib tora düşər, onda tutarıq.

Lələ çörək dalıyca getdi. Abdulla bir ağaçın dibində sərinlikdə oturdu. Beləcə yuxuya getməkdə olsun, sizə xəbər verim, Cahan xanımdan. Cahan xanım bir yaz səhəri qızları ətrafına toplayıb, dedi, ay qızlar, görürsüz nə gözəl bir yaz günüdü, gəlsəniz, bu gün seyrə çıxaq. Qızlar razılaşdılar. Bunların arasında bir qarı var idi. Doqquz dəfə şeytanla yoldaşlıq eləmişdi. On manat şeytan qarıya borclu idi. Qarı

dedi:

– Ay qızlar, mənim sizdən nəyim əskikdi? Elə mən də siziynən gedəcəm.

Gəldilər meşəyə. Qızlar üç bir, beş bir dağılışıb gəzməkdə olsunlar, amma qarı Cahan xanımdan əl çəkmədi. Yazın hərarətli vaxtı Cahan xanımı susuzluq əldən salmışdı, dedi:

– Qarı nənə, olmaz ki, bu meşədə bir bulaq olmasın.

Dedi:

– A bala, bir misal var, gəzən ayağa daş dəyər, bir də deyirlər, axtaran tapar. Yəqin ki, gəzsək, qarşımıza bir bulaq çıxacaq.

Gəzə-gəzə gəlib çıxdılar Abdulla yatan bulağın başına. Baxıb gördülər ki, bulağın başında bir cavan oğlan yatıb, yemə, içmə, xətti xalına, gül camalına tamaşa elə. Cahan xanım ilk baxışdan bir könüldən min könülə Abdullaya aşiq oldu. Ətrafa göz gəzdirdi, gördü, ağacdan bir tor asılıb, dedi:

– Qarı nənə, bilirsənmi bu kimdi?

Dedi:

– Ay bala, kim olar?

Dedi:

– Bu səyyatdı, görürsənmi, tor qurub, tərlan tutmaq istəyir.

– Qarı nənə, cibində kağızdan-qələmdən nəyin var?

Dedi:

– Ay bala, hər şey var, əbəs yerə doqquz ay koxa yanında mirzəlik eləməmişəm ki. Qarı nənə qələmini-kağızını çıxardı. Görək Cahan xanım “Şirvan gəraylısı” havası üstündə nə deyir, qarı nə yazır.

***Xab işində yatan bixəbər səyyad,***
***Tərlan mənəm, qeyri tərlan istəmə!***
***Mən səni sevmişəm, sən də sev məni,***
***Sev bu canı, qeyri canan istəmə!***

***Bizlərdə qaydadır sözə söz demək,***
***Qara bağrı kabab deyin közləmək.***
***Mənim arzum səndən ilqar gözləmək,***
***Yüz il getsə, əbrü-kaman istəmə!***

***Zülfüm muyu səndə qaldı nişana,***
***Ayrılıq atəşi kar eylər cana.***
***Deyərlər ki, sevən gedər sevənə,***
***Yaxşısan, yaxşı sev, yaman istəmə!***

***Arayıb axtarsan pünhanbapünhan,***
***Yerim xan çobandı nişanbanişan,***
***Atam Camal bəydi, öz adım Cahan,***
***Cahan mənəm, qeyri Cahan istəmə!***

Bəli, söz burda tamam yetdi. Cahan xanım öz barmağından üzüyü çıxardıb Abdullanın barmağına taxdı. Qarı yazdığı kağızı da Abdullanın cibinə qoyub ordan uzaqlaşdılar. Yolda qarı dedi:

– Cahan xanım, nəbadə oğlanın yerini qızlara deyərsən.

Dedi:

– Qarı nənə, niyə?

Dedi:

– Çünki gəlib oğlanı taparlar,aralığa salıb öldürərlər.

Cahan xanım gəlib gördü qızlar bir dəstə çiçək toplayıb. Dedilər:

– Görürsənmi yazda necə çiçəklər açıb, sizin üçün çiçəklər toplamışıq, hədiyyədi. Ay xanım, bəs sizin gül-çiçəyiniz hanı? Niyə gec gəldiniz?

Aldı Cahan xanım, "Ağır yayma" havası üstündə görək onlara nə cavab verdi:

***Səhər durdum, seyrə vardım,***
***Yarı gördüm bağ içində.***
***Dərər, dərər, dəstə bağlar,***
***Qızılgül yarpaq içində.***

***Bağın barısından aşdım,***
***Süsən sünbülə dolaşdım,***
***Öpdüm, qucdum, halallaşdım,***
***Məni qoydu dağ içində.***

***Mən cahanam, oxum atdım,***
***Tamam İranı oyatdım.***
***Qızılgüldən yüküm tutdum,***
***Yasəmən zambağ içində***

Cahan xanım və qızlar dağılışıb evlərinə getməkdə olsunlar, sizə kimdən xəbər verim, Abdulladan. Abdulla lələnin atının ayaq səsinə yuxudan ayıldı. Baxdı gördü, lələ artıq bərabərinə çatıb.

– Oğul, Abdulla, gəl çörək yeyək.

Abdulla bulağın başına gəldi ki, əlini yusun. Baxıb gördü barmağında bir üzük var.

– Ay lələ, bu üzüyü barmağıma kim taxıb?

Dedi:

– Başıma xeyir, oğul, yadımdan çıxıb, gedəndə sənə tapşırım ki, bulaq başında, su kənarında yatmazlar. Çünki burada cinlər, şeytanlar olur. Yəqin yatmısan, onu barmağına cinlər taxıb. Çıxart tulla getsin.

Abdulla əl-üzünü yuyub istədi darağın çıxardıb saçını darasın. Daraq əvəzinə əlinə bir kağız gəldi.

– Oğul, onu da cibinə cinlər qoyub. Onu da at getsin. Bala ondan sənə xətər gələr.

Aldı Abdulla, görək ona “Qobustanı” havası üstündə nə dedi:

***Lələ, yatmışdım xabi-qəflətdə,***
***Oyandım ki, bahar, yaz gəlib-gedir.***
***Bir əlində süsən, sünbül, ərğəvan,***
***Yanınca qırx incə qız gəlib-gedir.***

***Ölüm yeydi bu sağlıqdan, bu gündən,***
***Sinəm fariq olmaz dağü-düyündən,***
***Tərlan binəsindən, laçın ovundan,***
***Ürküşdü qubalar, qaz gəlib-gedir.***

***Eşqin atəşinə düşüb Abdulla,***
***Belə gözəl görməmişəm mən, billa,***

***Vərqa var, Gülşa var, Yusif, Züleyxa,***
***Cahan kimi canlar az gəlib-gedir.***

Abdulla kağızı açdı, oxuyub dedi:

– Ay lələ, burda cin yazılmayıb. Camal bəyin qızı Cahan xanım yazılıb.

Lələ gördü Abdullanın rəngi yavaş-yavaş saralır. Öz-özünə dedi, yəqin uşağı gün vurub. Burda uşağa bir şey olar, sonra vəzirə nə cavab verərəm. Götürüb Abdullanı evə gəldi. Anası çıxdı Abdullanın qarşısına.

– Oğul, Abdulla, rəngin niyə saralıb?

– Ana, məni dərdə salan Cahandı.

– Ay bala, cahan bizdə dünyaya deyərlər. Şükür Allaha, dünyadan sənin bir əyri-əskiyin yoxdu. Cahan, dünya səni niyə dərdə salsın ki?

– Mehriban ana, mən o cahanı demirəm, məni dərdi salan Camal bəyin qızı Cahan xanımdı.

Abdulla söznən dediyi kimi, "Şirvan şikəstəsi" havasında sazla da dedi:

***Başına döndüyüm gül üzlü ana,***
***Ana, məni dərdə salan Cahandı.***
***Südünü əmmişəm mən qana-qana,***
***Ana, məni dərdə salan Cahandı.***

***Mənim yarım al geyinib, qırmızı,***
***İşvəsi, qəmzəsi yandırır bizi,***
***Öz adı Cahandı, Camal bəy qızı,***
***Ana, məni dərdə salan Cahandı.***

***Lələ aramızda çəkibdi pərdə,***
***Apardı ağlımı, qoymadı sərdə.***
***Abdullanı saldı sağalmaz dərdə,***
***Ana, məni dərdə salan Cahandı.***

Kağızı anasına verdi, anası oxuyub əhvalatdan halı oldu. Hər bir

atanın, ananın arzusu övlad toyu görməkdi. O cümlədən Qiyas vəzirin, onun xanımının da arzusu bu idi. Abdulla artıq yetkin yaşına çatmışdı. İstəyirdilər toyunu görsünlər. Anası getdi Qiyas vəzirin yanına, əhvalatı ona ərz elədi. Qiyas vəzir mötəbər adamlar götürüb Camal bəyin yanına elçiliyə getdi. Camal bəy də fikirləşdi ki, bu yerin yiyəsi, ağası, budu. Bundan yuxarı adam yoxdu. Bu boyda ölkənin vəziriynən qohum olmaq əlbəttə ki, Camal bəy üçün şərəf idi. Odur ki, ilk kəlmədən qızını Qiyas vəzirin oğluna verməyə razı olub, toyun vaxtını təyin elədi.

Bunlar burda qalmaqda olsunlar, sizə xəbər verim Ağaxandan. Ağaxan eşitdi ki, Camal bəy qızını başqa adama nişanlayıb. Bir xəbər göndərdi:

– Camal bəy, eşit və bil, qız ya mənim olacaq, ya da qara torpağın.

Camal bəy də fikirləşdi ki, mən burdan Qiyas vəzirə söz vermişəm, bəs bu nətəri olacaq. Əyər qızı Qiyas vəzirdən alıb Ağaxana versəm, bu boyda ölkənin vəziriynən düşmən olaram. Yox, əgər Qiyas vəzirə versəm, onda da Ağaxan bu işi sakit buraxmayacaq. Bir də fikirləşdi ki, deyirlər özgə elin xan bəyindən öz elinin nökəri yaxşıdı. Dedi:

– Elə gəl köç Xançoban elinə, qızı da ver Ağaxana, qoy bu iş sakitliknən qurtarsın getsin.

Camal bəy yığışıb köçmək məqamına gəldi, amma Cahan xanım fikirləşdi ki, gedən kimi atası onu Ağaxana ərə verəcək. Dedi, gəl, bir namə yaz qoy, bəlkə, Abdulla gəlib naməni tapıb oxuyar. Axtarıb səni də tapar. Görək bir "Qobustan şikəstəsi" havası üstə Cahan xanım nə yazır, nə deyir, biz deyək, qulaq asanlar sağ olsun:

***Kağız, gedər olsan yarın yanına,***
***Harda görsən, nazlı yara de, gəlsin.***
***De, uymasın fani dünya malına,***
***Mən çəkirəm ahu-zarı, de, gəlsin.***

***Yay gəlsin, payız vaxtı işləsin,***
***Qış vaxtında yar elində qışlasın,***
***Hər nə günahım var, de, bağışlasın,***
***Mənəm onun günahkarı, de, gəlsin.***

***Canım kağız, harda görsən o yarı,***
***Hər nə təqsirim var, qoy, desin barı.***
***Sevənlərin beləmi olar ilqarı,***
***Cahan oldu qəm memarı, de, gəlsin.***

Söz tamam olur, Cahan xanım kağızı yazıb bir ocaq daşının altına qoyub, getməkdə olsunlar, sizə kimdən xəbər verim, Abdulla və lələdən. Abdulla bir neçə gün idi ki, bu yanlara gəlmirdi. Bir gün yolu düşdü Camal bəyin evinin yanından. Baxdı ki, Camal bəyin evi köçüb. Sağa baxdı, sola baxdı, heç nə görmədi. Gördü ki, ocaq daşının altında bir namə var. Tez götürdü kağızı, oxuyub işdən halı oldu. İstədi köçün arxasınca getsin, lələ qoymadı. Dedi:

– Ay oğul, sənin Qiyas vəzir kimi atan var. Harda olsa, Cahan xanımı tapıb gətirəcək. Heç narahat olub, ürəyini sıxma.

Birtəhər Abdullanı götürüb, lələ evlərinə gəldi. Tez getdi Qiyas vəzirin hüzuruna. Dedi:

– Vəzir sağ olsun, Camal bəyin evi köçüb.

Vəzir çox pis oldu, dedi:

– Necə köçüb Camal bəyin evi? Axı, mən Camal bəynən quda olmuşam, qızını oğluma almışam. Mənim xəbərim olmadan necə köçə bilər? Köçüb, qoy getsin. Elə insandan mənə quda olmaz.

Lələ dedi:

– Axı, biz neyləyək, bir tədbir görmək lazımdı. Abdulla pis vəziyyətdədi. Cahan xanımsız dayana bilmir.

Vəzir dedi:

– Lələ, sənə bir qədər qoşun verəcəm. Bir qədər yol qət edəndən sonra qoşunu da öyrədəcəm. Beş-bir, üç-bir dağılıb gedəcəklər və Abdulla baxacaq ki, bir lələsi qalıb, bir də özü. Peşiman olub geri qayıdacaq.

Belə də elədilər. Bir qədər qoşun götürüb yola düşdülər. Bir xeyli yol getmişdilər ki, lələynən Abdulla döndülər geriyə, baxanda gördülər ki, qoşundan əsər- əlamət qalmayıb. Lələ dedi:

– Ay oğul, mən də artıq qocalmışam, daha gedə bilmirəm, gəl,

qayıdaq geri.

Abdulla dedi:

– Lələ, bu nə işdi? Onda bir sözüm var, yaz, dağılan cavanlara ver, qoy oxusunlar.

Götürüb Abdulla dedi:

***Budu ürəyimdə fikir, xəyalım,***
***Düşüm yarım düşən yollar, ay lələ!***
***Yetircəyin durum dönüm başına,***
***Qərq olsam dəryaya, sellər, ay lələ!***

Aldı lələ:

***Əzəli dərdimi sənə söyləyim,***
***Ölüncə dönmərəm səndən, Abdulla!***
***Allah qoysa, gedib sevgin gətirrəm,***
***Uzaq yerdən, o Şirvandan, Abdulla!***

Aldı Abdulla:

***Qarşımızda duran qarlı dağ oldu,***
***Yar başına örtən yaşıl, ağ oldu,***
***Bugünkü mənzilimiz lap irağ oldu,***
***Gözümə göründü yollar, ay lələ!***

Aldı lələ:

***Biz də gəldik Xançobanın elinə,***
***Bad, əsmə yarımın sünbül telinə.***
***Bir canım var, qoyum sənin yoluna,***
***Ölüncə dönmərəm səndən, Abdulla!***

Aldı Abdulla:

***Abdullayam, Haqqa pənah gətirrəm,***
***Allah qoysa, mətləbinə yetirrəm,***
***Ya can verrəm, ya Cahanı gətirrəm,***
***Bunu bilsin bizim ellər, ay lələ!***

Aldı Lələ:

***Dərdimi söylərəm mən yana-yana,***
***Sidqimi bağladım qadir sübhana,***
***Biçarə lələni Saldın hicrana,***
***Ölüncə dönmərəm səndən, Abdulla!***

Söz tamama yetdi. Lələ sözlə də dedi:

– Oğul, mən səni tək buraxa bilmərəm. Sənə demədimmi, başın bəla çəkəcək?

Lələ ona çox təsəlli verdi, amma olmadı. Abdulla kədərlənib, dübarə görək "Döymə Kərəmi" havası üstündə nə dedi:

***Köç-köç oldu, əlim yardan üzüldü,***
***Yaman qonşu, qoy xatirin xoş olsun!***
***Bu ayrılıq mənə Haqdan gəlibdi,***
***Mən ağlaram, qanlı didəm yaş olsun!***

***Mən sevmişəm iyidlərin mərdini,***
***Çəkmək olmaz müxənnəsin dərdini.***
***Çox çəkmişəm bu dərdlərin dördünü,***
***Qoy bunu da çəkim, bunnan beş olsun!***

***Dedim, uyma bu dünyanın malına,***
***İpəyinə, qumaşına, alına,***
***Uçdu quşlar, qondu dallı-dalına,***
***Bunnan geri bizim dağlar boş olsun!***

Abdulla sazla dediyi kimi, sözlə də dedi:

– Lələ, gəldiyin yol yəqin ki, yadındadı. Qayıdırsan qayıt, amma mən qayıtmayacam. Mən gedib Cahan xanımı harda var, tapıb gətirəcəm.

Lələ baxdı ki, belə bir laçın oğlanı tək qoymaq insafdan deyil, dedi:

– Oğul, ölmək ölməkdi, bəs xırıldamaq nədi? Madam ki, gedirsən, mən də sənnən gedəcəm, səni tək buraxmayacam.

Abdulla dədəsinin lələyə öyrətdiyi hiyləni başa düşdü. Çox qəmləndi, aldı görək "Orta şəşəngi" havası üstündə nə dedi:

***Mən gedirəm sevdiyimin dalınca,***
***Sən də mənnən belə varalı, könül!***
***Deməynən xeyri var, şəri də çoxdu,***
***Küsmə məndən, çəksən zərəli, könül!***

***Bivəfanın andı, musafi yalan,***
***Evin yıxır bivəfaya inanan,***
***Yar köçüb, yollarına güvənən,***
***İndi düşüb məndən aralı, könül!***

***Abdulla əlindən bir nişan alan,***
***Yarıyıb dost qoynuna gülşan olan,***
***Əzəlindən mənlə canhacan olan,***
***İndi düşüb məndən aralı, könül!***

Aldı Abdulla görək lələsinə nə dedi, lələsi ona nə cavab verdi:

***Köçdü getdi Xan Çobanın elləri,***
***Cığalanmır sərv tellər, ay lələ!***
***Uçub bülbül, boş qalıbdı dalları,***
***Boş qaldı budaqlar, dallar, ay lələ!***

Aldı lələ:

***Eşitginən sən lələnin sözünü,***
***Çox olacaq qalmaqallar, Abdulla!***
***Bilən bilir, bilməyənə dan gəlir,***
***Çoxlu canlar ölü qalar, Abdulla!***

Aldı Abdulla:

***Qarşımızda duran qarlı dağ oldu,***
***Sinəmə çəkilən düyün-dağ oldu,***

***Bu gün mənzilimiz viran bağ oldu,***
***Düşmüşəm fitnəyə, fellər, ay lələ!***

Aldı lələ:

***Bir bağa girəndə budağın əymə,***
***Dərdindən dəliyəm, xətrimə dəymə,***
***Atanı, ananı intizar qoyma,***
***Tökmə gözlərindən qanlar, Abdulla!***

Aldı Abdulla:

***Abdullayam, keçdim küllü-varımdan,***
***Namusumdan, qeyrətimdən, arımdan,***
***Cahan xanım köç eylədi yanımdan,***
***Yada düşüb şirin dillər, ay lələ!***

Aldı lələ:

***Yazı yazan belə yazdı yazını,***
***İgid olan yaxşı saxlar özünü.***
***Eşitginən sən lələnin sözünü,***
***Çox olacaq qalmaqallar, Abdulla!***

Beləcə, yola düşüb getdilər. Az getdilər, çox getdilər, gedib çatdılar Xan Çoban vilayətinə. Gördülər, bir qarı həyət süpürür. Qarılar da cürbəcür olur, hər qarının da adı öz xasiyyətinə görə qoyulur. Holdurumhop qarı, qıldırımqup qarı, yeddi küpü göydə oynadan, aravuran, araquran, aradüzən, araüzən, saman altından su yeridən, nafaş qarı, köfəş qarı, amma bu qarı ipək qarı idi. Dedilər:

– Qarı nənə, salam əleyküm. Bizi bir gecə Allah qonağı saxlyarsanmı?

Qarı gördü  cavan bir oğlandı, yanında da lələsi. Dedi:

– Oğul, qonaq Allah qonağıdı. Allaha da qurban olum, qonağına da.

Atları həyətə bağlayıb, keçdilər evə. Qarının nəyi olacaq, köhnə bir daxması var idi. Kasıb qarıdı, süfrə açdı şorundan, çörəyindən, suyundan, duzundan. Oturub süfrəyə, təam elədilər. Gecə araya gələndə Ab-

dulla dedi:

– Qarı nənə, sənə bir iş desəm, edərsənmi?

Dedi:

– Oğul, baxır işə.

Çıxardıb cibindən Cahan xanımın üzüyünü göstərdi. Dedi:

– Qarı nənə, bu üzüyü aparıb Cahan xanıma verə bilərsənmi?

Qarı da arif qarı idi, dedi:

– Oğul, gecikmisən. Sabah Cahan xanımın toyunun sonuncu günüdü.

O vaxt qırx gün, qırx gecə toy edərlərdi. Sabah toyun qırxıncı günündü, Cahan xanım gəlin köçür. Abdulla qarıdan soruşdu:

– Kimə gedir Cahan xanım?

Dedi:

– Burda bir Ağaxan var, ona.

Dedi:

– Axı, bu üzük çatmalıdı qarı nənə, başqa mümkünü yoxdu.

Bilirsiz ki, qarılar Adəmnən Hatəmə bir az nəfisgir olurlar. Abdulla da vəzir oğluydu, çıxarıb qarının qənşərinə bir qızıl beşlik atdı. Qızıl beşliyi görən kimi, qarının gözləri böyüdü, dedi:

– Ay oğul, məni qoyursan çətin vəziyyətdə. Axı, mən bu üzüyü necə aparıb verim Cahan xanıma?

Abdulla ikinci qızıl beşliyi də qarının qənşərinə atanda qarı yerindən sıçradı, istədi getsin versin üzüyü Cahan xanıma, Abdulla qarının qolundan tutub, dedi:

– Qarı nənə, gecənin xeyrindən gündüzün şəri yaxşıdı. Darıxma, qoy səhər açılsın, mən bilirəm, Cahan xanım məni sevir, ürəyində mənə qarşı məhəbbət var, o, məni atıb getməz. Narahat olma, səhər açılar, tezdən gedib üzüyü verərsən.

Bəli, səhərin dan yeri təzəcə açılmışdı, qarı qalxdı ayağa, dedi:

– Oğul, Abdulla, aparıb üzüyü verəndə başqa nə söz deyim Cahan xanıma.

Burda Abdulla qarıya "Qobustanı" havası üstündə görək nə dedi:

***Başına döndüyüm, ay qarı nənə,***
***Götür yar nişanı, yetir yara, ver!***

***Görüm, yetəsən axirətdə imana,***
***Götür yar nişanı, yetir yara, ver!***

***Sevdiciyim daldalardan baxıbdı,***
***Şirin canım eşq oduna yaxıbdı,***
***Öz əliynən barmağıma taxıbdı,***
***Götür yar nişanı, yetir yara, ver!***

***Sevdiciyim ağlayıban gülübdü,***
***Naşı təbib dərdə dərman bulubdu.***
***Söylə: Cahan, Abdullahın gəlibdi,***
***Götür yar nişanı, yetir yara, ver!***

Qarı üzüyü götürüb yol aldı Camal bəyin evinə. Gəldi çatdı həyətə, başladı qışqırmağa:

– Ay xırdavat alan heeey, ay xırdavat alan heeey.

Cahan xanım dedi:

– Ay qızlar, görün nə qışqırıqdı həyətdə.

Gəlib qarını qolbənd eləyib apardılar Cahan xanımın hüzuruna.

– Qarı nənə, nə satırsan?

Dedi:

– Ay qızım, xırdavat əşyalardı.

– Nədi?

– Boyunbağıdı, qolbağdı, küşvarədi, üzükdü.

Dedi:

– Hələ bir baxım mala.

Açdı, qızıl üzüyü heybədən verdi Cahan xanıma. Cahan xanım üzüyü görəndə tanıdı. Öz-özünə dedi, hə, bu, bulağın başında Abdullanın barmağına taxdığım üzükdü. Bildi ki, Abdulla gəlib onun arxasınca. Dedi:

– Bıy, gözlərim kor olsun, ay qızlar.

Qızlar dedi:

– Ay xanım, niyə?

Dedi:

– Necə tanımamışam qarını?
– Kimdi?
Dedi:
– Mənim süd anam.
Dedi:
– Qızlar, məni süd anamla baş-başa buraxın, beş kəlmə söhbət eləyim, dərdləşim.

Qızlar otaqdan çıxdı. Cahan xanımla qarı qaldı otaqda. Cahan xanım aldı görək qarıya "Şirvan gəraylısı" havası üstündə nə dedi:

***Canım qarı, gözüm qarı,***
***Yarımdan xəbərin varmı?***
***Malım, mülküm sənnən yarı,***
***Yarımdan xəbərin varmı?***

Aldı qarı:

***Cahan xanım, sənə deyim,***
***Abdulla öləcək oldu.***
***Eşqin düşübdü sərinə,***
***Saralıb solacaq oldu.***

Aldı Cahan xanım:

***Pünhan yanına getdiyim,***
***Ağ üzdən busə götdüyüm,***
***Şanasın bəlgə, etdiyim,***
***Yarımdan xəbərin varmı?***

Aldı qarı:

***Sığın Haqqın bir adına,***
***Tez yetəsən muradına,***
***Salıbsan eşqin oduna,***
***Alışıb yanacaq oldu.***

Aldı Cahan xanım:

***Dərin dəryaya dalanlar,***
***Dərddən xəbərdar olanlar,***
***Cahanı oda salanlar,***
***Yarımdan xəbərin varmı?***

Aldı qarı:

***Qədəmnisəyəm, taparam,***
***Sınıq könüllər yaparam.***
***Səndən bir müjdə qoparam,***
***Yəqin bil, gələcək oldu.***

Cahan xanım dedi:

– Qarı nənə, Abdulla hardadı?

Dedi:

– Abdulla mənim evimdə.

– Lap gözəl. Get Abdullaya de, gəlsin güllü bağçaya.

Qarı yol alıb evə gəldi. Abdulla onu gözləyirdi, dedi:

– Qarı nənə, xeyirdimi?

Dedi:

– Bəli, şərə lənət, xanım səni güllü bağçada gözləyir, get.

Abdulla bəzənib ləməsini də götürüb güllü bağa gəldi, sağa baxdı, sola baxdı, Cahan xanımı görmədi. Bir də baxdı ki, Ağaxan beş atlısıynan gəldi güllü bağçaya. Gördü iki nəfər dayanıb çiynində saz, salam əleyküm, əleyküm salam.

– Ayə, aşıqsınızmı?

Lələ yeridi qabağa, dedi:

– Bəli aşığıq, özü də lap yaxşısınnan.

– Haralısız?

– Ələsbərli.

– Kimin aşığısız Ələsbrdə?

– Qiyas vəzirin.

Qiyas vəzirin adı gələndə Ağaxan dedi ki, Qiyas vəzirin yanında əfəl aşıq olmaz. Vəzir aşığıdısa, nəsə var, dedi:

– Bu gün mənim toyum var, gedərsinizmi?

Lələ dedi:

– Niyə getmirik, aşıq oxuyar, pulun alar.

Dedi:

– Ay zalım oğlu, mənim toyumdan sonra daha sizə pul lazım olmayacaq. Mənim toyumdan yığdığınız nəmər, qızıl, ləl-cəvahir ömrünüzün sonunadək sizə yetəcək.

Lələ əlini Allaha açıb şükür elədi, yaxınlaşıb Abdullaya dedi:

– Oğul, bilirsənmi bu kimdi?

Dedi:

– Yox, lələ, kimdi?

Dedi:

– Oğul, Ağaxandı. Nəbadə Cahan adın çəkəsən, bizi ölümə verərsən.

Gəlib Camal bəyin imarətinə daxil oldular. Abdullanın gözü Cahan xanımı gəzirdi gördü, heç görünmür.

Əyləşdilər, Ağaxan dedi:

– Aşıq, baxıram qoca kişisən, sini keçmisən, qoy bu şəyirdin oxusun, cavan oğlandı. Səsi yəqin yaxşı olar. Qoy bir onun səsinə qulaq asım.

Abdulla sazı götürdü, aldı görək "Qobustanı" havasında nə dedi:

***Başına döndüyüm, ay mənim lələm,***
***Lələ, hanı bəs, Cahanım görünmür?***
***Aylar-illər həsrətini çəkdiyim,***
***Lələ, hanı bəs, Cahanım görünmür?***

***Dərin-dərin dəryalara daldığım,***
***Şirin canım eşq oduna saldığım,***
***Zülfünün muyunu, bəlkə, aldığım,***
***Lələ, hanı bəs, Cahanım görünmür?***

***Arı desən, qızıl güldən arıyam,***
***Duru desən, çeşmələrdən duruyam,***
***Abdullayam, mən Cahanın yarıyam,***
***Lələ, hanı bəs, Cahanım görünmür?***

Ağaxanın bu oxumağa acığı tutdu. Abdulla ona dedi:
– Ağa xan, pis oxudumsa, qoy yaxşısını oxuyum.
Aldı Abdulla dübarə:

***Əzəl başdan sənlə sevda eylədim,***
***Sənə verdim çox-çox nəsihət, könül!***
***Gözə qorxu yoxdu, dil başa bəla,***
***Gəl eylə başımı salamat, könül!***

***Yarı olan haçan dönər yarından,***
***Əlbət ki, utanar öz ilqarından.***
***Əcəl meydanından, can bazarından,***
***Haçan görünüb sapa zarafat, könül!***

***Apardım lələmi ağıl-huşundan,***
***Əlbət, doymaq olmaz yar baxışından.***
***Sənin bu işindən, bu tutuşundan,***
***Hələ çoxdu səngə əlamət, könül!***

Bu söz də Ağaxanın acığına gəldi. İstədi onu tutdurub zindana saldırsın. Lələ Abdullanın sazını əlindən alıb, dedi:
– A bala, sən söz demək bilmirmişsən. Niyə oxuyursan?!
Ağa xan dedi:
– Oxu, ancaq bir şərtim var.
– Nədi?
– Nə söz, nə hava oxusaz gərək mənim adıma bağlayasız. Gərək o havada, o sözdə mənim adım çəkilsin.
Dedi:
– Cavan oğlandı, şəyirdimdi, xahiş eləyərəm, sizin adınıza bağlayar havanı.
Aldı lələ "Çobanyaylağı" peşrov havası üstündə:

***Əlbəttə ki, düşər kəndi,***
***Hər kim quyunu qazar əyri.***

***Bir düzə bərabər olmaz,***
***Yığılsa səd həzər əyri.***

***Hər kəsin suçu özündən,***
***Salamsızın qaç üzündən,***
***Düşər mövlanın gözündən,***
***Kim düz baxıb, yazar əyri.***

***Lələ minər insan atı,***
***Gedər, görər qiyaməti,***
***İyidin olmasa zatı,***
***Gəzər leyli-nahar əyri.***

Ağaxan cavab verdi:

– Afərin, bax, sözü belə deyərlər. İndi durun gedək qız görüşünə. Sizi yaxşı yola salacağam. Amma, cavan oğlan, sənin ləfzin yaxşıdır, qızın yanında bir söz deyib, mənim adıma bağlarsan.

Abdulla dedi:

– Baş üstə!

Bunlar qızın otağına gedəndə Cahan xanım hamamdan gəlirdi. Bunlarnan qabaqlaşdılar. Ağaxan dedi:

– Aşıq, mənim toy elədiyim qız, bax, budu. Bir yaxşı söz de, mənim adıma bağla, səni razı eləyəcəyəm.

Abdulla dedi:

– Baş üstə!

Qız gördü Abdulladı, ona tərəf baxmaq istəyəndə, yel vurub rübəndini açdı. Abdulla aldı, görək "Qəhrəmanı" havası üstündə nə dedi:

***Sallana-sallana gələn salatın,***
***Tərlan təki süzüşündən bəllidi.***
***Bir yel əsdi, atdı rübəndi üzündən,***
***Canlar oda yaxışından bəllidi.***

***Sinən ağdı, Savalanın qarı nə?***
***Bundan artıq gözəlliyin karı nə?***

***Yumruluqda bənzər Kürdaş narına,***
***Ağ məmələr duruşundan bəllidi.***

***Zülf tökülüb yandan, qucubdu gərdən,***
***Abdullanın ağlı gedibdi sərdən.***
***Barilahim, özün saxla nəzərdən,***
***Bir Ay doğub, doğuşundan bəllidi.***

Təxəllüsünü Abdulla özünə deyəndə Ağaxan çox qəzəbləndi. Cahan xanım irəli keçib dedi:

– Xan, mərfətin olsun, sən buna nə xələt verdin ki, sözü sənin adına bağlasın?!

Xan sakit oldu, dedi:

– Yaxşı, gedək otaqda xələtini verərəm, sözü mənim adıma bağlarsan.

Qız bunlardan qabaq otağa getdi, pərdənin dalında oturdu. Ağaxan qabaqca içəri girdi. Ağaxan kef əhli idi, ayıq vaxtı olmazdı, dedi:

– Aşıq, tez sazı çıxart, üç söz de, mənim adıma bağla!

Abdulla dedi:

– Mənim gözüm üstə! Üç söz deyib, sənin adına bağlaram, arxayın ol!

Abdulla sazı götürdü, aldı görək “Zarıncı şıkəstə” havası üstündə nə dedi:

***Boyu mina, qəddi nazikbədən yar,***
***Yüz min işvə, nazın qurbanı canım!***
***Bir gülgəz yanaqlı, abi-ireyhan,***
***Oğrun baxan gözün qurbanı canım!***

***Əzəldən aşnaydıq, yad olduq nədən?***
***Mən sənə qurbanam, ay nazik bədən!***
***Girəydim qoynuna ta ki, sübhətən,***
***Şəhdü-şəkkər dilin qurbanı canım!***

***Alı aldı, qırmızısı al yanaq,***
***Əmmək üçün ləzzət verir bal dodaq.***
***Məmən dikdi, sinən bəyaz, gen qabaq,***
***Şəmsü-qəmər üzün qurbanı canım!***

***Abdullayam, var xəyalı yerində,***
***Ağlı, huşu, var kamalı yerində.***
***Zülfü, muyi, qəddi, dalı yerində,***
***Bu nişanda qızın qurbanı canım.***

Bu sözləri yenə də Ağaxanın adına bağlamadı. Ağaxan istədi onu qılıncla vursun, Cahan xanım pərdənin dalından çıxdı. Ağaxana dedi:

– Mərifətin olsun, aşığı pulnan döyərlər, yoxsa qılıncnan?

Ağaxan dedi:

– Mən səhv eləmişəm. Aşıq oxu!

Abdulla aldı, görək "Şirvan gözəlləməsi" havası üstündə nə dedi:

***Yarım mənə vədə verdi,***
***Dedi sən get, gəlirəm mən.***
***Hər zaman üzün görməsəm,***
***Yəqin bil ki, ölürəm mən.***

***Sevdiyim, süpür odanı,***
***Doldur, saqi, ver badanı.***
***Yarıma gələn qadanı,***
***Qızıl kimi alıram mən.***

***Miqdarı olmaz yalanın,***
***Ağlı olmaz çox gülənin.***
***Abdullayam, dərd bilənin,***
***Yüz il getsə, quluyam mən.***

Qarı şərbət paylayırdı. Ağaxan onun çənəsinin altından bir dürtmə vurdu, qarı dığırlanıb yıxıldı. Qız bərk pərt oldu, Ağaxana dedi:

– Ağaxan, qarını niyə vurursan? Qoca arvaddı, Allaha xoş gəlməz.

Ağaxan dedi:

– Mən o qədər əskik olmuşam ki, mənə şərbəti qarı verir, bəs sən özün niyə vermirsən?

Cahan xanım bu sözü eşidəndə pərdənin dalına keçdi, bir piyala şərbətin içinə bihuşdarı daxil elədi. Ustadlar belə deyərlər ki, bihuşdarı vaxtınandı. Qız piyaləni əlində tutmuşdu. Qorxusundan gətirib verə bilmirdi. Abdulla bunu gördü, götürüb "Qobustanı" havası üstündə dedi:

***Əzəl başdan məni dərdə salan yar,***
***Nə doğrusun söylər, nə saği neylər.***
***Eşqin piyaləsin tutub dəstində,***
***Doldurmuş zəhrnən, nə sağı neylər.***

***Katiblər dərs alar, vədə sin gözlər,***
***Ömür başa yetən vədə sin gözlər,***
***Məcnun da Leylinin vədəsin gözlər,***
***Baş verib xirqadan nəs ağı neylər.***

***Abdullayam, mən də yaram, o da yar,***
***Kimə gedim yar əlindən dada, yar.***
***Qiya baxdın, məni saldın oda, yar,***
***Nə doğrusun gözlər, nə sağı neylər.***

Cahan xanım gətirib bihuşdarını Ağaxana verdi. Ağaxan o saat bihuş olub, yerə yıxıldı. Cahan xanım əmr elədi, üç at hazır oldu. Atları minib, yola düşəndə, Qədəmnisə qarı lələyə dedi:

– O özününkünü aparır, bəs sən niyə özününkünü aparmırsan?

Lələ dedi:

– Mənim özümünkü kimdi?

Qarı dedi:

– Məni niyə unudursan?

İtələyib onu yerə yıxdılar, atları minib, yola düşdülər. Az getdilər çox getdilər, bir təpəyə çatdılar. Atlardan düşüb, dincəlməyə başladılar. Lələ təpəyə çıxıb, yollara baxırdı, bir də gördü, Ağaxanın qoşunu sel

kimi axıb gəlir. Lələ geri qayıdıb, gördü Abdulla ilə Cahan yatıblar, götürüb lələ, görək bunları “Orta şəşəngi” havası üstündə nə cür oyadır:

***Qalx ayağa, gör nə fikir elərsən,***
***Gələn cəlladlar da bu cana gələr.***
***Üz qoyubdu yollarına payəndaz,***
***Sər götürüb, mərdi-mərdana gələr.***

***Danışcaq gəlir qədəmə qədəm,***
***Hoyumuza yetişsin o şahi-kərəm.***
***Döyülür təbillər, sancağı ələm,***
***Bizləri gözlüyüb nişana gələr.***

***Lələyəm, məskənim çöllü-biyaban,***
***Öldürsələr məni, can sizə qurban.***
***Yazıq lələ deyər, gəlir Ağaxan!***
***Bizləri qoyubdu nişana, gəlir.***

Lələ ağladı, gözündən yaş Cahan xanımın üzünə düşdü. Cahan xanım oyanıb dedi:

– Lələ, niyə ağlayırsan?

– Ay qızım, mən ağlamayım kim ağlasın? Mən də cavan olmuşam, mən də sevmişəm, sevilmişəm, bu dağlarda o qədər ovlar eləmişəm. Bir söz deyim, yadında saxla. İnsan qocalanda əlinə yox, gözünə gücü çatar. Odu ey, Ağaxanın qoşunu çathaçatdadı. Abdulla köməksiz qalıb, kömək edə bilmirəm.

Bunu eşidən Cahan xanım tez Abdullanı “Bilal Şəşəngisi” havası ilə görək necə oyadır yuxudan:

***Dur, çağır Əli dostunu,***
***Oyan, Abdullahım, oyan!***
***Ağaxan kəsib üstünü,***
***Oyan, Abdullahım oyan!***

***Ağa xan qoşun gətirdi,***
***Mənzili başa yetirdi,***
***Qəvi düşmən güc gətirdi,***
***Oyan, Abdullahım, oyan!***

***Dalınca gəlmədi fərman,***
***Mən ollam dərdinə dərman.***
***Cahan xanım sənə qurban,***
***Oyan, Abdullahım, oyan!***

Abdulla yuxudan oyandı. Lələ dedi:

– Oğul, deyən bu qız ikidillidi, onlara da söz verib, bizə də. Dur, atımızı minib qaçaq.

Qız götürüb "Aran gözəlləməsi" havası üstündə dedi:

***Qoca, bil ki, qabağımızda gor gəlir,***
***Ölüncə düşərəm, dönmərəm, lələ!***
***Bizlərdə adətdi – birə bir gəlir,***
***Ölüncə düşərəm, dönmərəm, lələ!***

***Qaça bilmərik, düşmən bizi görübdü,***
***Bir-birinə müjdə xəbər veribdi,***
***Ölürəm deyəni kim öldürübdü?***
***Ölüncə düşərəm, dönmərəm, lələ!***

***Cahanam, məskənim çöldü, biyaban,***
***Öldürsən də məni, can sizə qurban.***
***Lələ də deyər: budu, gəldi Ağaxan,***
***Ölüncə düşərəm, dönmərəm, lələ!***

Söz tamama yetdi, Abdulla baxdı ki, Ağaxanın qoşunları çatıb. Tez Abdullanı dövrəyə aldılar. Camal bəy də başının atlılarıynan gəlib kənardan baxırdı. O vaxt belə bir qayda var idi: İki nəfər eyni vaxtda bir nəfərin üstünə getməzdi. Bu minvalnan Ağaxan nə qədər pəhləvan

göndərirsə, Abdulla hamısını məğlub eləyir. Axırda qoşunda pəhləvan qalmır. Qoşun əhli yığışır ki, Ağaxan, daha qoşunda pəhləvan qalmadı, Abdulla hamısını məğlub elədi. İndi sən özün çıx Abdullanın meydanına, salamat qalan Cahan xanımı alsın. Ağaxan qoşundan ar eləyib, meydana çıxdı. Ağaxanın vəziri çox tədbirli adam idi. Ağaxan meydana çıxan kimi, tez meydanın ətrafında xəndək qazdırdı. Bildi ki, Abdullanı xəndəyə salmasalar, tutmaq olmayacaq.

O gecə qız yuxuda görmüşdü ki, Abdulla bir dərəyə düşüb, əlini uzadır, heç şeydən tuta bilmir. Qız başa düşdü ki, Abdullanın başında bir xəta olacaq. Abdulla atını minib meydana gedən vaxt aldı Cahan xanım, görək "Qəhrəmanı" havası üstündə nə dedi:

***Getmə, getmə, bir bəri dön, sevdiyim,***
***Qoy verim, qalmasın amanatın, yar!***
***Qorxuram ki, bir də səni görməyim,***
***Onunçün eylərəm vəsiyyətim, yar!***

Aldı Abdulla:

***Ağlama, ağlama, bağrım qan olu,***
***Bağrım başı doldu fəğanınan, yar!***
***Üzmə əlin məndən, kəsmə ümidin,***
***Get, sövdanı eylə sübhanınan, yar!***

Aldı Cahan xanım:

***Gəlsin yazın, yaz-baharın qış olsun,***
***Seyrağıbın işi yaman iş olsun.***
***Qorxuram, görşümüz bu görüş olsun,***
***Əl uzat, dəstindən mən də tutum, yar!***

Aldı Abdulla:

***Bağça sənə, bağban sənə, bağ sənə,***
***Alma sənə, heyva sənə, nar sənə,***
***Mən öləndə vəsiyyətim var sənə,***
***Sarmaşmaynan qara tikanınan, yar!***

Aldı Cahan xanım:

***Mən Cahanam, dərdə dözdürə bilməm,***
***Sirrim seyrağıba sezdirə bilməm.***
***Sənsiz bu canımı gəzdirə bilməm,***
***Qoy qanım qanına mən də qatım, yar!***

Aldı Abdulla:

***Abdullayam, sirrə sirdaşım gərək,***
***Ümmana qarışan gözyaşım gərək.***
***Bu günümdə qoçaq qardaşım gərək,***
***Gör, nə dava eylərəm Şirvanınan, yar!***

Söz tamama yetdi. Abdulla meydana çıxdı. Ağaxan hələ gəlməmişdi, götürüb "Naxçıvanı" havası üstündə dedi:

***Çağırdım mövlamı, girdim meydana,***
***Gəlirsən meydana, gəl indi, gəl, gəl!***
***Meydanı boyaram zərəfşan qana,***
***Gəlirsən meydana, gəl indi, gəl, gəl!***

***Yeridi Şirvan, qətlə fərman ya mənim,***
***Əzbərimdi şiri-yəzdan ya mənim.***
***Cahan xanım ya sənindi, ya mənim,***
***Gəlirsən meydana, gəl indi, gəl, gəl!***

***Abdulla meydanda, Şirvan oynar,***
***Qalxan gumbuldanı, şəmsitan oynar.***
***Axar bu meydanda qızıl qan, oynar,***
***Gəlirsən meydana, gəl indi, gəl, gəl!***

Ağaxan meydana çıxıb dedi:
– Fürsət sənindi, mənim?
Abdulla dedi:
– Biz fürsəti hərifə verərik.
Bir qılınc vurmağı qərara aldılar. Ağaxan üç qılınc vurdu. Abdulla

dedi:

– Niyə qərarımızı pozdun? Sən mənə üç qılınc vurubsan, onun birini Allaha bağışladım, birini də baxan camaata. Mən sənə bircə qılınc vuracam. Atalardan məsəl var: nər maya üstə qızar.

Abdulla atı hərləyəndə baxdı ki, Ağaxan qaçır. Abdulla onun dalınca gedəndə xarıma düşdü, Abdullanı tutdular. Ağaxan istədi Abdullanı öldürsün, camaat qoymadı. Abdullanı ağaca sarıdılar.

Lələ Abdullanın tutulduğunu görüb, aldı, görək Cahan xanıma "Cəlili" havası üstündə nə dedi:

***İndi belə sən gör lələnin günün,***
***Şadlıq xəbərini vaya yetirdi.***
***İlk deyil taxsırı, çox günahkardı,***
***Verdiyim əməyi zaya yetirdi.***

***Çətin bu yaralar sağala bilə,***
***Sinəmin üstünü dağ ala bilə.***
***Nə vətənə gedə, nə qala bilə,***
***Əcəl məni bu səhraya yetirdi.***

***Et gözüm önündən pünhan atanı,***
***Sən mənə qannısan, mən sənə qannı.***
***Qiyasınan oldum mən lələ qannı,***
***Cahan Abdullanı baya yetirdi.***

Bu, burada qalsın, Camal bəyin yanında Qanlı Turab adında bir kişi var idi, ərəsbərli idi. Əlindən xəta çıxmışdı deyin, gəlib Camal bəyin yanında yaşayırdı. İş belə olanda Camal bəy Qanlı Turaba bir kağız verib dedi:

– Apar, bu kağızı Qiyas vəzirə ver. Sənin günahından keçəcək. Qanlı Turab yola düşüb, yel kimi getdi. Qanlı Turab gedən zaman lələ Cahan xanıma demişdi:

***Mütrübü xoş xannar nama eylədi,***
***Şükür, şəfa tapdı yaradan canım.***

***Xəyalım könlümü viran eylədi,***
***Sübhü şam sızıldar yaradan canım.***

***Böyük mina qırıblar, batıb qənara,***
***Yar, əllərin əcəb batıb qənara,***
***Yar gəzməyən yerlər qalsın verana,***
***Yarsız da verməsin yaradan canım.***

***Biçarə Lələyəm, səndən alıram,***
***Səndən yaralıyam, səndən alıram.***
***Abdulla qısasın səndən alıram,***
***Əyər olmasan yaradan canım.***

O biri tərəfdən Qiyas vəzir də qoşunla oğlunu axtarmağa çıxmışdı. Gördü ki, Qanlı Turab boğanaq kimi gəlir, dedi:

– Onda bir xəbər var.

Qanlı Turabı tutdular. Qanlı Turab kağızı Qiyas vəzirə verdi, ona çoxlu ənam verdilər. Bunlar getməkdə olsun, aldı qız, görək “Sallama gəraylı” havası üstündə nə dedi:

***Ağaxan, boynun qırılsın,***
***Ayırdın o yarı məndən.***
***Qarı düşmən güc gətirdi,***
***Aldı ixtiyarı məndən.***

***Al eylədin, inandırdın,***
***Yarı yardan usandırdın,***
***Çərxi-fələk, dolandırdın,***
***O çərxi-qəddarı məndən.***

***Cahan dözəmməz bu dağa,***
***Bülbülüm qonmaz, budağa.***
***Yarsız girmərəm otağa,***
***Tanrı alsın canı məndən.***

Söz tamama yetən kimi Cahan xanım gördü, budu, Qiyas vəzirin qoşunu gəlib çıxdı. Tez Ağaxanın qoşununu dövrəyə aldılar. Ağaxanın qoşunu təslim oldu. Özünü də tutdular. Abdullanın da əlini-qolunu açdılar. Vəzir fikirləşdi ki, mən bu boyda ölkənin vəzriyəm, bir Ağaxanı tutsam neyləyəcəm? Ağaxanı yanına çağırıb dedi:

– Ağaxan, sən bilirsənmi sevgi-məhəbbət Allahın bir nemətidi, onun qarşısına keçmək olmaz. Bir də belə səhv eləmə.

Bunu deyib, Ağaxanın günahından keçdi, oğlu Abdullanı, Cahan xanımı, bir də lələni götürüb geri qayıtdılar. Qırx gün qırx gecə Abdullaya toy elədi. Toyun qırxıncı günü bir danəndə azman sənətkar gəldi, bu duvaqqapmaynan toyu bağladı. Görək "Müxəmməs" havası üstündə necə oxudu:

***Çəkilibdi qüdrətdən,***<br>
***qaşları qarə gözəl!***<br>
***Bir neçə qurban demişəm,***<br>
***sən gözü xumara, gözəl.***<br>
***Endirdikcə kirpiklərin,***<br>
***bağrım edib yarə, gözəl.***<br>
***Eşqin məni Məcnun edib,***<br>
***salıbdı dəllalə, gözəl.***<br>
***Bu eşqin loğmanı sənsən,***<br>
***eylə dərdə çarə, gözəl!***

***Qara qaşın, gülər üzün,***<br>
***şövqü düşüb ağ buxağa.***<br>
***Ağız süddü, dodaq qaymaq,***<br>
***yaraşır qaymaq dodağa.***<br>
***Məskən salım sinən üstə,***<br>
***əyləşək qabaq-qabağa.***<br>
***Bir-birinə mehribandı,***<br>
***can elə dosta sadağa.***<br>
***Əl atdım, yetişmədi,***<br>
***əfsus bir cüt nara, gözəl!***

***Sərraf mənəm, bəyənmişəm,***
***gözəllərin maralını.***
***Süzgün baxıb, qəsd eləmə,***
***kəsmə səbri-qərarımı.***
***Gözəllərin adətidi,***
***sızıldadar yaralını.***
***Hüseyn[1] dərd əhlidir,***
***tanıyır dərdli, yaralını.***
***Ya canın al, ya şəfa ver,***
***rəhmi qıl bimarə, gözəl.***

***Dastan Elman Talıstanlı və Babək Şakirlinin dilindən 2021-ci ildə yazıya alınıb.***

***1. Müxəmməs Hüseyn Şəmkirliyə (1811-1891) məxsusdur.***

## AŞIQ HÜSEYN VƏ REYHAN XANIM

Ustadlar dastanı başlamazdan əvvəl ustadnamə deyərlər, biz də deyək bir olsun, dinləyənlərin ömrü nur olsun:

***Bir adam ki sənlə ülfət eyləsə,***
***Yəqin onun əsil-zatı yaxşıdır.***
***Namərd sənə quzu-plov yedirtsə,***
***Mərdin quru məhəbbəti yaxşıdır.***

***Dad, hazar çəkərəm pərgarsız sazdan,***
***Ver, qurtar əlindən nəzir-niyazdan,***
***Söyləgən qarıdan, gəzəyən qızdan,***
***Güləyən gəlindən lotu yaxşıdır.***

***Aşıq olan sözün söyləyər başdan,***
***Sallabaş adamdan, ürəyi daşdan,***
***Bədnəzər qonşudan, bədcins yoldaşdan***
***Qədirbilənlərin iti yaxşıdır.***

***Aşıq Hüseyn söylər kəlməni teydən,***
***Dərsimi almışam əlifdən, beydən.***
***Bəzəksiz otaqdan, gözəlsiz öydən,***
***Çölün, biyabanın otu yaxşıdır.***

Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, düşmənlərin gözü tökülsün:

***Qafil könül, bir məclisə varanda,***
***Ver qadağa acı dilə, danışma.***
***Hərcayı söyləmə, hərcayı demə,***
***Laf eyləyib gülə-gülə danışma.***

***Aşıq gərək bir məclisdə sayılsın,***
***Sözünü eşidən qansın, ayılsın.***
***Kəlmə çıxart, şirin cana yayılsın,***
***Aşırıb sözünü, zilə danışma.***

***Yazıq Söyün, əhdin yetər yerinə,***
***Könül bağla aşıqların pirinə.***
***Çək sözünü həqiqətə, dərinə,***
***Bir qədirbilməzə belə danışma.***

Ustadlar ustadnaməni iki deməzlər, üç deyərlər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun:

***Dəli könül, məndən sənə əmanət,***
***Demə bu dünyada qalım yaxşdı.***
***Bir gün olar, qohum-qardaş yad olar,***
***Demə ulusum var, elim yaxşıdı.***

***Bir məclisə varsan, özünü öymə,***
***Şeytana baş çevir, kimsəyə söymə,***
***Qüvvətli olsan da yoxsulu söymə,***
***Demə ki, zorluyam, qolum yaxşıdı.***

***Qoçaqdan olubsan, qoçaq olgunan,***
***Qadadan, baladan qaçar olgunan,***
***Aşıq ol, comərd ol, alçaq olgunan,***
***Demə varım çoxdu, pulum yaxşıdır.***

***Xəstə Qasım kimə qılsın dadını,***
***Canı çıxsın, özü kəssin odunu,***
***Yaxşı igid yaman etməz adını,***
***Çünki yaman addan ölüm yaxşıdı.***

Qulluğunuza ərz eyləyim İrəvandan. İrəvanda Alı bəy deyilən mötəbər bir şəxs varmış. El-camaat ən çətin işlərdə onunla məsləhətləşər, ona qulaq asarmışlar. Onun Reyhan adında gözünün ağı-qarası gözəl bir qızı varmış. Alı bəy qızının savadı ilə dərindən və cani-dildən məşğul olur. Təbabət elmləri ilə yanaşı, dini elmləri də bir axundun yanına qoyub öyrətdirir. Qız o qədər savadlı olur ki, ən elmli adamlarla mubahisəyə girişir. Alı bəy mötəbər məclislərdə söhbətində həmişə qızı Reyhanı da əyləşdirir. Qız böyüdükcə də gözəlləşir. Atası ona bir neçə kəniz də tutur. Qızlar Reyhanı qəm-qüssədən qoruyur, ona maraqlı söhbətlər eləyir, hərdənbir bağa gəzməyə aparırlar. Amma vaxtı çatdığından elmlə gözəllik qızda təlatum eyləyir. Reyhan xanım hərdən toylara gedir, aşıqlara qulaq asır, aşıqların söylədiyi eşq dastanlarını öyrənir. Özü də hərdən zümzümə eyləyir. Nəhayət, bir cürə saz də aldırır. Ona yaxşı bər-bəzək vurdurur. Lampanın, günün işığında cürənin şövqü Reyhan xanımı daha da gözəlləşdirir. Reyhan xanımın da şövqü cürəni gözəlləşdirir. Kim elçiliyə adam göndərsə də, Reyhan xanım heç kəsi bəyənmir.

Günlərin bir günü Alı bəy qəfildən bərk xəstələnib dünyasını dəyişir. Reyhan xanım bərk qübarlanır. Üç il evdən bayıra çıxmır.

Bir gün ağlına belə bir fikir gəlir; mən də dastanlardakı qızlar kimi, buraya gələn aşıqlarla deyişib, sazlarını əllərindən alacam. Hansı da məni bağlasa, ona ərə gedərəm.

Bu qədər ki o, oxumuşdu, doğrusu, eyninə gəlmirdi ki, onu bağlayan olar. Ona görə də kənizlərinə, nökərlərinə göstəriş verir ki, əlinizə aşıq keçən kimi, tutun mənim yanıma gətirin. Ya gərək mənimlə deyişə, ya da sazını əlindən alıb, özünü də qabağımda qul edəcəyəm.

Bu minvalla İrəvan ətrafında nə ki aşıq vardı, hamısını bir-bir bağlayıb, sazlarını əllərindən alır. On səkkiz aşığı bəndə salır. Yenə də gözdə-qulaqda olur ki, birdən kamil aşıq gələr. Belə-belə Reyhan xanımın sözü-söhbəti bütün Qafqaza yayılır. Çox aşıqlar qorxusundan İrəvana getmir ki, Alı bəyin qızının əlinə keçər.

İndi sizə deyim, bəndə düşən aşıqlardan. Reyhan xanım onlara çox əziyyət verdirirdi. Gah qapı təmizlətdirir, gah arx çəkdirir, gah quyu qazdırır, gah da bağ becərtdirir, yer əkdirirdi. Aşıqlar bu işlərdən lap

təngə gəlmişdilər. Bir gün istirahət edərkən fikirləşirlər ki, biz nə vaxta qədər belə qara günlə dolanacağıq. Gəlin, yada salaq, görək bizi bu əziyyətdən kim qurtara bilər. Yadlarına düşdü ki, Şəmkir mahalında Hüseyn adlı bir ustad aşıq var. Dünyanın bütün sirlərinə bələddi. Hələ onun qabağına çıxan olmayıb. Bəli, qələm-kağız tapıb aşıq Hüseynə belə bir məktub yazırlar: "Aşıq Hüseyn, aman günüdü, gümanımız bir sənə gəlir, İrəvanlı Alı bəyin qızı gözəl Reyhan xanım bizi bəndə salıb. Gəl, bizim canımızı onun əlindən qurtar, özünü də, bağlayıb, farağat elə."

İrəvanda Kalvalı bəy adında bir bəy də vardı. Bu xəbəri bu da eşitdi. Götürüb bu da Aşıq Hüseynə bir kağız yazdı: "Aşıq Hüseyn, gəl mənim xətrim üçün bu aşıqları burdan qurtar".

Reyhan xanım öyrəndi ki, aşıqlar Aşıq Hüseyn Şəmkirliyə kağız yazıb, o da yəqin gələcək. Reyhan xanım tədbirli xanım idi. Qabaqdan gəlmişlik edərək, özü də Aşıq Hüseynə bir kağız yazıb, onu sənət meydanına deyişməyə çağırdı.

Görək Reyhan xanım Aşıq Hüseynə nə yazır:

***Kağız, gedər olsan Aşıq Hüseynə,***
***İbtida bismillah, bu meydana, de, gəlsin!***
***Aşıqlıq elmindən xəbərdardısa,***
***Qəvvas isə, mən ümmana, de, gəlsin!***

***Ağalar ağası ona yar isə,***
***Divani, təcnisdə yükü var isə,***
***Sinədən deyənsə, təbidar isə,***
***Xırıd olsun dür-əfşana, de, gəlsin!***

***Səhər-səhər doğan dan ulduzuyam,***
***Aşıqların söhbətiyəm, sazıyam.***
***İrəvanda Alı xanın qızıyam,***
***Adım bilsin, İreyhana, de, gəlsin.***

Söz tamama yetən kimi, kağızı qoydu zərfin içinə, bərk tapşırıq verdi: – "Durmayın, görün karvansarada Gəncə adamı varmı?" Çünki,

Aşıq Hüseynin vaxtında dəmiryolu yox idi. Karvansaradan arabaçı İrzanı tapıb gətirdilər. Reyhan xanım çıxardıb arabaçı İrzaya 10 manat pul verdi və dedi: "Xahiş edirəm ki, bu kağızı, mən sənə verən kimi, sən də aparıb Aşıq Hüseynin özünə çatdırasan, özgə əlinə düşməsin!". Arabaçı İrza sevindi. Niyə? Çünki bir dəfə səfərə gedəndə heç on manat qazanmırdı. Kağızı götürüb yol başladı Gəncəyə. Gəlib bir evdə neçə gün qaldı Gəncədə, öyrəndi ki, onun axtardığı Aşıq Hüseyn Şəmkirli Şəmkirin Qaracaəmirli kəndində olur. Dincələndən sonra kağızı götürüb gəldi Qaracaəmirliyə – Aşıq Hüseynin yanına. Aşıq Hüseynin özü savadlı idi, kağızı açıb oxuyub dedi: – "Evin tikilsin, bu kağızı niyə gətirdin, orda nə gəzirdin?" İrza kişi dedi: – "Evin də tikilsin, çırağın da yansın! Əgər aşıqsan, get, o aşıqlar yazıqdır, zindandan qurtar!"

Arabaçı Rza sözünü deyib geri qayıdır. Aşıq Hüseyn bir saat özünə gələ bilmir. Xeyli bayırda qalıb fikirləşir:

– Mən ustadıma deməmiş, məsləhət görməmiş getsəm, düzgün olmaz. Ustadıma deməliyəm.

Aşıq Hüseynin ustadı Alabaşlı kəndində yaşayan Kərbəlayı Bağır idi. Bir müddət aşıqlıq eləmişdi. Hətta "Məzlum" ləqəbi ilə qoşmalar da demişdi. Amma indi qocaldığından aşıqlıq eləmir, dəmirciliklə məşğul olurdu.

Aşıq Hüseyn atını minib ustadının yanına gəlir və uzaq səfərə getmək üçün xeyir-dua istəyir. Ustad səfərin məqsədini soruşarkən Aşıq Hüseyn ustadına "Dərvişi" havası üstündə belə cavab verir:

***Əxim, nuri-didəm, ustadım Məzlum,***
***Bir qız məni İrəvana istəyib.***
***On səkkiz aşığı salıbdı bəndə,***
***Gözü yolda, yana-yana istəyib.***

Kərbəlayı Bağır hirslənib deyir:

– Əyə, zalım oğlu, mən ki sənə bu qədər zəhmət çəkmişəm, onu niyə itirirsən? Hərçənd tövbə eyləmişdim ki, əlimə daha saz almayacam, amma sən məni daha məcbur etdin!

Kərbəlayı Bağır sözünü qurtarıb içəridən sazını gətizdirir. Alır, görək

Aşıq Hüseynə “Oğuzoğlu” havası üstündə nə cavab verir:

***Salam-duan gəldi, ey nuri çeşmim,***
***İstəyibdi, o meydana getginən.***
***Məndən dərs almısan, tanıram səni,***
***Oğul, qorxma, sən mərdanə getginən.***

Aşıq Hüseyn:

***Arif məclisində açıbdı meydan,***
***Yaş yerinə didələrim tökər qan.***
***Bir bəyin qızıdır, adıdır Reyhan,***
***Çox baş alıb, yekəxana istəyib.***

Məzlum:

***Bir bəy qızıdırsa, hökmü nəhəngdir,***
***Salıbdır araya, nə qovğa, cəngdir.***
***Oxuduğun kitab sənə köməkdir,***
***Əbruləri ol kamana getginən.***

Aşıq Hüseyn:

***Aşığı öldürür işvəsi, nazı,***
***Şirindir söhbəti, şirindir sözü.***
***İrəvanda olur o bəyin qızı,***
***Hüseyni imtahana istəyir.***

Məzlum:

***Məzlum səni istər hər leyli-nahar,***
***Qocalmışam, əldən gedib ixtiyar.***
***Dağıt qalasını, eylə tarimar,***
***Əyan eylə hər divana, getginən.***

Düşmənin ömrü tamam olsun, söz tamama yetişir. Aşıq Hüseyn halal-hümmət eyləyib, öz ustadından ayrılır. Birbaşa gəlir öz evinə. Arvadına deyir:

– Arvad, mənim bir uzaq səfərim var, yaylaq köçü olanda həmişə fəsəli birşirərlər. Zəhmət çək, mənə tədarük gör, uzaq yol gedəcəm.

Arvad soruşur:

– Səfərin haradır, ay Hüseyn?

– Arvad, İrəvana gedəcəm. Orda Reyhan xanım adlı birisi məni söz meydanına çağırıb.

Neçə vaxt idi ki, Aşıq Huseyn evindən-eşiyindən çıxıb Dərbənd tərəfə toya getmişdi. Oradan qayıdan kimi birbaş Tiflisə qonaqlığa aparmışdılar.

Cəmi bir gün idi ki, gəlmişdi. Yəni arvad-uşaq sevinirdi. İndi də İrəvandan Reyhan xanım çağırmışdı. Elə buna görə də arvadın bərk acığı tutub, deyir:

– Sənin bu səfərin heç mübarək olmasın!

Aşıq Hüseyn arvadını çox istəyirdi. Odur ki, xətrinə dəymirdi. Soruşur:

– Arvad, bu alqışın da səbəbini izah eləsən pis olmaz.

Arvad deyir:

– Ay rəhmətliyin oğlu, ilimiz üç yüz altımış altı gündür, heç olmasa, bunun bir həftəsini də öz evində otur!

Aşıq Hüseyn deyir:

– Axı, ay arvad, birini bilirsən, birini də bilmirsən, olmaz!

– Niyə olmur ki?

– Ona görə olmaz ki, on səkkiz aşığın gözü yollardadır. Məni gözləyirlər. Gərək gedib onları qurtaram.

Bunu eşidəndə arvad bir qədər yumşalır, deyir:

– Neyləyim, gedirsən get, uğur olsun!

Tez aşıq Hüseyn bir-iki beçə kəsir, arvad da el-ayar eləyir, onları soyutma bişirirlər, yuxa, fəsəli hazırlayırlar.

Hər şey hazır olanda Aşıq Hüseynin ürəyi kövrəlir, gəlir arvadının yanına, sazı köynəyindən çıxarıb "Qaytarma" havası üstündə yanıqlı-yanıqlı oxumağa başlayır:

***Yarı-vəfədarım, gəl, halallaşaq,***
***Ərzim budur, İrəvana gedirəm.***

***Bu, ağır səfərdir, gedən qayıtmaz,***
***Dolubdur peymanam, qana gedirəm.***

***Qonum-qonşu, camaatla düz dolan,***
***Çöl-bayıra çıxma, çölə az dolan,***
***Gözyaşınla bağla dəftər, yaz, dolan,***
***Getməz idim, mən peymana gedirəm.***

***Yar gərəkdir, olsun yara vəfadar,***
***Ərz edirəm könlümdə hər nəyim var:***
***Əbəs yerə çəkmə məndən intizar,***
***Mərd-mərdana, o meydana gedirəm.***

***Gəl, sənə söyləyim, sözümün düzü,***
***Sinəmə salıbsan bir yanar közü.***
***Alim də olsa o Alı bəy qızı,***
***Söz vermişəm o canana, gedirəm.***

***Hüseynəm, söz ilə doludur sinəm,***
***Yaraşmır o qara gözlərinə nəm.***
***Tanrıdan bir sağlıq, bir yol istərəm,***
***Mətləbimi qana-qana gedirəm.***

Sözünü tamamlayıb, Aşıq Hüseyn atın belinə qalxır, ayaq üzəngiyə, diz qabırğaya qoyub, yəhərin üstündə qərar tutur. Günə bir mənzil, təyyi-münəzzil, yol gedib Böyük Yoxuşdan aşır. Gəlib Göyçə mahalına çıxır. Sədənəxas kəndinə çatanda qaranlıq düşür. Gecə burada bir tanışın evində dincəlib səhəri yenə yoluna davam eləyir. Axşamatan at sürüb, Göyçə gölünün kənarındakı Ərkülü kəndinə çatır.

Gün batabat vaxtı Aşıq Hüseyn öz-özünə fikirləşirdi ki, burda indi kimə qonaq qalım, dostum yox, tanışım yox. Bu fikirlə kəndin içərisi ilə at sürürdü. Bir də görür ki, bir adam səbətə saman doldurub aparır. Atını sürüb özünü ona yetirir. Salam verir. Həmin adam Aşıq Hüseynə zəndlə baxıb salamını alır. Deyir:

– Aşıq Hüseyn, xoş gəlibsən!

Aşıq Hüseyn soruşur:

– Çox sağ ol, qardaş, bəs, sən məni nə tanıyırsan?

– Sən bizim kənddə söhbət eləyəndə görmüşəm. Sənə çox qulaq asmışam. O vaxtdan tanıyıram. Buyur, gedək, mənim qonağımsan.

Aşıq Hüseyn sevinir ki, Allah elə yaxşı rast saldı. Mən qonaqçı axtarırdım, bu özü minnətçi oldu.

Kişi Aşıq Hüseyni evinə qonaq aparır, nə ki lazımdı, ona hörmət eləyir. Yemək-içməkdən sonra iki nəfər oğlan içəri girir, sonra ev yiyəsini kənara cəkib nəsə deyirlər. Onunla nə isə danışırlar. Söhbətin arası kəsiləndə Aşıq Hüseyn ev sahibindən soruşur ki, bu oğlanlar kimdir, nə deyirlər?

Ev sahibi deyir:

– Bilirsənmi, Aşıq Hüseyn, bizim kənddə toy var, buraya gələndə səni görüb tanıyıblar. İndi bu oğlanlar sənin dalınca gəliblər ki, gərək toya gedək.

Aşıq Hüseyn deyir:

– Bilirsənmi, qardaş, mən gedə bilmərəm. Çünki səfərim var.

– Aşıq Söyün, bilirsənmi, toy eyləyən adam bu yerin ağasıdır, əgər getməsən, bir bəhanə ilə mənim tufağımı dağıdar. İndi mən səni məcbur eləyə bilmərəm, özün bilirsən.

Aşıq Hüseynin əlacı kəsilir, ayağa qalxır, sazını da götürüb gələnlərlə birlikdə, ev sahibini də götürüb toya gedir.

Aşıq Hüseyn toy qapısından içəri girəndə görür camaat taxtda əyləşib onu gözləyir. Oturanlar bir ağızdan:

– Aşıq, xoş gəlmisən! – deyirlər.

Zurnaçıların səsini kəsdirirlər ki, siz gedin bir qədər də arvadların məclisində çalın. Qoyun, aşığa qulaq asaq. Zurnaçılar öz dəstəsini arvadlar məclisinə çəkirlər. Aşıq Hüseyn sazını çıxarıb kökləyir, zilini zil, bəmini bəm eyləyib camaata baxır. Görür, heç kəsdən səs çıxmır. O da bildiyi, sevdiyi havalardan çalıb-oxuyur. Bir vaxt gözünü açıb görür qapıdan bir bölük qız-gəlin içəriyə doldu. Hamısı da al-qumaş, xara, tirmə şal geyinib. Bunları görəndə Aşıq Hüseyn daha da cuşa gəlir, ucadan oxumağa başlayır.

İndi sizə xəbər verim bu dəstədən. Bu, Həsən ağanın qızı Nazlı xanımın dəstəsi olur. Eşidirlər ki, kişilərin məclisinə aşıq gəlib. Nazlı xanımın təklifi ilə yığışıb buraya gəlirlər. Aşığa diqqətlə qulaq asırlar, kefləri açılır. Söz-söhbət qurtaranda Nazlı xanım belə bir tapşırıq verib gedir:

– Heç kəsin ixtiyarı yoxdur ki, bu gecə aşığı öz məclisinə aparsın. O, bu gecə mənim qonağımdır.

Camaat dağılanda Aşıq Hüseynin qonaqçısı dillənir:

– Aşıq Hüseyn, yedik-içdik, toyumuzu da elədik, di dur, gedək evimizə, dincələk.

Elə bunu eşidən kimi, bir nəfər oğlan sağ yandan dillənir:

– Heç kəs bu gecə aşığı aparmasın, aşıq bu gecə Nazlı xanımın qonağıdır, tapşırıb gedib.

Aşıq Hüseynin qonaqçısı bir söz deməyib, Aşıq Hüseynin üzünə baxır, çiyinlərini çəkir, deyir:

– Aşıq Hüseyn, çağrılan yerə ar eləmə, get!

Bəli, Aşıq Hüseyn də ar eləməyib, gedir. Qapıdan içəri girəndə otağa nəzər salır. Baxır ki, bir bəzək vurublar gəl görəsən, elə bil bayramdı. Sazını bir səmtə qoyub oturmaq istərkən su gətirirlər. Aşıq Hüseyn əl-üzünü yuyur, qurulayır, keçib əyləşir. Süfrə açılır, xörək-çörək gətirilir. Görür bu süfrə gündə gördüyü süfrələrə bənzəmir, bu, çox baha başa gələn süfrədir, dünyada nə nazü-nemət istəsən burda tapılar. Yeyib-içdikdən sonra süfrə yığışdırılır. Aşıq Hüseyn qulluq eyləyən adamdan soruşur ki, bu ev yiyəsi, mənə bu qulluğu göstərən, qonaqlığı eyləyən kimdir? Niyə görünmür, özü hanı? Həmin adam xoş təbəssümlə cavab verir ki, aşıq, yat sabah görərsən, sənə hər şey aydın olar.

Aşıq Hüseyni fikir aparır. Gecə səhərə qədər yerin içində o yana-bu yana dönməkdən təngə gəlir. Bir də gözünü açanda görür gün günortaya az qalıb. Tez-tələsik qalxır, paltarını geyir, əl-üzünü yuyur, yenə süfrə arxasında əyləşir, çay-çörək yedikdən sonra süfrə yığışdırılır. Aşıq Hüseyn öz-özünə fikirləşir ki, bu nə iş idi mən düşdüm? Hara gedirdim, haraya gəlib çıxmışam. Aşıq Hüseyn bu fikirdə ikən birdən sağ yandakı qapı açılır. Bir nazənin sənəm içəri girir. O qədər gözəldir ki, deməklə başa gələn deyil: gəl məni gör, dərdimdən öl, əlini vurma, gendə durma,

boynunu burma, sən orada köksünü ötürmə, mən burada! Aya deyir, mən çıxmışam, sən niyə çıxırsan? Günə deyir, mənim şövqüm dünyaya bəs edər, sən get işinə. Aşıq Hüseyn mat-məlul qalır. Nitqi tutulur, bir kəlmə danışa bilmir. Nazənin özü də bunu hiss edir. Onu bu ağır vəziyyətdən qurtarmaq üçün əvvəlcə özü dillənir:

– Aşıq Hüseyn, haraya gedirsən, səfərin haradır?

Aşıq Hüseyn cavab verir:

– İrəvana, bəy qızı Reyhan xanımla deyişməyə gedirəm.

– Hə, onun adını mən də eşitmişəm, gəl, bu yoldan dön, getmə, qal burada sənə nə cah-cəlal deyirsən, yaradım.

– Yox, xanım, üz vurmayın, yolçu yolda gərək, yolumu gözləyənlər var, gərək mütləq gedəm.

– Məndən təklif etməkdir, cavan adamsan, gedib tora düşərsən, peşiman olarsan, gəl, getmə!

Qız nə qədər cəhd göstərirsə, Aşıq Hüseyn öz sözünün üstündə möhkəm dayanır. O, hiss edir ki, bayaqdan bəri hüsnü-camalına heyran olduğu bu nazənin xanım ona aşiq olub. Ona görə də buraya dəvət eyləyib, öz malikanəsini, səliqəsini göstərmək istəyir. Amma kişidə söz bir olar. Aşıq Hüseyn tamahına üstün gəlir, getmək qərarında qalır.

Qız deyir:

– Aşıq Hüseyn, mən öz təklifimi elədim, sən də buna razı qalmadın. İndi ki, belədi, onda mənim də bir neçə kəlmə sözüm var, onlara cavab ver, bilək ki, doğurdan da Reyhan xanımı bağlaya biləcəksən.

Aşıq Hüseyn gözləmədiyi bu vəziyyətdən çıxmaq üçün nə qədər çıxış yolu axtarırsa, bacarmır. Razılaşır. Nazlı xanım öz cürəsini divardan endirib sinəsinə basır, alır görək "Mirzəcanı" havası üstündə Aşıq Hüseynə nə deyir, aşıq ona necə cavab verir. Biz onların əvəzindən deyək, siz də şad olun!

Nazlı xanım:

***Başına döndüyüm, Aşıq Hüseyn,***
***Gəlsən, getməyəsən belə yola sən!***
***On səkkiz aşığı salıbdır bəndə,***
***Salam verməyəsən o çəpələ sən!***

Aşıq Hüseyn:

***Başına döndüyüm, ay Nazlı xanım,***
***Vətənimdən çıxıb, düşdüm yola mən.***
***Əziz yeyib, əziz geyib gəzmişəm,***
***Tifilkən düşmüşəm eldən-elə mən.***

Nazlı xanım:

***Bu qarda, boranda, belə ayazda,***
***Məsləhətin nədir bu doğru sözdə.***
***Yeddi qaçaq durub Dərələyəzdə,***
***Qorxuram düşəsən əldən-ələ sən.***

Aşıq Hüseyn:

***Alim-üləmadan, mərddən, qoçaqdan,***
***Dərsimi almışam göydəki Haqqdan.***
***Bəzirgan deyiləm, qorxam qaçaqdan,***
***Onları tutaram şirin dilə mən.***

Nazlı xanım:

***Gəl, rədd etmə mən xanımın sözünü,***
***Haqq çıxartsın düşmanların gözünü.***
***Nazlı xanım – Hasan xanın qızını***
***Alıb, bizim bu yerlərdə qalasan.***

Aşıq Hüseyn:

***Məhəmməd Məkkədə götürdü tacı,***
***Getdi ərşə-gürşə, buldu meracı.***
***Aşıq Hüseyn der: "Sən mənə bacı",***
***Əlimi vermişəm qeyri ələ mən.***

Söz qurtaran kimi, xanımın acığı tutdu. Dedi: – "Aşıq Hüseyn, ölsən də, bir il burdasan". Bu sözü deyib qapıdan çıxdı. Aşıq Hüseyn belə fikir elədi: "Bu ki, məni getməyə qoymur, gecə durub qaçmaq lazımdır!" O qədər gözlədi ki, sabahın şirin yuxusunda atını minib qaçdı. Nazlı

xanımın nökəri sabaha yaxın mal-qoyun üçün ot-alaf gətirməyə getmişdi. Gördü ki, otağın qapısı açıqdır.

İçəri girdi, baxdı ki, Aşıq Hüseyn evdə yoxdur. Qorxusundan yüyürüb Nazlı xanıma xəbər verdi. Xanım dərhal nökəri geri qaytardı ki: – "Tez get, gör, atı töylədədirmi?". Nökər xəbər gətirdi ki, atı da yoxdur.

Nazlı xanım o saat paltarını geyindi, beş-altı adam götürüb, Aşıq Hüseynin qabağını kəsməyə getdi.

Dan yeri ağaranda Aşıq Hüseynin qabağına çıxdılar. Aşıq Hüseyn baxdı, gördü ki, qabaqdan beş-altı atlı gəlir. Dedi: – "Bunlar yəqin Nazlı xanımın dediyi adamlardır. Dərələyəzi kəsən yeddi qaçaqdır ki, var". Bu zaman atını düz onların üstünə sürdü. Səs elədilər: – "Tərpənmə!". Aşıq Hüseyn sazı boynundan çıxarıb tüfəng kimi uzatdı, qışqırdı: – "Siz tərpənməyin, yoxsa hamınızı qıracam". Bu söz Aşıq Hüseynin ağzından çıxan kimi, eşitdi ki, biri deyir: – "Əyə, bunda qoçuluq da var".

Aşıq Hüseyn bu sözü eşidəndə öz-özünə dedi: – "Bunlar kimdisə, məni tanıyırlar, deməli, tanış adamlardır! Daha mənim qabağımı niyə kəsirlər görəsən?!" Nazlı xanım səsini çıxardan kimi, Aşıq Hüseyn onu tanıdı. Xanım uzaqda durub Aşıq Hüseyni qorxuzmaq üçün görək sözlə nə deyir:

– İndi bilərik necə aşıqsan.

Alır Nazlı xanım, görək Aşıq Hüseynə "Qəhrəmanı" havası üstündə necə hərbə-zorba deyir, Aşıq Hüseyn isə ona nə cür cavab verir:

Nazlı xanım:

***Zalım oğlu, nə gəzirsən bu yerdə?***
***Bizim elə gələn bac verib gedər!***
***Kimlər ki, eşidib adı-sanımı,***
***Nə cürət eyləyib öc verib gedər!***

Aşıq Hüseyn:

***Bilmirəm nəçisən, ya nə karəsən,***
***Bir az naşı düşdüm, öcü bilmənəm.***
***Mən gedirəm İrəvana bədguman,***
***Bəzirgan deyiləm, bacı bilmənəm!***

Nazlı xanım:

***Mənəm bu yerlərin şiri, aslanı,***
***Pəncəmə düşənin qurtarmaz canı!***
***Gəl, sən də nahaqdan tökdürmə qanı,***
***Sərkərdələr gəlsə, fövc verib gedər!***

Aşıq Hüseyn:

***Nə həddin var, mənim qanım tökəsən,***
***Ac qurd kimi dörd yanımı sökəsən!***
***Gəlsən, qəmişini məndən çəkəsən,***
***Sərkərdə deyiləm, fövcü bilmənəm!***

Nazlı xanım:

***Nazlı xanım haqqı-sayı itirməz,***
***Acıqlı sözləri nəbzi götürməz!***
***Sən kimisin yüzü gəlsə, ötürməz,***
***Padşahlar buradan tac verib gedər!***

Aşıq Hüseyn:

***Mətahın vardırsa, çıxart bazara,***
***Qoymaram kimsəni düşə azara.***
***Aşıq Hüseyn bac verməyib xotkara,***
***Padişah deyiləm, tacı bilmənəm!***

Söz tamama yetir. Nazlı xanım Aşıq Hüseynə yaxınlaşıb əl verib, deyir:

– Aşıq Hüseyn, bu, səfərdir, səni yoldan eləmək istəmirəm. Get, sənə yaxşı yol, ancaq xahiş edirəm, qayıdanda buradan gələr, qonağım olarsan.

– Baş üstə, xanım, qayıdanda bir həftə sənə qonaq qalmağa söz verirəm.

Onlar əl verib xudahafizləşirlər.

Aşıq Hüseyn yola çıxan vaxt qış ayları idi. Hələ Şəmkirdə ikən ona ustası məsləhət görmüşdü ki, Göyçə dağını keçəndə poçt yoluna düşüb

get ki, səni qar-boran görməsin. Bilməzsən, kəsə yolnan gedərsən, Kolanı mahalının dağlarında, Dik pilləkəndə, Abdulla gədiyində boran səni öldürər. O idi ki, Aşıq Hüseyn ustadının sözünü yadına salır, poçt yolu ilə birbaş gəlib çıxır İrəvan ətrafında bir böyük qəsəbəyə. Sazı çiynində yol ilə gedirkən görür, bir çayçı dükanından aşıq səsi gəlir. Aşıq Hüseynin ürəyi tel-tel olur. Atı mahmızlayıb tələsik karanvasaraya gəlir. Tez karvansara sahibini tapır, atını ona tapşırığa verir, saz əlində birbaş həmin çayçı dükanına qayıdır. Amma o qədər adam var ki, içəri girmək mümkün olmur. Nə qədər o yana-bu yana boylanırsa, bir tanış görmür. İrəli keçmək istərkən biri ona deyir:

– Əyə, bu aşıq evi yıxılmış, qoyun öz ayağı ilə sallaqxanaya gələn kimi, belə hayana gəlir, nəyə gəlir?

Aşıq Hüseyn görür sözü ona vururlar. Fikirləşir ki, axı mən mal deyiləm, qoyun deyiləm, bura da sallaqxana deyil, bəs, bu nə söz idi bu adam dedi? Görünür içəridəki aşıq çox arif adamdı.

Aşıq Hüseyn bu fikirdə ikən, yenə biri o birisinə cavab vermək məqsədilə dillənir:

– Yəqin xam adamdı, bunun Aşıq Xeybərdən xəbəri yoxdur. Elə bilir içəridəki uşaq-muşaqdı!

Bu dəfə Aşıq Hüseyn özünü toxtadıb birbaş içəriyə soxulur. Deyir:

– Eşq olsun aşıqlara!

Görür iki nəfər şəyirddir, qabaq-qabağa durub, oxuyurlar. Onların üzünə baxır. Onlar da aşığın bu salamına cavab olaraq ikisi də birdən dillənir:

– Eşqi camalın olsun!

Amma Aşıq Hüseynə heç fikir verən də olmur, qalır ortalıqda, bir şəxs ona deməyir ki, ay filankəs, gəl burada əyləş! Aşıq Hüseyn görür, adam elə oturub ki, əyləşməyə heç yer də yoxdu. Göz gəzdirib baxır ki, məclisin başında bir qırmızısaqqal adam oturub. Sazın çılpağını qabağına dolayı qoyub. Aşıq Hüseyn öz-özünə fikirləşir ki, necə olmasa, yenə həmkarımdı, gedim onun yanında birtəhər əyləşim. Yer olmasa da, o, görünür buralara bələd adamdı.

Sazı çiynində birbaş onun yanına gəlir. Amma bu qırmızısaqqal kişi heç yanını da qaldırmır, əhəmiyyət də vermir ki, ayə, bu yanıma gələn

aşıqdı, yoxsa naxırçı? Aşıq Hüseyn də utandığından geri qayıtmır. Bir dizinin üstə oturur. Sən demə, bu qırmızısaqqal Aşıq Xeybər imiş. Aşıq Hüseynin oturduğunu görən kimi, şəyirdlərinə səs eyləyir:

– Dayanın!

Şəyirdlər dayanırlar. Biri mərəkənin bu başında, biri də o biri başında durub ustalarını dinləyirlər. Aşıq Xeybər isə üzünü Aşıq Hüseynə tutub deyir:

– Aşıq, sən nəçisən, nə karəsən, kimsən ki, heç nırxını soruşmadan buraya soxulursan? Məgər şəhəri boş görmüsən?

Aşıq Hüseyn özünü saxlaya bilməyib dillənir:

– Sizi həmkar deyib, yanınıza gəlmişəm. Pulunu ha əlindən almamışam, sənə ha ortaq çıxmamışam! Mənim sizə zərərim nədi, deyin, ödəyim. Uzaqbaşı, gəlmişəm də, gedərəm də!

Aşıq Xeybər deyir:

– Sən qayıdıb getməyin fikrini edirsən, gör bir mən nə fikirdəyəm. Gərək sazını əlindən alam, özünü də dusdaq eyləyəm!

Aşıq Hüseyn burda nabələd olduğundan, ona kömək duran olmur. Ürəyində deyir:

– Ölləm, ölləm, qallam da, qalaram! Daha bəsdir, qaradan artıq rəng olmaz ki?

Əl atıb sazını köynəyindən çıxarır, deyir:

– Buyur, nə ki kefin istəyir, de gəlsin! Cavabını verməyə hazıram!

Aşıq Xeybər ayağa durub hazırlaşana kimi, Aşıq Hüseyn ona tərs-tərs baxıb ürəyində deyir:

– Ay zalım oğlu, bilmirsən ki, xasiyyətini bilmədiyin atın dalına keçməzlər, dişlərini vurub qarnına salar? Gərək bir saata kimi atanı dalına sarıyam!

Aşıq Xeybər fürsəti əldən verməmək üçün qabağa özü düşür. "Ovşarı" havası üstündə görək nə deyir, Aşıq Hüseyn necə cavab verir.

Aşıq Xeybər:

***Hər yetən aşıqla sözmü çağırram,***
***Hərcayıya sirrim açarammı mən?!***
***Mən gəzdiyim ləli-gövhər kanıdı,***
***Qeyri mətahımı saçarammı mən?***

Aşıq  Hüseyn:

***Hər yetən aşıqla söz çağırmazsan,***
***Hərcayıya sirrin açan mənəm, mən.***
***Ləli-gövhər, yaqut, yamən məndədi,***
***Onlardan afitab seçən mənəm, mən!***

Aşıq Xeybər Aşıq Hüseyndən bu sözləri eşidəndə fikir eyləyir ki, gərək mən heç bunu qurdalamayaydım. Deyəsən, bu cökə pazıdır, çalınanda çıxmaz! Əlləri əsə-əsə sazı çalıb-oxumağa davam edir:

***Aşıq olan aşıq ilə tay, gərək,***
***Dərsin ala ustadından bay gərək!***
***Mən qorxduğum Araz kimi çay gərək!***
***Sənin tək çayları keçərəmmi mən?!***

Bunu eşidəndə Aşıq Hüseyni gülmək tutur. Deyir:

– Aşıq qardaş, sənin keçdiyin çay bir başlıq, iki başlıq su olar. Amma mən Araz ilə Kür qarışan yerdən də xeyli aşağıda oluram, gör oradan keçə bilərsənmi, yoxsa yox? – deyib, sazı sinəsinə basır:

***Ustadımdan mən dərsimi almışam,***
***Çox aşığı sazsız yola salmışam.***
***İndi də ki, sənə düçar olmuşam,***
***Araz nədir, Kürü keçən mənəm, mən!***

Aşıq Xeydər görür bundan xata əskik deyil, götürüb belə bir hərcayı söz deyir ki, qoy xətasını ondan  xali eyləsin.

Aşıq  Xeybər:

***Aşıq Xeybər bu meydana ər gəlib,***
***Canda hünər, bu dünyaya nər gəlib.***
***Uzunqulaq, beymərifət xər gəlib,***
***Sazını almamış keçərəmmi mən?!***

Aşıq Hüseyn bu dəfə üzünü camaata tutub deyir:

– Ay cammat, aşıq da aşığa hərcayı söz deyərmi? İndi siz deyin, mən nə eyləyim?

Yerlərdən belə səs gəlir:

– Aşıq Hüseyn, bu, meydandı, nə kefin istəyir de, sənə mane olan yoxdu!

Alır Aşıq Hüseyn:

***Hüseyn deyər, sənin ölüm vədəndi,***
***Aşıqlığa sataşmağın nədəndi?***
***Uzunqulaq, beymərifət dədəndi,***
***Başına qovğanı açan mənəm, mən!***

Söz tamam olur. Aşıq Hüseyn deyir:

– Aşıqlığın adətincə, qanuna görə, indi də mən qabağa düşməliyəm. Sən də mənə cavab verəcəksən. Əvvəlcə dodağımıza iynə düzəcəyik, sonra da dodaqdəyməz deyəcəyik ki, dəyməsin!

Bunu eşidəndə Aşıq Xeybərin gözləri kəlləsinə çıxır. Aşıq Hüseyn beş-altı nazik iynə gətizdirib alt dodağına düzür. Sazını sinəsinə basıb "Təcnis" havası üstündə görək necə deyir:

***Qış çilləsi, Xıdır İlyas gedəndə,***
***Yaz gərdişə gələr, ay eylər qıj-qıj!***
***Qırx sanadıq, yaz ayından keçəndə,***
***Ərşdən leysan yağar, ay eylər qıj-qıj!***

***Nə sayaq durursan, söylə, nəsən ki;***
***Eşqin artdı, hər yanından nə səngi.***
***Səngin altdan nə qayırar, nə səngi!?***
***Ayaqda şəccərə, ay eylər qıj-qıj!***

***Düşün, gözlərinin yaşı gələndə,***
***Saxla sadağını, naşı gələndə,***

***Aşıq Hüseyn, yarın qarşı gələndə,***
***Ağılın sərində ay eylər qıj-qıj!***

Söz tamama yetir. Aşıq Xeybər Aşıq Hüseynin bu dodaqdəyməzinin qabağında məəttəl qalır, cavab verə bilmir. Aşıq Hüseyn dodaqlarındakı iynələri sahibinə qaytarır, Xeybərin əlindən də sazını alıb, sol çiyninə keçirir. Sonra da şəyirdlərini yaxına çağırır. Onların da sazlarını əllərindən alır, qoyur bir yana. Özlərinə də deyir:

– Şəyird olanda da, elə ustada şəyirdlik eləyin ki, bir az mərifəti, bir qədər də kamalı olsun!

Camaat görür, Aşıq Xeybər lap pisikib, şəyirdləri də sağında-solunda boyunlarını büküb dayanıb. Baxanda adamın ürəyi yanır. Deyirlər:

– Aşıq Hüseyn, biz gördük ki, sən kamil aşıqsan, belə aşıqlar həmişə hər şeydə qabil olurlar. Biz səndən bir xahiş eləmək istəyirik.

Aşıq Hüseyn deyir:

– Buyurun, aşıqların vəzifəsi camaata qulaq asmaqdı!

– Deyirik ki, Aşıq Xeybər bir qoca kişidir. Gərək özünü bu kola soxmayaydı ki, belə də biabır olmayaydı. Daha keçib. Xahiş eləyirik, onu bizə bağışlayasan.

Aşıq Hüseyn camaatın sözünü yerə salmayıb deyir:

– Bağışladım sizə! Aşıq Xeybərdən də xahişim budur ki, gəlib-gedənə dolaşmasın. Ondan ötəri ki, həmkarın bir-birinə hörmət göstərməsi vacibdir.

Camaat bir ağızdan Aşıq Hüseynə afərin söyləyib, təşəkkür edirlər. Yeddi-səkkiz dərdimənd oğlan Aşıq Hüseyni tək buraxmayıb evlərinə aparırlar. Bir neçə gün onu qonaq saxlayırlar. Aşıq Hüseyn Kalvalı xana bir məktub yazıb göndərir ki, artıq gəlmişəm, İrəvandayam.

Kalvalı xan da Aşıq Hüseynin gəldiyini bilib, qabağına iki nəfər bələdçi göndərir. Şəhərə daxil olan kimi, görür, iki nəfər cavan oğlan ona tərəf gəlir. Yaxınlaşıb deyirlər:

– Aşıq Hüseyn əmi, bizim tərəflərə xoş gəlmisən! Səfa gətirmisən! Biz sənin üçün gəlmişik.

Onlar Aşıq Hüseyni günbatan çağı Kalvalı xanın evinə aparırlar.

Aşıq Hüseyn qapıdan içəri daxil olarkən Kalvalı xan ayağa qalxır, əl verib xoş gəldin eləyir, qol-boyun olub istirahət otağına keçirlər.

Yemək-içmək, kef-damaqdan sonra Kalvalı xan deyir:

– Aşıq Hüseyn, doğrudur, səni gətizdirmişəm, amma Reyhan xanımdan çox qorxuram, dərin mətləblərə vaqif bir söz sərrafıdır.

Aşıq Hüseyn cavab verir ki, qorxma, min Reyhan da olsa, qorxma!

– Yəqin?

– Lap yəqin!

Kalvalı xan nökərlərindən ikisini yanına çağırtdırır, deyir:

– Gedin Reyhan xanımın özünə də, adamlarına da xəbər eyləyin, gəlsinlər.

Nökərlər baş əyib çıxırlar. Sonra Kalvalı xan adam göndərtdirib şəhərin hörmətli şəxslərindən də bir neçəsini məclisə dəvət edir. Qonaqlar gəlməkdə olsunlar, sizə xəbər verim Reyhan xanımdan.

Reyhan xanım çoxbilmiş bir qız idi. Kalvalı xanın nökərləri xəbər gətirəndə öz-özünə xeyli götür-qoy eyləyir. Sonra ağlına belə bir fikir gəlir; kişi paltarı geyib məclisə getmək, bəri başdan Aşıq Hüseyni bir yoxlamaq lazımdır ki, görək bu kimdir, nə mərifətin sahibidir, necə aşıqdır?

Tez bir dəst kişi paltarı gətizdirir. Altdan geyib üstdən qıfıllanır, üstdən geyib altdan qıfıllanır. Ətrafındakı adamların hamısına tapşırır ki, mən məclisə Muxtar bəy adı ilə gedirəm. Hər kəs orada məni aşıq Hüseynə işarətlə qandırıb eləsə, əlimdən qurtarmaz!

Hamı söz verir ki, bu barədə bir kəlmə də olsa danışmayacaq.

Xülasə, dəstə yığışıb birbaş Kalvalı xanın məhləsinə gəlir. Qapıdan içəriyə daxil olurlar. Camaatın ardı-arası kəsilmir.

– Salam-əlöyküm!

– Əleyküm əssalam!

– Allah saxlasın!

– Saxlasın!

Aşıq Hüseyn içəri girənlərə göz yetirir. Görür elə düz yarım saat "salamməleyküm"lə, "Allah saxlasın"dır.

Camaat çox məhəbbətlə, şirindilliklə əyləşirlər. Kalvalı xan dillənir:

– Bəs, görəsən, Reyhan xanım niyə gəlməyib?

– Bir azdan gələr, – deyə, nökərlərdən biri cavab verir.

Kalvalı xan Aşıq Hüseynə işarə ilə qandırır ki, dur, məclisi aç, bizim

üçün bir qədər söhbət eylə.

Aşıq Hüseyn ayağa qalxır. Sazını əlinə alır, zilini zil, bəmini bəm eləyir, bir ətrafa nəzər salır. Baxır ki, dostu Kalvalı xan, sıx toplaşmış camaat, zal otaq, altı taxta döşəmə, üstü ləmpə, evin içi cing-cing cingildəyir. Aşıq Hüseynin özünün də xoşu gəlir, ürəyi coşur. Elə maraqlı söhbət başlayır ki, hamını valeh eləyir. Üç nəfər cavan oğlan qapıdan içəri girib deyirlər:

– Aşıq, eşq olsun!

Aşıq Hüseyn də cavab verir ki, eşq camalınız olsun! Əl verib xoş gəldin eləyirlər. Amma Aşıq Hüseyn bunlardan birinin əlini sıxanda görür çox yumşaqdır, heç oğlan əlinə oxşamır. Aşıq Hüseyn buna çox məəttəl qalır, deyir:

– Ey dadi-bidad, bu nə sirdir məni qərq etdin? Yeddi padşah torpaq gəzmişəm, amma heç bir kişidə belə yumşaq əl görməmişəm. Görəsən bu nə işdir?

O, ürəyində belə deyirdisə də, amma heç bir şey başa düşməmişdi. Camaat gələnlərə yer göstərir, hörmət-izzətlə qarşılayırdılar. Həmin şəxsi isə hərə bir yandan dəvət edirdi:

– Ay Muxtar bəy, keçin yuxarı başa!

Amma Aşıq Hüseyn görür ki, bunlar yuxarıya keçməyib, ayaqda əyləşdilər. Aşıq Hüseyn birtəhər fikrini cəm eyləyib söhbətə başlayır. Bir neçə kəlmə də oxuyanda Muxtar bəy dillənir:

– Kalvalı xan, elə arım var, arım var, eşşək arısı?!

Kalvalı xan deyir:

– Muxtar bəy, bir şey başa düşə bilmədim, bu nə sözdür?

Aşıq Hüseyn deyir:

– Kalvalı xan, bu söz mənə aiddir, Muxtar bəyin nə sözü var, buyursun desin, nə kefi istəyir desin, mən hazıram!

Muxtar bəy də onu sınamaq məqsədilə deyir:

– Bizim istədiyimiz odur ki, gözləməkdən bir şey çıxmaz, qaşın elə, gözün belə, nə olsun ki? Bunları eşitməkdən qulaqlarımız dəng olub. Doğrudur, Aşıq gördüyünü çağırar, amma elə həmişə onun-bunun sözünü əzbərləyib oxuyan aşıqların qiyməti nədir? Biz istəyirik ki, bir elə təzə söz oxuyasan ki, camaatın xoşuna gəlsin, hamı bəh-bəh desin!

Aşıq Hüseyn baş üstə eləyib, başlayır oxumağa. Söz tamama yetişəndə Kalvalı xan soruşur:

– Muxtar bəy, mənim aşığımdan ağlın bir şey kəsdimi?

– Kalvalı xan, aşığın lap yaxşı aşıqdı, doğrusu, heç pis demək olmaz.

Kalvalı xan bu kəlmələri Muxtar bəydən eşidəndən sonra Aşıq Hüseynə him-cimlə qandırır ki, özünü yığışdır, camaata bir nəzər yetir, diqqət elə! Aşıq Hüseyn də sazın kölgəsilə, qoltuğunun altından diqqətlə baxanda görür camaatın içərisində bu üç nəfərdən sonra gələnlərdən ədəblisi, mərifətlisi, gözəli heç görünmür. Üçü də cavan, bir-birilərindən gözəl. Üçü də çərkəzi paltar geyib. Deyir:

– Yox, burada nə isə bir iş var, deyəsən işlər əngəldir.

Aşıq Hüseyn həmin üç nəfərə bir də zəndlə diqqət yetirir. Baxır ki, birisinin çərkəzi çuxasının yaxası güclə düymələnib. Aşıq Hüseyn bunun belə görəndə coşa gəlir, camaata deyir:

– Ay camaat, siz dura-dura aşıq öz-özünə sifariş verə bilməz. Amma izin verin, birinci sifarişi özüm verim, özüm də oxuyum. Təzə, bakir bir söz demək istəyirəm.

Hərə bir tərəfdən dillənir ki, aşıq, buyur, söz sənindir! Amma təzə söz olsun ki, hamıya xoş gəlsin!

Alır Aşıq Hüseyn görək "Göyçəgülü" havası üstündə təzə nə deyir:

***Boyun sürahidir, bədənin büllur,***
***Oxşatdım saçların mara, a Reyhan!***
***Aşiftə zülflərin pərişan olub,***
***Çək şaha dəstinə, dara, a Reyhan!***

Aşıq Hüseyn bu qoşmanı deyəndə Muxtar bəy yapıncısını çiynindən tullayır, ayağa qalxıb deyir:

– Aşıq Hüseyn, burada Reyhan yoxdur, amma sözünü cavabsız qoysaq, bizləri bəyənməzsən, qulaq as, gör nə deyirəm:

***Sənin ismin hər şəhərdə söylənir,***
***Heyif gəldin bu diyara, Hüseynim!***
***İreyhan arifdir, tayı tapılmaz,***
***Eylər səni para-para, Hüseynim!***

Aşıq Hüseyn qət edir ki, Muxtar bəy deyilən uzun işdir, dərinlərə əl apara bilər. Öz-özünə deyir, neyləyim, camaatın içərisində buna deyəcəksən ki, zənənsən, daha da acığı tutar, mən də bir qərib adamam. Yaxşısı budur ki, anladım, getsin öz paltarını geyib gəlsin. Ondan sonra ol əməlli-başlı, uzunsaçlı, sürmə gözlü, qələm qaşlı nazənin. Başımı tutum qarşında, deyim ki, vur yarılsın! İstəyirsən öldür, istəyirsən astır.

Alır Aşıq Hüseyn:

***Böylə nəzakətlə yandırma bizi,***
***Məgər insafın yox, mürvətsiz qızı?***
***Məxmərdən nimtənə, çəpkən qırmızı,***
***Güləcəsi güllü, xara, a Reyhan!***

Reyhan xanım:

***Yetircəyin o sazını alacaq,***
***Alıban kəllənə vurub çalacaq.***
***Aşıqlarla bir zindana salacaq,***
***Eyləyəcək günün qara, Hüseynim!***

Aşıq Hüseyn:

***Ey tuba qamətli, boyu növrəstə,***
***Qullaba saçların gərdənin üstə.***
***Qoynunda nar bəslə, Hüseyndi xəstə,***
***Rəhmin gəlsin mən bimara, a Reyhan!***

Reyhan xanım:

***Dil yetişməz o zalımın dilinə,***
***Səni salar yüz min fitnə, felinə.***
***Bir düşəsən İreyhanın əlinə,***
***Dadanıbsan mən Muxtara, Hüseynim!***

Söz tamama yetişir. Yerlərdən hamı afərin söyləyir. Aşıq Hüseyn qət edir ki, heç o yan-bu yanı yoxdur, deyəsən elə, Reyhan xanım bunun özüdür ki, var.

Muxtar bəy kələfin ucu açıldığını duyub aradan çıxmaq istəyir. Üzünü Kalvalı xana tutub deyir:

– Kalvalı xan, bu aşıq bilmirəm qardaşındır, tanışındır, hər nəyindir, özünüz bilərsiniz, amma onu səndən istəyirəm. Bax sonra qaçıb eyləyər, onda bizdən inciməyəsən. Özüm də gedirəm Reyhan xanımın məclisinə.

Kalvalı xandan əvvəl Aşıq Hüseyn dillənir:

– Xətircəm ola bilərsiniz. Aşıq Hüseyn heç yana qaçan deyil, qoyub qaçmağa gəlməyib, aparmağa gəlib.

Xülasə, bir az da söz-söhbət eyləyirlər. Məclis dağılır. Muxtar bəy də çıxıb gedir. Evdə Aşıq Hüseynlə Kalvalı xan tək qalanda Kalvalı xan Aşıq Hüseyni sınamaq məqsədilə deyir:

– Aşıq Hüseyn, birdən Reyhan xanımın qabağında pisikməzsən ki? Əgər gücün çatmayacaqsa, gəl, səni gecə ikən yola salım, çıx get. Reyhan xanımdan ehtiyat eyləyirəm. Çox bilikli, danəndə qızdı.

Aşıq Hüseyn bunu eşidib, yan tərəfdən dillənir:

– Qorxma, məndən tam arxayın ola bilərsən. İstəyir bir yox, yüz Reyhan xanım olsun, vecimə gələn deyil.

Gecədən xeyli keçir. Bunlara yer salınır. Kalvalı xanla Aşıq Hüseyn yatmaqda olsunlar, sizə deyim Reyhan xanımdan.

Reyhan xanımın iki şəyirdi var imiş. Biri İrəvan əhli bir qarı, o birisi isə öz əmisi qızı Nərgiz xanım. Reyhan xanım qarını yanına çağırtdırıb deyir:

– Qarı, aman günüdür, get gör topla, gopla Aşıq Hüseyni birtəhər buradan qaçıra bilərsənmi? Deyəsən bundan bizə xeyir gəlməyəcək.

Qarı səhəri, gün çıxana kimi sazı da götürüb, Kalvalı xanın evinə gəlir. İçəri girir, salam verir, xəbər alır ki, birada Aşıq Hüseyn kimdir?

Aşıq Hüseyn bunu eşidib yan tərəfdən dillənir:

– Mənəm, ay nənə, bizim üçün nə qulluq?

– Mən Reyhan xanımın şəyirdiyəm, gəlmişəm, baxaq görək sən mənə cavab verə bilərsənmi ki, hələ bir Reyhanın məclisinə də hazırlaşırsan?

Aşıq Hüseyn baxır ki, bu doğru danışır, əlində qara cöyüzdən bir saz da var, deyir:

– Ay qarı nənə, ağbirçək vaxtında gəl mənə bənd olma, məni bərkə-

boşa salma!

Qarı deyir:

– Mənə çörək verib saxlayan Reyhan xanımdır, sən deyilsən. Uzun danışma, sazını götür, qabağıma çıx, vəssalam!

Aşıq Hüseynin əlacı kəsilir. Sazı köynəyindən çıxarıb deyir:

– Götür deyirsən, götürüm də. De gəlsin, görək nə deyirsən?

Alır qarı nənə, görək "Dübeyti" havası üstündə Aşıq Hüseynə nə deyir:

***De görüm, əslin haralı,***
***Çıxartginən sazın, oğlan!***
***Nə iraq yerdən gəlibsən,***
***Söylə görüm sözün, oğlan!***

Aşıq Hüseyn:

– Ay qarı nənə, sənə cavab verməzdim, çünki bir söz deməyibsən ki, ona da cavab verəm. Amma əlac yoxdu, gərək cavabını verim, sonra Reyhan xanıma apararsan ki, Aşıq Hüseyn deməyə söz tapmadı, – deyib, sazı sinəsinə basdı.

Aşıq Hüseyn:

***Mənim əslim Şəmkirdəndir,***
***Gəncəbasar elim, nənə!***
***Çox qovğalar çəkmişəm mən,***
***Uzaq düşüb yolum, nənə!***

Qarı:

***Yoxsa sözdən naçarmısan?***
***Qıfılbəndim açarımsan?***
***Gecə durub qaçarmısan?***
***İzlədərlər izin, oğlan!***

Aşıq Hüseyn görür onun qaçmasına işarə vurur, hirslənib deyir:

***Qarı, bu işdə naçaram,***
***Qıfılbəndini açaram.***

***Gözləmə ki, mən qaçaram,***
***Kəssələr də dilim, nənə!***

Qarı görür bu, qaçan aşıqlara oxşamır. Özü də kamil bir aşıqdı. Aşıq Hüseyn də bu ara əlini cibinə salır, bir qızıl onluq çıxarıb qarının ovcuna qoyur. Qarı bunun müqabilində deyir:

***Xoş gəlibsən İrəvana,***
***Dərdini söylə Cahana.***
***Aparram səni Reyhana,***
***Danışginən özün, oğlan!***

Aşıq Hüseyn:

***Aşıq Söyün Şəmkirstannı,***
***Gəldim gördüm İrəvanı.***
***Bir də görsəm ol Reyhanı,***
***Dərdim yoxdu, ölüm, nənə!***

Qarı daha bir söz deməyib, kipkirmişcə sazını da qoltuğuna vurub qapıdan çıxıb, birbaş özünü yetirir Reyhan xanımın yanına. Reyhan xanım ondan tez soruşur:

– Hə, qarı nənə, nə oldu, necə oldu, danış görək?

– Pis xəbər gətirmişəm.

– Söylə, görək bu pis xəbər nədir?

Qarı:

***Reyhan, sənə xəbər verim,***
***Tapılmaz tayı Hüseynin.***
***Ərənlərdən badə içib,***
***Yetişib payı Hüseynin.***

Reyhan xanım bərk hirslənib:

– Mən sənə dedim ki, get, gəl Aşıq Hüseyni mənə tərif elə? İndi ki belə oldu, al cavabını! – deyib, cürəsini sinəsinə basır:

***Hərcayı söyləmə, qarı,***
***Əcəmdə pür kamal olar?***
***Danışarlar yekəxana,***
***Saatda min xəyal olar!***

Qarı:

***Bir at yükü kitabı var,***
***Çox bulunmaz hesabı var.***
***Dəryalar qədər təbi var,***
***Coşğundur çayı Hüseynin.***

Reyhan xanım:

***Mən odlaram kitabını,***
***Özüm billəm hesabını.***
***Verə bilməz cavabını,***
***Dəymişləri də kal olar.***

Qarı:

***Mən istərəm İreyhanı,***
***Reyhan da istər Cahanı.***
***Səhər yığın İrəvanı,***
***Tutulsun toyu Hüseynin!***

Reyhan xanım:

***Mən Reyhanam, İrəvanı,***
***Oxudum, bildim Quranı.***
***Ona göstərrəm zindanı,***
***Tutular, dili, lal olar!***

Söz tamama yetişir. Reyhan xanım görür qarıdan kar aşmadı, öz əmisi qızı Nərgizi çağırıb deyir:

– Nərgiz, qarı gedib daha da Hüseyni öyrədib gəlib. Özün get, gör onu buralardan qova bilərsənmi. Yoxsa, ondan bizə xeyir gəlməyəcək.

Nərgiz dinməz-söyləməz sazını qoltuğuna vurub, gəlir Kalvalı xanın

evinə. Qapıdan içəri girib, görür axtardığı burdadır.

– Allah saxlasın!

– Allah saxlasın! Buyurun əyləşin! – deyib, Aşıq Hüseyn ona yer göstərir. Baxır ki, bu, cavan, on səkkiz yaşında bir qızdı, elə gözəldir ki, dünyada tək-tək misli tapıla bilər.

– Buyurun, mənim üçün qulluğunuz!

Nərgiz də qarı deyən kimi deyir:

– Mən Reyhan xanımın şəyirdiyəm, gəlmişəm səninlə deyişməyə. Bilmək istəyirəm görüm, qabında bir şeyin var, yoxsa, elə bəzi aşıqlar kimi sən də hap-gopsan!

Aşıq Hüseyn:

– Gəlibsən, xoş gəlibsən! Buyurun, söz sizindir. Kimin qabında nə olduğu indi bilinər.

Nərgiz cürəsini basıb yasəmən hörüklərinin arasına, barmaqlarının birini taziyənə eyləyir, öz gözəl səsi ilə görək Aşıq Hüseynə "Aran gözəlləməsi" havası üstündə nə deyir, aşıq ona necə cavab verir:

Nərgiz:

***Məndən salam olsun, ay Aşıq Hüseyn,***
***Zəri-zərbaf mətahından seç indi!***
***Ya budur ki, meydana çıx, cavab ver,***
***Ya da bu meydandan, durma, qaç indi!***

Aşıq Hüseyn:

***Al cavabın verim, ay Nərgiz xanım,***
***Zər-ziba mətahından seç indi!***
***Eşq əlindən zülmü-cəbrə düşmüşəm,***
***Mən durmuşam bu meydanda qoç indi!***

Nərgiz:

***Çox sənin kimisin sazın almışam,***
***İxtilatın kəsib, bəndə salmışam.***
***Dəryayi-ümman tək tufan olmuşam,***
***Həddin varsa, gəl üstümdən keç indi!***

Aşıq  Hüseyn:

***Dərin-dərin dəryalar tək yataram,***
***Hər nə desən, mən də ona yetərəm.***
***Saz yerinə bir cüt narın tutaram,***
***Ay camaat, varmı məndə suç indi?!***

Aşıq Hüseyn belə deyəndə Nərgiz fikir eyləyir ki, Reyhan bunun qabağında davam gətirməyəcək. Yaxşısı budur, gəl sən bunu sözlə, himcimlə başa sal, qoy Reyhandan əvvəl, indi ki sənə bənd olub, qoy elə səni alsın, Reyhan qalsın yana-yana.

Alır  Nərgiz:

***Necə gördün İrəvanda Nərgizi,***
***Badədir ləbləri, məzədir üzü.***
***Gəl edək zümzümə, tutaq pəhrizi,***
***Təşnəsən, badədən gəl al, iç indi!***

Aşıq Hüseyn başa düşür ki, Nərgiz aşkarca deyir: “Məni al!” Bunun müqabilində görək aşıq Hüseyn nə deyir:

***Aşıq Hüseyni çəkmə qeyri yola sən,***
***Keşkə mənim gizli dərdim biləsən!***
***Bir xəlvət bağçada qarşı gələsən,***
***Gizlində alaram busə maç indi.***

Söz tamam olur. Nərgizin deməyə bir sözü qalmır. Xudahafizləşir, cürəsini də qoltuğuna vurub, birbaş Reyhan xanımın yanına gəlir.

Reyhan xanım belə fikirdə idi ki, əmisi qızı Nərgiz əliboş qayıtmaz, Aşıq Hüseynin canına bir vəlvələ salar, ya bağlar, ya da qaçırdar. Nərgizin yolunu səbirsizliklə gözləyir. Bu ara Nərgiz içəriyə daxil olur. Reyhan xanım sevinmiş onun qabağına gəlir. Hal-əhval soruşanda Nərgiz ona heç bir cavab verməyib, cürəsini sinəsinə basıb “Paşaköçdü” havası üstündə deyir:

***Mürdəşir səni yusun,***
***İşimiz yaman olacaq!***
***Görərsən, əvvəl-axır,***
***Ortalıqda qan olacaq!***

***Aşıq deyil, Rüstəm-Zaldı,***
***Fikri, zikri qalmaqaldı.***
***Məni də avırdan saldı,***
***Sənə də tufan olacaq!***

***Dili üstdə bitib dillər,***
***Odur Araz kimi sellər.***
***Nərgizin başına küllər,***
***Sinəsi viran olacaq!***

Nərgizin bu sözlərindən Reyhan xanım daha da qorxuya düşür. Nərgiz də acıq eyləyib gedir, Reyhan xanım qəmə qərq olub qalır.

Reyhan xanım fikirləşməkdə olsun, sizə deyim Cahan qarıdan. Cahan qarı Reyhanın töhmətli sözlərindən üç gün özünə gələ bilmir. Bərk hirslənir. Tez cürəsini əlinə alır, altdan, üstən geyinir, özünü yetirir Aşıq Hüseynin yanına, deyir:

– Aşıq Hüseyn, əgər sözün qurtarmayıbsa, bir də qabağıma çıx, sənə deyiləsi bir-iki kəlmə sözüm var, onlara cavab ver, sonra neyləyirsən elə!

Aşıq Hüseyn oturanların üzünə baxır. Hərə bir tərəfdən Aşıq Hüseynə işarə eyləyir ki, ayağa dur, qarı çox zoddu gəlib, yoxsa, səni camaat içərisində tuncar edər. Hər ikisi meydan çıxır. Aşıq Hüseyn sazı sinnəsinə basır "Şahsevəni" havası üstündə deyir:

***Başına döndüyüm, nənə,***
***De görüm, nə xəbərin var?***
***Ol Reyhandan gətirdin,***
***De görüm, nə xəbərin var?***

Qarı:

***Sana qurban olum, oğul,***
***İreyhanı qorxutmuşam.***
***Vəsfini car eyləyib,***
***Ürəyini ürkütmüşəm.***

Aşıq Hüseyn:

***Özü məndən söz açdımı?***
***Əli ələ dolaşdımı?***
***Yoxsa, sənlə dalaşdımı?***
***De görüm, nə xəbərin var?***

Qarı:

***Mətəl qalma sən bu işə,***
***Düşmə qeyri bir təşvişə.***
***Poladı çaxmışam daşa,***
***Dörd yanını bərkitmişəm.***

Aşiq Hüseyn:

***Aşıq Hüseynəm, əcəm elli,***
***Adı Reyhan, şirin dilli.***
***Tuba qamət, incə belli,***
***De görüm, nə xəbərin var?***

Qarı:

***Mənə demə "nənə-mənə",***
***Cahan olsun sənə ana.***
***Bir müjdə verginən mənə,***
***İşini möhkəmlətmişəm!***

Söz tamama yetişir. Qarı çıxıb gedir. Aşıq Hüseynlə Kalvalı xan oturub söhbət eyləyir, deyib-gülürlər. Elə bu ara xəbərçi içəri keçib Kalvalı xana deyir:

– Kalvalı xan, Reyhan xanım sabah aşığınızla bərabər sizi məclisinə dəvət edir.

Xəbərçi çıxıb gedəndən sonra Kalvalı xan Aşıq Hüseynə deyir:

– Aşıq Hüseyn, gəlsənə bunun meydanına çıxmayaq. Səni el içində, mərəkə içində rüsvay edər.

Aşıq Hüseyn deyir:

– Kalvalı xan, onun qabağına çıxmamaq, çağırışına getməmək özü rüsvayçılıqdan da pis olar. Yaxşısı budur, ehtiyat eləmə, xəbər göndər, sabah bazar-dükan bağlansın. Sazımı götürüb gələrəm. Sən məndən qabaq orada ol.

Səhərisi bazarlar bir qədər tez bağlanır. Dükandarlar tez alveri kəsib, meydana qaçırlar, hər yana səs düşür. İrəvan meydanı süpürülüb təmizlənir, camaat yığışır, aşıqları gözləyirlər. Əvvəlcə Reyhan xanım öz dəstəsi ilə gəlir. Bu tərəfdən də Kalvalı xanın adamları başda əyləşib gözləyir. Aşıq Hüseyn də sazını götürüb bir bələdçi ilə meydana gəlir. Reyhan xanımın yanında dayanıb salam verir. Hər ikisi görüşüb danışdıqdan sonra sazları köynəklərindən çıxarır, meydana girirlər. Aşıq Hüseyn deyir:

– Reyhan xanım, növbə sənindir, yoxsa mənim?

Reyhan xanım deyir:

– Sən kişi, mən qadın. İxtiyar mənimdir, qabağa mən düşürəm.

– Hər ikisi razılaşır. Sazları sinələrinə basıb "Göyçə gözəlləməsi" havası üstündə deyişməyə başlayırlar.

Reyhan xanım:

***İki aşıq bir meydana varanda,***
***Oturub sazları düzərlər bir-bir!***
***Cavab verib cavabını alanda,***
***Duruban meydanı gəzərlər bir-bir!***

Aşıq Hüseyn:

***Aşıqlıq elmindən xəbərdaram mən,***
***Hər yerdə görmüşəm meydanı bir-bir.***

***Kamil bir ustaddan dərsim almışam,***
***Gəl sənə söyləyim əyani, bir-bir.***

Reyhan xanım:

***Ustad aşıq deyilməmiş söz deyər,***
***Biri deyər, o birisi gözləyər.***
***Birisi çox deyər, biri az deyər,***
***Deyişə-deyişə qızarlar bir-bir!***

Aşıq Hüseyn:

***Aşıq bəlli olar ad ilə sandan,***
***Gəlmişəm meydana Şəmikiristandan.***
***Aşıqları buraxginən zindandan,***
***Kamil ustadları gəl tanı bir-bir.***

Reyhan xanım:

***Kimi hündür deyər, kimisi alçaq,***
***Yoxdur özüm kimi bir kəndi qoçaq.***
***Çoxların salmışam meydandan qaçaq,***
***Gəldiyi yolları azarlar bir-bir!***

Aşıq Hüseyn:

***Sona kimi sığal verib telinə,***
***Qəndi-şəkər əzdiribsən dilinə.***
***Düşməyibsən arif ustad əlinə,***
***Çəkdirərəm sənə cəzanı bir-bir!***

Reyhan xanım:

***Mən Reyhanam, tapmamışam tayımı,***
***Cəngili-Sultan Haqq veribdi payımı.***
***Katiblər qeyd edir haqqı-sayımı,***
***Dediyim sözləri yazarlar bir-bir!***

Aşıq Hüseyn:

***Yetmək olmaz Aşıq Hüseynin işinə,***
***Belə sözlər heç girərmi guşuna.***
***Alım qucağıma, basım döşümə,***
***Sənin kimi gözəl cananı bir-bir!***

Söz tamam olanda Aşıq Hüseyn istəyir, bir neçə kəlmə də desin. Amma Reyhan xanım fürsəti əldən verməyib, sazın havasını kəsmədən çevirir, yenə də qabağa düşür.

Reyhan xanım:

***Səndən xəbər alım, ay Aşıq Söyün,***
***O nədir ki, cəmi bir il yaşar hey?***
***Nə kağızdır, öz-özünə yazılar?***
***O nədir ki, günü-gündən coşar hey?***

Aşıq Hüseyn:

***Al, cavabın deyim, ay Reyhan xanım,***
***Səməndər quşudur, bir il yaşar hey.***
***Sinə dəftər, öz-özünə yazılar,***
***O eşqdir, gündən-günə coşar hey!***

Reyhan xanim:

***O nədir ki, nəfəsi var, canı yox?***
***O nədir ki, cəsədi var, qanı yox?***
***O kimdir ki, dünyada imanı yox?***
***O kimdir ki, öz yolunu çaşar hey?***

Aşıq Hüseyn:

***O körükdür, nəfəsi var, canı yox,***
***O arıdır, cəsədi var qanı yox.***
***Yalançıdır, insafı, imanı yox,***
***O şeytandır, düz yolunu çaşar hey!***

Reyhan xanım:

***O nədir ki, yemədilər, doydular?***
***O kimdir ki, dərisini soydular?***
***O nədir ki, qiyamətə qoydular?***
***O nədir ki, atəşi yox, daşar hey?***

Aşıq Hüseyn:

***O nemətdir, yemədilər, doydular,***
***Nəsimidir, dərisini soydular.***
***Xeyir-şəri qiyamətə qoydular,***
***O, Zəmzəmdir, ataşı yox, daşar hey!***

Söz tamamlanır. Hərə bir yandan afərin söyləyir. Bu dəfə qabağa Reyhan xanım düşmür, sözü Aşıq Hüseynə verir və görək "Hüseyni" havası üstündə nə eşidir:

***Səndən xəbər alım, ay Reyhan xanım,***
***O nədir ki, axırında puç olar?***
***Nə insandı, nə heyvandı, nə də ot,***
***İldə iki dəfə bir-birinə tuş olar?***

Reyhan xanım mat-məhəttəl qalır. Bilməyir nə cavab versin. Başlayır ki, ay camaat, Aşıq Hüseynin bu sözünün içində bir mətləb, məna yoxdu ki, ona mən cavab verim.

Aşıq Hüseyn deyir:

– Əgər bu sözün mənasını özüm açsam, onda ixtiyarım varmı ki, şərtimizə əməl edim?

Reyhan xanım deyir:

– Razıyam!

Aşıq Hüseyn sazı sinəsinə basıb, dediyi qıfılbəndi açmağa başlayır:

***Sana xəbər verim, ay Reyhan xanım,***
***O dünyadır, axırında puç olar.***

***Nə insandı, nə heyvandı, nə də ot,***
***Gecə-gündüz iki dəfə tuş olar.***

– Reyhan xanım, hələ gerisinə qulaq as:

***O kim idi, nicat tapdı dəryadan?***
***O kim idi, xilas oldu xətadan?***
***Kimlər idi, əl çəkdilər dünyadan?***
***O nədir ki, hesabı da boş olar?***

Reyhan xanım bu bəndi də aça bilməyir. Aşıq Hüseyn daha bir neçə bənd deyir. Reyhan xanım heç birini aça bilmir. Dinməz-söyləməz sazını Aşıq Hüseynə uzadır. Hamı yerdən Aşıq Hüseyni alqışlayır. Reyhan xanım göstəriş verir, zindandakı aşıqları da azad eləyirlər. İki şərt yerinə yetirilir. Qalır bir şərt: Şərtə görə, gərək Reyhan xanım əhd-peymana əsasən Aşıq Hüseynə öz razılığı ilə ərə getsin. Aşıq Hüseyn deyir:

– Reyhan xanımın sazını xanım olduğuna görə özünə qaytarıram. Şərtə görə, özünü isə özümlə aparmalıydım. Eşitdiyimə görə, Reyhan xanım uşaqlıqdan öz əmisi oğluna deyiklidir. Ona görə də Reyhan xanımı bağışlayıram. Onların da xeyir-duasını verirəm. Firəvan ömür sürsünlər.

Oraya yığılan bəylər, imkanlı adamlar Aşıq Hüseynə yaxşı nəmərxələt verirlər. Kalvalı xan ona yəhərli-yüyənli gözəl bir at da ərməğan eləyir.

Həmin günü hamı Kalvalı xana qonaq olur.

Aşıq Hüseyn sazını köynəyindən çıxarır, sinəsinə basıb, alır görək "Müxəmməs"lə məclisi necə bağlayır:

***Ahuyi-sərxoş nigarım,***
***Məni candan eylədin!***
***Aparıb əqli-huşum,***
***Dini-imandan eylədin!***
***İtirib sən təbimi,***
***Gövhəri kandan eylədin!***
***Salıbsan biyabana,***
***Bil, xanimandan eylədin!***
***Tutulubdur nitqim, dilim,***
***Fəsih zəbandan eylədin!***
***Ya mənə bir qəhr eylə,***
***Şərbətimi zəhr eylə!***
***İşimi birtəhər eylə!***
***Ya mənə qəzəbə gəl!***
***Ya öldür, əzaba gəl!***
***Ya qurtar, insafa gəl!***
***Xalları göyçək,***
***Çəməndə çiçək,***
***Top qara birçək.***
***Ağ buxaqdan aşağı***
***Bir cüt bustandan eylədin!***
***Tikilib qolla, bədən,***
***Sərindəki şalına qurban!***
***Danışır tuti kimi,***
***Şirin, şəkər dilinə qurban!***
***Qurşayıbdı kəməri,***
***O incə belinə qurban!***
***Görünür ağ üzündə,***
***Bir cüt qoşa xalına qurban!***
***Tökülüb bulud kimi,***
***Gərdəninə, telinə qurban!***

*Ay gülüzarım,*
*Türfə nigarım!*
*Kəsmə qərarım,*
*Gərdəni mina,*
*Sərində cuna,*
*Yaşılbaş sona,*
*Yanağı əhmər,*
*Sərvi qələmkar,*
*Həmişə meyil edərdim,*
*Büllur fincandan eylədin!*

*Sallanıb ceyran balası,*
*Necə gedir düzdə, görün!*
*Belə yerişi yeriməz,*
*Ördək ilə qaz da, görün!*
*Dediyim xub yaraşır,*
*Qamətinə söz də, görün!*
*Tanrını istərsiniz,*
*Mən görmüşəm, siz də görün!*
*Açılıb gül, yasəmən,*
*Bahar fəsli yazda, görün!*
*Açılmış xoş yazı var,*
*Qumru tək avazı var.*
*Söhbətilə sazı var.*
*Əlində saz çalandı,*
*Qəmzəsi can alandı,*
*Elə talan salandı,*
*Bax, bu talana,*
*Canlar alana,*
*Məhbub olana,*
*Sən ha məhbub olmuşdun,*
*Məni canandan eylədin!*
*Geyinib zər libası,*

*Sallanıb nazınan gəlir,*
*Asıbdır zənglərini,*
*Katibi xəzinən gəlir.*
*Başında var dəstə gözəl,*
*Qırx incə qızınan gəlir.*

*Qız, sana qız deyirəm,*
*Gözlərini süz deyirəm,*
*Yəni, tərif az deyirəm?*
*Tərifini çox deyirəm!*
*Kirpiyinə ox deyirəm,*
*Daha tabım yox deyirəm!*

*Gözlərin şəhla,*
*Qaşların mehrab,*
*Yoxdur məndə tab!*

*Əridibsən ciyərimi,*
*Cismimi candan eylədin!*
*Mənə cəfalar verməyə,*
*Yoxdurmu arın, bu qədər?*
*Tökülüb dal gərdəninə,*
*Telləri marın bu qədər!*
*Dolanasan başına,*
*Sinəsi qarın bu qədər.*
*Yenicə baş veribdir,*
*Xırdaca narın bu qədər.*
*Alasan qadasını,*
*Bir belə yarın bu qədər.*

*Yar yara baxar,*
*Kipriyin qaxar,*
*Odlara yaxar.*
*Ciyərim pişdi,*
*Ürəyim keşdi.*
*Yadıma düşdü:*
*Gülgəz yanağın,*

***O gül dodağın,***
***Xoş danışmağın,***
***Aşıq Hüseyni[1] dərdə salıb,***
***Şövkəti şandan eylədin!***

Aşıq Hüseyn bir neçə gün də İrəvanda qonaq qalır, hörmət, izzət və məhəbbətlə keçindikdən sonra yenə də Şəmkirə qayıdır. Yolda yadına düşür ki, xan qızı Nazlı xanıma söz vermişdi. Bir neçə gün Nazlı xanıma qonaq olur. Başına gələnləri ona nəql eyləyir. Şirin, şəkər söhbətdən sonra Aşıq Hüseyn camaatla da görüşüb xudahafizləşir, günə bir mənzil, təyyi-münəzzil özünü yetirir Şəmkirə. Qohum-qardaş, dost, aşna yığılıb onlara gəlir. Aşıq Hüseyn əhvalatı təfsilatı ilə onlara danışır. Üç gün, üç gecə qonaqlıq olur, bu ağır səfərdən kefi saz, damağı çağ gəldiyi üçün hamı Aşıq Hüseyni gözəl alqışlayır. Bundan sonra Aşıq Hüseynin şöhrəti birə beş artır, həmişə ən böyük məclislərə onu dəvət edirlər.

***Dastan ustad aşıq Altay Məmmədli və***
***aşıq Vüqar Qurbanovun dilindən***
***2021-ci ildə yazıya alınıb.***

***1. Müxəmməs Hüseyn Şəmkirliyə (1811-1891) məxsusdur.***

# LÜĞƏT

***Ab (f)*** - su
***abdal (ə)*** – ağlını itirmiş
***abi-həyat (f-ə)*** – dirilik suyu
***ahən (f)*** – dəmir
***badi-səba (f-ə)*** – səba yeli, səhər yeli
***badi-sərsər (f-ə)*** – qumlu, şiddətli külək, qasırğa
***bəqa (ə)*** – əbədi, daimi olan
***bərq (ə)*** – parlaq işıq
***bərqi-əhmər (ə)*** – qırmızı işıq
***bəst (f)*** – 1. Pənah yeri, sığınacaq, ziyarətgah. 2. Bağlı, 3. Döşənmə
***bəzirganlar (ə)*** – tacirlər
***bihudə (f)*** – boş
***bisəmər (f-ə)*** – xeyirsiz, dəyərsiz
***bitab (f-ə)*** – tabsız
***buy (f)*** – ətir, qoxu, rayihə
***busə (f)*** – öpüş
***bülənd olmaq (f)*** – qalxmaq, yüksəlmək
***büryan olmaq (f)*** – alışıb yanmaq
***cəbr (ə)*** – əzab-əziyyət
***cəng (f)*** – savaş
***cənnətülməva (ə)*** – cənnət mənzili, cənnət kimi yer
***cida salmaq (f)*** – ayrı salmaq
***cihad (ə)*** – müqəddəs müharibə
***çeşm (f)*** – göz
***çeşmə (f)*** – bulaq
***çeşmi-xumar (f)*** – xumar gözlü
***damən (f)*** – ətək
***danəndə (f)*** – alim
***dari-fəna (ə)*** – fani dünya
***dəhan (f)*** – ağız

***dəhr (ə)*** – dünya, zaman, dövr
***dər (f)*** – qapı
***dərdimənd  (f)*** – dərdə yetən, haraya çatan
***dəstinlə  (f)*** – əlinlə
***didar (f)*** – görüş
***didə (f)*** – gözün bəbəyi
***dilxun (f)*** – ürəyi qanlı
***dudi – ah  (f)*** – ahın tüstüsü
***eyn  (ə)*** – göz
***əbrişin (f)*** – qıvrım
***əbrü-kaman  (f)*** – qaşı kaman, kaman qaşlı
***əfkarı (ə)*** – fikri, dərd-qəmi
***əflakə (ə)*** – fələklər, göylər
***əfzəl (ə)*** – üstün, daha gözəl
***əhmər (ə)*** – qırmızı
***əxi (ə)*** - qardaş
***əxtər  (f)*** – ulduz, bəxt, tale
***ələm (ə)*** – qara bayraq
***əndəlib  (ə)*** – bülbül
***ərbayi-ənasir  (ə)*** – dörd ünsür
***ərş  (ə)*** – göy üzü
***əsəl (ə)*** – bal
***əşkbar (f)*** – göz yaşı seli
***əşki-al (f)*** –  qanlı göz yaşı
***əttar (ə)*** – ətir satan
***fağır (ə)*** – yoxsul, kasıb
***fanus (ə)*** – qədim əl fanarı
***fəraq (ə)*** – ayrılıq, hicran
***fərail (ə)*** – sirli
***firdovsi-əlada (ə)*** – cənnət bağında
***firqət (ə)*** – ayrılıq, həsrət
***giranbar (f)*** – göz yaşı tökən
***giryan (f)*** – ağlar, gözü yaşlı

***göftar (f)*** – söhbət edən
***guşuna (f)*** – qulağına
***hidayət (ə)*** – doğru yol
***hilal (ə)*** – ay
***hüsnü-vəcahət (ə)*** – hüsnün gözəlliyi
***xab (f)*** – yuxu
***xaki-payına (f)*** – ayağın torpağına
***xakisar (f)*** – yerlə bir
***xanə (f)*** – ev
***xar (f)*** – tikan
***xədəng (f)*** – ox
***xəyyat (ə)*** – dərzi
***xəzan (f)*** – payız, yarpaq tökümü
***xirədmənd (f)*** – düşüncəli, ağıllı, bilikli, alim
***xırxa (f)*** – dərviş kürkü
***xoryada (f)*** – alçaq adam, ləyaqətsiz
***xub (f)*** – gözəl
***xuban (f)*** – gözəllər
***xudkeş (f)*** – işi yaxşı gedən
***xunxar (f)*** – qaniçən
***idbar (ə)*** – çirkin
***iltimas (ə)*** – xahiş
***iltifat (ə)*** – rəhm, mehribanlıq, lütf
***imran (ə)*** – tuti, gözəl səsli quş
***istiqna (ə)*** – etinasızlıq, ağır davranma
***kar (f)*** – iş
***keysu (f)*** – gözəl
***kəbir (ə)*** – böyük
***kəffar (ə)*** – günahı bağışlanmaq üçün verilən sədəqə
***kəzzab (ə)*** – yalançı, yalan danışan
***kibr (ə)*** – hiylə
***kuh (f)*** – dağ, qaya
***kuyuna (f)*** – ətrafına, çevrəsinə

***külbeyi-hicran (ə)*** – hicran otağı
***qadiri-qəffar (ə)*** – Allah, Tanrı
***qafa (ə)*** – baş, beyin
***qəhhar (ə)*** – zalım
***qəflə (ə)*** – karvan
***qəmər (ə)*** – ay
***qəsəm (ə)*** – and
***qəssal (ə)*** – meyit yuyan, mürdəşir
***qövl (ə)*** – vəd, söz vermə
***Leyli- nahar (ə)*** – gecə-gündüz
***Ləhni- Davud (ə)*** – Davud peyşəmbərin gözəl səsi, şirin dili olduğuna işarədir
***ləhzə (ə)*** - dəfə
***ləm (ə)*** - işıq
***ləşərik (ə)*** – şəriki olmayan
***ləşkər (f)*** – qoşun
***libas (ə)*** – paltar
***lisan (ə)*** – dil
***mah (f)*** – ay
***mahi -ənvər (f-ə)*** – nurlu, işıqlı ay
***mahi –təban (f)*** – açılmış ay
***mar (f)*** – ilan
***matəmdar (ə)*** – yas içində olan
***məlal (ə)*** – dərd, qəm
***məlul (ə)*** – utandırılmış, danlanılmış, incik
***məğrib (ə)*** – qərb
***məşriq (ə)*** – şərq
***mətah (ə)*** – az tapılan dəyərli mal
***mötədil (ə)*** – orta
***mövzun (ə)*** – əla, düzgün, gözəl
***miyan (ə)*** – orta
***mur (f)*** – qarışqa
***muraz (ə)*** – murad, dilək

***muy (f)*** – tük
***müəttər (ə)*** – ətirli
***müənbər (ə)*** – ənbər ətirli
***müjgan (f)*** – kirpik
***müğ (f)*** – atəşpərəst, şərabsatan
***mükəddər (ə)*** – kədərli
***münəvvər  (ə)*** – işıqlı
***mürdə (f)*** – ölü
***mürəssə  (ə)*** – qaş-daşla, cəvahiratla bəzədilmiş
***mürğiruhum (f)***  – könül quşu, ruh quşu
***müsəlsəl  (ə)*** – silsilə, düzüm-düzüm
***müstəhəqq  (ə)*** – ləyaqətli, layiq
***müttəsil  (ə)*** – daimi, hər zaman
***naçaq (f)*** – kefsiz, əhvalsız
***namə (f)*** – məktub
***namidar (f)*** – adlı-sanlı, şöhrətli
***nalə (f)*** – ağlar
***nan (f)***  – çörək
***natəvan (f)***  – zəif, gücsüz
***nar  (ə)***– od
***neştər (f)*** – iynə
***nəkrail (ə)*** – qəbirdə ölüləri sorğu-sual edən mələk
***nəqqaş (ə)*** – nəqş edən, rəssam
***nihan (f)*** – gizli, qapalı
***niqab (ə)*** – üz örtüyü
***nimtənə (f)*** – don, üst paltar
***nisab (ə)*** – son hədd,
***nisfi  (ə)*** – yarı, yarısı
***nümayan oldu  (f)*** – aydın, aşikar oldu, üzə çıxdı
***pasiban (f)*** – yaxın, həmdəm, qoruyan, keşik çəkən
***payəndaz  (f)*** – yerə döşənmiş
***payibənd  (f)*** – ayağı bağlı
***pərini (f)*** – qanadını

***pəsənd (f)*** – bəyənmə, bəyənən
***pəs etmək (f)*** – azaltmaq, bitirmək
***piran (f)*** – qoca
***piranələr (f)*** – müdrik qocalar
***pust (f)*** – dəri, dərviş ayaqqabısı
***pünhanda (f)*** – gizli
***püstanı-rəna (f)*** – gözəl sinə
***rah (f)*** – yol
***rəhni-mürvət (ə)*** – mürvətli olan
***rəxti-vücud (f)*** – bədən boyu
***rəncbər (f)*** – əkinçi
***rəvan (f)*** – asan, axıcı
***riza (ə)*** – razılıq
***rizq (ə)*** – ruzi, yemək, çörək
***rizvan (ə)*** – cənnət, cənnətin bağbanı, behişt
***röya (ə)*** – yuxu
***rubənd (f)*** – üz örtüyü, niqab
***ruyi-zəmin (f)*** – yer üzü
***saqi (ə)*** – şərab paylayan, aşıq ədəbiyyatında mənəvi mey gətirən nurani dərviş
***sayə (f)*** – kölgə
***seyrəqib (f)*** – it rəqib, əğyar (aşıqların dilində bu söz seyrəğib, seyrəqub, segrəqib, seyrəgub və s. şəkillərdə səslənir ki, biz də poetikliyi qorumaq üçün mətndə olduğu kimi saxladıq)
***səg (f)*** - it
***Səlsəbil (ə)*** – behiştdə axan çay
***səməndər (f)*** – alov quşu
***sənə (ə)***- il
***səng (f)*** - daş
***səngisar (f)*** – daşa basmaq, daş-qalaq etmək
***sər (f)*** – baş
***sərdar (f)*** - başçı
***sərgəşteyi- aləm (f)*** – aləmi heyran edən

***səyyad (ə)*** - ovçu
***sin (ə)*** – məzar, qəbir
***sitəmkar (f)*** – sitəm edən, əziyyət verən
***siyahipuş (f)*** – qara geyimli, qara örtüklü
***siyah (f)*** – qara
***süxəndan (f)*** – söz bilicisi, söz sərrafı
***şahimərdan (f)*** – Həzrət Əli
***şamu-səhər (f)*** – axşam-sabah
***şeşi cihat (f)*** – altı cəhət
***şəbistan (f)*** – gecə gəzintisi
***şəbnəm (f)*** – şeh
***şəbi-yelda (f)*** – ən uzun gecə
***şəddə (ə)*** – 1. ərəb əlifbasında təkrar olunması lazım gələn samitlərin üzərinə qoyulan işarə, 2. bəzəkli parça növü
***şərif (ə)*** – şərəfli, şərəf gətirən
***şərm eyləmək (f)*** – utanmaq, həya eyləmək
***şəkərfəşan (f)*** – qənd, şəkər saçan
***şəmistan (ə)*** – odlu yer
***şikar (f)*** – ov
***şikvə (ə)*** – şübhə, güman, şikayət
***şükufəli (f)*** – çiçəkli
***tar olmaz (f)*** – qaralmaz, qaranlıq olmaz
***təbibi naşı (ə)*** – naşı təbib
***təriq (ə)*** – yol
***tərsa (ə)*** – xaçpərəst, xristian
***təvalla (ə)*** – səy, təşəbbüs
***tifil (ə)*** – uşaq
***tiğ (f)*** – ülgüc
***üryan (ə)*** – şılpaq, paltarsız
***üzaz (ə)*** – yanaq, üz
***vird (ə)*** – eyni bir şeyi həmişə təkrarlama
***yeksan (f)*** – dağılmış, səpələnmiş
***zəban (f)*** – dil

***zəbərcəd (ə)*** – bahalı cəvahirat
***zəhmər (ə)*** – acıq, qəzəb, yaxud şaxta, qışın soyuğu
***zəkat (ə)*** – təmizlənmə, yoxsullara verilən pay, illik gəlirin onda biri
***zənbur (f)*** – arı
***zənən (f)*** – qadın
***zərd (f)*** – zəhər
***zəvvar (ə)*** – Həcc ziyarətinə gedən yolçu
***zikri-girdikar (ə)*** – xəyallar aləmində olan
***zimistan (ə)*** – qış
***ziyadə (ə)*** – artıq
***zülf (f)*** – saç
***zünnar (ə)*** – keşişlərin belinə bağlanan kəmər

## ARXAİK SÖZLƏR

***aba*** – böyük bacı
***adna axşamı*** – cümə axşamı
***al*** – hiylə
***alçaq*** – təvazökar adam
***arı*** – təmiz, duru
***arqırı*** – artıq-əskik
***ayıtmaq*** – demək, söyləmək
***bayqu*** – qızılquş, quşların şahı
***bəkləmək*** – gözləmək
***bəlgə*** – nişan
***bənək*** – xal
***bulmaq*** – tapmaq
***buta*** – nişan
***çarvadar*** – qoyun taciri
***Çələb*** – Tanrı
***çilə*** – əziyyət, çətinlik
***çuğul*** – satqın
***dal*** – budaq
***dalda*** – gizlin yer
***dölbənd*** – ağ çalma, sıx toxunulmuş pambıq qumaş
***döşləmək*** – qabağına qatıb qovlamaq
***döşürmək*** – yığmaq, toplamaq
***duş*** – yuxu
***eşi*** – tayı, oxşarı
***əsrik*** – havalanmış, sərxoş
***əyə*** – sahib, yiyə
***gap etmək*** – söhbətləşmək
***göygü, göy*** – kürəkən
***güz*** – payız
***hız*** – tez, sürətli
***Hu*** – sufi dərvişlərin Allaha verdikləri rəmzi adlardan biri

***ismarlamaq*** – sifariş etmək,  xəbər göndərmək
***issiz*** – yiyəsiz, sahibsiz
***kəndi*** – özü
***kov deyil*** – hesab deyil
***köçqon*** – məcburi məskunlaşma
***kötü*** – pis, bəd
***köy*** – kənd, oba, oymaq
***qamın*** – güclü, qüvvətli
***qamu*** – hamı
***qatı yay*** – möhkəm, sərt yay (oxun yayı)
***qızılcıq*** – zoğal
***qonuşmaq*** – danışmaq
***qutlu*** – uğurlu
***ləlimək*** – yalvarmaq, sürünmək
***löyün-löyün*** – növbənöv
***maç*** – öpüş
***naçağ*** – xəstə
***salıq vermək***  – nişan vermək
***sayrı*** – xəstə
***sayrışmaq***  – səpələnmək
***suç*** – günah
***şülən*** – şadlıq, yeyib-içmə məclisi
***tamu*** – cəhənnəm
***teyləmək*** – 1. kəsmək, deşmək, 2. qabağına qatıb qovmaq
***tütməz*** – tüstülənməz
***uçmaq*** – cənnət
***us*** – ağıl, huş
***varmaq*** – getmək
***yağız at*** – minilməmiş, miniyə öyrədilməmiş at
***yazğı*** - ərizə
***yazı*** – çöl
***yılmaq*** – yenilmək, məğlub olmaq
***yılmaz*** – yemləməz

## AÇIQLAMALAR

***Avazat*** – Yaxın Şərq musiqisində son altı pərdəni təşkil edən silsilə başa düşülür.

***Bəzmi-Süleyman*** – Süleyman peyğəmbərin məclisi deməkdir. Dini rəvayətə görə Süleyman bütün heyvanların və quşların dilini bilirmiş. İstənilən vaxt heyvan və quşlar onun məclisində olurmuş.

***Bijən*** – Rüstəm Zalın bacısı oğlu, Alp-ər Tonqanın qızına (Mənijəyə) aşiq olmuş və atasından gizli sarayda saxlamışdır. Alp-ər Tonqa bunu bilib Bijəni yeddi il bir quyuda həbs etmişdir. Rüstəm Zal tacir paltarında Turana gəlib Mənijəni tapmış və onun köməkliyi ilə Bijəni azad etmişdir.

***Büraq*** – Məhəmməd peyğəmbərə göydən göndərilmiş at. Dini rəvayətə görə, Məhəmməd peyğəmbər bu atla göyə çəkilmişdir.

***Cəmşidin camı*** – qədim əfsanəvi hökmdar Cəmşidin dünyanı göstərən camına işarə edilir. Bu sehirli camda, arzu edilən nə varsa, hamısı orada görünür.

***Dörd hammal*** – orta əsr fəlsəfəsinə görə, varlığın əsasını təşkil edən dörd ünsür (su, od, torpaq, hava) anlamında işlənir.

***Davud*** – Süleyman peyğəmbərin atasıdır. Rəvayətə görə, Davudun o qədər məlahətli səsi varmış ki, oxuyanda heyvanlar və quşlar da heyran qalıb.

***Əbabil*** – qaranquş fəsiləsindən olan quşdur. Dini rəvayətə görə, onlar Məkkədə filin başına daş yağdırıb, onu xəsarət verməkdən çəkindirmişdir.

***Firidun*** – Cəmşid nəslindəndir. Dəmirçi Gavə üsyan edib qaniçən Zöhhakı taxtdan salaraq Firidunu taxta oturtmuşdur.

***Hilal*** – aypara, Ayın ilk günlərindəki görünüşü.

***Hüma*** – mifik səadət quşudur, Ənqa və Simurğ müdrik əfsanəvi quşdur.

***Hüdhüd quşu*** – Süleyman peyğəmbərdən Bilqeysə xəbər aparıb-gətirən qasid kimi əfsanələrdə qeyd olunur. Daha çox xəbərçi rəmzi funksiyası daşıyır.

***Xirqə*** – dərvişlərin geyindiyi uzun paltar.

***Qarun*** – Musa peyğəmbər zamanı yaşamış ən dövlətli və xəsis adamdır.

***Qırx səhər*** – Adəmin qırx günə yaranması nəzərdə tutulur.

***Lövheyi-əlvan*** – qədimdə məktəbdə müəllimin uşaqları sevindirmək üçün onların oturduqları taxta müşk və zəfəranla çəkdiyi naxışlardır.

***Müştəri sifət, Zühəl həmayil, Mərrix kamal*** – qədim astrologiyada əksini tapan rəmzləşməyə görə, Müştəri səadət və mülayimlik, Zühəl hökmranlıq, Mərrix qəzəb rəmzidir.

***Nahid*** – (Zöhrə) ulduzu həddi-buluğa çatmış qız, məhəbbət ilahəsidir.

***Rəfrəf*** – Məhəmməd peyğəmbəri göyün yüksək qatına qaldıran nur atı.

***Rizvan*** – behiştin qapıçısı.

***Sədi-Əkbər*** – səmada öz hərəkəti zamanı irəli və sonra geriyə dönən xoşbəxtlik səyyarələrindən birinin adıdır. Daha çox Müştəri səyyarəsi nəzərdə tutulur.

***Torpağın İsaya tutiya, daşın Musaya kimya verilməsi*** – məşhur dini əfsanəyə bağlanır. İsa peyğəmbərin korun gözünü açması, Musa peyğəmbərin əlinin işıq verməsi haqda olan söyləmə nəzərdə tutulur.

***Tur dağı*** – dini əfsanəyə görə, Musa peyğəmbər burda Allahla danışmışdır. Digər insanlar bu dağa çıxmaq istərkən yanarmış.

***Yeddi çəmən*** – yeddi iqlimə işarədir.

***Yəcuc və Məcuc*** – Asiyanın şimalında Çin sərhəddində yaşamış iki tayfadır. Qarət və talançılıqla məşğul olmuşlar.

***Zəhra*** – Məhəmməd peyğəmbərin qızı Fatimeyi-Zəhradır.

## SÖYLƏYİCİLƏR BARƏSİNDƏ BİLGİLƏR

***Məmməd Əsgər oğlu Ələsgərov (Məmməd Bozalqanlı)*** 1950-ci ildə Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub, əsli-kökü Göyçədəndir. Gənc yaşlarından saza-sözə böyük maraq göstərən Məmməd Tovuzun məhşur sənətkarları olan İmran Həsənov, Əkbər Cəfərov, Mikayıl Azaflı, Mahmud Məmmədov və digər ustadlardan bəhrələnib, onların danışdığı dastanların əksəriyyətini sinədəftər edib.

Məmməd Ələsgərov hərbi xidmətdən qayıtdıqdan sonra bir müddət ustad aşıq Mahmud Məmmədovun şəyirdi olub. Eyni zamanda özünün doğmaca xalası oğlu, məşhur ustad Ədalət Nəsibovdan da sənət dərsi alıb, gənc yaşlarından el şənliklərində və dövlət tədbirlərində fəal iştirak edib. 1979-cu ildə Şəmkir rayonunda keçirilən Aşıqlar festivalının laureatı olub. Bir çox aşıq festivallarında iştirak edib, Azərbaycan Aşıqlar Birliyinin "Fəxri diplom"u ilə təltif olunub.

Aşıq Məmməd Ələsgərovun müxtəlif səpkidə yüzdən çox şeir nümunələri vardır.

"Nəcəf və Pərizad" dastanı Məmməd Ələsgərovun və aşıq Əli Pənahoğlunun dilindən 2022-ci ildə yazıya alınıb. Hazırda Tovuz rayonunun Bozalqanlı kəndində yaşayır.

***Nizami Əmiraslan oğlu Şirinov*** 1954-cü ildə Laçın rayonunun Qarakeçdi kəndində anadan olub. Əməkdar mədəniyyət işçisi Qəmkeş Allahverdinin yanında aşıqlıq sənətinin sirlərini öyrənib. 1985-ci ildən Laçın rayonunun Qarakeçdi kəndində musiqi müəllimi kimi fəaliyyət göstərib, 1998-ci ildən isə fəaliyyətini Şamkəd müsiqi məktəbində davam etdirib. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Fəxri mədəniyyət işçisi" döş nişanına layiq görülüb. Azərbaycan Aşıqlar Birliyi idarə heyətinin üzvü və Birliyin Laçın bölməsinin rəhbəridir. "Məhəmməd və Güləndam" dastanı 2023-cü ildə ustad aşıq Nizami Şirinov və aşıq Afil Bəxtiyarlının dilindən yazıya alınıb.

***Elman Məlikməmməd oğlu Mehdiyev (Elman Talıstanlı)*** 1966-cı il aprelin 4-də İsmayıllı rayonunun Talıstan kəndində anadan olub. Bakı Mədəni Maarif Texnikumunda təhsil alıb (1989-1991). 1989-cu ildə

Gəncədə keçirilən Zaqafqaziya və Orta Asiyanın gənc aşıqlarının müsabiqəsinin iştirakçısıdır. 1989-2012-ci illərdə İsmayıllı rayon Mədəniyyət şöbəsində metodist vəzifəsində çalışıb. 1996-cı ildə Qazaxıstanda keçirilən "Dünya Musiqi Festivalı"nda ölkəmizi təmsil edib. Azərbaycan Aşıqlar Birliyinin V və VI qurultaylarının nümayəndəsi olub. Aşıqlar Birliyi idarə heyətinin üzvüdür.

"Məsum və Diləfruz" dastanı aşıq Elman Talıstanlı və Elçin İsmayıllının dilindən 2024-cü ildə yazıya alınıb.

***El arasında Aşıq Arif kimi tanınan Əlövsət Salman oğlu Əsgərov*** 1962-ci ildə Tərtər rayonunda anadan olub, əslən Laçın rayonundan olan ustad gənc yaşlarından – 1980-ci ildən Göygöl rayonunda yaşayan aşıq Məhərrəm Hacıyevin yanında şəyird olub, bu ustaddan mükəmməl sənət dərsi alıb. Dərin hafizəsi, şirin səsi ilə tanınıb, eldə-obada dastan bilicisi kimi məşhurlaşıb. Ustad sənətkarlardan Aşıq Qardaşxan, Qəmkeş Allahverdi, Murad Niyazlı, Əkbər Cəfərov, İmran Həsənov, İsfəndiyar Rüstəmov və digərləri ilə el məclislərində, dövlət tədbirlərində yaddaqalan çıxışları olub. Azərbaycan televiziyasında onun ifasında 10-dan çox dastan lentə alınıb. Azərbaycan aşıqlarının IV, V və VI qurultaylarının iştirakçısı olan sənətkar respublika və beynəlxalq aşıq festivallarının iştirakçısı və laureatı olub, Azərbaycan Aşıqlar Birliyinin "Fəxri diplom"u ilə təltif olunub.

Əlövsət Əsgərov 1985-ci ildən bu günə kimi Tərtər rayon Mədəniyyət evində çalışır.

"Abbas və Gülgəz", "Qurbani", "Aşıq Qərib" və "Xəstə Qasım" dastanlarının "Aşıq dastanları" çoxcildliyinin birinci cildində verilmiş variantları və bu cilddəki "Əsli və Kərəm" dastanının əsas hissələrindən biri Aşıq Arifin – Əlövsət Əsgərovun dilindən yazıya alınıb.

***Altay Ələddin oğlu Məmmədli*** 1972-ci ildə Gədəbəy rayonunun Düzrəsullu kəndində anadan olub. Azərbaycan Aşıqlar Birliyi sədrinin müavini (2018), filologiya üzrə fəlsəfə doktorudur (2017). Gəncəbasar aşıq mühitinin yetişdirdiyi istedadlı sənətkarlardandır. Orta məktəbi anadan olduğu kənddə bitirib (1990), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Bədii yaradıcılıq fakültəsində təhsil alıb. Universiteti fərqlənmə diplomu ilə bitirib. 1994-cü ilə qədər Gədəbəy

rayonunun Çayrəsullu kəndində musiqi müəllimi kimi fəaliyyət göstərib. Erkən yaşlarından aşıq yaradıcılığına maraq göstərib. Mikayıl Azaflı, Əkbər Cəfərov, İmran Həsənov, İsfəndiyar Rüstəmov kimi görkəmli sənətkarlardan bəhrələnib. 2009-cu ildə ifası UNESCO-da lentə alınaraq ayrıca diskdə buraxılıb. Aşıq şeiri üslubunda müxtəlif məzmunlu qoşma, gəraylı, təcnisləri vardır. ADMİU-da "Aşıq sənəti" kafedrasının dosentidir. "Aşıq Hüseyn və Reyhan xanım" dastanı ustad aşıq Altay Məmmədlinin repertuarından 2021-ci ildə yazıya alınıb.

***Toğrul Hüseyn oğlu İbrahimov*** 1988-ci ildə Gədəbəy rayonunun Ataxal kəndində anadan olub. Erkən yaşlarından aşıqlığa həvəs göstərib. İstedadlı gənc aşıq kimi tanınır, zəngin repertuarı var. Aşıq şeiri tərzində özü də maraqlı poetik örnəklər yaradır. Müxtəlif mövzularda yazdığı qoşma, gəraylı və təcnisləri vardır. Beynəlxalq səviyyəli festivalların iştirakçısıdır.

"Yetim Aydın" dastanı 2024-cü ildə Toğrul Ataxallı və İlqar Eyvazoğlunun dilindən yazıya alınıb.

***Şəmşəd Elman oğlu Məmmədov*** 1997-ci il iyunun 18-də Tovuz rayonunun Xatınlı kəndində anadan olub. Uşaq vaxtlarından saza-sözə həvəsi olan Şəmşəd Məmmədov ADMİU-nin Musiqi fakültəsində "Aşıq sənəti" ixtisası üzrə təhsil alıb (2015-2019). Bu ali təhsil ocağında sənətin sirlərini ustad aşıq Altay Məmmədlidən öyrənib. Hərbi xidmətini başa vurduqdan sonra Tovuz rayonunda bir müddət "Aşıq Sənəti Dövlət Muzeyi"nin direktoru vəzifəsində çalışıb. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

***Babək Məzahir oğlu Şahbazov*** 1985-ci il oktyabrın 22-də Şamaxı rayonunun Şorabaçı kəndində anadan olub. Uşaq vaxtlarından saza, sözə böyük maraq göstərərək bu sənəti mükəmməl mənimsəyib. Ustad Aşıq Şakir Hacıyevin nəvəsidir. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

***Elçin İsmayıllı (Elçin Hüseyn oğlu Məmmədov)*** 1984-cü il avqustun 4-də İsmayıllı rayonunda anadan olub. Saza-sözə gənc yaşlarından həvəsi olan Elçin Məmmədov ustad aşıqlar Cavid Əmiraslanov və Elman Talıstanlıdan aşıqlıq sənətinin incəliklərini öyrənib. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

***Ədalət Məhəmmədəli oğlu Alməmmədov*** 1980-ci il fevralın 7-də Gədəbəy rayonunun Günəşli kəndində anadan olub. Ustad aşıqlar Sədaqət Rəsulov və Təbriz Vəliyevdən bəhrələnərək aşıqlıq sənətinin sirlərini öyrənib. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

"İbrahimlə Aslan şah" dastanı 2023-cü ildə Gəncəli Babayev və Ədalət Alməmmədovun dilindən yazıya alınıb.

***Vüqar Xəyyam oğlu Qurbanov*** 1989-cu il dekabrın 29-da Şəmkir rayonunun Yeni Həyat kəndində anadan olub. 1997-2005-ci illərdə orta məktəbdə oxuyub. 2008-2009-cu illərdə hərbi xidmətdə olub. Saza-sözə kiçik yaşlarından həvəs göstərib, sənətin sirlərini atası Xəyyam Qurbanovdan öyrənib.

Azərbaycan Aşıqlar Birliyinin üzvüdür. Dəfələrlə Azərbaycan televiziyasında və digər televiziya və radio kanallarında çıxışları olub. "Hüseyn və Reyhan xanım" dastanı 2021-ci ildə Altay Məmmədli və Vüqar Qurbanovun dilindən lentə alınıb.

***Amil Famil oğlu Bəxtiyarlı*** 1994-cü ildə anadan olub. Laçın rayonunun Ağbulaq kəndindəndir. Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirdikdən sonra müəllim kimi əmək fəaliyyətinə başlayıb. Aşıqlıq sənətini atası Aşıq Famildən öyrənib. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür. "Səyyad və Səadət" dastanı Aşıq Amil Bəxtiyarlı və Afil Bəxtiyarlının dilindən 2022-ci ildə yazıya alınıb.

***Afil Famil oğlu Bəxtiyarlı*** 1998-ci il oktyabrın 1-də anadan olub. Laçın rayonunun Ağbulaq kəndindəndir. Saz haqqında ilk təəssuratları atası Aşıq Famildən və Aşıq Nizamidən alan gənc Afil 2018-2022-ci illərdə ADMİU-da Aşıq sənəti ixtisası üzrə ustad aşıq Altay Məmmədlinin sinfində təhsil alaraq sənətin sirlərinə daha dərindən yiyələnib. Afil Bəxtiyarlının müxtəlif televizya və radio verilişlərində dəfələrlə maraqlı və yaddaqalan çıxışları olub. Hazırda Ağdam Musiqi kollecində müəllim kimi fəaliyyət göstərir.

***Gəncəli Məmməd oğlu Babayev*** 1967-ci il fevralın 7-də Kəlbəcər rayonunun Bəzirxana kəndində dünyaya gəlib. Ustad Aşıq Qardaşxan Mehdiyevin şəyirdi olub. Şirin, xoş havacatı olan Aşıq Gəncəlinin həm də gözəl şeirləri vardır. Ustad sənətkar Azərbaycan Aşıqlar Birliyinin üzvüdür. Zəngin dastan repertuarına malikdir.

"Əsli və Kərəm" dastanı Gəncəli Babayev, Arif Əsgərov və Toğrul Ataxallının repertuarından (2022-2024-cü illər) yazıya alınıb.

***Əli Pənah oğlu Zeynalabdinov*** 1991-ci il yanvarın 1-də Kəlbəcər rayonunun Zəylik kəndində anadan olub. Dövlət tədbirlərində müntəzəm çıxış edən Əli Zeynalabdinov "Leyli və Məcnun" dastanının teatral təqdimatı zamanı Məcnun rolunda uğurla çıxış edib (2022). Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

"Nəcəf və Pərizad" dastanı ustad aşıq Məmməd Bozalqanlı və aşıq Əli Pənahoğlunun dilindən 2022-ci ildə yazıya alınıb.

***Elnur Babaşxan oğlu Babayev*** 1987-ci il martın 3-də Qobustan rayonunun Xilmilli kəndində dünyaya gəlib. Aşıq Babək Şakirlinin şəyirdi olub. Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

"Qul Mahmud və Nigar xanım" dastanı aşıq Elnur Babayev və ustadı Babək Şakirlinin dilindən 2023-cü ildə yazıya alınıb.

# MÜNDƏRİCAT

***Məhərrəm Qasımlı.*** Yeni nəfəsli aşıq dastanları..............................3
Yetim Aydın..........................................................................................6
Əsli və Kərəm......................................................................................35
İbrahimlə Aslan şah..........................................................................149
Qul Mahmud və Nigar xanım.............................................................172
Məsum və Diləfruz............................................................................190
Alı xan və Pəri....................................................................................210
Məhəmməd və Güləndam..................................................................241
Nəcəf və Pərizad................................................................................269
Şahzadə Əbülfəz................................................................................291
Səyyad və Səadət...............................................................................313
Abdulla və Cahan................................................................................325
Aşıq Hüseyn və Reyhan xanım..........................................................358

**AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ**

**AŞIQ DASTANLARI**
***II cild***

Kompüter tərtibatçısı
və dizayner: ***Namiq VƏLİOĞLU***
Buraxılışa məsul: ***Şahniyar ƏLİYEV***
Nəşriyyat redaktorları: ***Hüsniyyə HÜSEYNOVA***
***Sevinc SUVAROVA***

Kompüterdə yığanlar: ***Xatirə VƏLİYEVA***
***Gülbəyaz DADAŞOVA***

Yığılmağa verilmiş: ***10.09.2024***
Çapa imzalanmış: ***07.10.2024***
Fiziki çap vərəqi: ***26***
Kağız formatı: ***70/100***
Tirajı: ***1250***

Kitab "Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya
mətbəəsində ofset üsulu ilə çap olunub.
Ünvan: Bakı şəhəri D.Əliyeva 239/8